# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## SƏKSƏNİNCİ KİTAB

## MAY 2017 - İYUN 2017

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
Akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun, «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarının, XXIV Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgi və konfransının, həmçinin VII Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışlarındakı çıxış və nitqləri toplanmışdır.

Kitabda Prezidentin Ərəb–İslam–Amerika Sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanı Krallığına və Polşa Respublikasına səfərləri, həmçinin Moldova Respublikası Prezidentinin ölkəmizə səfəri zamanı keçirdiyi görüş və danışıqlar, biznes-forumlarda etdiyi çıxışlar, eyni zamanda, bu ölkələrlə nəqliyyat, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə aid materiallar geniş verilmiş, eyni zamanda, dövlət başçısının bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi öz əksini tapmışdır.

Cilddə, həmçinin ölkə başçısının 2016-cı ilin aprel döyüşlərində düşməndən azad edilmiş Cocuq Mərcanlı kəndinə səfəri zamanı kənd əhalisi ilə görüşünə, yeni tikilib istifadəyə verilmiş evlər, məktəb və digər məişət obyektləri, məscidlə tanışlıq zamanı ictimaiyyət nümayəndələri ilə danışıqlarına dair materiallara geniş yer verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

$$Я\,\frac{0801000000}{M-651(07)-2019}$$

**ББК - 32**

© Azərnəşr, 2019

## IV ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*5 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 5-də Heydər Əliyev Mərkəzində YUNESKO, BMT Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və İSESKO-nun tərəfdaşlığı ilə Bakıda «Mədəniyyətlərarası dialoqun inkişafı: insan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar» mövzusunda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı forumun açılışı mərasimində nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əvvəlcə, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etdiklərinə görə qonaqlarımıza təşəkkürümü bildirmək istəyirəm. 6 il bundan əvvəl biz bu təşəbbüsü irəli sürdük və I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Bakıda keçirildi. O vaxtdan bəri beynəlxalq gündəlikdə duran ən mühüm məsələlərdən olan mədəniyyətlərarası dialoqun müzakirə edildiyi bu forum qlobal beynəlxalq tədbirə çevrilibdir. Hər bir beynəlxalq tədbirin, hər bir forumun əhəmiyyəti təkcə müzakirə edilən mövzularla deyil, həm də iş-

tirakçıların sayı ilə ölçülür. Biz çox şadıq ki, 120 ölkədən olan 800-dən artıq qonaq bugünkü forumda iştirak edir, 50-dən çox beynəlxalq qurum özünün yüksək səviyyəli nümayəndəsini Bakıya göndəribdir.

Bu ilk növbədə, forumun bu gün və sabah aparacağımız müzakirələrinin əhəmiyyətini nümayiş etdirir. Biz fəxr edirik ki, forum tərəfdaşlarının və təşkilatçı qurumların sayı artmaqdadır. Azərbaycan hökuməti bu forumu YUNESKO, BMT Sivilizasiyalar Alyansı, İSESKO, Avropa Şurası, Dünya Turizm Təşkilatı və BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə birlikdə təşkil edibdir.

Əminəm ki, forum çərçivəsində aparılacaq müzakirələr və fikir mübadiləsi mədəniyyətlərarası dialoqun təşviqinə töhfə verəcəkdir. Azərbaycan əsrlər boyunca sivilizasiyaların və mədəniyyətlərin bir-birinə qovuşduğu məkan olmuşdur. Bizim coğrafiyamız və tariximiz, habelə Azərbaycandakı inkişaf onu nümayiş etdirir ki, mədəniyyətlərarası dialoq həm tarixən, həm də bu gün vacib məsələlərdən biri olaraq qalır. Çünki əks təqdirdə, dünya daha çox təhlükələrə məruz qalacaqdır.

Tarix, ənənələr və coğrafiyamız bizə onu diktə edib ki, Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkan ola bilər və bu məhz belə də olmalıdır. Əsrlərboyu Azərbaycanda xalqlar həmişə müxtəliflik mühitində yaşayıb. Multikulturalizm, etnik və dini müxtəliflik tariximizin bir parçası və bugünkü reallıqdır. Biz bununla fəxr edirik.

Bu gün Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir ki, burada bütün etnik qrup və dinlərin nümayəndələri sülh və harmoniya şəraitində yaşayırlar. Bizim tarixi abidələrimiz də Azərbaycanın mədəni müxtəlifliyini və onun qədim tarixini aydın şəkildə nümayiş etdirir. Fəxr edirik ki, dünyanın ən qədim məscidlərindən biri – 743-cü ildə inşa olunmuş Cümə məscidi Azərbaycanın qədim şəhərlərindən biri sayılan Şamaxıda yerləşir. Dünyanın ən qədim kilsələrindən olan, Qafqaz Albaniyası dövləti dövrünə aid kilsə Azərbaycanın digər qədim şəhəri Şəkidə yerləşir.

Bakının yaxınlığında yerləşən və atəşpərəstlik dininə məxsus olan Atəşgah məbədi də bizim tarixi və dini müxtəlifliyimizi nümayiş etdirir. Bu gün Azərbaycanda məscid, kilsə və sinaqoqlar dövlət tərəfindən qorunur. Onların bir çoxunun dövlətin maliyyə dəstəyi ilə inşa olunması bizim tariximizi və bu sahədə olan siyasətimizi nümayiş etdirir.

Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Bu bizim həyat tərzimizdir. Multikulturalizmin nisbətən yeni və bəzən çətin tələffüz edilən termin olmasına baxmayaraq, multikulturalizm ideyaları hər zaman ölkəmizdə mövcud olubdur. Tarixi dönəmdən və siyasi sistemdən asılı olmayaraq, xalqımız hər zaman istər ölkədə, istərsə də onun hüdudlarından kənarda multikulturalizmi fəal müdafiə və təşviq edibdir.

Əslində 2011-ci ildə ilk dəfə Mədəniyyətlərarası Dialoq Forumunun təşkil edilməsi ideyası tariximiz, reallığımız və həmçinin belə məsələlərin müzakirəsi üçün geniş formatın yaradılması arzusundan qaynaqlanırdı. Bu gün buna əvvəlkindən daha çox ehtiyac vardır. Təəssüf ki, bu gün dünyada narahatlıq doğuran bəzi tendensiyalar mədəniyyətlərarası dialoqla deyil, özgələşmə ilə nəticələnir. Biz mütəmadi surətdə bunun şahidi oluruq. Dünyanın müxtəlif yerlərində münaqişə, qarşıdurma və vətəndaş müharibələrinin səbəbi müxtəlif din və etnik qrup nümayəndələrinin arasında anlaşmanın olmamasıdır. Bizim multikulturalizm siyasətimiz xalqımız tərəfindən tam dəstəklənir və 2016-cı il Azərbaycanda «Multikulturalizm ili» elan edilmişdi. Bu il isə ölkəmizdə «İslam həmrəyliyi ili» elan edilib. Azərbaycanda gündəlik həyatın bu hər iki çox vacib elementinin birləşməsi ilk növbədə, cəmiyyətimizin vəziyyətini, dövlət siyasətimizi nümayiş etdirir və regionda daha da yaxşı anlaşmaya səbəb olur.

Biz məhz bu məsələlərin müzakirəsinə həsr olunmuş bir neçə beynəlxalq tədbir təşkil etmişik. Azərbaycan artıq 5 dəfə Beynəlxalq Humanitar Foruma, bir neçə il bundan əvvəl Dünya Dini Liderlərinin Zirvə görüşünə, ötən il isə BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna uğurla ev sahibliyi

edibdir. Nəhayət, biz 4-cü dəfədir ki, toplaşaraq, mədəniyyətlərarası dialoq məsələsini müzakirə edirik.

Bunlar bizə gərginlik və risklərin azaldılması, müxtəlif xalqlar və dinlər arasında daha yaxşı anlaşmanın təmin olunması yollarını müəyyənləşdirməyə yardım edir. Hesab edirəm ki, Azərbaycanın tarixi və bugünkü inkişafı uğur qazanmanın mümkünlüyünün yaxşı nümunəsidir.

Multikulturalizmə münasibət fərqlidir. Biz bəzən müəyyən ictimai və siyasi xadimdən, habelə dövlət rəhbərlərindən skeptik fikirlər eşidirik. Hesab edirəm ki, biz səylərimizi birləşdirsək – bu gün burada beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətini təmsil edən nümayəndələr iştirak edirlər – nümayiş və sübut edə bilərik ki, multikulturalizm yaşayır və onun alternativi yoxdur. Onun alternativi yalnız ksenofobiya, islamofobiya, antisemitizm, irqçilik və ayrı-seçkilik ola bilər. Multikulturalizm yalnız bir tendensiya deyil, o eyni zamanda, dünyanı daha təhlükəsiz etməyin yeganə yoludur.

Düşünürəm ki, sizin bu forumda iştirakınız və müzakirələrin mövzuları bizim vahid iradəmizi və bu dəyərlərin təşviqi ilə bağlı siyasət və yanaşmamızı əyani şəkildə nümayiş etdirir. Azərbaycan 2008-ci ildə çox vacib prosesin təşəbbüskarı olmuşdur və o sonradan «Bakı prosesi» adlandırılmışdır. Bu gün həmin təşəbbüs beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Bu təşəbbüs də artıq çıxışımda qeyd etdiyim amillərdən qaynaqlanırdı. Bununla yanaşı, Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvü olan məhdud sayda dövlətlərdən biridir.

Avropa Şurası ölkələri nazirlərinin 2008-ci ildə toplantısını təşkil edərkən, biz İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin müvafiq nazirlərini də dəvət etdik. Yəni ilk dəfə idi ki, belə böyük tədbir təşkil edildi və 100-dən artıq dövlətin nümayəndəsi mədəniyyətlərarası münasibətlər mövzusunu müzakirə etmək üçün bir araya gəldi.

İslam Əməkdaşlıq Təşkilatının üzvü kimi, Azərbaycan 2009-cu ildə nazirlər səviyyəsində toplantıya ev sahibliyi etdi. O vaxt

biz Avropa Şurasına üzv dövlətlərin nazirlərini Bakıya dəvət etdik. Bu təşəbbüs və bu format sonradan «Bakı prosesi» adlandırıldı və biz bununla fərəhlənirik. Birincisi, ona görə ki, bu bizim təşəbbüsümüz idi. İkincisi isə ona görə ki, Bakı və Azərbaycan mədəniyyətlərarası dialoqun mərkəzi olmağa layiqdir.

Gələn il biz «Bakı prosesi»nin 10-cu ildönümünü qeyd edəcəyik. Azərbaycan hökuməti və BMT Sivilizasiyalar Alyansı tərəfindən mədəniyyətlərarası dialoq sahəsində liderlik xidmətlərinə görə «Bakı prosesi mükafatı»nın təsis edilməsi təşəbbüsü irəli sürülüb ki, həmin mükafat mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqində olduqca fəal rol oynamış şəxslərə təqdim ediləcəkdir.

Azərbaycan tərəfindən irəli sürülmüş daha bir mühüm təşəbbüs Bakıda Avropa oyunlarının keçirilməsi idi. Digər qitə oyunlarından fərqli olaraq, Avropada belə oyunlar heç vaxt təşkil edilməmişdi. Avropa Olimpiya Komitəsi belə bir oyunların keçirilməsi qərarını qəbul edəndə, onlara ev sahibliyi etmək arzusunda olan ölkələrin sayı az idi. Səmimi desək, Azərbaycan oyunların təşkilini öz üzərinə götürməyi təklif edən yeganə dövlət idi. Belə olmasaydı, həmin oyunlar heç vaxt təşkil edilməyəcəkdi.

2015-ci il ilk Avropa oyunlarının keçirilməsi ili oldu. Oyunlar Bakıda 5000-dən artıq avropalı idmançının iştirakı ilə baş tutdu. Təbii ki, bu oyunlar bir idman tədbiri idi, amma hesab edirəm ki, onların rəmzi mənası da var idi. Çünki ilk dəfə təşkil olunan Avropa oyunları müsəlman ölkəsində keçirilirdi. Bu, multikulturalizmin və dini dözümlülüyün göstəricisi idi. Oyunlar istər təşkilatçılıq səviyyəsi, istərsə də Azərbaycan xalqı tərəfindən qarşılanma baxımından yüksək səviyyədə təşkil edildi. İdmançılar, qonaqlar istər təşkilatçılıq səviyyəsi, istərsə də Azərbaycan xalqı tərəfindən qarşılanma baxımından olduqca məmnun və xoşbəxt idilər. Xalqımız avropalı qonaqlara özünün ənənəvi qonaqpərvərliyini nümayiş etdirdi.

Bir həftədən sonra biz bütün müsəlman ölkələrini təmsil edən 3000 idmançının iştirakı ilə IV İslam Həmrəyliyi oyunlarının açılışını qeyd edəcəyik. Yəni 2 il müddətində eyni şəhərdə Avropa oyunları ilə yanaşı, İslam Həmrəyliyi oyunlarının keçirilməsi bizim siyasətimizin və niyyətimizin göstəricisidir. Əminəm ki, burada güclü rəqabət olacaqdır. Bir daha qeyd etmək istəyirəm ki, bu sadəcə, idman tədbiri deyil. Bu, insanları birləşdirən hadisədir. Bizim islam aləmində ilk növbədə, birliyə ehtiyacımız vardır.

Təəssüf ki, terrorçuluqdan ən çox əziyyət çəkən məhz elə müsəlman dövlətləridir. Azərbaycan islam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır. Biz Avropa paytaxtlarında müxtəlif beynəlxalq tədbirlər – təqdimat və sərgilər təşkil edərək, qədim islam mədəniyyətini təbliğ edirik. Azərbaycan islamofobiya və islamı terrorçuluqla əlaqələndirmə əleyhinə ən fəal mübarizə aparan ölkələrdəndir. Yəni regionumuzu daha təhlükəsiz etmək üçün bizim müsəlman dünyasında birliyə ehtiyacımız var. Eyni zamanda, gərginliyin azaldılması üçün bizim İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər beynəlxalq təsisatlar arasında əlaqələndirməyə ehtiyacımız vardır.

Beləliklə, mədəniyyətlərarası dialoq haqqında danışarkən biz aydın şəkildə anlayırıq ki, həmin dialoqun uğurunun təsirini hər bir sahədə – siyasi həyatda, təhlükəsizlik ilə bağlı sahələrdə və iqtisadi əməkdaşlıqda görmək olar. Proqnozlaşdırılan tərəfdaşlığa və qarşılıqlı etimada söykənən münasibətlərin olmadığı halda, istənilən dövlət üçün qarşıya qoyulan məqsədlərə çatmaq çox çətin olar.

Bu təşəbbüslər və Azərbaycanın uğur hekayəsi, onun multikulturalizmin mərkəzinə çevrilməsi – yeri gəlmişkən, biz Azərbaycanda Multikulturalizm Mərkəzi yaratmışıq – onu nümayiş etdirir ki, biz həm doğru yolla, həm də uğurla irəli gedirik. Bütün dünyanı əhatə edən bu forum da bizim niyyətimizin bariz nümunəsidir.

Azərbaycan nisbətən gənc müstəqil dövlətdir. Böyük tarix, ənənə və mədəniyyətə malik olmağımıza baxmayaraq, müstəqil

dövlət olaraq bizim 25 yaşımız var. Ötən il biz müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd etdik. Bu illər onu nümayiş etdirdi ki, ölkənin taleyi öz əlimizdə olanda böyük uğur əldə etmək olar. Əsrlərboyu Azərbaycan müxtəlif dövlətlərin və imperiyaların tərkibində olub və 25 illik müstəqillik sübut edir ki, yalnız azad olan halda uğur qazanmaq olar. Dövlətimizin tarixində Azərbaycan bugünkü qədər güclü olmayıbdır.

Biz sosial, iqtisadi və siyasi həyatda mühüm nailiyyətlər əldə etmişik. Bu gün Azərbaycan sürətlə inkişaf edən, müasir və dinamik ölkədir. Bu ölkə öz ənənəvi köklərinə bağlı olmaqla yanaşı, dünyaya açıq olan müasir bir dövlətdir.

Üzləşdiyimiz ən böyük problem erməni işğalıdır. Təəssüf ki, müstəqilliyimizin bərpası erməni işğalı ilə müşayiət edilirdi və bunun nəticəsi olaraq, ərazimizin 20 faizi – Dağlıq Qarabağ və digər 7 rayonumuz Ermənistan tərəfindən işğal edilibdir. İşğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilibdir. Xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirilibdir. Bu gün işğal olunmuş ərazilərimizdə bütün tarixi abidələr və tikililərimiz Ermənistan tərəfindən dağıdılıb, məscidlərimiz yerlə yeksan edilibdir.

Bakıda şəhərin mərkəzində erməni kilsəsi yerləşir və biz onu təmir etmişik. Ermənistan isə işğal olunmuş ərazilərdə bizim tarixi və dini irsimizi məhv edibdir. Bu fotoşəkilləri internetdə tapmaq mümkündür. Bununla yanaşı, ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və onların hesabatlarında da ərazilərin viran olunması öz əksini tapıbdır. BMT Təhlükəsizlik Şurası – dünyanın ən ali beynəlxalq qurumu 4 qətnamə qəbul edibdir ki, orada Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Həmin qətnamələrə 20 ildən artıqdır ki, əməl olunmur. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və beynəlxalq hüququ kobudcasına pozur. Ancaq təcavüzkarı qətnamələrə əməl etməyə məcbur edən mexanizm mövcud deyil. Bu isə çox mühüm və xalqımızı dərindən narahat edən məsələdir. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının

qətnamələri bir neçə gün, hətta bir neçə saat ərzində icra olunur. Bizə gəldikdə isə 20 ildən artıq bir müddət keçir. Bu ilk növbədə, ikili standartların və müəyyən mənada, qərarların icra mexanizminin səmərəsizliyinin bariz nümunəsidir.

Münaqişənin həlli beynəlxalq hüquq normalarına, BMT-nin Nizamnaməsinə, Helsinki Yekun Aktına və Azərbaycanın ərazi bütövlüyü prinsipinə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dağlıq Qarabağ Azərbaycanın tarixi və hüquqi bir parçasıdır.

Bu faciəyə və onun çox böyük iqtisadi yükünə baxmayaraq – nəzərə alsaq ki, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizin çox yoxsul olduğu bir dövrdə bizim 1 milyondan artıq qaçqınımız var idi və bu bizim üçün çox ciddi iqtisadi və sosial problem idi – biz onun da öhdəsindən gələ bildik. Səylərimizi səfərbər edərək, güclü ölkə yarada bildik. Bu gün Azərbaycan siyasi və iqtisadi cəhətdən sabit ölkədir. Azərbaycan beynəlxalq birliyin hörmətli üzvüdür. Bunu sübut etmək üçün bir sıra faktlar sadalaya bilərəm. Ancaq düşünürəm ki, yalnız biri kifayət edər. Bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycana səs verərək, onu BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçdi. Dünya dövlətlərinin mütləq əksəriyyətinin dəstəyi nümayiş etdirir ki, Azərbaycan böyük nüfuza malikdir. Biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Eyni zamanda, Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb və ya qəbul edilibdir.

Bu bizim regionda oynadığımız roldur. Biz coğrafi yerləşməyimizi mühüm infrastruktur imkanlarına çevirməyə müvəffəq olmuşuq. Bizim təşəbbüskarı olduğumuz layihələr bu gün Asiyanı Avropa ilə dəmir yolu vasitəsilə birləşdirir və artıq mənfəət gətirir və ölkələr arasında çox vacib əlaqə yaradır.

Bununla bərabər, Azərbaycan nəhəng enerji layihələrinin təşəbbüskarıdır. Onlardan biri hazırda icra olunan və Avropanın ən böyük infrastruktur layihəsi olan «Cənub Qaz Dəhlizi» layihəsidir. Layihəyə yatırılan sərmayə 40 milyard dollara bərabərdir və o, ilk mərhələdə 7 ölkəni birləşdirərək, regionu-

muzun, Mərkəzi və Cənubi Avropanın bir çox ölkəsinin enerji şaxələndirilməsini və enerji təhlükəsizliyini təmin edəcəkdir. Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və enerji əməkdaşlığı layihəsidir. Çünki bizim bütün enerji və nəqliyyat layihələrində iştirak edən ölkələr təbii tərəfdaşlara çevrilir və burada birgə qarşılıqlı bağlılıq yaranır. Qarşılıqlı bağlılıq isə iqtisadi əməkdaşlıq və qarşılıqlı hörmət üçün ən vacib amillərdəndir.

Beləliklə, Azərbaycan tərəfindən irəli sürülmüş nəqliyyat və enerji layihələri inkişaf və firavanlığın təmin edilməsi məqsədinə xidmət edir. Bu bizim beynəlxalq əməkdaşlıq və mədəniyyətlərarası dialoqa olan sərmayəmizdir.

Bizim iqtisadi göstəricilərimiz də çox yüksəkdir. Son 13 il ərzində ümumi daxili məhsulumuz 3 dəfədən çox artıb. Biz işsizliyin səviyyəsini 5 faizə endirə bilmişik, yoxsulluq 6 faizdən azdır. Xarici borcumuz olduqca aşağı səviyyədədir və ümumi daxili məhsulun 20 faizini təşkil edir. Valyuta ehtiyatlarımız isə xarici borcumuzdan 5 dəfə artıqdır. İqtisadi göstəricilərimiz həqiqətən də yüksəkdir və bu fakt beynəlxalq təsisatlar tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu iqtisadiyyatın rəqabətqabliyyətliliyinə görə Azərbaycanı 37-ci yerə layiq görüb. Həmin təşkilatın qiymətləndirməsinə əsasən, inkişafda olan ölkələrin inkişaf templərinə görə Azərbaycan siyahıda digər bir ölkə ilə 1-ci və 2-ci yerləri paylaşır.

Bütün bunlar müstəqillik illərində əldə etdiyimiz böyük bir sərvətdir. Biz təhsilə böyük sərmayə qoyuruq. Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Son 10 ildə ölkəmizdə 3000-dən artıq yeni məktəb istifadəyə verilib. Bildiyimiz kimi, təhsilə qoyulan sərmayə gələcəyə yatırılan sərmayədir. Bu, sabitliyə qoyulan sərmayədir. Çünki radikalizmin, ekstremizmin və fundamentalizmin kökündə savadsızlıq dayanır. Gənc nəslin «beyni yuyulur» və gənclər dəhşətli terror aktlarının törədilməsinə sövq edilir. Savadsızlıq, yoxsulluq, sosial qeyri-bərabərlik və ədalətsizlik radikalizmin əsas mənbəyidir. Buna görə radikalizmi aradan qaldırmaq üçün biz onun fundamental

səbəblərini müzakirə etməliyik. Eyni zamanda, mədəniyyətlərarası münasibətlərin dəyərlərini təbliğ etməliyik ki, insanlar sülh şəraitində birgəyaşayışın üstünlüyünü aydın görsünlər.

Burada da biz çox vacib olan məsuliyyət məsələsinə toxunuruq. Siyasətçilərin məsuliyyətini qeyd edirəm. Bəzən radikal kəsimin səslərini əldə etmək üçün siyasətçilər öz proqramlarını milliyyətçilik ideyası üzərində qururlar. Qeyri-hökumət təşkilatlarının məsuliyyəti – onların bəziləri məqsədyönlü şəkildə dini və etnik zəmində gərginlik yaradır. Nəhayət, medianın məsuliyyəti – beynəlxalq mediaya nəzər salsaq, əsasən miqrant böhranı, müharibə, dağıntı, toqquşma, dini və etnik münaqişə görürük.

Ancaq bir çox müsbət nümunələr də var və biz onları nümayiş etdirməliyik. Hesab edirəm ki, bu forumun əhəmiyyəti və məqsədlərindən biri də onu nümayiş etdirməkdir ki, biz bu məsələləri müzakirə edir və səylərimizi səfərbərliyə alırıq. Əminəm ki, forumun bütün iştirakçılarının burada eyni gündəliyi var – mədəniyyətlərarası dialoqun dəyərlərini təşviq etmək və gücləndirmək.

Ümidvaram ki, forumun nəticələri uğurlu olacaq və biz onun bütün qərarlarını həyata keçirəcəyik. Bizimlə bir yerdə olduğunuza görə bir daha sizə təşəkkür edir, forumun işinə uğurlar diləyirəm. Sağ olun.

* * *

**İrina Bokova** (Y*UNESKO-nun baş direktoru*): Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Mali Respublikasının Prezidenti İbrahim Boubakar Keyta!

Bolqarıstanın vitse-prezidenti xanım İliana İotova!

Hörmətli nazirlər, dini rəhbərlər, səfirlər, xanımlar və cənablar!

Belə bir mötəbər tədbirdə – IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən məmnunluğumu bildirirəm. Zati-aliləri cənab Prezident, mən çıxışımda bizim

əvvəlki silsilə tədbirlərimizin uğurlu olduğunu vurğulamaq istəyirəm. Mən mədəniyyətlərarası dialoqa verdiyi töhfəyə, belə bir mötəbər tədbirin keçirilməsinə göstərdiyi dəstəyə görə cənab prezident İlham Əliyevə bir daha minnətdarlığımı bildirirəm. YUNESKO-nun Xoşməramlı səfiri xanım Mehriban Əliyevaya da dərin təşəkkürümü bildirmək istəyirəm.

Xanımlar və cənablar, mən tam əminliklə bildirirəm ki, böyük İpək yolu üzərində yerləşən, qədim tarixi, zəngin mədəniyyəti olan Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafı sahəsində gördüyü işlər bütün dünya üçün örnəkdir. Bildiyiniz kimi, Bakı YUNESKO-nun mədəni irs siyahısında olan bir şəhərdir. Azərbaycanın maddi mədəniyyət abidələri, xalçaları, Novruz bayramı YUNESKO-nun irs siyahısında yer alıb. Məhz belə bir ölkənin mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafı sahəsindəki təcrübəsinə ehtiyacımız var.

Biz bu gün bir sıra ölkələrdə münaqişələrin baş verdiyinin şahidiyik. Biz bir sıra dini məbədlərin, kilsələrin, məscidlərin məhv olunduğunu görürük və təəssüf ki, mədəni müxtəlifliyin də məhv olduğunu görürük. Uşaqların tədrisdən uzaq qaldığını görürük. Fikir, ifadə azadlığının təhlükə altında olduğunu, jurnalistlərə hücumların sayının artdığını, etnik azlıqların təqib olunduğunu görürük. Eləcə də bəzi ölkələrdə antisemitizm, islamofobiya kimi, dini ayrı-seçkiliyin, qeyri-tolerantlığın artdığının şahidi oluruq. Bu baxımdan cənab prezident İlham Əliyevin də söylədiyi kimi, multikulturalizmin alternativi yoxdur. Biz multikulturalizm yolu ilə getməliyik, mədəniyyətlər və dinlər arasında harmoniyaya nail olmalıyıq.

Xanımlar və cənablar, bu gün gördüyümüz tədbirlər kifayət etmir. Bizim zərif gücümüz də – mədəniyyət, ünsiyyət, kommunikasiya, elm – paylaşdığımız dəyərləri daha da gücləndirməli və birgə taleyimizi həll etməlidir. Bütün mədəniyyətlər bir-birindən fərqlidir, amma bəşəriyyət özü bir ailədir. Biz hamını bu məqsədə – ləyaqətli və humanist olmağa çağırırıq. Bu bizim dünyaya baxışımızdır, bu YUNESKO-nun dünyaya olan bəşəri baxışıdır. Biz bəşəriyyətin paylaşılan mədəniyyətini

ümumi zənginliyimiz fonunda mühafizə etməliyik. Bu da bizim baxışımızdır. Eləcə də biz qlobal həmrəyliyi, vətəndaşlıq amallarını, prinsiplərini öz baxış kontekstimizdən təbliğ edirik. Bizim üçün, konkret olaraq YUNESKO üçün sülh, əmin-amanlıq və mənəvi zənginlik bəşəriyyətin həmrəyliyi çərçivəsində təmin olunmalıdır. Bu bizim Nizamnaməmizdə də əksini tapıbdır.

Bu gün bizim tolerantlığa, birgəyaşayışa, həmrəyliyə, anlaşmaya həmişəkindən daha çox ehtiyacımız var. Biz müxtəlifliyə, rəğbət və hörmətə, insani dəyərlərə xidmət edən innovasiyalara rəvac verməliyik. Cənab prezident İlham Əliyevin də əminliklə söylədiyi kimi, müxtəliflik bizim gündəlik həyatımızın reallığını əks etdirir. Bizim yeni proqramlarımız da məhz demokratiya prinsipləri əsasında hamının mənafeyinə xidmət etməlidir. Məhz bu məqsəd YUNESKO-nun fəaliyyətinin əsas prinsipidir. Bu forumun tərəfdaşlarını Bakıda bir araya gətirən də məhz bu zərurətdir. YUNESKO BMT-nin əsas qurumlarından biridir. Bu gün bu forumda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı, Dünya Turizm təşkilatlarının, eləcə də bir sıra qeyri-hökumət təşkilatlarının və özəl sektorun nümayəndələri iştirak edirlər. Bu da həmrəyliyimizlə bağlı bir mesajdır.

*İrina Bokova YUNESKO-nun mədəni müxtəlifliyin, sülh naminə tərəfdaşlığın təbliği üçün səylərini əsirgəmədiyini vurğuladı. O, zorakı ekstremizmə qarşı mübarizənin daha da gücləndirilməsinin vacibliyini bildirdi. Bunun üçün dialoqun gücləndirilməsinin, savadlılığın maksimum diqqətdə saxlanılmasının, beynəlxalq təşkilatların əməkdaşlığının genişləndirilməsinin əhəmiyyətini ətraflı xarakterizə etdi. Təhsil layihələri, irqçiliyə qarşı mübarizə və digər məsələlərdən geniş bəhs edərək, müxtəlifliyə də nail olmağın mühüm əhəmiyyətini xüsusi vurğuladı:*

– Biz dialoqu, sülhü daha da gücləndirməliyik. Münaqişəli zonalarda mədəni irsin qorunması ilə bağlı olan bu mesaj eyni zamanda, «Bakı prosesi»nin təməlini təşkil edir. Mədəni müxtəliflik təhdid deyil, bu hamı üçün şans və imkandır. Mən hətta deyərdim ki, mədəni müxtəliflik qürur mənbəyidir. Bu, bəşəriyyətin qürur mənbəyi olmalıdır. Mədəni müxtəliflik

əsrlərboyu Azərbaycanın zəngin tarixi ənənəsini əks etdirən bir amildir.

Xanımlar və cənablar, bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanın təşəbbüsü olan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bizim ümumi amalımıza, sülh üçün çağırışlarımıza gözəl cavabdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Nassir Abdulaziz əl-Nasser** (*BMT Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi)*: Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Çox hörmətli rəhbərlər, qonaqlar, xanımlar və cənablar!

Yenidən Bakıda olmağımdan məmnunluğumu ifadə edirəm. Sizin gözəl şəhərinizdə BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun keçirilməsindən təxminən 1 ilə yaxın vaxt ötür. Cənab Prezidentin söylədiyi kimi, bu böyük uğur, müvəffəqiyyət tarixdə bir irs kimi qalacaqdır. Biz BMT təşkilatı olaraq, Sizinlə və hökumətinizlə öz dəyərlərimizi paylaşırıq. Mən məmnuniyyətlə qeyd etmək istərdim ki, bizim komandalarımız tərəfdaş qismində əməkdaşlıq edir. IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu birlikdə keçiririk.

«Bakı prosesi» artıq bir platformaya çevrilib. Bu platformanın artıq bir çox ölkədə mədəniyyətlərarası dialoqa, inklüziv cəmiyyətə rəvac verən bir prosesə çevrildiyini qeyd etməliyik. Sivilizasiyalar Alyansı bu təşəbbüsü ilk vaxtdan dəstəkləməyə qərar vermişdir. Öz növbəsində, bunun xalqlar arasında, müxtəlif cəmiyyətlərdə, bir çox ölkələrdə müxtəlifliyə, dialoqa, eləcə də qarşılıqlı anlaşmaya töhfə verən bir proses olduğuna inanırıq. IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əsas məqsədi də xüsusi əhəmiyyətə malikdir. Bildiyiniz kimi, forumun məqsədi insan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanları axtarmaqdan ibarətdir. Forumun plenar sessiyalarında da insan hüquqları, sülh, təhlükəsizlik, davamlı inkişaf, qarşılıqlı anlaşma müzakirələrimizin əsas mövzuları olacaq. Biz bunları ayrı-ayrılıqda həyata keçirdikdə istədiyimiz məqsədlərə nail ola bilməyəcəyik. Bu məsələlərə kompleks yanaşılmalıdır. Təəssüflər olsun ki, bir çox islahatlarda uğur-

suzluğa düçar olmuşuq. BMT-nin Nizamnaməsi, hamımızın burada müdafiə etdiyimiz Nizamnamə fundamental səviyyədə 3 təməl sütunu ilə sıx əlaqəlidir. Bunlar bizim də əsas rəhbər prinsiplərimiz olmalıdır.

Baş katib Quterreşin də sülhlə bağlı çağırışları hər zaman gündəmdə qalmaqdadır. Hamımız birgə əməkdaşlıq edərək, əlimizdəki səlahiyyət çərçivəsində vəzifə və öhdəliklərimizi yerinə yetirməli, bu hədəflərə, məqsədlərə nail olmalıyıq.

Məhz bu səbəbdən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda yeni sahələr, yeni parametrlər – yüksək səviyyədə beynəlxalq təşkilatların görüşü çox güclü tərəfdaşlarla bir yerdə keçirilir. Bu forumda sizləri qlobal tərəfdaş kimi təqdir edirik.

*Nassir Abdulaziz əl-Nasser dindən sui-istifadənin yolverilməzliyini xüsusi qeyd etdi. O, sülhə və inkişafa nail olunmasında bəşəri həmrəyliyin həlledici rolunu diqqətə çatdırdı. Ümumi amallara çatmaqda siyasi liderlərin mövqeyinin mühüm əhəmiyyət daşıdığını bildirdi:*

– Mən bir daha siyasi liderlərə üz tutaraq, nifrət dolu çıxışlardan uzaq durmağa çağırıram ki, bizim bu ali məqsədimiz ekstremistlərin işinə yaramasın. Onlar təəssüflər olsun ki, bizim dəyərlərimizi aşağılamağa çalışırlar. Biz bir çox məsələlərdən agahıq. Öz səylərimizlə, təşəbbüslərimizlə mədəniyyətlərarası, dinlərarası dialoqa töhfə verməyə və körpülər qurmağa çalışırıq. Bunlar vətəndaş cəmiyyəti təşkilatları ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilir. Biz bu hədəflərə nail olunması işində Azərbaycanı özümüz üçün mühüm bir tərəfdaş kimi görürük. Bu əməkdaşlıq gələcəkdə müxtəlif səviyyələrdə davam edəcəkdir. Səmimiyyətlə inanıram ki, mədəniyyətlərarası dialoq, vasitəçilik və barışıq prinsipləri dünyadakı problemlərin aradan qaldırılmasına öz töhfəsini verəcəkdir. Gəlin bizim vaxtilə söylədiyimiz sözləri xatırlayaq: dünya o zaman sülh və əmin-amanlıq şəraitində olacaq ki, insanlar öz gündəlik həyatlarında təhlükəsiz yaşaya biləcəklər. Mən bu forum çərçivəsində kreativ ideyaların

mübadiləsinə ümid bəsləyirəm. Hamınıza uğurlar arzulayıram. Təşəkkür edirəm.

**T a l e b R i f a i** (*BMT Dünya Turizm Təşkilatının baş katibi*): Cənab Prezident, bir daha Sizi görməyimdən böyük iftixar və şərəf hissi duyuram. Mən hər dəfə Bakıya gələndə Sizin tərəfinizdən qəbul olunmaq şərəfinə nail oluram. Bu mənim üçün vacibdir. Bu gün səhər mən bu fikrin bir daha şahidi oldum. Mənə elə gəlir ki, biz burada böyük mesajları Sizdən eşitdik və onların böyük dəyəri vardır. Çox sağ olun.

Prezident İbrahim Boubakar Keyta, çox sağ olun ki, bu gün bizimlə buradasınız.

Hörmətli Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, Sizi burada görməyimdən çox şadam. Çox sağ olun ki, buraya gəlmisiniz və öz fikirlərinizi bizimlə bölüşəcəksiniz.

Xanımlar və cənablar!

Mən sizin hamınızın burada olmağınızı alqışlayıram. Görürəm, burada çox maraqlı insanlar, dostlarımız əyləşiblər. Biz burada toplaşmışıq ki, yaşadığımız dünyanı daha təhlükəsiz edək. Biz bunu hər zaman yüksək dəyərləndiririk. Çox sağ olun. Hörmətli dostlarım, böyük şərəf və iftixar hissi ilə bu gün burada sizinləyəm, Bakıdayam. Bakı gözəl şəhərdir. Ötən gecə Bakını seyr etmək, onun gözəlliyini görmək imkanımız oldu. Bir daha şahidi oluruq ki, paytaxtınız daha da gözəlləşir. Bir il əvvəl gəldiyim zamanla indiki vaxtı müqayisə edərək görürəm ki, nə qədər böyük dəyişikliklər olub. Bakının bu gözəl, saf enerjisini duyuram.

Hörmətli cənab Prezident, Albert Eynşteyn deyirdi ki, keçmişlə gələcəyin arasında olan əlaqə əslində bizim beynimizdə illüziya təşkil edən fikirlərdir. Keçmişdə nə baş verirsə, biz onu yaddan çıxara bilmərik, çünki o sonra yenidən təkrarlanır. Biz gələcəkdən də bunu gözləməliyik. Qlobal liderlər olaraq, bizim qarşımızda bir vəzifə dayanır. Biz bu gəmidə davamlı şəkildə mümkün qədər düzgün istiqamətdə irəliyə doğru getməliyik. Bu çox ağır bir dövrə təsadüf edir. Çünki biz təlatümlü və qeyri-aydın bir dövrdə yaşayırıq. Böyük yazıçı Çarlz Dikkens deyirdi ki, biz ağır və ən

maraqlı dövrdə yaşayırıq. Bu çağırışlar, iqtisadi böhran, terrorçuluq, insan hüquqları üzrə mübarizə, bərabərsizliyin aradan qaldırılması, iqlim dəyişikliyi və təcridolunma, divarların çəkilməsi, sədlərin tikilməsi dövründə yaşayırıq. Eyni zamanda, mənim şərəflə təmsil etdiyim sahə adından deyə bilərəm ki, biz insan azadlıqlarını, xüsusən də insanların azad şəkildə yerdəyişmələrini təmin etməliyik. Biz keşməkeşli bir vaxtda yaşayırıq. Görürük ki, bu gün dünya bəzi yerlərdə daha çətin vəziyyətə sürüklənir.

Mən çox şadam ki, siz burada toplaşmısınız və göstərməyə çalışırsınız ki, dünya ölkələri bir-birindən asılıdır. Əgər biz bir-birimizdən asılıyıqsa, bir-birimizə daha böyük hörmətlə, daha böyük mərhəmətlə yanaşmalıyıq.

*Taleb Rifai dünyada qarşılıqlı zənginləşmədə və milli iqtisadiyyatların böyük mənfəət əldə etmələrində turizmin də vacib rol oynadığını əsaslandırdı. O, kamil dünyanın formalaşdırılmasında tolerantlığın, qarşılıqlı anlaşmanın təbliğinin və bu sahədə sıx əməkdaşlığın mühüm əhəmiyyətini diqqətə çatdırdı. Bu baxımdan Azərbaycanın nümunəvi rolunu xüsusi vurğuladı:*

– Cənab Prezident, BMT-nin Baş Məclisi 2015-ci ildə 3 əsas vacib sənəd qəbul edibdir. Birincisi, o, 17 davamlı inkişaf məqsədini qəbul edibdir. Bu, 193 üzv dövlətə aiddir. İkincisi, 2015-ci il dekabrın 2-də Paris Sazişi imzalanıb. Bu da vacib bir hadisədir. Üçüncüsü, 2015-ci ilin sentyabrında qəbul edilmiş qərara görə, bu il dünyada «Turizm ili» kimi qeyd olunur. Bu hamımız üçün nadir bir imkan yaradır ki, biz birgə çalışaq və daha kamil dünyanı qorumaq üçün səylərimizi birləşdirək. Mən ümid edirəm ki, XXI əsrdə bundan sonra dünyanın müxtəlif yerlərində insanlar təhlükəsiz və daha yaxşı şəraitdə yaşayacaqlar. Bizim qlobal çağırışlarımız yalnız tərəfdaşlıq yolu ilə aradan qaldırıla bilər. Bunun başqa yolu yoxdur. Buna görə də IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ideal bir fürsətdir ki, biz öz öhdəliklərimiz haqqında düşünək.

Hörmətli dostlar, bəlkə də bu mənim Dünya Turizm Təşkilatının baş katibi kimi, ölkənizə etdiyim sonuncu səfərimdir.

İnsanlara, cəmiyyətlərə, mədəniyyətlərə, ətraf mühitə hörmətlə yanaşmalıyıq. Çünki bununla biz özümüzə hörməti təmin edirik. Buna görə, cənab Prezident, biz bundan sonra da Azərbaycana gələcəyik. Azərbaycan elə bir diyar, elə bir ölkədir ki, dünyada böyük nüfuza malikdir. Biz Azərbaycanı «Odlar diyarı» adlandırırıq. Əsrlərboyu belə olub. Azərbaycan gözəl məkandır. Çox səmimi xalqınız var.

Hörmətli dostlar, gəlin yadda saxlayaq ki, bizim həyatımız məhz belə məsələlərə vaxtımızı sərf etməklə qurulmalıdır. Buna görə, xanımlar və cənablar, bizim həyatda əsas məramımız bu dünyanı daha da təkmilləşdirmək olmalıdır. Çox sağ olun, təşəkkür edirəm.

**Yusif əl-Osaymin** (*İslam Əməkdaşlıq Təşkilatının baş katibi*): Zati-aliləri cənab prezident İlham Əliyev!

Zati-aliləri Mali Respublikasının Prezidenti!

Xanımlar və cənablar!

Əvvəla, məni bu tədbirə dəvət etdiyinizə görə dərin təşəkkürümü bildirirəm. Mən bu gözəl Bakı şəhərində ilk dəfədir ki, oluram. Mən burada İslam Əməkdaşlıq Təşkilatının rəhbəri kimi iştirak edirəm. Məmnuniyyətlə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə və onun hökumətinə təşəkkürümü bildirirəm ki, onlar məni bu tədbirə dəvət ediblər və buraya gəldiyim andan Sizin səmimi qonaqpərvərliyinizin şahidi oldum.

Siz 8 il əvvəl başladığınız «Bakı prosesi» haqqında danışdınız və mədəni müxtəlifliyin bir həyat tərzi kimi, burada daha geniş vüsət aldığını qeyd etdiniz. Biz bilirik ki, Azərbaycan sivilizasiyaların qovuşduğu məkanda yerləşir.

Cənab Prezident, Siz çox səylər göstərmisiniz ki, biz elə məkanlar formalaşdıraq ki, orada sivilizasiyalar və xalqlar qovuşsun. Bu baxımdan mən YUNESKO-ya və BMT Sivilizasiyalar Alyansına minnətdarlığımı bildirmək istəyirəm. O cümlədən Dünya Turizm Təşkilatına, FAO-ya, İSESKO-ya və bütün digər tərəfdaşlarımıza təşəkkürümü bildirirəm ki, onlar bu forumun təşkil edilməsinə sadiq

olublar və xalqlar, mədəniyyətlər arasında dialoqun təşviq edilməsi istiqamətində çox iş görüblər.

*Yusif əl-Osaymin xalqlar arasında birliyin gücləndirilməsində mədəni müxtəlifliyin vacib rol oynadığını qeyd etdi. O bu məqsədlə dialoqu, sülh mədəniyyətini təşviq etməyi və bunun üçün səyləri birləşdirməyi xüsusi vurğulayaraq bildirdi:*

– Biz ədavətə, ekstremizmə qarşı çıxırıq, qarşılıqlı anlaşmanı, mədəni müxtəlifliyi təşviq edirik və istəyirik ki, sivilizasiyalararası dialoq daha da artsın. Mən bir daha təşkilatımızın sadiqliyini qarşınızda təsdiq edirəm ki, biz bundan sonra da sivilizasiyalararası, dinlərarası dialoqa dəstəyimizi davam etdirəcəyik. Biz bunu özümüzə vacib bir vəzifə hesab edərək, gələn illər üçün müvafiq planlarımızı tərtib etmişik. Biz bu planları müxtəlif ölkələrin, üzv dövlətlərin sammitlərində və təşkil etdiyimiz digər tədbirlərdə müzakirə edib təsdiqləmişik. Sizə işinizdə uğurlar arzulayıram. Çox sağ olun.

**Əbdüləziz bin Osman əl-Tüveycri** *(İSESKO-nun baş direktoru):* Hörmətli cənab prezident İlham Əliyev!

Mali Respublikasının Prezidenti cənab Keyta!

Hörmətli Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri xanım Mehriban Əliyeva!

Xanımlar və cənablar!

IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən şərəf hissi duyuram. Mən bundan əvvəl keçirilmiş forumlarda da iştirak etmişəm. Qeyd etməliyəm ki, bu forum hər zaman uğurlu iş aparıb və Siz burada söylədiniz ki, forum çərçivəsində artıq mükafat da təsis edilib. Bu mükafatla sülh, dialoq və anlaşma istiqamətində çalışan insanların səyləri qiymətləndiriləcəkdir. Mən prezident İlham Əliyevə təşəkkürümü bildirirəm ki, o, bütün dünyanın insanlarını bir araya gətirmək, sülh haqqında danışmaq, anlaşmanı artırmaq üçün səylərini əsirgəmir.

Gördüyümüz kimi, Bakı sülhün, inkişafın, mədəniyyətlərarası, dinlərarası dialoqun, müxtəlifliyin mövcud olduğu məkandır.

Sözün əsl mənasında – mən burada heç bir sözü özümdən artırmıram – bu belədir. Çünki ədavət, münaqişə, toqquşma olan bir dünyada Azərbaycan ahəngdarlıq ölkəsidir və biz bunun şahidiyik. 2005-ci ildən etibarən bir çox ölkələrə səfər etmişəm və görürəm ki, Azərbaycan müasir, demokratiya, inkişaf, mədəniyyətlərarası dialoq və sülh ölkəsidir. Bir sözlə, cənab Prezident, göstərdiyiniz bütün səylərə görə təşəkkür edirik ki, dünyanın müxtəlif insanlarını bir araya gətirmisiniz. Mən İSESKO adından mədəniyyətlərarası dialoqun möhkəmlənməsi istiqamətində aparılan işə görə də təşəkkürümü bildirirəm. Mən burada öz çıxışımı oxumaq istəyirdim. Lakin bilirəm ki, bunların hamısını oxusam, bu daha çox vaxt tələb edəcək.

Dörd məqamı bildirmək istəyirəm. Birincisi, dünyaya sülh lazımdır. Lakin sülh ədavətin, fobiyanın, müharibələrin və ədalətsizliyin yayıldığı şəraitdə mümkün deyil. Zənnimcə, bunun yeganə səbəbi ondan ibarətdir ki, super dövlətlər öz üzərlərinə düşən vəzifəni lazımi səviyyədə yerinə yetirmirlər. Onlar yalnız öz maraqları uğrunda mübarizə aparırlar. Onlar BMT Təhlükəsizlik Şurasında əyləşirlər və onların əsas işi əslində dünyada sülhün qorunması olmalıdır. Biz zati-aliləri cənab Prezidentin nitqinə diqqət yetirdik və Dağlıq Qarabağ buna bir misaldır. Yəni 20 ildən artıqdır ki, işğal mövcuddur. Dağlıq Qarabağ və 7 rayon işğal altındadır. Azərbaycan Respublikasının ərazi bütövlüyü pozulub. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var, digər beynəlxalq təşkilatlar da qərarlar qəbul edib. Amma problem yenə də qalmaqdadır. Dünyanın digər yerlərində – Suriyada, Misirdə, Somalidə, Əfqanıstanda, İraqda insanlar müharibələrdən, münaqişələrdən, terrordan əziyyət çəkirlər. Mədəniyyət abidələri məhv edilir. Dünyadakı böyük güclər buna görə məsuliyyət daşıyır və onlar özləri bu müharibələri dayandıra bilmirlər. Biz istəyirik ki, Təhlükəsizlik Şurası öz işini lazımi səviyyədə görsün. Mən bunu uca səslə bəyan etməliyəm, vaxt artıq yetişib. Biz gözləmə mövqeyində olmalı deyilik, biz tədbirlər görməliyik.

*Dünyanın böyük dövlətlərinin üzərinə düşən vəzifələri düzgün dərk etməsinin həlledici əhəmiyyətini ətraflı xarakterizə edən Əbdüləziz bin Osman əl-Tüveycri ədalətin başlıca meyar olması üçün İSESKO-nun da səylərini əsirgəmədiyini diqqətə çatdıraraq söylədi:*

– Gördüyümüz bütün işlər anlaşmanın, dialoqun və bu cür tədbirlərin həyata keçirilməsinə, bütün dünyada xalqların dinc şəraitdə yaşamasının gücləndirilməsinə yönəlməlidir. Mən xanım Bokovaya burada, bu prosesdə bizə verdiyi dəstəyə görə minnətdaram. Avropa Şurasındakı bütün tərəfdaşlarımıza, həmçinin YUNİSEF, Dünya Bankı, Afrika İnkişaf Bankı və digər bütün tərəfdaşlarımıza minnətdarıq ki, onlar daha təhlükəsiz dünyanın qurulması işinə sadiqdirlər. Biz yalnız birgə səylərlə sülh və təhlükəsizliyi təmin edə bilərik. İSESKO bunu belə görür. Cənab Prezident, Sizi əmin edirəm ki, biz Sizin uğrunda mübarizə apardığınız məramın tam həyata keçirilməsinə öz töhfəmizi verəcəyik. Çox sağ olun.

**Qabriella Battaini Draqoni** (*Avropa Şurası baş katibinin müavini*): Cənab Prezident!

Xanım Mehriban Əliyeva!

Əziz qonaqlar, xanımlar və cənablar!

Mən bu gün burada Avropa Şurasının adından Azərbaycana və onun rəhbərliyinə belə bir mühüm forumun təşkilatçılığını üzərlərinə götürdüyünə görə minnətdarlığımı bir daha çatdırıram. Qeyd etmək istərdim ki, mən 2008-ci ildə həqiqətən, çox gözəl və dinamik inkişaf edən Bakı şəhərində olmuşam. O zaman Avropa Şurasının üzvü olan bütün ölkələrin Mədəniyyət nazirləri qonşu ölkələrin Mədəniyyət nazirləri ilə birlikdə Azərbaycana təşrif buyurmuşdular. O vaxt həmin nazirlər «Bakı prosesi»nin yekun qətnaməsini qəbul etmişdilər. O qətnamə mədəniyyətlərarası dialoqu təşviq edən bir sənəddir. Cənab Prezident, Sizə və komandanıza sülh prosesinə, mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına verdiyiniz töhfəyə görə xüsusi təşəkkür edirəm. Qeyd etdiyiniz kimi, «Bakı prosesi» artıq xəyal deyil, bir reallıqdır. Bəli, 2008-ci ildə bu bir xəyal idisə, indi

«Bakı prosesi» bir reallığa çevrilib. «Bakı prosesi» və mədəniyyətlərarası dialoq forumları bizlərə çox mükəmməl bir fürsət yaradıb ki, bir yerə toplaşıb dünyamızı narahat edən məsələləri müzakirə edək.

*Qabriella Battaini Draqoni mədəni müxtəlifliklə, mədəniyyətlərarası dialoq və bu qəbildən olan digər məsələlərlə bağlı Avropada həyata keçirilən işləri ətraflı diqqətə çatdırdı. O bu baxımdan maarifləndirmənin mühüm əhəmiyyət daşıdığını bildirdi. Qabriella Battaini Draqoni yaxın 2 ildə Avropada islamofobiyaya qarşı mübarizə ilə əlaqədar ardıcıl işin aparılacağını dedi və qarşıda duran məsələlərin öhdəsindən bacarıqla gəlməkdə beynəlxalq təşkilatların da sıx əməkdaşlıq etməsinin vacibliyini diqqətə çatdıraraq vurğuladı:*

– Heç vaxt unutmamalıyıq ki, biz uğurla və səmərəli şəkildə əməkdaşlıq edə bilərik. Beləliklə, keçmişdə gördüyümüz işlərin fonunda mən və həmçinin hamımız bu xoş notlarla bizim forumun nəticələrinə böyük ümidlər bəsləyirik.

Cənab Prezident, Sizə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya üz tutaraq, xahiş edirəm ki, gəlin «Bakı prosesi»nin məşəlini heç zaman sönməyə qoymayaq. Çünki indi dünyanın sülhə, harmoniyaya, birgəyaşayışa daha çox ehtiyacı var. Diqqətinizə görə təşəkkür edirəm.

**M a r i o L u b e t k i n** *(FAO-nun aparat rəhbəri):* Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Mali Respublikasının Prezidenti cənab İbrahim Boubakar Keyta!

BMT-nin ali nümayəndəsi, baş direktorlar, baş katiblər!

Çox mötəbər və mühüm forum iştirakçıları!

İcazənizlə, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru Joze Qratsiano da Silvanın salamlarını sizə çatdırım. Əfsuslar olsun ki, özü başqa işləri olduğuna görə bura gələ bilmədi.

Mən əvvəlki məruzəçilərə də, çox səxavətli Azərbaycan Respublikasının xalqına da onların başladığı bu çox önəmli missiyaya görə minnətdarlığımı bildirmək istəyirəm. FAO-nun baş direktorunun müraciətində deyilir: «Xanımlar və cənablar, keçən il Bakıda Sivilizasiyalar Alyansının ilk tədbiri keçirildi. Biz çox şadıq ki, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu insanların təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanların axtarılması məsələlərinə həsr olunub. Bunlar çox vacib hədəflərdir».

*Daha sonra müraciətdə bu forumun insanlar arasında mədəni körpülərin qurulmasına xidmət etdiyi bildirilir, dünyada kənd*

*təsərrüfatının inkişaf etdirilməsinin, insanların ərzaq və qida ehtiyacının ödənilməsinin əhəmiyyəti vurğulanır. Azərbaycanın ev sahibliyi etdiyi bu forumun təşəbbüslərinin BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı tərəfindən dəstəkləndiyinin bəyan edildiyi müraciətdə qeyd olunur:* «Bakı prosesi» öz növbəsində, bir çox ali məqsədlərə çatmağa kömək edə bilər. Ona görə də «Bakı prosesi»nin məntiqi davamı olaraq, BMT Sivilizasiyalar Alyansı, eləcə də Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı «Mədəniyyətlərarası ərzaq təhlükəsizliyi və sülh» mövzusunda böyük bir tədbir keçirəcək. Tədbir FAO-nun qərargahında elan ediləcək. Orada digər tərəfdaşlar da iştirak edəcək. Eləcə də bu tədbir məhz Azərbaycanın dəstəyi ilə keçiriləcək. FAO-nun üzv dövlətlər və təşkilatlarla, BMT ailəsi ilə, vətəndaş cəmiyyətləri, eləcə də özəl sektorla birlikdə keçirəcəyi tədbirin məqsədi planetimizdə mövcud problemlərə qarşı mübarizə aparmaqdır. Əminik ki, biz qlobal çağırışların həlli yollarını yalnız birlikdə tapa bilərik».

Mən FAO-nun gələcək təşəbbüslərimizdə fəal rol oynayacağını bir daha qeyd etmək istərdim. Mən ev sahibi Azərbaycan Respublikasına minnətdarlığımı bildirir, müxtəlif ölkələrin nümayəndələrini, liderlərini müntəzəm surətdə dəvət edib öz təcrübələrini paylaşdıqları üçün ölkə rəhbərliyinə təşəkkür edirəm.

* * *

*Sonra prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən yüksəkvəzifəli qonaqların şərəfinə nahar verildi.*

## MALİ RESPUBLİKASININ PREZİDENTİ İBRAHİM BOUBAKAR KEYTA İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də ölkəmizdə səfərdə olan Mali Respublikasının Prezidenti İbrahim Boubakar Keyta ilə görüşmüşdür.*

*Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun önəmi xüsusi vurğulandı. Ölkələrimiz arasında siyasi əlaqələrin səviyyəsindən məmnunluq ifadə edildi, iqtisadi sahədə də əməkdaşlığın inkişaf etdirilməsinin önəmi qeyd olundu.*

*Azərbaycana yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Mali Prezidenti dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illər sürətli inkişaf yolu keçərək, dünyada böyük nüfuz qazandığını diqqətə çatdırdı. Prezident İbrahim Boubakar Keyta ölkəmizdə keçirilən seçkilərdə dövlət başçımızın yüksək faiz səs qazanmasını xalqın Azərbaycan Prezidentinə inamının və etimadının göstəricisi olduğunu diqqətə çatdırdı. Azərbaycanın sürətli inkişafından məmnunluğunu ifadə edən Mali Prezidenti Bakının dünyada mədəniyyətlərarası dialoq mərkəzinə çevrildiyini vurğuladı.*

*Azərbaycan ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsində maraqlı olduqlarını bildirən ali qonaq iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatı sahəsində Azərbaycanın təcrübəsinə, texniki imkanlarına, eləcə də idarəçilik təcrübəsinin öyrənilməsinə ehtiyac duyduqlarını bildirdi. Mali Prezidenti hərbi-texniki, enerji sahələrində də Azərbaycan ilə əməkdaşlığın yaxşı perspektivlərinin olduğunu, terrorçuluğa qarşı mübarizədə ölkəmizin təcrübəsinin öyrənilməsinə maraq göstərdiklərini bildirdi.*

*Azərbaycan ilə Mali arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirən prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdiklərini vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi əməkdaşlıq, qarşılıqlı ticarət və sərmayə qoyuluşu imkanlarının araşdırılmasının önəmini qeyd etdi.*

## YUNESKO-nun BAŞ DİREKTORU İRİNA BOKOVA İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 5-də YUNESKO-nun baş direktoru xanım İrina Bokova ilə görüşmüşlər.*

*Görüşdə Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu, bu baxımdan dünyada böyük nüfuz qazanan IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti yüksək qiymətləndirildi.*

*YUNESKO-nun foruma böyük önəm verməsindən məmnunluğunu ifadə edən prezident İlham Əliyev bildirdi ki, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna maraq ildən-ilə artır və bu tədbir artıq qlobal hadisəyə çevrilib.*

*İrina Bokova YUNESKO-nun bu forumun əsas tərəfdaşlarından biri olmasından məmnunluq duyduqlarını bildirdi. Qeyd etdi ki, bu mötəbər tədbirə böyük əhəmiyyət verən YUNESKO tərəfindən forumda 15 müxtəlif layihə təqdim olunur. Xanım İrina Bokova dedi ki, YUNESKO regionda böyük nüfuz sahibi olan Azərbaycanın mövqeyini, bütün qonşu ölkələrlə dost və mehriban münasibətlərini yüksək dəyərləndirir.*

*Forumun dünyada böyük uğur qazanması münasibətilə dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təbriklərini çatdıran YUNESKO-nun baş direktoru Bakının dünyada mədəniyyətlərarası dialoq məkanı kimi tanındığını vurğuladı.*

## DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB RİFAİ İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Dünya Turizm Təşkilatının baş katibi Taleb Rifai ilə görüşmüşdür.*

*Görüşdə IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti qeyd olundu, belə mötəbər tədbirlərin keçirilməsinin xalqların və ölkələrin bir-biri ilə daha da yaxınlaşması işinə xidmət etdiyi vurğulandı.*

*Söhbət zamanı Azərbaycan ilə Dünya Turizm Təşkilatı arasında əlaqələrin inkişafından məmnunluq ifadə edildi. Azərbaycanın turizmin inkişafı ilə bağlı Dünya Turizm Təşkilatının tövsiyələrindən uğurla bəhrələndiyi, ölkəmizdə bu sahənin sürətlə inkişaf etdiyi qeyd olundu. Həmçinin yeni turizm marşrutlarının açılmasına, viza rejiminin sadələşdirilməsinə, gələcəkdə Azərbaycan vasitəsilə xüsusi tranzit reyslərin təşkilinə dair təkliflər müzakirə olundu.*

*Dövlətimizin başçısı son illər ölkəmizdə turizmin sürətlə inkişaf etdiyini, bu baxımdan geniş imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev turistlərin ölkəmizə rahat gələ bilmələri üçün hər cür şəraitin yaradıldığını qeyd edərək, son 4 ayda artımın 26 faiz təşkil etdiyini diqqətə çatdırdı. Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizdə turist artımı bir sıra sahələrin inkişafına mühüm töhfə verir.*

# AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ QABRİELLA BATTAİNİ DRAQONİ İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Avropa Şurası baş katibinin müavini Qabriella Battaini Draqoni ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edildi.*

*Bakının yüksək səviyyədə ev sahibliyi etdiyi IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunan Qabriella Battaini Draqoni bildirdi ki, bu tədbir Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırır və mədəniyyətlərarası dialoqun inkişafına mühüm töhfə verməklə, ölkəmizin bu sahədə rolunu daha da gücləndirir.*

*Belə mötəbər tədbirdə iştirakından məmnunluğunu bildirən Qabriella Battaini Draqoni qeyd etdi ki, Azərbaycan mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynayır. Bu forum Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi yüksək dəyərin göstəricisidir. «Bakı prosesi» artıq dünyada böyük nüfuz qazanıb» – deyən Avropa Şurasının rəsmisi təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini və əlaqələri daha da möhkəmləndirmək istədiklərini nəzərə çatdırdı. Qabriella Battaini Draqoni vurğuladı ki, Azərbaycan Avropa Şurasının çox mühüm üzvlərindən biridir və Azərbaycan ilə əməkdaşlıq çox faydalıdır.*

*Avropa Şurası ilə əməkdaşlığın ölkəmiz üçün də faydalı olduğunu qeyd edən prezident İlham Əliyev diqqətə çatdırdı ki, Azərbaycan bu əlaqələrə böyük əhəmiyyət verir. Dövlətimizin başçısı bil-*

*dirdi ki, müəyyən məsələlərdə biz də bu əməkdaşlıqdan faydalanırıq və ona görə bu əlaqələrin inkişafına əhəmiyyət veririk.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan demokratik, dünyəvi, müasir dövlət qurur və bununla bağlı bütün tədbirləri həyata keçirir. Azərbaycanda bütün azadlıqlar, o cümlədən siyasi, ifadə, sərbəst toplaşma, mətbuat və internet azadlıqları hərtərəfli təmin edilib.*

*Dövlətimizin başçısı dedi ki, Azərbaycan təkcə Avropa Şurası ilə deyil, eyni zamanda, Avropa İttifaqı, NATO ilə, həmçinin digər Avropa və beynəlxalq strukturlarla da əməkdaşlıq edir.*

*Söhbət zamanı qarşılıqlı etimadın təmin olunması ilə əməkdaşlığın davam etdirilməsinin vacibliyi bildirildi.*

## BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ İLİANA İOTOVA İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 5-də Bolqarıstan Respublikasının vitse-prezidenti İliana İotova ilə görüşmüşlər.*

*Bolqarıstanın vitse-prezidenti İliana İotova 5 il bundan əvvəl Bolqarıstan Parlamentinin üzvü, indi isə ölkəsinin vitse-prezidenti qismində Azərbaycana səfər etməsindən böyük məmnunluq hissi duyduğunu bildirdi. O hələ Avropa Parlamentinin deputatı olarkən Azərbaycanla fəal işlədiyini vurğuladı. Bolqarıstanın vitse-prezidenti ölkəsinin prezidenti Rumen Radevin çox xoş sözlərini və səmimi arzularını özündə əks etdirən və ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr olunan məktubunu prezident İlham Əliyevə təqdim etdi və münasibətlərimizin gələcəkdə də çox gözəl olacağına əminliyini bildirdi.*

*Məktubdakı xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı ən xoş arzularını və salamlarını Bolqarıstan Prezidentinə çatdırmağı xahiş etdi. Bolqarıstan prezidenti Rumen Radevlə Münhen Təhlükəsizlik Konfransında qısa görüşünü xatırladan dövlətimizin başçısı iki ölkənin prezidentləri arasında bundan sonra da yaxşı əməkdaşlığın olacağına əminliyini bildirdi. Prezident İlham Əliyev İliana İotovanı Bolqarıstanın vitse-prezidenti vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı. Dövlətimizin başçısı qeyd etdi ki, onun vitse-prezident vəzifəsində ilk səfərini Azərbaycana etməsi ölkələrimiz arasında yaxın münasibətlərin yaxşı göstəricisidir. İkitərəfli münasibətlərimizin müxtəlif sahələri, o cümlədən siyasi, energetika, mədəniyyət sahələrini əhatə etdiyini vurğulayan prezident İlham*

*Əliyev Mehriban xanım Əliyevanın «Veliko Tırnovo» mədəni layihəsində fəal iştirakının ölkələrimizin bir-birinə daha da yaxınlaşması işinə töhfə verdiyini dedi. Prezident İlham Əliyev vitse-prezident İliana İotovanın IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakını Bolqarıstanın bu tədbirə verdiyi əhəmiyyətin göstəricisi kimi dəyərləndirdi.*

*Bolqarıstanın vitse-prezidenti İliana İotova Mehriban xanım Əliyevanı Birinci vitse-prezident vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi. O hələ tələbə olarkən ilk elmi işinin Trapezitsa ilə bağlı olduğunu dedi və Mehriban xanım Əliyevaya Trapezitsa Memarlıq Muzeyi Qoruğunun bərpasında fəal iştirakına görə təşəkkürünü bildirdi.*

*Mehriban xanım Əliyeva xoş sözlərə görə minnətdarlıq edərək, gələcəkdə də böyük məmnunluqla əməkdaşlığı və birgə fəaliyyəti davam etdirəcəyini vurğuladı.*

*Bolqarıstanın vitse-prezidenti İliana İotova prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ NƏBİ AVCININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Türkiyə Respublikasının Mədəniyyət və Turizm naziri Nəbi Avcının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Nəbi Avcı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətindən danışıldı, tədbirin mədəniyyətlərin və xalqların bir-birinə yaxınlaşması və bu sahədə əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi vurğulandı.*

*Dövlətimizin başçısı IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda Türkiyənin bu səviyyədə təmsil olunmasının önəmini qeyd etdi.*

*Nəbi Avcı Avropa Şurası Parlament Assambleyasının Türkiyə ilə bağlı bu yaxınlarda qəbul etdiyi ədalətsiz qərarla əlaqədar Azərbaycanın ölkəsinə verdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Dövlətimizin başçısı bu qərarın ədalətsiz olduğunu bir daha vurğuladı və Azərbaycanın bu qərarı qətiyyətlə pislədiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlarda sıx əməkdaşlığının bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Türkiyənin Mədəniyyət və Turizm naziri Nəbi Avcı Azərbaycanda turizmin inkişafının ölkəsində maraqla izlənildiyini dedi. Azərbaycanda turizm sektorunun inkişafına dövlətin xüsusi diqqət göstərdiyini vurğulayan prezident İlham Əliyev bildirdi ki,*

*məqsədimiz turizmi iqtisadiyyatın əsas sahələrindən birinə çevirməkdir.*

*Görüşdə mədəniyyət və turizm sahəsində əlaqələrin uğurla inkişaf etdiyi bildirildi, bu sahədə təcrübə mübadiləsinin aparılmasının əhəmiyyəti qeyd olundu və əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## AKADEMİK RƏFİQƏ ƏLİYEVA İLƏ VİDA MƏRASİMİNDƏ İŞTİRAK

*7 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 7-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) binasında respublikamızın tanınmış kimyaçı alimi, akademik, kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi Rəfiqə Əliyeva ilə vida mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verdilər.*

*Mərasimdə mərhumun ruhuna Quran ayəsi oxundu.*

*AMEA-nın prezidenti, akademik Akif Əlizadə görkəmli alim Rəfiqə Əliyevanın səmərəli elmi fəaliyyətindən, respublikamızda kimya elminin inkişafına verdiyi töhfələrdən danışdı. Bildirdi ki, Rəfiqə Əliyeva Azərbaycan elmində özünəməxsus yeri olan alim idi. Onun rəhbərliyi altında çox önəmli elmi-tədqiqat işləri aparılmışdır. Bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olan Rəfiqə Əliyeva 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifidir. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib.*

*Akif Əlizadə vurğuladı ki, ömrünün çox hissəsini Bakı Dövlət Universiteti ilə bağlayan Rəfiqə Əliyeva elmlə təhsilin vəhdətini yaradıb, kimya elmində özünəməxsus iz qoyub. Rəfiqə Əliyevanın fəaliyyətində kimyanın inkişafı ilə ətraf mühitin qorunmasının mühüm istiqamət olduğunu qeyd edən Akif Əlizadə onun həm də gözəl insan, gözəl ana olduğunu vurğuladı.*

*Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov ömrünün çoxunu BDU-da ixtisaslı kadrların hazırlanmasına sərf edən Rəfiqə xanımın pedaqoq kimi xidmətlərindən*

*danışdı, onun gözəl müəllim olduğunu nəzərə çatdırdı. Ölkəmizdə çoxsaylı kimyaçıların yetişməsində müstəsna xidmətləri olan Rəfiqə Əliyevanın tələbələrin sevimlisinə çevrildiyi, onun gələcəyin kimyaçılarına daim ana qayğısı ilə yanaşdığı diqqətə çatdırıldı. Bakı Dövlət Universitetində bir çox elmi tədqiqatların aparılmasında, kimya üzrə laboratoriyanın yaradılmasında mühüm rol oynayan Rəfiqə Əliyevanın ictimaiyyət arasında da böyük hörmətə sahib olduğu, həmçinin mərdlik, cəsarət, iradə kimi xüsusiyyətlərə sahib olan alimin elmi irsinin qorunacağı, xatirəsinin əbədiləşdiriləcəyi qeyd edildi, onun adının elm, təhsil, maarifçilik tarixinə qızıl hərflərlə yazıldığı bir daha vurğulandı.*

*AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev də Rəfiqə Əliyevanın elmi fəaliyyətinə nəzər saldı, onun ölkəmizdə kimya elminin inkişafındakı xidmətlərini xatırlatdı. Bildirdi ki, analitik kimya sahəsində mühüm fəaliyyəti ilə seçilən Rəfiqə Əliyeva ötən əsrin 60-cı illərindən başlayaraq, bu istiqamətdə çox dəyərli tədqiqatlar aparıb. Təsadüfi deyil ki, Rəfiqə xanım analitik kimya sahəsində AMEA-nın yeganə həqiqi üzvü olub. Alimin insani keyfiyyətlərini, xeyirxah əməllərini xatırladan Dilqəm Tağıyev onun xatirəsinin gələcək nəsillərin qəlbində daim yaşayacağını bildirdi.*

*Akademiyanın Aşqarlar Kimyası İnstitutunun direktoru, akademik Vaqif Fərzəliyev qeyd etdi ki, ziyalıların, alimlərin vəfatı xalq üçün hər zaman böyük itki sayılır. Ömrünü və fəaliyyətini Bakı Dövlət Universiteti ilə bağlamasına baxmayaraq, Rəfiqə xanımın hər zaman akademiya ilə əlaqəli olduğunu vurğulayan Vaqif Fərzəliyev onun Azərbaycan elmində xüsusi rolu ilə diqqət çəkdiyini bildirdi. Qeyd etdi ki, Rəfiqə xanımın zəkasının işığı hər zaman tələbələrinin, övladlarının üstündə olacaq və onları daim xalqa xidmətə ruhlandıracaq.*

*AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan elminə dəyərli töhfələr verən Rəfiqə Əliyevanın alim, pedaqoq adını hər zaman uca tutduğunu diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycan ziyalılığının mükəmməl mücəssəməsi olan Rəfiqə Əliyeva ölkəmizin ictimai-siyasi həyatında, elmi-pedaqoji mühitində*

*fəallığı ilə seçilib. Azərbaycanın tarixi taleyində böyük rol oynayan şəcərənin görkəmli nümayəndəsi Rəfiqə Əliyevanın sadəliyini, insani xüsusiyyətlərini vurğulayan İsa Həbibbəyli onun əziz xatirəsinin hər zaman qəlblərdə yaşayacağını bildirdi.*

*Mərhumun ailəsi adından çıxış edən qızı Fəxriyyə Xələfova Rəfiqə Əliyevanın insani keyfiyyətlərindən danışdı. «Rəfiqə xanım gözəl ana olmaqla yanaşı, bizim həyatımızın əsas müəllimi idi» – deyə vurğulayan Fəxriyyə Xələfova onun ana, həyat yoldaşı və nənə kimi əvəzsiz olduğunu bildirdi. Qeyd etdi ki, Rəfiqə xanımın yetişdirdiyi böyük alim ordusu bu gün elmin keşiyində ləyaqətlə durur və bu da deməyə əsas verir ki, onun irsi davam etdiriləcək. Fəxriyyə Xələfova əminliyini bildirdi ki, Rəfiqə xanımın xatirəsi hər zaman insanların qəlbində yaşayacaq.*

*Sonra tanınmış alimin cənazəsi son mənzilə yola salındı.*

*Mərhumun ailə üzvləri və doğmaları onunla vidalaşdılar.*

*Görkəmli alim, akademik Rəfiqə Əliyeva birinci Fəxri xiyabanda torpağa tapşırıldı.*

*Dəfn mərasimində Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iştirak etdilər.*

## FRANSA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA

Hörmətli cənab Makron!

Fransa Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Qazandığınız qələbə dost Fransa xalqının Sizə olan etimadının və irəli sürdüyünüz yeniləşmə xəttinə dəstəyinin göstəricisidir.

Mən Azərbaycan ilə Fransa arasında ikitərəfli və çoxtərəfli əlaqələrə böyük əhəmiyyət verirəm. Yüksək səviyyəli qarşılıqlı səfərlər, müxtəlif sahələrdə genişlənən faydalı əməkdaşlıq, çoxşaxəli mədəni əlaqələr Azərbaycan–Fransa diplomatik münasibətlərinin 25 illik tarixini səciyyələndirən cəhətlərdir. İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Fransa eyni zamanda, regionun ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədridir. Erməni silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində işğal edilmiş tarixi torpaqlarımız Dağlıq Qarabağ və ətrafındakı 7 rayonda etnik təmizləmə siyasəti aparılmış və 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Məclisi, ATƏT, NATO, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatların müvafiq qərar və qətnamələri vardır. Lakin Ermənistan buna məhəl qoymur. Fransa digər həmsədrlər kimi, indiki status-kvonu qəbuledilməz hesab edir. Mən Fransanın səylərinə xüsusi əhəmiyyət verir və ümidvar olduğumu bildirirəm ki, bu səylər münaqişənin ədalətli həllinə, nəhayət, öz töhfəsini verəcəkdir.

Azərbaycanın mövqeyi bundan ibarətdir ki, münaqişə ancaq beynəlxalq hüququn normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Fransa xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 may 2017-ci il*

## GÖRKƏMLİ ALİM, AKADEMİK RƏFİQƏ ƏLİYEVANIN HÜZR MƏRASİMİNDƏ İŞTİRAK

*8 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Heydər məscidində tanınmış kimyaçı alim, akademik, kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi Rəfiqə Əliyevanın hüzr mərasimində iştirak etmişdir.*

*Mərasimdə mərhumun ruhuna Quran ayəsi oxundu.*

*Akademik Rəfiqə Əliyeva ölkəmizdə kimya elminin inkişafına mühüm töhfələr verib. Onun rəhbərliyi altında çox önəmli elmi-tədqiqat işləri aparılıb. Bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olan Rəfiqə Əliyeva 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifidir. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib. Ömrünün böyük hissəsini Bakı Dövlət Universiteti ilə bağlayaraq, pedaqoji fəaliyyətlə məşğul olan Rəfiqə Əliyeva ölkəmizdə analitik kimya sahəsində yeganə qadın akademik idi.*

# 9 MAY – QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 9-da Bakıda İkinci dünya müharibəsində faşizm üzərində Qələbənin 72-ci ildönümü münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva İkinci dünya müharibəsinin veteranları ilə görüşdülər, onları böyük Qələbə münasibətilə təbrik etdilər.*

*Müharibə veteranları prezident İlham Əliyevi və Mehriban Əliyevanı Qələbə Günü münasibətilə təbrik etdilər, onlara göstərdikləri yüksək diqqətə və qayğıya görə minnətdarlıqlarını bildirdilər. Vurğuladılar ki, təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasını prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan və onun paytaxtı Bakı şəhəri gündən-günə inkişaf edir, gözəlləşir, abadlaşır.*

*Xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik edən İkinci dünya müharibəsi veteranları bildirdilər ki, dövlətimiz onlara yüksək qayğı göstərir. Onlar bu qayğıya cavab olaraq gənclərimizin vətənpərvərlik ruhunda böyümələri, Vətəninə və xalqına layiqli övlad kimi yetişmələri üçün öz bilik və bacarıqlarını əsirgəməyəcəklərini bildirdilər.*

*Dövlətimizin başçısı və xanımı müharibə veteranlarını bir daha təbrik etdilər, onlara uzun ömür və möhkəm cansağlığı arzuladılar.*

*Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. İkinci dünya müharibəsində SSRİ-nin qa-*

*zandığı şanlı Qələbədə çox böyük payı olan Azərbaycan xalqı özünün 700 min oğul və qızını cəbhəyə yola salmışdı. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Müharibə zamanı göstərdikləri igidliyə görə 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz isə partizan dəstələrinin tərkibində vuruşub. Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Müharibə illərində Sovet İttifaqında hasil olunan neftin dörddə üç hissəsi, aviasiya benzini və yüksəkkeyfiyyətli yağların 85–90 faizi Azərbaycanın payına düşürdü.*

*Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belarus, Pribaltika cəbhələrində cəsarətlə vuruşublar. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferopolun, Odessanın, Polşanın, Çexoslovakiyanın və Yuqoslaviyanın azadlığı uğrunda döyüşlərdə fəal iştirak ediblər.*

*İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsidir.*

*Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra müharibə veteranlarının hüquqlarını bərpa etdi. Ümummilli lider onları xalqımızın «qızıl fondu» adlandırırdı. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həlli istiqamətində daim mühüm addımlar atır, 9 May – Qələbə bayramı ərəfəsində onlara birdəfəlik maddi yardımlar göstərilir. Bu isə həmin kateqoriyadan olan insanların sosial vəziyyətinin daim diqqət mərkəzində olduğunu nümayiş etdirir.*

*İkinci dünya müharibəsi veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 72 il keçsə də, müharibədə misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva 2 dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə Günü münasibətilə onları təbrik etdilər, xatirə şəkli çəkdirdilər.*

*Dövlətimizin başçısı və xanımı Həzi Aslanovun qəbirüstü abidəsi önünə əklil qoydular, İkinci dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdilər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva müharibə veteranları ilə xatirə şəkli çəkdirdilər.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezident İlham Əliyevin qarşısından keçdi.*

* * *

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MUN CE-İNƏ**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının Prezidenti vəzifəsini tutmaq üçün keçirilən seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Mən Koreya Respublikası ilə ikitərəfli və çoxtərəfli əlaqələrin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verirəm. Məmnunluqla qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında münasibətlər ötən illər ərzində çoxşaxəli və dinamik xarakter almışdır. Dost ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığımızın müxtəlif sahələrdə, xüsusilə də siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə uğurlu inkişafı diplomatik münasibətlərimizin 25 illik dövrünü səciyyələndirir.

İnanıram ki, birgə səylərimizlə ölkələrimiz arasında mövcud dostluq və əməkdaşlıq əlaqələrini xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra daha da möhkəmləndirəcək və genişləndirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Koreya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 may 2017-ci il*

## «OIC JOURNAL»INDA « İSLAM HƏMRƏYLİYİNİN GÜCLƏNDİRİLMƏSİ ZAMANIN ÇAĞIRIŞIDIR» ADLI MƏQALƏ

*10 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 10-da İslam Əməkdaşlıq Təşkilatının rəsmi mətbuat orqanı olan «OIC Journal»ında «İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır» sərlövhəli məqaləsi dərc edilmişdir.*

*Məqaləni təqdim edirik.*

* * *

Qədim tarixə, zəngin mədəni irsə, böyük təbii və insan resurslarına malik islam aləmi müasir dünya nizamının, beynəlxalq münasibətlər sisteminin yaranması və inkişafında əhəmiyyətli rol oynamışdır. İslam dini həmişə sülh, tolerantlıq, humanizm ideyalarını təlqin etmiş və dünya sivilizasiyasına sanballı töhfələr vermişdir.

Müsəlman dünyasının mühüm tərkib hissəsi olan Azərbaycan islam mədəni irsinin yaranması və qorunub saxlanılmasında önəmli məkanlardan biri kimi tanınır. VII–VIII əsrlərdən etibarən Azərbaycan ərazisində geniş yayılmış islam dini xalqımızın mənəvi həyatını daha da zənginləşdirmiş, tarixin sonrakı mərhələlərində onun həyat tərzini və birgəyaşayış normalarını müəyyən edən əsas amillərdən birinə çevrilmişdir. Ölkə ərazisində Əshabi-Kəhf ziyarətgahı, Qafqazın ən qədim məscidi – 743-cü ildə əsası qoyulmuş Şamaxı Cümə məscidi, Bibiheybət məscid-ziyarətgah kompleksi, Gəncə İmamzadə kompleksi və digər çoxsaylı abidələr Azərbaycanın islam dini-mədəni dəyərlər sisteminə əhəmiyyətli töhfəsi kimi qiymətləndirilə bilər. Xalqımız həmişə öz tarixi keçmişinə, mənəvi sərvətlərinə hör-

mətlə yanaşmış, hətta 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin dövlət simvolu olan bayrağında islama mənsubluğunu əks etdirmişdir. SSRİ-nin tərkibində olduğu dövrdə basqılara məruz qalmasına baxmayaraq, xalqımız dini ibadətgahların və məscidlərin bir hissəsini qoruyub saxlamış, dini dəyərlərinə sadiq qalmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanda din və vicdan azadlığı bərqərar olmuş, dini abidələrin, məscidlərin, ibadətgahların bərpası sahəsində mühüm işlər görülmüşdür. Əgər SSRİ dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, 2017-ci ilin əvvəlinə onların sayı 2166-ya çatıbdır. Hazırda ölkədə 306 məscid dövlət tərəfindən tarixi abidə kimi qorunur. Bibiheybət məscid-ziyarətgah kompleksi, Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi, Gəncə İmamzadə kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilərək, dindarların istifadəsinə verilibdir.

Qeyd edim ki, 25 illik müstəqilliyimiz dövründə Azərbaycan bütün sahələrdə böyük uğurlara imza atıbdır. XX əsrin 90-cı illərindən başlayaraq, transmilli enerji layihələrinin həyata keçirilməsi bizə milli iqtisadiyyatımızı inkişaf etdirmək, qeyri-neft sahəsini iqtisadiyyatın aparıcı seqmentinə çevirmək üçün geniş imkanlar yaratdı. Son 10 ildə ölkənin bütün infrastrukturu modernləşdirilib, enerji təhlükəsizliyi tam, ərzaq təhlükəsizliyi isə əsasən təmin edilib, yoxsulluq və işsizliyin səviyyəsi 10 dəfə azalaraq, 5 faizə düşübdür. Müasir nəqliyyat-tranzit infrastrukturuna malik Azərbaycan Şərq–Qərb və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasında fəal iştirak edir və artıq qlobal nəqliyyat qovşağına çevrilir. XXI əsrin layihəsi kimi xarakterizə edilən və hazırda uğurla reallaşdırılan «Cənub Qaz Dəhlizi» böyük Azərbaycan qazının dünya bazarına çıxarılmasına şərait yaradacaqdır.

Müstəqillik dövründə islam aləmi ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin pri-

oritet istiqamətlərindən birini təşkil edir. Azərbaycanın ilk diplomatik missiyaları məhz müsəlman ölkələrində fəaliyyətə başlayıb, dövlətimiz qısa zamanda İslam Əməkdaşlıq Təşkilatı (İƏT), İSESKO kimi müsəlman dünyasını birləşdirən qurumların fəal üzvünə çevrilibdir. Azərbaycan islam həmrəyliyinin möhkəmlənməsinə töhfə verən İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi, İƏT-ə üzv dövlətlərin Jurnalistlər Assosiasiyası kimi yeni qurumların yaradılmasının təşəbbüskarı olubdur. Eləcə də ölkəmiz müsəlman dünyası ilə əlaqələrin genişləndirilməsinə xidmət edən ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatları qurub, bu çərçivədə həyata keçirilən bir çox layihələr qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə yönəlibdir.

Qarşıdakı dövrdə islam ölkələri ilə iqtisadi sahədə əməkdaşlığın siyasi əlaqələrimizin səviyyəsinə çatdırılması bizim əsas hədəflərimizdən biridir. Biz bütün sahələrdə islam dünyası ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə xüsusi önəm veririk.

Birləşmiş Millətlər Təşkilatı başda olmaqla, beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı dəstək bizim mövqelərimizi gücləndirir. Qeyd edim ki, 2012-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsində islam ölkələrinin böyük rolu olmuşdur. Biz bunu islam ölkələri ilə siyasi əlaqələrimizin yüksək səviyyəsinin, qarşılıqlı dəstək və həmrəyliyin təzahürü kimi qəbul edirik. Azərbaycan da BMT Təhlükəsizlik Şurasının üzvü olduğu dövrdə islam dünyasının maraqlarına xidmət edən bir sıra təkliflər irəli sürmüş və həyata keçirmişdir. Məsələn, ölkəmiz terrorçuluğa qarşı mübarizə üzrə yüksək səviyyəli beynəlxalq konfransın keçirilməsi təşəbbüsü ilə yanaşı, həm də BMT və İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın genişləndirilməsi mövzusunda yüksək səviyyəli görüşün təşkilinə nail olmuşdur.

Etiraf etməliyik ki, bu gün islam aləmi ciddi çağırışlar, öz həllini gözləyən çoxsaylı problemlərlə üz-üzədir. Onların sırasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini,

Fələstin və Kəşmir kimi problemləri, Yaxın Şərq dövlətlərində yaranmış qarşıdurmaları, qaçqın böhranını və digər məsələləri qeyd etmək olar. Məlumdur ki, ermənilər son 200 il ərzində Azərbaycanın tarixi torpaqlarını zəbt etmək və həmin ərazilərdə öz dövlətlərini qurmaq planlarını reallaşdırmaq məqsədilə qanlı aksiyalar həyata keçiriblər. İndiki Ermənistan dövləti də məhz Azərbaycanın əzəli torpaqlarında yaradılıbdır. Bu təcavüzkar siyasəti davam etdirən Ermənistan ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan ərazilərinin 20 faizini işğal edib, nəticədə 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib, soydaşlarımıza qarşı etnik təmizləmə və soyqırımı həyata keçirilibdir. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Azərbaycana qarşı güc tətbiqini və ərazilərinin işğalını qınayan, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını təsdiq edən 4 qətnamə qəbul edibdir. Bu kimi sənədlər ATƏT, Avropa Şurası, Avropa İttifaqı, «Qoşulmama Hərəkatı» və digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən də qəbul olunubdur. İƏT Azərbaycanın ərazi bütövlüyünü və haqlı mövqeyini dəstəkləyən, Xocalı soyqırımını tanımağa, Ermənistanın işğalçılıq siyasətinə qarşı praktiki addımlar atmağa səsləyən çoxsaylı qətnamələr qəbul edib, məsələ təşkilatın Xarici İşlər Nazirləri Şurasında dəfələrlə müzakirə olunub, həmçinin 2016-cı ilin sentyabrında İƏT çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Kontakt qrupu təsis edilib və onun ilk iclası keçirilibdir. Hesab edirəm ki, Ermənistanı açıq-aydın təcavüzkar kimi tanıyan BMT və İƏT-in qətnamələri işğalçı dövlətlə münasibətləri inkişaf etdirmək niyyətində olan bütün müsəlman ölkələri üçün əsas mesaj olmalıdır. Çünki Ermənistanın işğalçılıq siyasəti təkcə Azərbaycanın dini və mədəni sərvətlərinə qarşı deyil, həm də ümumilikdə islamın tarixi-mədəni irsinə qarşı olan hücumdur. Ermənistanın işğal etdiyi ərazilərdə islam mədəniyyətinə aid yüzlərlə abidə, məscid, ibadətgah, qəbiristanlıq və s. dağıdılıb, bütün bunlar ATƏT-in faktaraşdırıcı missiyaları tərəfindən təsdiq olunubdur. Onu da bildirmək istərdim ki, Pakistan və Səudiyyə Ərəbistanı Ermənistanı Azərbaycan torpaqlarını işğal

etdiyinə görə rəsmən tanımaqdan imtina edib, Türkiyə isə bu ölkə ilə heç bir əlaqə qurmayıbdır. Hazırda 5 müsəlman dövləti Xocalı soyqırımını rəsmən tanıyıbdır. Biz bütün bunları qardaş münasibəti və real dəstəyin nümunəsi hesab edirik.

Azərbaycan islam dünyasında mövcud münaqişələrin həllinə öz töhfəsini əsirgəmir, problemlərin ədalətli həlli ilə bağlı müzakirələrdə birmənalı olaraq beynəlxalq hüququ müdafiə edir və öz prinsipial mövqeyini həmişə qoruyub saxlayır. Ölkəmiz 2013-cü ildə «Qüds şəhərinin inkişafına dair strateji planın maliyyələşdirilməsi üçün donor konfransı»na, eləcə də «Fələstin dövlətinin dəstəklənməsi üçün islam maliyyə təhlükəsizlik şəbəkəsinin yaradılması» adlı konfransa ev sahibliyi edib və bu məqsədlər üçün ciddi məbləğdə ianə ayırıbdır.

İslam dini-mənəvi dəyərlərinə sıx bağlı olan Azərbaycan həm də dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. Biz Azərbaycanda mədəni müxtəlifliyin, etnik və dini tolerantlıq mühitinin təmin olunmasını böyük nailiyyət hesab edirik. Ölkəmizdə heç vaxt dini və milli ayrı-seçkilik olmayıb, bütün dinlərin nümayəndələri dinc və qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Bu bizim həyat tərzimizdir, irəliyə doğru inamla getməyin ən optimal yoludur.

Biz islamofobiyaya qarşı açıq şəkildə çıxış edirik və dünyada islam dəyərlərinin təbliği üçün ardıcıl iş aparırıq. Azərbaycan məşhur Luvr Muzeyində islam bölməsinin təşkilində fəal iştirak edib, həmçinin Vatikanda öz sərgisini nümayiş etdirən ilk müsəlman ölkəsi olubdur. Bakı şəhəri 2009-cu ildə İSESKO-nun dəstəyi ilə «İslam mədəniyyətinin paytaxtı» elan edilib, 2018-ci ildə isə bu şərəfli ada bizim digər qədim şəhərimiz olan Naxçıvan layiq görülübdür.

Azərbaycan mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün praktiki addımlar atır. Hər il Mədəniyyətlərarası Dialoq Forumu, Beynəlxalq Humanitar Forum və digər bu kimi böyük beynəlxalq tədbirlərə ev sahibliyi edən Bakı şəhəri artıq «Humanitar Davos» adını qazanıbdır. 2016-cı ildə biz Yaxın Şərq və Afrika ölkələrindən Avropaya pənah aparan miqrantların necə

aqressiv qarşılandığının, islamofob meyillərin açıq şəkildə özünü büruzə verdiyinin şahidi olduq. Belə vəziyyətdə Azərbaycan 2016-cı ili «Multikulturalizm ili» elan edərək, bir daha dünyaya göstərdi ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, eyni səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Biz nəinki ölkə daxilində etnoslararası, dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həm də dünyaya tolerantlıq və multikulturalizmin mütərəqqi modelini təqdim edirik.

Həm Avropa Şurasına, həm də İƏT-ə üzv olan nadir ölkələrdən biri kimi, Azərbaycan sivilizasiyalararası dialoqun möhkəmlənməsinə əməli töhfə verir. Məlum olduğu kimi, 2008-ci ildə Bakıda Avropa Şurasına üzv ölkələrin Mədəniyyət nazirlərinin toplantısı keçirilmiş və həmin tədbirə həm də İƏT nümayəndələri dəvət olunmuşlar. 2009-cu ildə isə İƏT-ə üzv ölkələrin nazirlərinin Bakıda keçirilən toplantısına Avropa Şurası ölkələrinin nazirləri də dəvət edilmişlər. Hesab edirəm ki, bu, dünya miqyasında çox mühüm hadisə olmuş və layiqli şəkildə sivilizasiyalararası dialoqun «Bakı prosesi» kimi tarixə düşmüşdür.

2015-ci ildə Azərbaycan I Avropa oyunlarına ev sahibliyi etmiş və bu mühüm idman bayramını Yay Olimpiya oyunları səviyyəsində keçirmişdir. Bu il isə Bakıda IV İslam Həmrəyliyi oyunları keçiriləcəkdir. Qısa müddət ərzində Avropa və İslam Həmrəyliyi oyunlarının bir-birini əvəzləməsi rəmzi məna daşıyır və Azərbaycanın sivilizasiyaların, dinlərin dialoq məkanına, iqtisadi və mədəni körpüyə çevrildiyini göstərir. Biz bu nadir mövqemizi dünyada sülhün, multikulturalizmin, dözümlülüyün bərqərar olması naminə istifadə edirik.

Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı vardır. Buna görə də 2017-ci ilin ölkəmizdə «İslam həmrəyliyi ili» elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. «İslam həmrəyliyi ili»nin əsas məqsədi müsəlman aləmində birliyi möhkəmləndirmək, islamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir. Hesab edirəm ki, bu ilin mayında Bakıda keçiriləcək İslam Həmrəyliyi oyunları təkcə idman yarışı olmayacaq, eyni zamanda, bütün islam dünyasının birlik, həmrəylik günləri olacaqdır.

## FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2017-ci il*

*Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü günüdür. Artıq 14-cü ildir ki, qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.*

*Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü Azərbaycanın hər yerində olduğu kimi, dünya ölkələrində də geniş qeyd edilir. Ölkəmizin bütün bölgələrində bu əlamətdar gün – Azərbaycan xalqının xilaskarı, müasir müstəqil dövlətimizin banisi, respublikamızı sarsılmaz, dönməz yüksəliş yoluna çıxarmış əbədi inkişaf strategiyasının müəllifi ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə silsilə tədbirlər keçirilir, dahi şəxsiyyətin Vətən və dövlət qarşısındakı xidmətləri minnətdarlıqla xatırlanır. Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, eləcə də diasporumuzun təmsilçiləri ümummilli lider Heydər Əliyevin doğum günü münasibətilə tədbirlər keçirərək, görkəmli siyasi xadimin zəngin və çoxşaxəli fəaliyyətini, Vətən və xalq qarşısındakı xidmətlərini geniş təbliğ edirlər.*

*Xalqımızın xilaskar oğlunun hər doğum günündə olduğu kimi, bu il mayın 10-da da səhər tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları axın-axın Fəxri xiyabana üz tuturlar. Ulu öndər Heydər Əliyevin məzarı önünə əklillər, təzə-tər güllər qoyulur, əziz xatirəsi dərin ehtiramla yad edilir, ruhuna dualar oxunur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları və yaxınları xalqımızın xilaskar oğlunun doğum günündə onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəlmişlər.*

*Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu və xatirəsini ehtiramla andı.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Sonra dövlətimizin başçısı və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək, məzarı üzərinə gül dəstələri qoydular.*

*Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin üzvləri iştirak edirdilər.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ KAMPANİYASINDA İŞTİRAK

*10 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Qala–Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə kampaniyasında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış oldular. Ekologiya və Təbii Sərvətlər naziri Hüseyn Bağırov prezident İlham Əliyevə 2008–2017-ci illərdə salınmış yaşıllıqlar barədə məlumat verdi. Bildirildi ki, dövlət başçımızın tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq, bu illərdə ölkədə ümumilikdə 5 milyon 200 minə yaxın ağac əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə daha çox üstünlük verilib. Təkcə bu ilin ötən dövründə ölkədə aqrobağların yaradılması məqsədilə 1 milyondan çox aqrar əhəmiyyətli ağaclar əkilib.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.*

*Mayın 10-da Qala–Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində 9000-ə yaxın aqrar əhəmiyyətli və digər növ ağac əkildi.*

*Dövlətimizin başçısı və xanımı ağac əkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkli çəkdirdilər.*

*Bütün bunlar bir daha təsdiqləyir ki, ümummilli lider Heydər Əliyevin ölkəmizdə ekologiyanın qorunması ilə bağlı*

*əsasını qoyduğu ənənə bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təsadüfi deyil ki, ölkəmizdə reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii mühitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Bunun bariz nümunəsi prezident İlham Əliyevin 2010-cu ili ölkədə «Ekologiya ili» elan etməsi oldu. Dövlətimizin başçısı neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş torpaqların, lay suları altında qalan ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı əməli işlər görülüb, ölkədə milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıbdır. Bir vaxtlar neft tullantıları ilə çirklənmiş indiki «Ağ şəhər» və digər ərazilərdə görülən işlərin nəticəsində neft çöküntüləri təmizlənib. Bu ərazilər paytaxtın müasir yaşayış və mədəniyyət komplekslərinə, prezident İlham Əliyevin qeyd etdiyi kimi, müasir ekoloji layihələrə çevrilibdir. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsinin, həmçinin qanunsuz ağac kəsilməsinə qarşı dövlət başçımızın nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb – insanların sağlamlığının qorunması.*

*Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yaşıllıqların artırılmasına, mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Fondun vitse-prezidenti, «İDEA» İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu vardır.*

*Müxtəlif vaxtlarda həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edir. Bu gün vətəndaşların ağac əkmə aksiyalarında, yaşıllıqlar salınmasında, şəhər və rayonlarımızda təmizlik işlərində fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin fikrincə, Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 94-cü İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİNİN 13 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*10 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümüdür. Bu gün Azərbaycan xalqı ulu öndərin əziz xatirəsinə bir daha dərin ehtiramını ifadə edir. Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edib, xalq üçün yaşayıb, yaradıbdır. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik edibdir. Hər iki dəfə də Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoyubdur. Bu onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparıb, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin edibdir. 1969-cu ildə ilk dəfə sovet

Azərbaycanına rəhbərliyə başlayanda ovaxtkı Azərbaycan Respublikasının sosial-iqtisadi göstəriciləri, demək olar ki, sovet məkanında ən aşağı səviyyədə idi. Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində Azərbaycan Respublikası ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir və əgər Sovet İttifaqında Rusiya Federasiyasından başqa, iki özünü təmin edən və donor respublika var idisə, onlardan biri Azərbaycan idi. Məhz onun rəhbərliyi və təşəbbüsü ilə bir çox önəmli layihələr icra olunmuşdur, kənd təsərrüfatı sürətlə inkişaf etmişdir. Kənddə yaşayanlar öz həyat səviyyələrini yaxşılaşdıra bilmişlər. O vaxt Azərbaycanda sənayenin inkişafı çox sürətlə gedirdi. Neft sənayesi inkişaf edirdi. Bir çox önəmli infrastruktur layihələri icra edilmişdir ki, bu gün də müstəqil Azərbaycan üçün onların böyük əhəmiyyəti vardır. Heydər Əliyevin rəhbərliyi ilə o vaxt Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya qarşı çox ciddi mübarizə aparılırdı və bu göstəriciyə görə də Azərbaycan sovet məkanında fərqlənirdi.

Bir sözlə, 1969–1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə respublika çox böyük uğurlu yol keçmişdir. Heydər Əliyevin fəaliyyəti sovet rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilirdi. Təsadüfi deyil ki, 1982-ci ildə hakimiyyətə gəlmiş Yuri Andropov ilk təyinatını Heydər Əliyevi Moskvaya dəvət etməklə etdi. Yuri Andropov hakimiyyətə geniş islahatlar gündəliyi ilə gəlmişdi. Nizam-intizamın möhkəmləndirilməsi, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizənin aparılması, iqtisadi islahatlar o proqramın tərkib hissələri idi. Əlbəttə, Heydər Əliyev kimi böyük şəxsiyyət, lider bütün bu yeni meyarlara tam cavab verirdi.

Bakıdan Moskvaya gedəndən sonra Heydər Əliyev üçün yeni dövr başlandı. Heydər Əliyev Sovet İttifaqının rəhbərliyində ən yüksək vəzifələrdən birini tuturdu, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini, Siyasi Büronun üzvü idi. Onun kurasiyasında bir çox sahələr var idi ki, o sahələr Heydər Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf etməyə başlamışdı. Azərbaycanda mövcud vəziyyət, Azərbaycanın problemləri onu daim maraqlandırırdı və o çalışırdı ki, yeni imkanlardan istifadə

edərək, Azərbaycan Respublikasına kömək etsin. O vaxt Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı önəmli qərarlar qəbul edilmişdi.

Ancaq əfsuslar olsun ki, Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanda işlər yavaş-yavaş tənəzzülə uğramağa başladı. Bu tənəzzül özünü müxtəlif sahələrdə büruzə verirdi. Artıq o dinamika hiss olunmurdu. Ancaq Heydər Əliyevin müəyyənləşdirdiyi yol bu dövrdə də Azərbaycanın inkişafına xidmət edirdi və yeganə təkanverici qüvvə idi.

Bildiyiniz kimi, 1987-ci ildə Heydər Əliyev tamamilə əsassız ittihamlarla bütün vəzifələrdən kənarlaşdırıldı. Bunun səbəbləri haqqında geniş ictimaiyyətdə kifayət qədər məlumat var. Sovet rəhbərliyində ən fəal, işgüzar və nəticə verən şəxs heç bir əsas olmadan bütün vəzifələrdən kənarlaşdırıldı. Burada şəxsi-qərəzlik məsələləri öz rolunu oynamışdı. Heydər Əliyev böyük şəxsiyyət idi, həmişə bütün məsələlərlə bağlı öz mövqeyini müdafiə edirdi, o vaxt yenidənqurma adı altında aparılan bir çox işlərə tənqidi yanaşırdı, onları qəbul etmirdi. Bilirdi ki, onların heç bir səmərəsi olmayacaq, əksinə, bunlar çox böyük zərər gətirə bilər. Əlbəttə, belə bir müstəqil şəxsiyyətin, özü də sovet məkanında böyük nüfuza malik olan şəxsiyyətin mövcudluğu o vaxt öz imkanlarına inanmayan, təsadüf nəticəsində hakimiyyətin zirvəsinə qalxan şəxsin xoşuna gələ bilməzdi. Bir də, əlbəttə ki, Heydər Əliyevin istefasını ona qarşı olan paxıllıq, qısqanclıq və digər mənfi xüsusiyyətlər şərtləndirdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevə qarşı o vaxt sovet məkanında formalaşan erməni qruplaşmaları da rol oynamışdı. Əfsuslar olsun ki, burada, Azərbaycanda donos, anonim məktub yazanlar, vaxtilə rüşvətxorluğa, digər pozuntulara görə onun tərəfindən cəzalandırılan ünsürlər də öz məkrli məktubları ilə Heydər Əliyevə zərbə vurmaq, ondan qisas almaq üçün çirkin əməllər törədirdilər.

Heydər Əliyevin istefasından sonra Azərbaycanın problemləri başlandı. İki həftə keçmədən erməni separatçıları məsələ qaldırdılar ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməlidir. Beləliklə, Dağlıq Qarabağ probleminin əsası qoyuldu, birinci addım atıldı.

Əfsuslar olsun ki, ovaxtkı sovet rəhbərliyi həmin separatçıların fəaliyyətinə heç bir məhdudiyyət qoymadı, heç bir reaksiya vermədi və nəticə etibarilə bu meyillər Sovet İttifaqının dağılmasına gətirib çıxardı. Sovet İttifaqının dağılmasının səbəbləri kifayət qədər çoxdur. Ancaq onun əsas səbəbləri, əlbəttə ki, yanlış milli siyasət olmuşdur. Sovet İttifaqını böyük dövlət kimi saxlayan məhz düzgün milli siyasət idi. Ancaq 1985-ci ildən sonra bu siyasətə cavabdehlik daşıyan şəxslər ya öz məsuliyyətini dərk edə bilmirdilər, ya da ki, qəsdən çox ziyanlı addımlar atırdılar. Onların arasında Dağlıq Qarabağdakı erməni millətçilərinin, separatçılarının vaxtında cəzalandırılmaması məsələsi xüsusi yer tutur. Dağlıq Qarabağ münaqişəsindən sonra digər yerlərdə də toqquşmalar baş verdi və nəticə etibarilə Sovet İttifaqı dağıldı.

Heydər Əliyev 1987–1990-cı illərdə təqaüdçü həyatını yaşayırdı. 1990-cı ildə xalqımıza qarşı qanlı 20 Yanvar cinayəti törədildi. Bu cinayətin də başında dayanan məhz ovaxtkı sovet rəhbəri idi. Əfsuslar olsun ki, o, bu günə qədər bu və digər cinayətlərə görə məsuliyyət daşımır və bu məsuliyyətdən yayına bilmişdir.

Heydər Əliyev xalqımızın ağır anlarında yenə də göstərdi ki, xalqla bir yerdədir. Yaxşı yadımdadır, 1990-cı il yanvarın 21-də O, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə getdi – mən fəxr edirəm ki, onun yanında idim – və orada böyük bir izdiham yarandı. Oraya yığışan azərbaycanlılar öz etirazlarını hansısa formada ifadə etməyə çalışırdılar. Biz oraya yaxınlaşanda sakitlik idi. İnsanlar sadəcə olaraq, nümayəndəliyin önündə dayanmışdılar, sanki nəyisə gözləyirdilər və Heydər Əliyev gəldi, onlar onun simasında yenə də lideri gördülər. Baxmayaraq ki, heç bir vəzifə daşımırdı, 3 il idi təqaüddə idi. Eyni zamanda, ona qarşı həm sovet, həm də Azərbaycan mətbuatında təşkil edilmiş çirkin, böhtan xarakterli yazılar gedirdi. Ona qarşı çox ədalətsiz və çirkin kampaniya aparılırdı. Ancaq insanların qəlbində Heydər Əliyev milli lider və güclü şəxsiyyət kimi yaşayırdı. İnsanlar onu görəndə kənara çəkildilər və biz açılan o canlı dəhlizlə binaya daxil olduq. Mətbuat konfransı təşkil edildi və Heydər Əliyev sovet

rəhbərliyini, onun siyasətini qətiyyətlə pislədi, Azərbaycan xalqına başsağlığı verdi və sovet hakimiyyətinin hərəkətlərinə öz kəskin münasibətini bildirdi.

Deyə bilərəm, Sovet İttifaqında bəlkə də ilk hadisə idi ki, sovet rəhbərliyi, onun başında dayanan şəxs açıq mətbuat konfransında belə pislənildi. Onu da qeyd etməliyəm ki, Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağılacaq.

Yəni bu addımı atmaqla, Heydər Əliyev ilk növbədə, xalqla bir yerdə olduğunu, cəsarətini, milli ruhunu göstərdi. Göstərdi ki, onun üçün Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Göstərdi ki, ən ağır faciəvi günlərdə O, xalqla bir yerdədir. Təbii ki, ondan sonra ona qarşı aparılan kampaniya daha da eybəcər formalar aldı. Ona qarşı yenə də mətbuat kampaniyaları aparılırdı, təzyiq göstərilirdi. Bizdə olan məlumata görə, sovet rəhbərliyi onun həbsi ilə bağlı qərar da qəbul etmişdi.

Ondan sonrakı tarixi Azərbaycan ictimaiyyəti yaxşı bilir. Heydər Əliyev Kommunist Partiyasının sıralarından çıxıb Azərbaycana gəldi. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi sovet rəhbərliyinin göstərişi ilə oturub-dururdu və Heydər Əliyevə qarşı Bakıda da ədalətsizlik edildi. Təşkil edilmiş insanlar aeroportda mitinq keçirdilər, onun gəlişinə maneçilik törətməyə çalışdılar və digər xoşagəlməz, insana yaraşmayan addımlar atdılar.

Heydər Əliyev Naxçıvana üz tutdu və bu da, hesab edirəm ki, tarixi zərurət idi. Çünki o vaxt Naxçıvan təhlükə altında idi. Erməni qəsbkarları Naxçıvana da öz çirkin əllərini uzatmışdılar. Tam əminliklə deyə bilərəm ki, əgər o vaxt Heydər Əliyev Naxçıvanda olmasaydı, Naxçıvan da işğal oluna bilərdi. O, Naxçıvanı qorudu, naxçıvanlılar da onu qorudular. O vaxt Naxçıvanda da qanlı döyüşlər gedirdi və özünümüdafiə qüvvələri erməni qəsbkarlarını yerinə oturtdu.

Heydər Əliyev Naxçıvanda yaşayırdı, işləyirdi. Xalq onu dəstəkləyirdi və o da xalq üçün yaşayırdı. O vaxt Naxçıvanda önəmli qərarlar qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyətinin

bayrağı rəsmi bayraq kimi qəbul edildi. Sovet İttifaqının saxlanılmasına dair referendum Naxçıvanda keçirilmədi. Naxçıvan Respublikasının adından «Sovet Sosialist» sözləri çıxarıldı. Bu, müstəqilliyə aparan ilk addımlar idi. Naxçıvanda Yeni Azərbaycan Partiyası öz birinci təsis konfransını keçirdi və beləliklə, Azərbaycanda siyasi sistem formalaşdı. Əlbəttə ki, xalq da bunu bilirdi, görürdü, həm Naxçıvanda, həm Bakıda. Xalq Heydər Əliyevin Bakıya gəlməsini səbirsizliklə gözləyirdi.

Sonra AXC–Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti nəticəsində ölkəmiz çox ağır problemlərlə üzləşdi. Şuşa, Laçın, Kəlbəcər rayonları işğal altına düşdü. Beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yarandı. AXC–Müsavat cütlüyü ölkənin ərazi bütövlüyünü müdafiə etmək əvəzinə, Azərbaycanda vətəndaş müharibəsinə start verdi. Gəncəni bombalamaq istəyirdilər. Orada torpaqlar əldən gedirdi, bunlar da burada öz laxlayan hakimiyyətini saxlamaq üçün Gəncə şəhərini bombalamaq istəyirdilər. Əlbəttə ki, Azərbaycan xalqı o səriştəsiz hakimiyyətə dözə bilməzdi, cəmi 1 il dözə bildi və 1993-cü ildə Heydər Əliyevi hakimiyyətə dəvət etdi.

O da bir dönüş nöqtəsi idi. Çünki Azərbaycan çox ağır vəziyyətlə üzləşmişdi. Həm siyasi, həm hərbi böhran, iqtisadi tənəzzül yaşanırdı və əlbəttə ki, ölkəmizin gələcək taleyi çox qaranlıq idi. Xalq o ağır günlərdə yeganə nicat yolunu Heydər Əliyevdə görürdü və o da xalqın etimadını həmişə olduğu kimi doğrultdu. Onun rəhbərliyi ilə aparılan siyasət qısa müddət ərzində Azərbaycanda sabitliyə, inkişafa gətirib çıxardı. Baxmayaraq ki, hələ 1994-cü və 1995-ci illərdə 2 dəfə dövlət çevrilişinə cəhd göstərildi və o cəhdin də qarşısını Azərbaycan xalqı aldı. Heydər Əliyev o vaxt da liderlik keyfiyyətlərini nümayiş etdirdi, xalqa televiziya vasitəsilə müraciət edərək, onu dövləti müdafiə etməyə dəvət etdi. Heydər Əliyevin müraciətinə cavab olaraq, on minlərlə insan meydanlara, küçələrə, Prezident Administrasiyasının önünə toplaşdı və beləliklə, nə 1994-cü ildə, nə də 1995-ci ildə dövlət çevrilişinə cəhd alınmadı.

1996-cı ildən isə artıq sabitlik, inkişaf dövrü başlanır. Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev bir çox önəmli

təşəbbüslər irəli sürdü. O vaxt dövlətçiliyin əsasları qoyuldu, azərbaycançılıq ideologiyasının təqdimatı oldu və xalq da buna çox müsbət yanaşdı. Bu gün də azərbaycançılıq fəlsəfəsi bizim mühüm ideoloji əsasımızdır. O vaxt ciddi iqtisadi islahatlar aparıldı. Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandı. Bu gün də «Əsrin müqaviləsi»nin əhəmiyyətini hər bir Azərbaycan vətəndaşı gündəlik həyatda görür. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi. Abadlaşan şəhərlər, gözəlləşən ölkəmiz, yaradılan infrastruktur və inkişafda olan Vətənimiz – bunun əsas səbəbi o vaxt Azərbaycana böyük həcmdə xarici sərmayənin gətirilməsi idi.

1993–2003-cü illər sabitlik, inkişaf illəri oldu. Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu vardır. O da düşünülmüş siyasətdir, cəsarətdir, müstəqil siyasət və addımlardır. Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına son müraciətində gördüyü işlər haqqında danışdı və eyni zamanda, dedi ki, hələ onun bir çox planları var. O öz ümidini ifadə etdi ki,  görə bilmədiyi işləri onun davamçıları görəcək və belə də oldu.

2003-cü ildən bu günə qədər Heydər Əliyev siyasəti yaşayır, yeni formalarla zənginləşir, Azərbaycan inkişaf edir. Heydər Əliyev Azərbaycana sabitlik gətirdi. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və bizdə olan sabitlik xalqın iradəsinə əsaslanır. Sabitliyin mənbəyi də Azərbaycan xalqının iradəsidir. 2003-cü, 2008-ci, 2013-cü illərdə keçirilmiş prezident seçkiləri bir daha Azərbaycan xalqının iradəsini ifadə etdi. Keçən il keçirilmiş referendum da Azərbaycan xalqının mütləq əksəriyyəti tərəfindən dəstəkləndi. Bu gün xalq–iqtidar birliyi ən yüksək səviyyədədir və sabitliyin əsasını qoyan, bax, bu amillərdir.

Heydər Əliyev 1993-cü ildə Azərbaycanda dərin siyasi islahatlara start verdi. O, başqa yol da seçə bilərdi. Ancaq həmişə deyirdi ki, bizim yolumuz demokratik inkişaf yoludur. Siyasi islahatların aparılması ilə Azərbaycanda demokratiyanın inkişafına çox böyük təkan verildi. Bu gün Azərbaycanda bütün azadlıqlar vardır. Azərbaycan cəmiyyəti azadlıq şəraitində yaşayır, siyasi islahatlar

davam etdirilir. Biz demokratik yolumuza sadiqliyimizi dəfələrlə göstərmişik. Heydər Əliyev 1993-cü ildə uğurlu xarici siyasət aparmağa başladı. Bu siyasət nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. O vaxta qədər Azərbaycan haqqında dünyada, ümumiyyətlə, məlumat yox idi, ya da ki, erməni lobbiçiləri dünya ictimaiyyətinə ölkəmiz haqqında yanlış, təhrif edilmiş məlumat çatdırırdılar. Heydər Əliyev o informasiya blokadasını dağıda bildi. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Azərbaycanda bir çox önəmli beynəlxalq tədbirlər, forumlar keçirilir. Azərbaycan 155 ölkənin dəstəyi ilə dünyanın ən ali orqanı olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. Biz bu istiqamətdə də Heydər Əliyevin siyasətinə sadiqliyimizi göstərdik, onun siyasətini davam etdirdik.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda da biz Heydər Əliyev kimi, prinsipial mövqemizi müdafiə edirik və bu mövqe gündən-günə güclənir. 2003-cü ildən bu günə qədər aparıcı beynəlxalq təşkilatların qərarları, qətnamələri də bunu təsdiqləyir. Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı – bütün bu təşkilatlar münaqişə ilə bağlı bizim mövqemizi əks etdirən ədalətli qərarlar, qətnamələr qəbul ediblər və Ermənistanın işğalçı siyasətini pisləyiblər. Artıq bu illər ərzində Xocalı soyqırımını dünyanın bir çox ölkələri rəsmən soyqırımı kimi tanıyıb və bu yaxınlarda Dağlıq Qarabağda keçirilən qondarma «referendum»u heç kim tanımayıb. Minsk qrupuna həmsədrlik edən ölkələr də bəyan ediblər ki, bu «referendum»u tanımırlar, qonşu ölkələr də eyni bəyanatları veriblər, beynəlxalq təşkilatlar da bu bəyanatlarla bir daha göstərdilər ki, onlar ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşırlar və «Dağlıq Qarabağ Respublikası»nı, bu qondarma qurumu tanımırlar və əminəm ki, tanımayacaqlar da.

Ordu quruculuğu Heydər Əliyev üçün prioritet məsələ idi. Çünki O, hakimiyyətə gələndə bizdə nizami ordu yox idi. Bizim əsas problemimiz də bundan qaynaqlanırdı. Ordu quruculuğu prosesi Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ordu quruculuğu prosesi uğurla gedir. Azərbaycan Ordusu dünya miqyasında güclü ordular

sırasındadır. Bunu bütün beynəlxalq reytinqlər də təsdiqləyir. Həm maddi-texniki təminat, təchizat, həm döyüş qabiliyyəti, vətənpərvərlik ruhu baxımından bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bunu keçən ilin aprel ayında baş vermiş toqquşma da göstərdi. Azərbaycanın qəhrəman əsgər və zabitləri işğal edilmiş torpaqların bir hissəsini – Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarını işğalçılardan azad etdilər, orada Azərbaycan bayrağı qaldırıldı. Budur bugünkü Azərbaycan Ordusu! Biz ordumuzla fəxr edirik və heç kimə imkan verə bilmərik ki, ordumuzun uğurlarına kölgə salsın. Əfsuslar olsun ki, ölkəmizdə fəaliyyət göstərən 5-ci kolon və xüsusilə bu gün özünü müxalifət kimi göstərmək istəyən antimilli satqın ünsürlər dövlətimizin ən müqəddəs dəyərlərinə də zərbə vurmağa çalışırlar. Çalışırlar, amma heç nə alınmır. Ancaq özlərini ifşa edirlər. Bir daha göstərirlər ki, onlar Azərbaycan dövlətinin düşmənləridir, bir daha göstərirlər ki, dövlətə nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşıdır. Azərbaycan xalqı o yaramaz ünsürləri 1993-cü ildə hakimiyyətdən qovub və bu günə qədər onların əlindən bir şey gəlmir. Xaricdən təlimat alanda fəallaşırlar, təlimat almayanda oturub o təlimatı gözləyirlər. Onların mitinqlərinə, əgər belə demək mümkündürsə, öz qohumlarından başqa, heç kim gəlmir. Heç qohumları da gəlmir. Yəni tamamilə marginallaşıb. Bir dəstə zəhər buraxan, özünü müxalifət adlandıran ünsür, əlbəttə, bizim işimizə təsir göstərə bilməz. Ancaq çalışırlar ki, bizim inkişafımızı, dövlətimizin uğurlarını, ordumuzu ləkələsinlər. Bizim ordumuz keçən il göstərdi ki, nəyə qadirdir və Azərbaycan Ordusu işğal edilmiş torpaqları hər an azad etməyə qadirdir. Ordu quruculuğunun təməlini Heydər Əliyev qoyubdur. Biz isə onun davamçılarıyıq, bu yolla gedirik və ordumuz üçün nə lazımdırsa, onu da edəcəyik.

Heydər Əliyev dərin iqtisadi islahatların başlanılmasına təkan verdi. Bu gün Azərbaycan iqtisadiyyatı bütün parametrlərə görə bir çox ölkələr üçün nümunə ola bilər. Son illər ərzində – 2004-cü ildən bu yana ümumi daxili məhsul 3 dəfə artıb, 1 milyon 700 min yeni iş yeri yaradılıb, bütün infrastruktur, demək olar ki, yenilənib. Xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir. Valyuta

ehtiyatlarımız xarici borcdan 5 dəfə çoxdur, təxminən ümumi daxili məhsula bərabərdir. Davos Dünya İqtisadi Forumu rəqabətqabliyyətliliyinə görə iqtisadiyyatımızı 37-ci yerə layiq görüb. İnkişafda olan ölkələrin reytinqinə gəldikdə isə Davos Forumu bizi 1-2-ci yerə layiq görür. Budur bu gün Azərbaycan iqtisadiyyatı və bizim uğurlu iqtisadi siyasətimiz.

Bunu sosial siyasətə də aid etmək olar – məktəblər, xəstəxanalar. Hər il 5 milyondan çox insan pulsuz tibbi müayinədən keçir. Məncə, heç bir başqa ölkədə belə bir praktika yoxdur. Bizim dövlətimizin sosial siyasəti çox uğurludur. Həmişə demişəm ki, biz bütün işləri xalq üçün edirik və siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Heydər Əliyevin rəhbərliyi ilə uğurlu neft siyasətinə başlanılıb və Heydər Əliyevin neft strategiyası bu gün də davam etdirilir. Onun öz əlləri ilə təməlini qoyduğu Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verildi. Ondan sonra Bakı–Tbilisi–Ərzurum, daha sonra, demək olar ki, həmin xətlə gedən Bakı–Tbilisi–Qars dəmir yolu, bu gün «Cənub Qaz Dəhlizi». Azərbaycanın qaz yataqları dünya ilə birləşir. Biz dənizləri birləşdirdik. Xəzər dənizini Aralıq dənizi ilə, Qara dənizlə, Adriatik dənizi ilə birləşdirdik. Heydər Əliyevin neft strategiyası bu gün də davam etdirilir.

Bakı şəhəri bu gün dünya miqyasında ən gözəl şəhərlərdən biridir. Bakının müasir rəmzləri yaradıldı. Onlardan biri də ulu öndərin adını daşıyan bu möhtəşəm Heydər Əliyev Mərkəzidir. Bu gün Heydər Əliyev Mərkəzinin açılışının 5-ci ildönümüdür. 5 il bundan əvvəl biz Heydər Əliyev Mərkəzində ilk görüşü keçirmişdik. Bu bir müstəqillik, inkişaf rəmzidir. Mənim fikrimcə, müasir memarlıq əsərləri arasında Heydər Əliyev Mərkəzi birinci yerdədir.

Yəni dediyim sözlər bir daha onu göstərir ki, ulu öndər həmişə olduğu kimi, xalqa son müraciətində də düzgün proqnoz verdi. O inanırdı və bildirdi ki, onun davamçıları onun görə bilmədiyi işləri görəcəklər, belə də oldu. Biz – onun davamçıları bununla fəxr edirik. Fəxr edirik ki, onun ideyalarını yaşadırıq.

Fəxr edirik ki, müstəqilliyimizi möhkəmləndiririk və Heydər Əliyev yolu ilə gedirik və gedəcəyik. Sağ olun.

* * *

*Mərasimdə ulu öndər Heydər Əliyevin fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirildi.*

*Sonra Heydər Əliyev mükafatının təqdimetmə mərasimi oldu.*

*Əvvəlcə Azərbaycanın Xalq şairi Nəriman Həsənzadənin Heydər Əliyev mükafatı ilə təltif olunması haqqında dövlət başçısının sərəncamı oxundu.*

*Prezident İlham Əliyev mükafatı Nəriman Həsənzadəyə təqdim etdi.*

**N ə r i m a n H ə s ə n z a d ə** (*Xalq şairi* ): Cənab Prezident, biz Sizin ədəbiyyatımıza, yaradıcı ziyalılarımıza göstərdiyiniz qayğını, diqqəti həmişə görmüşük, hiss etmişik. Cənab Prezident, biz Sizinlə fəxr edirik. Biz Sizin daxili, xarici siyasətinizi müdafiə edirik. Ulu öndərimiz çıxışlarının birində demişdi ki, Azərbaycan dünyaya günəş kimi doğacaq. Cənab Prezident, Siz bizim günəşimizsiniz. Ulu öndərimizi görüşlərin birində qarşılayanda mən bir şeir söyləmişdim. Həmin şeiri ulu öndər özü də alqışlayıb. İcazə verin, o şeiri burada oxuyum:

Ey eşqim, vüqarım, sənətim, canım,
Ana çağırdığım Azərbaycanım.
Açıb qollarımı mehri-ülfətlə,
Bağrıma basıram səni hörmətlə.
Sən de, ey adı ilə fərəhləndiyim,
Şanlı sədasıyla ürəkləndiyim.
Xalqımın istəkli, əziz övladı,
Şeirimin, sözümün qolu, qanadı.
Sənin hər istəyin, sənin hər arzun
Həyatda qoy şöhrət çələngi olsun.
Qaldırdın adını bu məmləkətin,
Andın müqəddəsdir, südün təmizdir.

Mənim taleyimdir sənin şöhrətin,
Tarixdə tarixi mərhələmizdir.
Gəlin addımlayaq sülh cərgələrlə,
Gəlin qabaqlayaq dövrü, zamanı.
Daim alqışlayaq yalnız zəfərlə,
Ana dediyimiz Azərbaycanı!

Sizə cansağlığı arzu edirəm, cənab Prezident. Sizə minnətdarlığımı bildirirəm.

*Sonra Heydər Əliyev Fondu tərəfindən təsis edilmiş «Qızıl çinar» beynəlxalq mükafatının 2017-ci il üzrə qalibi elan olundu.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Fondun yeni nəslin kamil insan kimi formalaşmasında əhəmiyyət kəsb edən layihələrinə verdiyi dəstəyə, kütləvi informasiya vasitələrində bəşəri dəyərlərin təbliğində fəal iştirakına görə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, «Şöhrət» ordenli şərqşünas-alim Vasim Məmmədəliyevə «Qızıl çinar» beynəlxalq mükafatını təqdim etdi.*

**Vasim Məmmədəliyev:** Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım!

Sözün doğrusu, bu qəfil məlumatdan özümü bir qədər itirdim. Çünki heç ağlıma gəlməzdi ki, mənim o kiçik əməyim, özüm üçün normal bir fəaliyyət dairəsi hesab etdiyim o kiçik əmək bu gün bizim dövlətimiz, bizim möhtərəm Prezidentimiz, bizim Birinci vitse-prezidentimiz tərəfindən belə yüksək mükafatla qiymətləndiriləcək. Mən buna görə Sizlərə çox minnətdaram.

Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım! Bu yüksək mükafatı mənə verdiyiniz üçün Sizə dərin hörmət və ehtiramımı bildirirəm.

Bir məqamı da qeyd etmək istəyirəm ki, Azərbaycanda bu gün çox gözəl siyasi, mənəvi iqlim var. Azərbaycanda insanlar arasında çox gözəl ünsiyyət var. Xalqla iqtidar arasında böyük birlik var. Bunların hamısının səbəbkarı bizim hörmətli Pre-

zidentimiz və hörmətli birinci xanımımızdır. Mən həmişə bir şeyə fikir vermişəm ki, Mehriban xanım çox səmimidir – təbii ki, bu məziyyət doğulduğu, tərbiyə aldığı ailədən gəlir – mədəniyyətin, elmin hamilərindən biridir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyatı, yaradıcılığı, fəaliyyəti bu gün Mehriban xanımın təşəbbüsü ilə araşdırılır və cəmiyyətə təqdim olunur. Cəmiyyət bilir ki, hər hansı bir şəxs müəyyən bir iş görürsə, o, Mehriban xanımın nəzərindən qaçmayacaq. Necə ki, mənim kiçik fəaliyyətim də bu gün onun nəzərindən qaçmayıb və mən belə bir mükafata layiq görülmüşəm.

Onu da deyim ki, xalq bizim möhtərəm prezidentimiz İlham Əliyevi və Mehriban xanım, Sizi çox sevir. Xalqın gözü tərəzidir. Xalq Sizin böyük xidmətlərinizi, fəaliyyətinizi çox yüksək qiymətləndirir. Bu da təbiidir. Mehriban xanım Azərbaycan mədəniyyətinin, ədəbiyyatımızın, dilimizin, musiqimizin, rəngkarlığımızın, bütün incəsənətimizin nümayəndələrinin xidmətlərini, sözün həqiqi mənasında, görür, bilir və onları nə cür lazımdırsa mükafatlandırır.

Mən hesab edirəm ki, Siz xalqımızın maarifpərvər xanımlarının ənənələrini bu gün uğurla davam etdirirsiniz. Bu, müasir dövrdə incəsənətimizə, elmimizə, ədəbiyyatımıza, musiqimizə Sizin tərəfinizdən verilən böyük qiymətdir. Xalqımız Sizi həmişə çox sevəcək, çünki Siz buna layiqsiniz. Mən inanıram ki, Siz bizim hörmətli Prezidentimizlə qoşa qanad olaraq, Azərbaycanı bundan sonra da yeni-yeni yüksəkliklərə qaldıracaqsınız.

Diqqətinizə görə təşəkkür edirəm.

## İORDANİYA HAŞİMİLƏR KRALLIĞI PARLAMENTİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ ATEF YUSİF SALEH ƏL-TARAVNEHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da İordaniya Haşimilər Krallığı Parlamentinin Nümayəndələr Palatasının sədri Atef Yusif Saleh əl-Taravnehin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanla İordaniya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri əhatə etdiyini və yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimizin həm siyasi, həm də iqtisadi sahədə çox yaxşı əməkdaşlıq etməsinin önəmini qeyd etdi. Özünün İordaniyaya və İordaniya Kralının Azərbaycana səfərlərini məmnunluqla xatırladan dövlətimizin başçısı İordaniya Kralı ilə də çox yaxşı əlaqələrinin mövcud olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanla İordaniyanın bir-birinə beynəlxalq təşkilatlarda daim dəstək olduqlarının əhəmiyyətini vurğuladı.*

*Azərbaycanın islam həmrəyliyinin gücləndirilməsi üçün çox böyük səylər göstərdiyini qeyd edən dövlətimizin başçısı bildirdi ki, bunun növbəti nümunəsi 2 gün sonra Bakıda keçiriləcək IV İslam Həmrəyliyi oyunlarıdır. Prezident İlham Əliyev İordaniya idmançılarının da bu oyunlarda çox geniş heyətlə iştirak edəcəklərindən məmnun olduğunu söylədi. Azərbaycan–İordaniya parlamentlərarası əlaqələrinin də inkişafının razılıq doğurduğunu diqqətə çatdıran prezident İlham Əliyev Atef Yusif Saleh əl-Taravnehin parlament üzvlərindən ibarət böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin uğurlu olacağına, azərbaycanlı həmkarları ilə*

*səmərəli danışıqlar aparacaqlarına və bu səfərin ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.*

*İordaniya Parlamentinin Nümayəndələr Palatasının sədri Atef Yusif Saleh əl-Taravneh İordaniyanın Kralı II Abdullahın salamlarını dövlətimizin başçısına çatdırdı. Atef Yusif Saleh əl-Taravneh qeyd etdi ki, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərindən məmnunluq duyur və hesab edir ki, bu münasibətlərdən istifadə edərək, regional və beynəlxalq müstəvidə cərəyan edən proseslərə öz müsbət töhfəsini verə biləcəkdir.*

*Ölkəmizdə görülən genişmiqyaslı tədbirlərə toxunan iordaniyalı qonaq dedi ki, prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən böyük işlər İordaniyada maraqla izlənilir.*

*Görüşdə ölkələrimiz arasında turizm, sərmayə qoyuluşu, idxal-ixrac, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İordaniyanın Kralı II Abdullahın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniya Kralına çatdırmağı xahiş etdi.*

## PİRALLAHI RAYONUNDA YENİ KÖRPÜNÜN AÇILIŞI MƏRASİMİ

*11 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 11-də paytaxtın Pirallahı rayonunda yeni körpünün açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı Pirallahı körpüsü və yanaşma yollarında görülən işləri əks etdirən stendə baxdılar.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, dəniz dalğaları Pirallahı qəsəbəsini sahillə birləşdirən avtomobil yolunu yuyub sıradan çıxarırdı. Bunun qarşısını almaq üçün Azərbaycan prezidenti İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş «Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq Pirallahı adasını sahillə birləşdirən yeni müasir körpü inşa edilib. Layihənin icrası nəticəsində gəmilərin körpünün altından sərbəst hərəkəti təmin olunub. Yeni körpü Qala–Pirallahı avtomobil yolunun 23-cü kilometrində yerləşir. Körpünün uzunluğu 422, eni 14, hərəkət zolağının eni isə 12 metrdir.*

*Pirallahı körpüsünə girişdə yanaşma yolunun uzunluğu 1,1 kilometrdir. Yolun köhnə eni 7 metr olub, yenidən qurulduqdan sonra 25 metrə çatdırılıb. Dördzolaqlı yolun hərəkət hissəsinin eni 16 metrdir. Pirallahı körpüsündən çıxışda yanaşma yolunun uzunluğu 850, eni 15, hərəkət hissəsinin eni isə 12 metrdir.*

*Qeyd edək ki, dövlət başçımızın tapşırığı ilə Bakı və Bakıətrafı qəsəbələrdə abadlıq və quruculuq işlərinin tərkib hissəsi olan yolların müasirləşdirilməsi layihələri bu gün uğurla icra edilir. Son dövrlərdə Azərbaycanda reallaşdırılan mühüm yolnəqliyyat layihələri nəticəsində həm ölkə əhəmiyyətli, həm də*

*şəhər, rayon, qəsəbə və kənddaxili yollar müasir səviyyədə yenidən qurulur. Bu layihələr paytaxtın bütün rayon və qəsəbələrini, o cümlədən Pirallahını əhatə edir. Bu layihənin icrası paytaxtın, eləcə də Bakının qəsəbə və kənd sakinlərinin sosial məsələlərinin həlli istiqamətində atılan addımların ardıcıl xarakter aldığını bir daha nümayiş etdirir. Bundan sonra rayon sakinləri Pirallahını sahillə birləşdirən daha təhlükəsiz yol infrastrukturundan istifadə edəcəklər. Bu körpünün istifadəyə verilməsi həm də ümumilikdə paytaxtımızın yol-nəqliyyat sisteminin müasirləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.*

*Dövlətimizin başçısı yeni körpünün rəmzi açılışını bildirən lenti kəsdi.*

## PİRALLAHI QƏSƏBƏSİNDƏ SƏMƏD VURĞUN KÜÇƏSİNİN TƏMİRDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*11 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 11-də Pirallahı qəsəbəsində Səməd Vurğun küçəsinin təmirdən sonra açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə küçənin təmir işlərini əks etdirən stendə baxdılar.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, dövlətimizin başçısının «Bakı şəhəri Pirallahı rayonunun qəsəbədaxili avtomobil yollarının yenidən qurulması ilə bağlı tədbirlər haqqında» 2016-cı ilin iyulunda imzaladığı sərəncama əsasən, qəsəbənin mərkəzi Səməd Vurğun küçəsinin yenidən qurulması «Azəravtoyol» ASC tərəfindən icra edilib. Uzunluğu 8 kilometr olan 4 zolaqlı yolun təmirdən əvvəlki eni 6-7 metr idi. Təmirdən sonra yolun eni 18 metrə çatdırılıb. Bu, nəqliyyat vasitələrinin rahat hərəkətinə, piyadaların təhlükəsizliyinin təmin edilməsinə və tıxacların qarşısının alınmasına imkan yaradır. Yenidən qurulan avtomobil yolu Pirallahı körpüsü və Pirallahı–Qala avtomobil yolundan istifadə etməklə, qəsəbə sakinlərinin Heydər Əliyev prospekti vasitəsilə Bakı şəhərinin mərkəzinə, eləcə də Heydər Əliyev Beynəlxalq Aeroportuna, Şüvəlan, Mərdəkan, Buzovna, Bilgəh və digər qəsəbələrə rahat çıxışına imkan yaradır. Beləliklə, bu yolun müasir səviyyədə yenidən qurulması ilk növbədə, sakinlərin rahatlığını təmin edəcək, nəqliyyat vasitələrinin təhlükəsiz və maneəsiz hərəkətinə imkan yaradacaqdır.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ KÖRFƏZ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ TAMER ƏL-SABHAN İLƏ GÖRÜŞ

*11 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Səudiyyə Ərəbistanı Krallığının Körfəz Məsələləri üzrə Dövlət naziri Tamer əl-Sabhanı qəbul etmişdir.*

*Dövlət naziri Tamer əl-Sabhan İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını və məktubunu dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Azərbaycan ilə sıx dostluq və əməkdaşlıq əlaqələri qurmaqda maraqlı olduğunu bildirdi.*

*Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı dostluq və qardaşlıq əsasında qurulan əlaqələrimizin müxtəlif sahələrdə sürətli inkişafından məmnunluğunu bildirdi. Səudiyyə Ərəbistanına səfərini və səfər zamanı göstərilən qonaqpərvərliyi yaxşı xatırladığını qeyd edən prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudla apardığı danışıqların və fikir mübadiləsinin, eləcə də digər rəhbərlərlə keçirdiyi görüşlərin onda dərin təəssürat yaratdığını diqqətə çatdırdı.*

*Görüşdə sabah Bakıda keçiriləcək İslam Həmrəyliyi oyunlarının əhəmiyyətindən danışıldı, bu oyunların islam ölkələri arasında birliyin və həmrəyliyin möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.*

## IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*Bakı Olimpiya stadionu*

*13 may 2017-ci il*

*Azərbaycan və onun paytaxtı Bakı mayın 13-də səbirsizliklə gözlənilən anın – IV İslam Həmrəyliyi oyunlarının açılışının həyəcan və sevincini yaşadı.*

*Tamaşaçılar açılış mərasiminin keçirildiyi Bakı Olimpiya stadionuna daxil olaraq, yerlərini tutdular.*

*Stadionun VİP tribunasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2017» İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif əl-Osaymin və digər rəsmi şəxslər əyləşdilər.*

*Xatırladaq ki, IV İslam Həmrəyliyi oyunlarının Bakıda keçirilməsi barədə qərar 2013-cü ilin iyulunda İslam Həmrəyliyi İdman Federasiyasının VIII Baş Assambleyasında qəbul olunub. 2015-ci il sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması barədə sərəncam imzalayıb. Ötən müddətdə Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə oyunlara geniş hazırlıq işləri görülüb. Bakının 16 idman arenasının hər biri yarışlara yüksək səviyyədə hazırlanıb və digər zəruri təşkilati tədbirlər həyata keçirilibdir. Tam əminliklə demək olar ki, «Bakı–2017» İslamiadanın tarixinə ən möhtəşəm idman bayramı kimi yazılacaqdır.*

*Son illər Azərbaycan ilk Avropa oyunları, Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə dünya kuboku, «Formula-1» kimi beynəlxalq yarışlara uğurla ev sahibliyi edib. Odlar Yurdu dünyada artıq idman ölkəsi kimi tanınır. «Bakı–2017» İslam Həmrəyliyi oyunlarının uğurunu şərtləndirən digər amil məhz bu sahədə qazanılan zəngin təcrübədir.*

*Azərbaycanın ev sahibi olduğu İslam Həmrəyliyi oyunlarında 54 ölkədən 3000-dən çox idmançı, 1000-dən çox komanda rəsmiləri və bir o qədər də texniki nümayəndə iştirak edir. Bu rəqəmlər özlüyündə bir rekorddur. Çünki bu vaxtadək İslam Həmrəyliyi oyunlarına bu qədər ölkənin qatılması heç vaxt müşahidə olunmayıb.*

*İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparacaqlar. Azərbaycanı bu oyunlarda 425 atlet təmsil edir. Qaliblərə ümumilikdə 1600 medal təqdim ediləcək. IV İslam Həmrəyliyi oyunlarını 50-dən çox ölkədə 1 milyarddan çox tamaşaçının izləyəcəyi gözlənilir. Yarışları işıqlandırmaq üçün 1000-dən çox media nümayəndəsi akkreditasiyadan keçib. «Bakı–2017»nin işıqlandırılmasına AZƏRTAC-ın 70-dən çox əməkdaşı cəlb olunubdur.*

*Oyunların proqramına daxil edilmiş 165 idman yarışı üçün 500 mindən çox bilet satışa çıxarılıb. Oyunların su səyahətinin, təntənəli açılış və bağlanış mərasimlərinin təşkilinə 31 ölkədən 5000-dən çox mütəxəssis cəlb olunub. Mərasimlərdə 8 ölkədə istehsal olunmuş səhnə avadanlığından istifadə ediləcək. «Bakı–2017»nin 24 beynəlxalq və 17 yerli səfiri, 8 yerli və 5 beynəlxalq sponsoru var. Rəsmi talismanlar – «İncə» və «Cəsur» Azərbaycanın milli sərvəti olan Qarabağ atlarının rəmzləridir.*

*IV İslam Həmrəyliyi oyunlarının proqramına daxil olan su səyahətinə aprelin 5-də prezident İlham Əliyevin iştirakı ilə start verilib. Xəzərdən başlanan su səyahəti Azərbaycanın 15 regionunu əhatə edibdir.*

*Prezident İlham Əliyev İƏT-in rəsmi mətbu orqanı olan «OIC Journal» jurnalında dərc olunmuş «İslam həmrəyliyinin*

*gücləndirilməsi zamanın çağırışıdır» sərlövhəli məqaləsində oyunların əhəmiyyətini belə xarakterizə edib:*

«Bu gün müsəlman dünyasının əvvəlki dövrlərdə heç zaman olmadığı qədər daha çox birliyə və həmrəyliyə ehtiyacı var. Buna görə də 2017-ci ilin ölkəmizdə «İslam həmrəyliyi ili» elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı mesajdır. «İslam həmrəyliyi ili»nin əsas məqsədləri müsəlman aləmində birliyi möhkəmləndirmək, islamın sülh və mədəniyyət dini olduğunu bütün dünyaya göstərməkdir. Hesab edirəm ki, bu ilin mayında Bakıda keçiriləcək İslam Həmrəyliyi oyunları təkcə idman yarışı olmayacaq, həm də bütün islam dünyasının birlik, həmrəylik günləri olacaqdır».

*IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin yekun iclasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva dedi:*

– Oyunların ölkəmizdə uğurla keçməsinə tam şəkildə hazırıq. Məqsədimiz IV İslam Həmrəyliyi oyunlarının Azərbaycanda ən layiqli səviyyədə keçirilməsidir. Bunun üçün bütün şərait var. Dövlət tərəfindən dəstək var. Təşkilat Komitəsi çox uğurla çalışıb, komanda var, könüllülər hazırdır. Əminəm ki, ölkəmizin zəngin, şanlı tarixində növbəti mühüm nailiyyəti əldə edə biləcəyik.

*Dörd əsas dəyər – «Birlik», «Sülh», «Hörmət», «Mükəmməllik» dəyərləri üzərində qurulan oyunlar «Gücümüz həmrəylikdədir» devizi altında keçirilir.*

*İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz oyunların təşkilini yüksək qiymətləndirərək dedi:*

– Mən ev sahibliyi edən gözəl ölkənin xalqına və «Bakı–2017»nin Təşkilat Komitəsinin sədri, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan idmana çox vurğundur və tədbirə ən yüksək standartlar səviyyəsində ev sahibliyi etməkdə qətiyyətini nümayiş etdirdi. Şübhə etmirəm ki, bu oyunlar «Bakı–2017»nin təşkilatçılarının və könüllülərinin yorulmaz fəaliyyətinin və

sadiqliyinin göstəricisidir və idmançılara öz ustalıqlarını nümayiş etdirmək üçün ən yaxşı şərait yaradılıb.

*Azərbaycanın Gənclər və İdman naziri, İslam Həmrəyliyi oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimovun sözlərinə görə, bu axşam keçirilən mərasim unudulmaz birlik və həmrəylik bayramıdır. «Bakı–2017» İslam Həmrəyliyi oyunları 20 aydan artıq müddət ərzində təfərrüatlı planlaşdırma və hazırlığın zirvə nöqtəsidir. Bakının 16 müasir idman məkanı artıq minlərlə atletin ixtiyarındadır.*

*Mərasimlər direktoru və icraçı prodüseri Katrin Uqvu açılış mərasiminin diqqəti dövlətləri və xalqları bir araya gətirən meyarlara yönəltməyə xidmət etdiyini bildirərək dedi:*

– Bu axşam bəşəriyyətə söyləyəcəyimiz sülh hekayətinin Azərbaycanın mədəniyyətində və adət-ənənələrində dərin kökləri vardır. İslam sivilizasiyasının vaxtilə bəşəriyyətə verdiyi böyük töhfələr bu gün hər bir istiqamətdə hiss olunur. Bu, ümumi sabahımız üçün nikbinliklə dolu həmrəylik və ümid müjdəsidir. Dünyanın müxtəlif yerlərindən gələn minlərlə insan bu mərasimi reallaşdırmaq üçün aylarla çalışıb. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident, «Bakı–2017» İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevaya ən səmimi minnətdarlığımı ifadə edirəm. Onların etimadı və dəstəyi olmadan bu işlərin heç biri mümkün olmazdı. Nəhayət, Azərbaycan xalqına ən dərin minnətdarlığımı bildirirəm. Bu ölkə həqiqətən, insan ruhunu ən yaxşı təcəssüm etdirən parlaq ulduzlar ölkəsidir.

*Bədii rəhbər Neytan M.Rayt mərasimin proqramına aydınlıq gətirərək dedi:*

– Mərasimimizin mərkəzində bakılı qızcığaz – Mina dayanır. Biz Mina və onun dostu çərpələngin köməyi ilə dünyanı kəşf etmək üçün səyahətə çıxırıq. O, yolboyu insanların özünəməxsusluğu və irsi, inancları və arzuları ilə tanış olur. Sonda onun gələcəyə ümidi bütövləşir və artır. Minanın hekayəti insanların qüdrətinin, birliyinin mücəssəməsidir. Onun arzusu sülh və

harmoniyanın hökm sürdüyü daha yaxşı dünyadır. Artıq 1 ildən çoxdur ki, mən Azərbaycan xalqının xeyirxahlığını və səmimiyyətini hiss edirəm, məni onun bu keyfiyyətləri ilhamlandırır.

*İki il əvvəl keçirilən ilk Avropa oyunları ərəfəsində istifadəyə verilən möhtəşəm Bakı Olimpiya stadionu bu axşam ən müasir proyeksiya sistemi ilə təchiz olunmuş böyük səhnəyə çevrilib. Nəhəng səhnənin quraşdırılması 6 həftəyə başa gəlib. Açılış mərasiminin hazırlanmasında 31 ölkədən 5000-ədək insan, o cümlədən səhnə mütəxəssisləri, texniki heyət və aktyorlar qrupu iştirak edib.*

*Stadionda hündürlüyü 28 metr olan 2 minarə diqqəti ilk baxışda cəlb edir. Minarələrin üzərində islam incəsənətinə xas həndəsi elementlərdən istifadə edilməklə, mərkəzdəki altıbucaqlını bir-biri ilə bağlayan dairələr əks olunub.*

*Eni 85, hündürlüyü 35 metr olan böyük ekranda real animasiyalardan tutmuş, böyük maraq doğuran kinokadrlara qədər bir neçə ay ərzində tərtib edilmiş məzmunca zəngin videoçarxlar nümayiş etdirilir.*

*Nəhəng monitorda İçərişəhərdən havaya qalxan çərpələng göründü. Balaca qız Mina və dostları bütün şəhər boyu çərpələngin arxasınca qaçaraq, stadiona tərəf gəldilər. Ekranda Alov qüllələri, Qız qalası, Filarmoniya bağı, Heydər Əliyev Mərkəzi, nəhayət, Olimpiya stadionu canlandı.*

*Stadionda əllərində çərpələng tutan uşaqlar 10-dan 1-ə geriyə saymağa başladılar. Geriyə sayımın bitməsi ilə açılış mərasiminə start verildi.*

*Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, «Bakı–2017» Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif əl-Osaymini və digər qonaqları sürəkli alqışlarla salamladılar.*

*Stadionda bəstəkar Eldar Mansurovun «Yallı»sı səsləndirildi. Musiqi sədaları altında səhnəyə 700 könüllü çıxdı. Onlar əllərində parıldayan altıbucaqlı tutmuşdular. Azərbaycan Dövlət Rəqs Ansamblının 10 rəqqasəsi onlara qoşuldu.*

*Səhnədə aypara və ulduzlar formalaşdırıldı, «Bakı–2017»nin loqosu nümayiş etdirildi. Altıbucaqlar Azərbaycan bayrağına çevrildi.*

*Aypara islam təqvimində hər yeni ayın başlanmasını bildirir. Bu həm də islam həmrəyliyinin və əməkdaşlığının tarixində yeni fəslin başlanmasına işarədir.*

*Azərbaycan bayrağı Dövlət himninin sədaları altında stadiona gətirildi, Xüsusi Dövlət Mühafizə Xidməti Milli Qvardiyasının hərbçiləri tərəfindən dirəyə qaldırıldı.*

*Bununla eyni vaxtda stadion üzərində Azərbaycan bayrağının rənglərini təcəssüm etdirən atəşfəşanlıq başlandı.*

*Monitorlarda İslam Həmrəyliyi oyunları münasibətilə Xəzərdən başlanan su səyahətini və Azərbaycanın gözəl təbiətə malik müxtəlif yerlərindən suyun toplanması mərasimlərini əks etdirən kadrlar göstərildi.*

*Suları toplayan 16 uşaq səhnəyə çıxdı.*

*Onlar mis səhənglərdəki suları səhnənin mərkəzindəki böyük siniyə boşaltdılar. Bu zaman uşaqların arxasında pirotexniki şəlalə çağlamağa başladı.*

*Beləliklə, 2017-ci il aprelin 5-də Bakıda Xəzərdən başlanan su səyahəti Olimpiya stadionunda başa çatdı.*

*Xatırladaq ki, 40 gün əvvəl Xəzərdən götürülmüş su oyunların ruhunu hamıya yaxın etmək üçün Azərbaycan prezidenti İlham Əliyev tərəfindən rəmzi olaraq, ölkənin bütün guşələrinə göndərilmişdi. Bu müddətdə səyahətçilər 3000 kilometrdən artıq məsafə qət edib, 16 məkandakı 5 göldən, 1 su anbarından, 3 çaydan, 1 bulaqdan, 3 şəlalədən və Xəzər dənizinin ayrı-ayrı sahillərindən su götürərək, Bakıya qayıdıblar. Həmin sular bu axşam Bakı Olimpiya stadionunda qovuşdu.*

*Nəhayət, atletlərin paradı başlandı. Hər bir komanda stadiona öz ölkəsinin bayrağı altında əlifba sırası ilə daxil oldu. İdmançıları əlində lövhə tutan oğlan və mis qabda su daşıyan qız müşayiət edirdi.*

*Tribunaların önündən ilk olaraq Əfqanıstan, Albaniya, Əlcəzair, Bəhreyn, Banqladeş, Benin, Bruney, Burkina-Faso, Kamerun, Çad, Komor Adalarının komandaları keçdilər.*

*Komandaların paradını Kot-d'İvuar, Cibuti, Misir, Qabon, Qambiya, Qvineya, Qvineya-Bisau, Qayana, İndoneziya, İran idmançıları davam etdirdilər.*

*Stadiona İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Livan, Malayziya, Maldiv, Mali, Mavritaniya, Mərakeş komandaları daxil oldular.*

*Mozambik, Niger, Nigeriya, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Syerra-Leone idmançıları tribunaların önündən keçdilər.*

*Növbə Somali, Surinam, Suriya, Tacikistan, Toqo, Tunis, Türkiyə, Türkmənistan, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən komandalarına çatdı.*

*Tamaşaçılar qardaş Türkiyə idmançılarını xüsusi coşqu ilə salamladılar.*

*Nəhayət, stadiona Müslüm Maqomayevin məşhur «Azərbaycan» mahnısının sədaları altında ev sahibi – Azərbaycan komandası daxil oldu. Ölkəmizi oyunlarda 425 idmançı təmsil edir. Azərbaycan bayrağını beşqat dünya çempionu Rafael Ağayev aparırdı.*

*İdmançılarımızın tribunaların önündən keçidi Natiq Şirinov və digər 19 nağaraçının ifası ilə müşayiət olunurdu.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamladılar.*

*Bununla da idmançıların paradı başa çatdı.*

*Stadiona İslam Həmrəyliyi İdman Federasiyasının bayrağının gətirilməsi mərasimi başlandı. Bayrağı stadiona Azərbaycanın olimpiya, dünya çempionları və mükafatçıları gətirdilər. Onların arasında Sidney, Barselona, Pekin, Afina Olimpiya oyunlarının çempionları Namiq Abdullayev, Nazim Hüseynov, Elnur Məmmədli, Fərid Mansurov, Zemfira Meftahətdinova və başqaları var idi.*

*Hərbçilər İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını Azərbaycan bayrağının yanında qaldırdılar.*

*İdmançılar və hakimlər adından taekvandoçu, «Rio–2016» Olimpiya oyunlarının qızıl mükafatçısı Radik İsayev və boks hakimi, «Afina–2004» Olimpiya oyunlarının bürünc mükafatçısı Fuad Aslanov and içdilər.*

*Azərbaycanın Birinci vitse-prezidenti, «Bakı–2017» İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif əl-Osaymin çıxış üçün səhnəyə dəvət olundular.*

## «Bakı–2017» İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev!

İslam Əməkdaşlıq Təşkilatının baş katibi, zati-aliləri doktor Yusif əl-Osaymin!

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri!

Zati-aliləri!

İslam aləminin idmançıları!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz!

«Bakı–2017» İslam Həmrəyliyi oyunlarına xoş gəlmisiniz!

Əziz həmvətənlər, biz birliyin və idmanın təntənəsi olan IV İslam Həmrəyliyi oyunlarını bu axşam fərəh hissi ilə qəbul edirik. Oyunlara ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Bu gün Azərbaycan bütün islam aləmini qəbul edir. 4 qitədən gəlmiş minlərlə idmançını və paytaxtımızın qonaqlarını səmimi-qəlbdən salamlayır, onlara «Xoş gəlmisiniz!» – deyirəm! Bütün bu uğurlar münasibətilə gözəl Vətənimizin hər bir vətəndaşını təbrik edirəm və minnətdarlığımı bildirirəm. Qoy ulu Tanrı Azərbaycanı qorusun!

Əziz dostlar, 50-dən artıq ölkənin nümayəndəsi bu axşam Bakıda IV İslam Həmrəyliyi oyunlarının açılışı mərasimini qeyd edir. Sizin burada olmağınız bizim üçün şərəfdir. Qardaşlarımız və

bacılarımız, Azərbaycan Sizi səmimiyyətlə salamlayır. Mən IV oyunların keçirilməsini Bakıya həvalə etdiyinə görə İslam Həmrəyliyi İdman Federasiyasına minnətdarlığımı bildirmək istəyirəm.

«Bakı–2017» İslam Həmrəyliyi oyunları Azərbaycanın dinamik inkişafında yeni parlaq səhifədir və beynəlxalq idman ictimaiyyəti üçün növbəti tarixi hadisədir. İdmana yatırdığımız böyük sərmayə dünya səviyyəsində bacarıqları mənimsəməklə, qurğuları və infrastrukturları yaratmaqla, gələcək üçün böyük irsi təmin etdi.

Bu axşam biz islam aləmini bir araya gətiririk. Azərbaycan bu ali missiyanı öz üzərinə götürməkdən fərəh hissi duyur. Biz minillikləri əhatə edən mədəniyyətə və güclü islam ənənələrinə malik qədim diyarıq. Eyni zamanda, biz gənc, müasir və sürətlə inkişaf edən ölkəyik. Ötən il Azərbaycan müstəqilliyinin bərpa olunmasının 25-ci ildönümünü qeyd etdi. Ölkəmizin multikultural tarixi açıq, tolerant cəmiyyətimizin ən ülvi hissəsidir. Biz islam tarixi və irsinin bir hissəsi olmaqdan, islam dəyərlərini bölüşməkdən fərəhlənirik. Bu oyunların qələbə qazanacaq atletlərinin təltif olunacağı medallardan tutmuş, möhtəşəm açılış və bağlanış mərasimləri kimi, yaradıcı elementləri zəngin mədəniyyətimizi ilhamlandıracaqdır. Odlar diyarı Azərbaycan həm də büllur sular ölkəsidir. Bənzərsiz göllərimiz və çaylarımız, şəlalələrimiz və bulaqlarımız, Xəzər dənizimiz əsrlərboyu həyatımızın mənbəyi olub. Ortaq islam irsimizdə əsas yer tutan və həyat mənbəyi olan bu element Qafqaz dağlarından Xəzər dənizinə qədər ölkəmizin təbii gözəlliyinin və özünəməxsusluğunun mühüm hissəsini formalaşdırır. «Bakı–2017» İslam Həmrəyliyi oyunlarının rəmzi – su son 5 həftə ərzində Xəzərdən başlanan böyük səyahətdə oldu. O, Azərbaycanın bənzərsiz təbiətini dünyaya nümayiş etdirdi, hər kəsə sülh və dostluq müjdəsi gətirərək, insanları ilhamlandırdı.

Əziz dostlar, mən gözəl gənc könüllülərimizin hamısını salamlayıram. Biz sizinlə fəxr edirik. Sizin fədakarlığınız və vurğunluğunuz, xeyirxahlığınız və qətiyyətiniz bu oyunları mümkün etdi. Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

İslam aləminin idmançıları, sizi burada qonağımız kimi görmək olduqca sevindiricidir. Bütün Azərbaycan sizinlədir və sizə böyük uğurlar arzulayır. Bu sizin oyunlarınızdır. Gələn 10 gün ərzində ölkəmiz sizin eviniz olacaqdır.

Bu axşam mən ölkəmizin bütün nailiyyətlərinə görə qarşınızda fərəh hissi ilə çıxış edirəm. Xalqımızın tərəqqiyə bağlılığı məni ilhamlandırır. Hamımız birgə əldə etdiyimiz nailiyyətlərlə fərəhlənə bilərik. Azərbaycan 2 il öncə I Avropa oyunları çərçivəsində bütün Avropa qitəsini bir araya gətirərək, tarix yazdı. İndi isə biz 4 qitənin islam dünyasının insanlarını Bakıda – IV İslam Həmrəyliyi oyunlarında birləşdiririk.

2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilib. «Bakı–2017» İslam Həmrəyliyi oyunları və idmanın qüdrəti xalqlarımızı islamın dostluq, sülh, tolerantlıq və mərhəmət ruhu altında bir araya gətirib. Gücümüz həmrəylikdədir! Bu ruhlandırıcı mesajı oyunlarımız Azərbaycanın hüdudlarından çox uzaqlara göndərəcəkdir.

İslam aləminin atletləri, xanımlar və cənablar, əziz dostlar!

«Bakı–2017» İslam Həmrəyliyi oyunlarına xoş gəlmisiniz!

Azərbaycana xoş gəlmisiniz!

## İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif əl-Osayminin çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva!

Zati-aliləri nümayəndə heyətlərinin rəhbərləri!

Hörmətli iştirakçılar, hörmətli qonaqlar, xanımlar və cənablar!

Burada – Azərbaycan Respublikasının paytaxtı Bakıda IV İslam Həmrəyliyi oyunlarının açılışında çıxış etməkdən böyük şərəf hissi duyuram.

Mən bu möhtəşəm tədbirin təşkilində göstərdikləri səylərinə görə Azərbaycan xalqına, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə və Azərbaycan hökumətinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Biz əminik ki, bu tədbir İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə idmanın təşviq olunmasına töhfə verəcək, islam aləmində gənclərə dəstək olacaqdır.

Gənclərin inkişafı və idmanın təşviqi sahəsində yorulmaz fəaliyyətinə və səylərinə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevaya dərin təşəkkürümü və ehtiramımı ifadə edirəm.

Mən həmçinin IV İslam Həmrəyliyi oyunlarının keçirilməsində xüsusi işləri ilə fərqlənmiş İslam Həmrəyliyi İdman Federasiyasına təşəkkürümü bildirmək istəyirəm və onlara çoxlu uğurlar arzulayıram.

Bakıda IV İslam Həmrəyliyi oyunlarının keçirilməsi 2017-ci ilin Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunması ilə üst-üstə düşür və bu, Azərbaycanın nəinki üzv dövlətlərdə gənclər və idmanın inkişaf işinə sadiqliyini göstərir, o cümlədən bu ölkənin multikulturalizmin gücləndirilməsində, eləcə də mədəniyyətlərarası dialoqun və sivilizasiyalararası ünsiyyətin möhkəmləndirilməsində, idman vasitəsilə islam dəyərləri barədə biliklərin qlobal səviyyədə yayılmasında fəal iştirakını nümayiş etdirir.

Zati-aliləri, hörmətli qonaqlar, İslam Həmrəyliyi oyunları dünyada ən iri idman tədbirlərindən biridir. Çünki bu oyunlar müxtəlif mədəniyyətlərə malik fərqli ölkələrdən gəlmiş təxminən 4000 atleti bir araya gətirir. Bu, islam həmrəyliyini əyani şəkildə nümayiş etdirir. Bu, islamın əsl mahiyyətini, onun sülh və tolerantlıq dini olduğunu əks etdirir. Bu, mədəniyyətlərindən və fərqlərindən asılı olmayaraq, xalqlar arasında birlik, harmoniya, dostluq tellərini və dinc şəraitdə yanaşı yaşamaq tərzini gücləndirir.

Zati-aliləri, hörmətli qonaqlar, islam aləmi zorakı ekstremizmin, radikallaşmanın, islamofobiyanın artması və cəmiyyətləri-

mizin bəzi hissələrinin təcrid olunması kimi çətin çağırışlarla üzləşir. Güclü və sağlam cəmiyyətlər gənclərin bacarıqlarının, potensialının gücləndirilməsi əsasında qurulur. Faktiki olaraq, biz məhz idman vasitəsilə daha yaxşı çalışırıq. İslam idmana, fiziki və mənəvi tərbiyəyə böyük əhəmiyyət verir.

İslam Əməkdaşlıq Təşkilatı gənclərə və idmana böyük əhəmiyyət verir və verməkdə davam edəcəkdir. 2016-cı ildə İstanbulda keçirilmiş 13-cü İslam Sammitində islam aləmində gənclər və idman məsələlərinə xüsusi diqqət yetirən İƏT – 2025 –İƏT-in Onillik Tədbirlər Planı qəbul olundu.

Bu oyunlar 2016-cı il oktyabrın 5–7-də Gənclər və İdman nazirlərinin İstanbulda keçirilmiş İslam Konfransının 3-cü sessiyasında İƏT-in üzvü olan dövlətlərdə idmanın inkişafı sahəsində İƏT-in 2017–2025-ci illər üçün strategiyasının qəbul olunmasından sonra ilk tədbirdir.

Əminəm ki, İƏT-in üzvü olan dövlətlərin Milli Olimpiya Komitələri vasitəsilə İslam Həmrəyliyi İdman Federasiyası və İƏT-in Baş Katibliyi arasında əməkdaşlıq daha da güclənəcək və islam aləmində gənclərə aid ülvi məqsədlər təmin ediləcəkdir. Sağ olun.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV İslam Həmrəyliyi oyunlarını açıq elan etdi.*

*Sonra atəşfəşanlıq başlandı və gecə səmasında fişənglərin yazdığı «Bakı–2017» sözləri bərq vurdu.*

*Əlində mis səhəng tutan qadın səhnəyə daxil oldu. Sonra su daşıyan 56 qadın da ona qoşuldu. Onlar bir yerdə İslam Həmrəyliyi İdman Federasiyasının 57 üzvünü təmsil edirlər.*

*Qadınlar suyu siniyə tökdülər və nəticədə gözəl fəvvarə alındı. İslam aləmi bununla rəmzi olaraq birləşdi.*

*Bu səhnə mərasimi oyunların proqramında «Birlik» adı ilə təqdim olundu.*

*Stadionda «Harmoniya» adlanan növbəti süjet nümayiş etdirildi. Mina adlı bakılı qız babası ilə səhnəyə çıxdı. Bakının Fi-*

*larmoniya bağından görüntülər ekrana gəldi. Babası çərpələngin quyruğuna 4-cü zolağı bərkidərək, onu tamamladı. O, gözəl parkı dolanaraq, ətrafdakı insanlara təbəssüm və nur bəxş etdi. Sevinc hissi yaşayan bu qız bütün dünyada sülhün və harmoniyanın bərqərar olması barədə düşünürdü. Baba nəvəsinə deyir ki, gələcəyimizə aparan yolu dəyişmək üçün əvvəlcə keçmişimizi anlamalıyıq. Beləliklə, o, çərpələngi bələdçi dostu kimi təqdim edərək, Minanı maraqlı bilik və tanışlıq səyahətinə dəvət edir.*

*Filarmoniya bağında 120 səhnə iştirakçısı, o cümlədən Azərbaycan Dövlət Uşaq Filarmoniyasının 20 üzvü Minaya qoşuldu. Minanın babası rolunu Xalq artisti Nurəddin Mehdixanlı canlandırırdı.*

*Eni 85, hündürlüyü 35 metr olan ekran 130 proyektor mütəxəssisi tərəfindən işıqlandırılırdı. Əsl reallığa yaxın animasiyalardan tutmuş, maraqlı kinokadrlara qədər proyeksiyaların işıqlandırılması 12 aya başa gəlib.*

*Bu səhnələri Fərhad Bədəlbəylinin «Dəniz» əsərinin sədaları müşayiət edirdi.*

*Minanın hekayəti «Özünəməxsusluq» adlı hissə ilə davam etdi. Qızcığaz öz çərpələngində Bakıdan uzaqlara uçdu. Qobustanın qayaüstü rəsmlərini, Atəşgah məbədini və Yanardağda alovlanan əbədi odu seyr edən Mina əfsanəvi Simurq quşunu görmək üçün əfsanələr dünyasına qədəm qoydu və Simurq cücəsinin yumurtadan çıxmasına kömək etdi.*

*Simurq lələyinin birini Minaya verdi ki, dara düşəndə bu lələyi yandırsın və bir göz qırpımında yeni sehrli dostu köməyinə yetişsin.Əllərində od olan 20 səhnə iştirakçısı 2 su hovuzunda buta fiquru formasında alov cərgəsi yaratdı.*

*Niyazinin «Rast» simfonik muğamı bu səhnəyə əlavə rəng qatdı.*

*Xəzər üzərində Ay göründü, əfsanəvi muğam ustası Alim Qasımovun ecazkar səsi minarənin zirvəsindən ətrafa yayıldı. Bu, azan səsi idi. Mina həmin sədanın təsiri ilə dini dəyərlərin və tolerantlığın möhtəşəm məkanı olan Heydər məscidinə yollandı.*

*Əllərində fənər tutan yüzlərlə dindar islamın qüdrəti ilə buraya gəldi. Onların inanc odları kainatdakı ulduzlar kimi Minanın gözləri qarşısında parlayır və dövr edirdi.*

*Bu süjet «İnanc» adı daşıyırdı.*

*Stadiondakı ekranda gündəlik həyatın bir hissəsi olan ənənələrə sadiq, islam dünyasının müxtəlif yaşlarda insanlarını əks etdirən film nümayiş olundu. Filmdə suyun böyük paklıq qüvvəsindən bəhs edilir. İslamda su ibadətin vacib amilidir, cismi və ruhu paklaşdıran vasitədir. Biz hamımız fərqliyik, lakin adət-ənənələrimiz və biliklərimiz bizi bir-birimizə bağlayır, dərimizin rəngindən, inanclarımızdan asılı olmayaraq, su bizi birləşdirən universal vasitədir.*

*Açılış mərasimi üçün hazırlanmış filmin çəkilişləri Azərbaycan, Avstraliya və Filippində aparılıb.*

*«Paklıq» adlı bu süjet boyu Ceyn Antoniya Kornişin və Daniel Hesin ifasında «Written in the Stars» mahnısı səsləndirilirdi.*

*Minanın yeni macərası başlandı. O, keçmişə yollandı və dünyanı gəzib dolaşaraq, cəsur səyyahlarla görüşdü, yaraşıqlı günbəzlərə baxdı, dahi şairləri gördü, planetimizdən kənar kainatı seyr etdi və ilk mexaniki cihazlarla tanış oldu. Bütün bunlar coğrafiya, memarlıq, ədəbiyyat, astronomiya və ixtira kimi sahələrdə bəşəriyyətin əldə etdiyi möhtəşəm uğurları ilə yadda qalan islamın «qızıl dövrü»nün xəzinələri sırasındadır.*

*«Bilik» adlanan bölümdə 570 iştirakçı çıxış edirdi. Mərasimin bu hissəsinin canlandırılmasında 40-dan artıq heyvandan – at, dəvə və ulaqlardan istifadə olunub.*

*İslamın «qızıl dövrü»ndən bəhs edən səhnələr zamanı Fikrət Əmirovun «Min bir gecə» baletindən musiqi səsləndirilirdi.*

*İslam dünyasının səyyahları Asiya, Şimali Afrika, Avropa və Orta Şərqin geniş coğrafiyasını əhatə edən ticarət yolları şəbəkəsi ilə yayılan mədəniyyət və bilik axını məskəni olmuş izdihamlı karvansaralarda görüşürdülər. Minanın növbəti səyahəti məhz buradan başlandı. «Karvansara» adlı bu səhnədə 70-*

*dən çox iştirakçı, böyük tacir arabası, canlı at və dəvələr, habelə qartal və şahin fiqurları diqqət çəkirdi.*

*Oyunlarda təmsil olunan hər bir xalqın mədəni irsindən götürülmüş elementlər – personajlar, tematik əşyalar, rekvizitlər və geyimlər səhnəyə çıxarılır və ekranda göstərilirdi. Eyni zamanda, Azərbaycanın 3 ənənəvi musiqi aləti – balaban, kamança və nağara nümayiş etdirildi. 300-dən çox səhnə rekviziti zaman və məkan haqqında təsəvvür yaradırdı. Onların arasında xalçalar, parçalar, musiqi alətləri, miniatürlər, kitablar, çay, qəhvə, fənərlər, meyvələr, zinət əşyaları və s. var idi.*

*Mina ağ atın belində səhnəyə daxil oldu. 16 at eyni ritmlə addımlayaraq, dövr edən çarx yaratdı. Sonra atlar paralel olaraq yan-yana keçdilər. Mina karvansaralarda tacir və səyyahlarla söhbət etdi. O, Azərbaycan xalçalarının və musiqi alətlərinin qarşısında ayaq saxlayıb onlara baxdı.*

*Çərpələngin üstündə oturaraq, səmada uçan Minanın öyrənəcəyi hələ çox şey vardır. Növbəti ünvan kəşflər dünyasıdır.*

*İslamın «qızıl dövrü»ndə insanlar səyahətə çıxmağı, bilik əldə etməyi sevərdilər. Dəniz səyyahları xəritələr tərtib etmiş, istiqaməti müəyyənləşdirən alətlər yaratmış və dünyanı daha yaxşı tanımaq, eləcə də güclü ticarət yolları qurmaq üçün vacib olan naviqasiya ustalarına çevrilmişdilər.*

*İslamın astronomiya elminə verdiyi ən böyük töhfələrindən biri armillyar sferanın təkmilləşdirilməsi olub. Ondan vaxtı müəyyənləşdirmək, Günəşin çıxmasını və batmasını əvvəlcədən bilmək, torpaqları tədqiq etmək və binaların hündürlüyünü hesablamaq üçün istifadə edilirdi.*

*İslam memarlığının günbəz və minarələrinin səmada həkk olunan cizgiləri olduqca fərqlidir. Bu axşam tamaşaçılar Bakı Olimpiya stadionunun səhnəsində 2 minarənin əhatəsində hündürlüyü 9 metr olan böyük göy günbəz gördülər. Kiçikölçülü digər günbəzlər və tağlar incə kəsim naxışlardan ibarət idi və islam memarlığında tez-tez rast gəlinən bir-biri ilə bağlı həndəsi elementləri nümayiş etdirirdi.*

*Mərasimin «Ədəbiyyat» bölümündə səhnəyə 3 böyük kitab fiquru çıxarıldı. IX–XIII əsrlərdə biliyin yayılması və inkişafında mühüm rol oynamış düşüncə və fikir mərkəzi olan Bağdaddakı «Hikmətlər evi» barədə məlumatlar silsilə kitablarda qeyd olunur. Səhnədə nümayiş etdirilən həmin kitablar islam sivilizasiyasının dahi ədiblərinə hörmət əlamətinin ifadəsi idi.*

*Sonra səhnədə Günəş, Yer kürəsi, Ay və digər planetlərdən ibarət Günəş sisteminin böyük modeli yaradıldı. Azərbaycan Dövlət Rəqs Ansamblının 24 rəqqası üzərində ulduz xəritələri təsvir edilmiş geyimlərdə səhnəyə çıxdı. Səhnə üzərində hündürlüyü 8,5 metr olan Günəş doğdu.*

*Səhnəyə çıxarılan velosiped kvadrantdan xəbər verirdi. Kvadrant alimlər və elm adamları tərəfindən islam mədəniyyətində ən çox istifadə olunan astronomik və naviqasiya alətlərindən biri idi. İri çarxlar Ayın fazalarını nümayiş etdirirdi. İslam təqvimi Ayın dövr etməsinə əsaslanır.*

*Stadionun səhnəsində 90 çarx, o cümlədən velosiped çarxları göründü, hündürlüyü 9 metr olan fil saatı nümayiş etdirildi. Bu çarxlar «qızıl dövr»ün mexaniki ixtiralarına və turbin texnologiyasına işarə idi. XI əsrə qədər bütün islam dünyasında su dəyirmanları işləyirdi. Su turbinlərinin ixtirası bir çox sənaye əməliyyatlarının mexanikləşdirilməsinə imkan yaratdı.*

*Fil saatı səhnədə görünəndə bütün hərəkət bir anlıq dayandı. Uçan çərpələngində oturmuş Mina Ay mənasını daşıyan topu ilanın ağzına atdı və fil saatı işə düşdü. Bununla da «Bilik» mərasimi yekunlaşdı.*

*Azərbaycan Dövlət Rəqs Ansamblının 24 rəqqası Arif Məlikovun «Məhəbbət əfsanəsi» baletinin musiqi sədaları altında xüsusi geyimlərdə çıxış etdi. Qəfildən qopan qum fırtınası səhnədəki hər şeyi süpürüb apardı.*

*Mina yolu azdı və səyahəti zamanı ilk dəfə qorxmağa başladı. Lakin Simurqun lələyi Minanın köməyinə gəldi və onun sehrli dostu ildırım sürəti ilə şığıyaraq, qızcığazın imdadına yetişdi. Mina fırtınadan, buludlardan yuxarıya, təhlükəsiz səmaya qalxaraq, ulduzlara çatdı.*

*«Arzu» adlı bu süjetin mənası belədir: biz bir-birimizə yardım etdikdə mümkün qədər kamilləşirik və bu yolla ulduzlu səmaya qalxa bilirik.*

*Simurqun qanadlarının uzunluğu 15 metr, çəkisi 750 kiloqramdır. Onun üzərində ulduz kimi parlayan 785 kiçik lampa yanırdı.*

*Mədəniyyət və inanc, irs və biliklər Minanın qəlbini sevinc hissi ilə doldurur. Bütün bunlar bu macəra zamanı onun daimi yolyoldaşı gözəl çərpələng sayəsində mümkün olur. Bu cütlük mehribancasına rəqs etdikcə, Mina babası haqqında düşünür və onun üçün darıxmağa başlayır, çünki evə qayıtmaq vaxtı artıq yetişmişdi.*

*«Sevinc» adlı bu səhnə Üzeyir Hacıbəylinin «Aşıqsayağı» simfoniyasının sədaları ilə müşayiət olundu.*

*Mina çərpələngində Bakı üzərindən uçaraq, doğma şəhərinin yeni simasını seyr etdi. Oynadığı gözəl şəhər parklarından başqa, Mina bir çox digər tarixi və yeni möhtəşəm binalara baxdı. Şəhərin mərkəzindəki möhtəşəm tarixi saraylar və qüllələr, eləcə də müasir mədəniyyət, idman və əyləncə məkanları göz önündən gəlib keçdi. Onun gələcəyi buradır. Bura Minanın evi – ümid yeridir.*

*«Ümid» adlı bu səhnənin nümayişi zamanı Qara Qarayevin «Yeddi gözəl» valsı səsləndirildi.*

*Mina əllərində çərpələng tutan 700 səhnə iştirakçısının üzərindən uçdu. Azərbaycan bayrağının rənglərində – yaşıl, qırmızı və göy çalarlarda olan kiçik altıbucaq çərpələnglər auditoriyanın başı üzərində dalğalandı. 20 nəfər odla hərəkətlər edirdi. «Yanar çarx»da 10 səhnə iştirakçısı fırlanırdı. Səhnədə quraşdırılmış 2 nəhəng hovuzdan hündürlüyü 10 metr olan su fəvvarəsi yüksəldi. Yerdə və havada «yanar çarx» fırlandı, stadion üzərində atəşfəşanlıq başlandı.*

*Tanış olduğu insanların bəxş etdiyi nurdan ilhamlanan Mina çərpələngin gözəl nümunəsini bütün dünyaya göstərdi. Beləliklə, hər kəs üçün kifayət qədər böyük ilhamlandırma nümunəsi yarandı. Minlərlə kiçik altıbucaq çərpələng Vasif Adıgözəlovun «4-cü piano konserti» musiqisinin sədaları altında tamaşaçıların üzərinə səpələndi.*

*Möhtəşəm və bənzərsiz, dərin mənalı açılış mərasimi «Sülh» səhnəsi ilə başa çatdı. Mina bu hekayətin başlandığı məkana – sakit Filarmoniya bağına qayıtdı.*

*Mina ürəkdolusu sevinclə babası ilə görüşdü. Yeni əldə etdiyi biliklərinə görə babasına təşəkkür edən Mina öz bələdçi dostunu – çərpələngini növbəti səyahətə yolladı ki, bütün dünyaya sülh və harmoniya yaysın. Çərpələng yerdən qalxaraq, yenidən səmaya pərvazlandı.*

*Tamaşaçılar Fərhad Bədəlbəylinin «Dəniz» əsərinin sədaları altında Mina və onun babası ilə vidalaşdılar.*

*IV İslam Həmrəyliyi oyunlarının təntənəli açılışı mərasimi Bakı Olimpiya stadionu və Dənizkənarı Milli Park üzərində möhtəşəm atəşfəşanlıqla bitdi. Bakının bahar səması əlvan rənglərə boyandı.*

*Beləliklə, Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən bu mərasimlə IV İslam Həmrəyliyi oyunlarının tarixə çevriləcək ilk parlaq səhifəsini yazdı.*

## «BAKI–2017» IV İSLAM HƏMRƏYLİYİ OYUNLARINDA KARATE ÜZRƏ YARIŞLARIN QALİBLƏRİNƏ MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*Bakı İdman Sarayı*

*13 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri mayın 13-də Bakı İdman Sarayında IV İslam Həmrəyliyi oyunlarının karate yarışlarının final qarşılaşmalarına baxmışlar.*

*Azərbaycan karateçiləri yarışların birinci günündə 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazandılar.*

*Yarışlarda Azərbaycanı qadın idmançılardan Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq) və Fəridə Abıyeva (61), kişi karateçilərdən isə Firdovsi Fərzəliyev (60 kq), Niyazi Əliyev (67 kq) və Rafael Ağayev (75 kq) təmsil edirlər.*

*Azərbaycan idmançısı Rafael Ağayev finalda Pakistan təmsilçisi Qulam Abbas ilə qarşılaşdı. O, rəqibini 4:0 hesabı ilə məğlub edərək, 1-ci yeri tutdu.*

*İdmançımız Fəridə Abıyeva (61 kq) isə finalda iranlı Rozita Əlipurkaşkalesadı 3:0 hesabı ilə məğlub edərək, «Bakı–2017»nin qalibi oldu.*

*Sonra mükafatlandırma mərasimi keçirildi.*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev qaliblərə medalları təqdim etdi.*

*Qalib idmançıların şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağımız qaldırıldı.*

*Yarışa səkkizdəbir finaldan qoşulan Rafael Ağayev Türkiyə təmsilçisi Erman Eltemur üzərində 3:0 hesabı ilə inamlı qələbə qazandı.*

*Karateçimiz dörddəbir finalda Səudiyyə Ərəbistanının idmançısı Sultan əl-Zəhranini 7:2 hesabı ilə məğlub edərək, adını yarımfinala yazdırdı. Rafael Ağayev yarımfinalda Malayziya təmsilçisi Şarmendran Raqonathanı 5:0 hesabı ilə məğlub edərək, finala vəsiqə qazandı.*

*Fəridə Abıyeva isə səkkizdəbir final mərhələsində Çad təmsilçisi Viktorine Koro üzərində 8:0 hesabı ilə inamlı qələbə əldə etdi. O, yarışın dörddəbir finalında Kot-d`İvuar idmançısı Koussai Ahia Aurelie Estelleni 2:0 hesabı ilə məğlub etdi. İdmançımız yarımfinalda özbəkistanlı rəqibi üzərində 3:2 hesablı qələbə qazanaraq, finala çıxdı.*

*«Bakı–2017»də 55 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan idmançısı İlahə Qasımova yarışda gümüş medalla k-ifayətlənməli oldu. İlahə Qasımova səkkizdəbir final mərhələsində fələstinli Saja Abbasini 8:1 hesabı ilə məğlub etdi. Dörddəbir finalda isə idmançımız İndoneziya təmsilçisi Sanistyarani Cok İstri Aqunq üzərində 7:0 hesabı ilə inamlı qələbə qazandı. İlahə Qasımova yarışın yarımfinal mərhələsində İordaniya təmsilçisi Majedah Albasareni 3:0 hesabı ilə məğlub edərək, finala yüksəldi. İdmançımız finalda Misir karateçisi Yasmin Attiyaniyə məğlub oldu.*

*Yarışda 50 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan idmançısı Nuranə Əliyeva IV İslam Həmrəyliyi oyunlarının bürünc medalını qazandı. İdmançımız indoneziyalı Srunita Sukatendel ilə gərgin keçən görüşdə rəqibinə qalib gəldi.*

*Azərbaycan karateçilərinin «Bakı–2017»də 2-ci bürünc medalını isə Firdovsi Fərzəliyev qazandı. 60 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız bürünc medal uğrunda görüşdə indoneziyalı Suryadi Suryadi ilə qarşılaşdı. Rəqibi üzərində 6:0 hesabı ilə inamlı qələbə qazanan Firdovsi Fərzəliyev IV İslam Həmrəyliyi oyunlarının bürünc medalına yiyələndi.*

*Mayın 14-də «Bakı–2017» çərçivəsində karatenin kumite növü üzrə digər çəki dərəcələrində yarışlar keçiriləcəkdir. Həmçinin karatenin kata növündə qaliblər məlum olacaqdır.*

# IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ CÜDO ÜZRƏ YARIŞLARINDA QALİB İDMANÇILARIMIZA MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*Bakı İdman Sarayı*

*13 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer mayın 13-də Heydər Əliyev adına İdman Sarayında «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarının cüdo yarışlarının final qarşılaşmalarına baxmışlar.*

*Azərbaycan idmançıları yarışlarda 6 qızıl və 7 gümüş medal qazandılar.*

*Cüdo yarışlarının ilk günündə fərdi mübarizədə kişilər arasında 60, 66, 73 kiloqram, qadınların yarışında isə 48, 52, 57, 63 kiloqram, eləcə də paracüdoçu qadınlar arasında 57, 70 kiloqram çəki dərəcələrində idmançılar tatami üzərinə çıxdılar.*

*Əvvəlcə 48 kiloqram çəki dərəcəsində qadınların yarışında mübarizə aparan Erdenebat Bazarraqça ölkəmizə ilk qızıl medalı qazandırdı. Onun finaldakı rəqibi digər təmsilçimiz Aişə Qurbanlı oldu. Maraqlı idman mübarizəsi şəraitində keçən görüşdə Erdenebat Bazarraqça 1:0 hesabı ilə qalib gələrək, IV İslam Həmrəyliyi oyunlarının çempionu adına layiq görüldü. Bu çəkidə 3-cü pilləni Mərakeş idmançısı Vəfa İdrissi Şorfi tutdu.Yarışda 57 kiloqram çəki dərəcəsində çıxış edən paracüdoçumuz Afaq Sultanova Azərbaycanın digər təmsilçisi Sevda Vəliyevanı ipponla məğlub edərək, fəxri kürsünün ən yüksək pilləsinə qalxdı.*

*60 kiloqram çəki dərəcəsində kişilərin yarışında Azərbaycanı təmsil edən Orxan Səfərov da ümidləri doğrultdu. Finalda türkiyəli Bəkir Özlünü 2:1 hesabı ilə məğlub edən cüdoçumuz qızıl medal qazandı.*

*Kişi idmançıların mübarizəsində 66 kiloqram çəki dərəcəsində Nicat Şıxəlizadə finalda Əlcəzair təmsilçisi Houd Zourdani ilə görüşdə rəqibinə ipponla qalib gəldi və IV İslam Həmrəyliyi oyunlarının çempionu oldu.*

*Cüdo yarışlarında ölkəmizə daha bir qızıl medalı qadın paracüdoçumuz Ramilə Kaştayeva (70 kq) qazandırdı. O, finalda digər idmançımız Turanə Ağayevaya ipponla qalib gələrək, qızıl medala sahib oldu.*

*Kişilər arasında 73 kiloqram çəki dərəcəsində yarışın finalında Azərbaycanın 2 cüdoçusu üz-üzə gəldi. Rüstəm Orucova qalib gələn Hidayət Heydərov IV İslam Həmrəyliyi oyunlarında fəxri kürsünün 1-ci pilləsinə qalxdı.*

*Qalib idmançıların mükafatlandırılması mərasimlərində medalları atletlərə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer təqdim etdilər.*

*Çempion idmançılarımızın şərəfinə Azərbaycanın Dövlət himni səsləndirildi, Dövlət bayrağımız qaldırıldı.*

*Cüdo yarışlarının 1-ci günündə Azərbaycanın 7 idmançısı gümüş medalla kifayətlənməli oldu.*

*Qadınların mübarizəsində Nəzakət Əzizova (52 kq) finaladək inamla irəliləsə də, həlledici qarşılaşmada Türkiyə təmsilçisi İrem Korkmaza məğlub olaraq, İslamiadanı 2-ci pillədə başa vurdu.*

*Kifayət Qasımova (57 kq) isə final görüşündə Əlcəzair idmançısı Ratiba Tariketə uduzaraq, gümüş medalla kifayətlənməli oldu.*

*Qadınların yarışında 63 kiloqram çəki dərəcəsində çıxış edən Xanım Hüseynova həlledici qarşılaşmada Türkiyə idmançısı Busra Katıpoqluya məğlub olaraq, yarışı 2-ci pillədə tamamladı.*

*Digər gümüş medalçılarımız isə finalda azərbaycanlı rəqiblərinə məğlub olaraq, 2-ci yeri tutdular. Onlar Aişə Qurbanlı (48 kq), Sevda Vəliyeva (57 kq), Turanə Ağayeva (70 kq) və Rüstəm Orucovdur (73 kq).*

## NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

Əlahəzrət!

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Norveç xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 may 2017-ci il*

## IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ CÜDO ÜZRƏ KOMANDA YARIŞLARININ FİNAL MƏRHƏLƏSİNƏ BAXIŞ

*Heydər Əliyev adına İdman Sarayı*

*15 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mayın 15-də Heydər Əliyev adına İdman Sarayında keçirilən IV İslam Həmrəyliyi oyunlarının cüdo yarışlarının sonuncu günündə kişi cüdoçular arasında komanda yarışının final qarşılaşmasına baxmışlar.*

*Azərbaycanın kişilərdən ibarət milli komandası yarışı qızıl, qadın yığmamız isə gümüş medallarla başa vurdular.*

*Milli komandamız gərgin idman mübarizəsi şəraitində keçən həlledici qarşılaşmada Əlcəzair yığmasına 3:2 hesabı ilə qalib gələrək, qızıl medal qazandı.*

*Yarışda Azərbaycanı Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov (73 kq), Rüfət İsmayılov (81 kq), Məmmədəli Mehdiyev (90 kq) və Uşanqi Kokauri (+90 kq) təmsil etdilər.*

*Bürünc medallara Türkiyə və Özbəkistan yığmaları layiq görüldülər.*

*Sonra idmançıların mükafatlandırılması mərasimi keçirildi.*

*Qalib komandaların üzvlərinə medalları dövlətimizin başçısı, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev təqdim etdi.*

*Çempion cüdoçularımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağı qaldırıldı.*

*Həmin gün Azərbaycanın qadın cüdoçulardan ibarət yığma komandası isə finalda Türkiyə millisinə məğlub olaraq (0:5), İslamiadada 2-ci yeri tutdu.*

*Komandamızın Purevseren Buyanxişıq (52 kq), İçinxorlu Munxtsedev (57 kq), Xanım Hüseynova (63 kq), Gülsədəf Kərimova (70 kq) və İrina Kindzerska (+70 kq) təmsil edirdilər.*

*Qadın cüdoçular arasında komanda yarışında bürünc medallara Özbəkistan layiq görüldü.*

*Sonra idmançıların mükafatlandırılması mərasimi oldu.*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mükafatlandırma mərasiminə baxdılar.*

*Qalib komandaların üzvlərinə medalları Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, İslam Həmrəyliyi İdman Federasiyasının İcraiyyə Komitəsinin üzvü Çingiz Hüseynzadə təqdim etdi.*

*Sonra Türkiyə Respublikasının Dövlət himni səsləndirildi və Dövlət bayrağı qaldırıldı.*

*Beləliklə, «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarının cüdo yarışlarında Azərbaycan idmançıları ümumilikdə 26 medal – 11 qızıl, 12 gümüş və 3 bürünc medal qazandılar.*

## ƏSAS AMERİKA YƏHUDİ TƏŞKİLATLARININ PREZİDENTLƏRİ KONFRANSININ İCRAÇI SƏDR MÜAVİNİ MALKOLM HONLAYN İLƏ GÖRÜŞ

*16 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı qəbul etmişdir.*

*Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlayn ulu öndər Heydər Əliyev ilə görüşünü və ümummilli liderin onunla apardığı çox maraqlı söhbəti məmnunluqla xatırlatdı. O, Amerika yəhudi icmasının Azərbaycanda yəhudi məktəbinin inşasına investisiya qoymağı planlaşdırdığını diqqətə çatdırdı.*

*Malkolm Honlayn Azərbaycan–ABŞ əlaqələrindən, o cümlədən Amerika yəhudiləri ilə ölkəmiz arasında uğurlu əməkdaşlıqdan məmnunluğunu ifadə etdi və bu əməkdaşlığın daha da gücləndirilməsinin önəmini vurğuladı.*

*Prezident İlham Əliyev Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynın ölkəmizə böyük nümayəndə heyəti ilə bundan əvvəlki səfəri zamanı onunla görüşünü xatırlatdı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanın yəhudi icması ölkəmizdə digər xalqların nümayəndələri ilə birlikdə dinc və əmin-amanlıq şəraitində yaşayır.*

*Söhbət zamanı Azərbaycanda bu ilin «İslam həmrəyliyi ili» elan olunması, hazırda isə Bakıda İslam Həmrəyliyi oyunlarının uğurla keçirilməsi və yüksək səviyyədə təşkil edilən IV Ümum-*

*dünya Mədəniyyətlərarası Dialoq Forumunun mədəniyyətlərarası dialoqun gücləndirilməsi işinə ölkəmizin töhfəsi kimi dəyərləndirildi, Azərbaycanda multikulturalizm mühitinin təmin olunmasının əhəmiyyətindən danışıldı və bu istiqamətdə görülən tədbirlərin maraqla izlənildiyi qeyd olundu.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

## XXIII AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ XI AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*17 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 17-də Bakı Ekspo Mərkəzində XXIII Azərbaycan Beynəlxalq Qida Sənayesi «WorldFood Azerbaijan–2017» və XI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı «CaspianAgro–2017» sərgiləri ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya sərgilərlə bağlı məlumat verildi. Bildirildi ki, sərgilərdə dünyanın 28 ölkəsini təmsil edən 331 şirkət iştirak edir. İştirakçıların 70 faizi xarici şirkətlərdir. Belarus, Çin, Gürcüstan, Macarıstan, Niderland və Şri-Lanka sərgilərdə milli stendlərini təqdim edir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «Made in Azerbaijan» brendi ilə çıxış edən yerli şirkətlər də sərgidə fəal təmsil olunur. Onlardan biri 1991-ci ildən fəaliyyətə başlayan «Azersun Holding»dir.*

*Dövlətimizin başçısına istehsal müəssisələrinin yerli xammal ilə təmin edilməsi istiqamətində atılan addımlar və reallaşdırılan layihələr barədə məlumat verildi. Qeyd olundu ki, aparılan uğurlu elmi-tədqiqat işlərinin nəticəsi olaraq, artıq qışda da şəkər çuğunduru əkini həyata keçirilir. Bu il 14 min hektar ərazidə yeni şəkər çuğunduru sahələri salınıb. Sərgidə ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan «Azersun Holding» tərəfindən istehsal olunan çay, şəkər, yağ,*

*duz, konserv, süd, sous və digər məhsullar ziyarətçilər tərəfindən böyük maraqla qarşılanır.*

*Sərgidə öz imkanlarını təqdim edən şirkətlərdən biri də «Grow Group Azerbaijan» MMC-dir. Şirkət müasir istixana komplekslərinin qurulması, idarə edilməsi zamanı lazım olan alətlərin, avadanlıqların satışı və həmçinin kənd təsərrüfatı məhsullarının istehsalı və satışını həyata keçirir. «Grow Group Azerbaijan»ın bacarıqlı, təlim keçmiş işçiləri müasir istixana komplekslərinin tikintisi və idarə olunmasında mükəmməl yerli və beynəlxalq təcrübəyə malikdirlər. Şirkət hollandiyalı tərəfdaşları ilə birgə şüşə örtüklü istixanaların da quraşdırılmasını həyata keçirir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Netafim» sulama sistemləri stendi ilə də tanış oldular. Şirkətin layihələrinə isti, soyuq, tropik və mülayim hava şəraiti daxil olmaqla, hər yerdə rast gəlmək mümkündür. Bu layihələrdə bütün müasir istixana texnologiyalarından istifadə olunur. Şirkət damla sulama və mikroirriqasiya sistemləri üzrə dünyada ən yaxşılarındandır.*

*«Maschio Gaspardo» şirkətinin məhsulları da sərgidə böyük maraqla qarşılanır. 1964-cü ildə yaradılan bu şirkət müxtəlif kənd təsərrüfatı avadanlıqlarının istehsalı ilə dünyada məşhurdur. Şirkətin kultivatorları, müxtəlifölçülü dərmansəpənləri və kotanları yüksək keyfiyyəti ilə fərqlənir. İtaliyada 7, həmçinin Avropa, Asiya və ABŞ-da 3 istehsal sahəsi və 13 filialı olan şirkət rəqabətədavamlı məhsulları ilə seçilir. Şirkətin məhsulları ətraf mühitin qorunması ilə bağlı nəzərdə tutulan bütün tələblərə cavab verir.*

*Budəfəki sərgidə İtaliyanın «Landini» şirkəti də təmsil olunur. Uzun illərdir kənd təsərrüfatı texnikası istehsal edən şirkətin məhsullarına dünyanın əksər ölkələrində tələbat var. Hazırda bu istehsalçı «Landini» markalı traktorları ölkəmizdə fəaliyyət göstərən fermerlərə təklif edir.*

*Sərgilərdə Gürcüstanın milli stendi də məhsulun çeşidinin çoxluğu və müxtəlifliyi ilə diqqəti cəlb edir. Burada Gürcüstan-*

*da istehsal edilən müxtəlif kənd təsərrüfatı məhsulları nümayiş olunur. Onların arasında mineral sular, təbii şirələr, bal və digər məhsullar vardır. Kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşan 9 müxtəlif şirkətin nümayiş etdirdiyi məhsullar təbiiliyi və keyfiyyəti ilə seçilir. Gürcüstan artıq Bakı sərgisində 3-cü dəfədir ki, milli stendlə təmsil olunur. Amerikanın «John Deere» şirkəti dünyada ən etibarlı istehsalçılardandır. Şirkətin fəaliyyətində innovasiyaların tətbiqinə və keyfiyyətə xüsusi diqqət yetirilir. Bu şirkətin məhsulları da Bakı sərgisində geniş nümayiş olunur.*

*Türkiyənin CANSA şirkətinin stendi ilə tanışlıq zamanı Azərbaycan Prezidentinə məlumat verildi ki, bu müəssisə kənd təsərrüfatı avadanlıqlarının istehsalı ilə məşğuldur. Sərgidə şirkətin istehsalı olan müxtəlif kənd təsərrüfatı avadanlıqları nümayiş etdirilir.*

*Sərgilərdə öz imkanlarını təqdim edən yerli şirkətlərdən biri də «Kaspi-Yıldız» Azər–Türk müəssisəsidir. Prezident İlham Əliyevə müəssisə barədə məlumat verildi. Bildirildi ki, özəl sektorda 20 ildir uğurla təmsil olunan bu şirkət ölkə iqtisadiyyatının inkişafına töhfələr verir.*

*2012-ci ildə təsis edilən «Lerik broyler» müəssisəsi artıq ölkənin kənd təsərrüfatı sektorunda kifayət qədər tanınıb. Bu yaxınlarda isə şirkət ölkəmizdə kənd təsərrüfatı texnikasının və avadanlıqlarının istehsalına başlayıb.*

*«A-SERA-Group» MMC-nin pavilyonu ilə tanışlıq zamanı məlumat verildi ki, şirkət istixana tikintisi sektorunda ilk və innovativ müəssisədir. «A-SERA-Group»un əsas məqsədi iqtisadi şəraiti nəzərə alaraq, dünya ölkələrini keyfiyyətli istixanalarla təmin etməkdir. Şirkət Hollandiya, Türkiyə, Rusiya və MDB ölkələrində böyük bazar payına sahibdir.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Binə-Aqro» MMC-nin stendi ilə tanış oldular. 2012-ci ildə fəaliyyətə başlayan şirkət Binə kəndində 42 hektar ərazidə istixana kompleksi qurub və öz fəaliyyətində*

*bütün standartlara cavab verən meyvə-tərəvəz məhsullarının yetişdirilməsi üçün yalnız müasir texnologiya tətbiq edir.*

*Sərgidə iştirak edən yerli şirkətlərdən biri də «Meyvəli» Logistika Mərkəzidir. «Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsinə dair əlavə tədbirlər haqqında» sərəncamın icrası məqsədi ilə yaranan mərkəz Qafqazın ən böyük logistika subyektidir. Logistika Mərkəzi 54 hektar ərazidə yaradılıb. Burada müxtəlif təyinatlı anbarlar, soyuducular, açıq ticarət yerləri və çoxsaylı mağazalar vardır. «Meyvəli» Logistika Mərkəzi kənd təsərrüfatı şirkətlərinin iri və orta biznes üçün əlverişli investisiya meydançasıdır. Mərkəzin əsas tərəfdaşları ölkənin iri ticarət şəbəkələridir.*

*Dövlətimizin başçısı «Ərzaq məhsullarının tədarükü və təchizatı» ASC-nin stendi ilə də tanış oldu. Bildirildi ki, sərgidə nümayiş etdirilən yeni traktorlar «Ərzaq məhsullarının tədarükü və təchizatı» ASC ilə «YTO Group» tərəfindən Qusar rayonunda yerləşən istehsal müəssisəsində yığılacaq. İlkin olaraq ildə 800 orta ölçülü traktorun yığılması həyata keçiriləcək. İstehsalın 2-ci ilindən etibarən traktorların mühərrikləri və ötürücü qurğuları istisna olmaqla, digər ehtiyat hissələri ölkəmizdə fəaliyyət göstərən müxtəlif müəssisələrdə hazırlanacaqdır. «Made in Azerbaijan» brendi altında istehsal olunan bu traktorlardan kənd təsərrüfatının müxtəlif sahələrində geniş istifadə olunacaqdır.*

*Azərbaycanda keçirilən bu sərgiyə böyük maraq göstərən ölkələrdən biri də Belarusdur. Belarus builki sərgidə 11 şirkətlə təmsil olunur. «Belaruski» ticarət şəbəkəsi ölkənin ən yaxşı ərzaq zavodlarının məhsullarını Azərbaycan bazarında təmsil edir. Hazırda Belarusun 30-dan çox zavodu ilə əməkdaşlıq edən ticarət şəbəkəsinin əsas məqsədi yerli əhali arasında məhsulların tanınması və fəaliyyətin daha da inkişaf etdirilməsidir. Bu gün ticarət şəbəkəsinin Azərbaycanda 4 mağazası fəaliyyət göstərir və şəbəkənin ölkəmizin ərazisində daha da genişləndirilməsi planlaşdırılır.*

*«Azərpambıq» MMC-nin stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, bu qurum əsasən pambıq istehsalı, onun tədarükü və emalı ilə məşğuldur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Sumqayıt Tekstil və Trikotaj» MMC və «Şəki–İpək» ASC-nin stendlərinə də baxdılar. Təbii ipəkdən müxtəlif məhsullar istehsal edən «Şəki–İpək» ASC fəaliyyətini getdikcə genişləndirir və məhsulun çeşidini artırır. Şirkətin məhsulları arasında ipək parçalar, kəlağayılar, əllə toxunan Azərbaycan xalçaları diqqəti cəlb edir. «Sumqayıt Tekstil və Trikotaj» şirkətinin məhsulları da keyfiyyəti ilə seçilir. Müəssisə müxtəlif çeşiddə məhsullar buraxır.*

*Şəki, Zaqatala və Qaxda istehsal sahələri fəaliyyət göstərən «İnterTobacco» müəssisəsi 2006-cı ildə yaradılıb və indiyədək bir sıra iqtisadi uğurlara imza atıb. Şirkət öz məhsullarını xarici ölkələrə ixrac edir.*

*«Oğuz Qarğıdalı Emalı Məhsulları Kompleksi» ən müasir texnoloji avadanlıq və yeni istehsal sahələri ilə təchiz edilmiş müəssisədir. Burada istehsal edilən qlükoza, fruktoza, quru nişasta qida sənayesi sektorunda, kəpək, qarğıdalı qırıntısı heyvandarlıq, quşçuluq və balıqçılıqda istifadə olunur.*

*Azərbaycanda keçirilən bu sərgilərə böyük maraq göstərən ölkələrdən biri də Hollandiyadır. Bu ölkənin Bakı sərgisindəki milli stendində bir neçə şirkət təmsil olunub. Prezident İlham Əliyevə məlumat verildi ki, bu şirkətlər istehsalda innovativ texnologiyalardan istifadə etməklə, ənənəvi keyfiyyəti qoruyub saxlayırlar. Buna görə də onların məhsullarına beynəlxalq bazarlarda böyük tələbat vardır.*

*Yerli brend olan «Balxurma» da sərgidə ilk dəfədir iştirak edir. Müəssisə SOCAR-ın və regionlarda ailə təsərrüfatına yardım məqsədilə «ASAN xidmət»in nəzdində yaradılan «ABAD» mərkəzinin dəstəyi ilə qurulub.*

*Dövlətimizin başçısı və xanımı «Astaraçay» MMC-nin stendi ilə tanış oldular. Şirkət 2010-cu ildə yaradılıb. Çay istehsalı üçün istifadə edilən xammal yalnız Azərbaycanın subtropik bölgəsi olan Astara və Lənkəran rayonlarındakı çay plantasiya-*

*larından tədarük edilir. Fabrik gündə 10 ton yaşıl çay emal etmək gücünə malikdir.*

*Sərgidə iştirak edən yerli şirkətlərdən biri də METAK şirkətidir. İntensiv bağçılıq üçün nəzərdə tutulan məhsullarını təqdim edən bu şirkət öz peşəkar mühəndislik və qəlibçilik ənənələrinə güvənərək, xüsusi kənd təsərrüfatı avadanlıqlarının istehsalına başlayıbdır.*

*Azərbaycanda keçirilən bu sərgilərə böyük maraq göstərən şirkətlərdən biri də Qazaxıstanın RAXAT Açıq Səhmdar Cəmiyyətidir. 75 illik tarixi olan şirkət Qazaxıstanda fəaliyyət göstərən ən böyük şirniyyat istehsalçılarından biridir. Şirkət tərəfindən istehsal edilən məhsulun çeşidinə 300-dən çox adda müxtəlif şirniyyat daxildir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Gilan Holding»in kənd təsərrüfatı stendi ilə tanış oldular. Bildirildi ki, Qəbələnin Vəndam qəsəbəsində «Gilan Holding»in «Aqro Kompleks Qəbələ» MMC formalaşır. Bu kompleks Avropanın ən nəhəng heyvandarlıq müəssisələrindən biridir. Burada çalışan aparıcı mütəxəssislər Hollandiyada və Almaniyada ixtisasartırma kursu keçiblər.*

*Sonra dövlətimizin başçısı «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin sərgidə nümayiş etdirilən traktorlarına baxdı. Burada müəssisənin istehsalı olan 10 müxtəlif modeldə traktor, otbiçən və kotanlar nümayiş etdirilir. Traktor modellərindən bəziləri ilk dəfə olaraq təqdim edilir. Onların arasında pambıq əkini və kəskin isti hava şəraitində məhsul yığımı üçün nəzərdə tutulan kondisionerli traktorlar da vardır.*

*Bundan başqa, sərgidə ilk dəfə Almaniya istehsalı olan «Holmer» kombaynı da nümayiş etdirilir. Hazırda bu kombaynlar dünyada ən çox tələb olunan texnikalardan biridir və ən müasir texnoloji yeniliklərə cavab verir.*

*Prezident İlham Əliyev kombaynı işə saldı.*

*«Azərtexnika» MMC ölkəmizə Avropa və Türkiyədən kənd təsərrüfatı texnikası idxal edir. Onların arasında müxtəlif markalı traktorlar da var. Şirkətin südsağan aqreqatları və süd-*

*soyudan çənləri, buğda, arpa, qarğıdalı, kartof və pambıq toxumu səpən avadanlığı, ağacları dərmanlayan qurğuları, kiçik və iri inkubatorları böyük maraqla qarşılanır.*

*Sərgidə kənd təsərrüfatı sahəsində dünya liderlərindən olan Almaniyanın CLAAS brendinin məhsulları da nümayiş olunur. Şirkətin taxıl və qarğıdalıyığan kombaynları, həmçinin traktorları yüksək keyfiyyəti ilə seçilir.*

*Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, «Iteca Caspian» və «ITE Group Plc» şirkətlərinin təşkilatçılığı ilə keçirilən bu sərgilərin artıq yeni məhsul və texnologiyaların təqdimatı üçün nadir platformaya çevrildiyini və kifayət qədər maraq doğurduğunu təsdiqləyir.*

## NİDERLAND KRALLIĞI SENATININ SABİQ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*17 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Niderland Krallığı Senatının sabiq sədri, Azərbaycanın Niderlandlı Dostları Qrupunun rəhbəri Rene van der Lindeni qəbul etmişdir.*

*Rene van der Linden Niderland Krallığı ilə Azərbaycan arasında həyata keçirilən birgə iqtisadi fəaliyyətin Azərbaycanın dünyada təqdim olunması işinə töhfə verdiyini vurğuladı və bunun Niderlandın yerləşdiyi regionda digər ölkələr üçün də səmərəli əməkdaşlığın bir nümunəsi ola biləcəyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirərək qeyd etdi ki, Rene van der Lindenin əməkdaşlığımızın möhkəmləndirilməsi istiqamətində səyləri ikitərəfli münasibətlərimizin inkişafında mühüm rol oynayır. Azərbaycan–Niderland əlaqələrinin genişləndirilməsi üçün qarşılıqlı marağın olduğunu bildirən dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif səviyyəli səfərlərin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev Niderland Krallığının Azərbaycanın mühüm layihələrində daha çox şirkətinin iştirakını məmnunluqla vurğuladı. Dövlətimizin başçısı Niderland Krallığının Bakıda keçirilən Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgisində ənənəvi olaraq fəal iştirak etdiyini nəzərə çatdırdı, kənd təsərrüfatı sahəsində əməkdaşlığın yaxşı perspektivlərinin olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanın ixracat potensialının genişləndiyini vurğulayaraq, son 4 ayda ölkəmizin qeyri-neft ixracının 22 faiz artdığını dedi.*

*Söhbət zamanı təhsil, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Niderland Krallığı Senatının sabiq sədri, Azərbaycanın Niderlandlı Dostları Qrupunun rəhbəri Rene van der Linden xatirə hədiyyəsini dövlətimizin başçısına təqdim etdi.*

## İSLAMİADADA 50-ci QIZIL MEDALI İDMANÇIMIZA TƏQDİMETMƏ MƏRASİMİ

*Bakı İdman Sarayı*

*17 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mayın 17-də Bakı İdman Sarayında IV İslam Həmrəyliyi oyunlarının taekvando yarışlarının final qarşılaşmalarına baxmışlar.*

*Taekvando yarışlarının 2-ci günündə Azərbaycan idmançıları 4 qızıl və 1 gümüş medal qazandılar.*

*Qızıl medalları Azərbaycanın aktivinə Patimat Abakarova, Ayxan Tağızadə, Milad Beigi Hərçəqani və Radik İsayev yazdırdılar. Gümüş medala isə Fəridə Əzizova layiq görüldü.*

*Bakı İdman Sarayında kişilər arasında 68, 80 kiloqram və 87 kiloqramdan yuxarı, qadınların mübarizəsində 49, 67, 73 kiloqram çəki dərəcələrində idmançılar tatami üzərinə çıxdılar. Azərbaycanın 5 idmançısı medallar uğrunda mübarizə apardı.*

*Qadın taekvandoçumuz Patimat Abakarova (49 kq) final görüşündə qazaxıstanlı Aynur Yesbergenovanı 14:4 hesabı ilə məğlub edərək, qızıl medala sahib oldu. Bürünc medalları isə İran təmsilçisi Şalmei Sudabe Poursadiqi və türkiyəli Çidəm İpək qazandı.*

*Kişi taekvandoçuların yarışlarında 68 kiloqram çəki dərəcəsində mübarizə aparan Ayxan Tağızadə final görüşündə iranlı Seyedhossein Ehsanipetroudi üzərində 9:8 hesabı ilə qalib gəldi. Bu çəki dərəcəsində bürünc medalları isə Səudiyyə Ərəbistanı təmsilçisi Səud əl-Muvallad və indoneziyalı Dinqo Prayoqo əldə etdilər.*

*Digər taekvandoçumuz Milad Beigi Hərçəqani (80 kq) finalda türkiyəli Yunus Sarı ilə qarşılaşdı. Həlledici görüşdə 9:5 hesabı ilə qalib gələn idmançımız IV İslam Həmrəyliyi oyunlarının çempionu oldu. Bürünc medalları isə iranlı Əlireza Dərvişpur və özbəkistanlı Maksim Rafaloviç qazandılar.*

*Azərbaycan taekvandoçusu Radik İsayev (+87 kq) final görüşündə özbəkistanlı Dmitri Şokin ilə üz-üzə gəldi. Görüşün əsas vaxtı 8:8 hesabı ilə yekunlaşdı. Qalibi müəyyən etmək üçün oynanılan əlavə vaxtda rəqibini «qızıl xal»la məğlubiyyətə uğradan Radik İsayev IV İslam Həmrəyliyi oyunlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxdı. Bu çəki dərəcəsində bürünc medalları iordaniyalı Hamza Kattan və iranlı Hossein Qorbanzadə aktivlərinə yazdılar.*

*Yarışlarda 80 və +87 kiloqram çəki dərəcələrində çempion olan Milad Beigi Hərçəqaniyə və Radik İsayevə, həmçinin fəxri kürsüdə yer alan digər idmançılara medalları dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev təqdim etdi.*

*Qalib idmançılarımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağı qaldırıldı.*

*Taekvandoçumuz Fəridə Əzizova isə İslamiadanın gümüş medalı ilə kifayətlənməli oldu. O, finalda türkiyəli Nur Tatara 2:8 hesabı ilə məğlub olaraq, gümüş medalla mükafatlandırıldı. Bu çəki dərəcəsində bürünc medalları özbəkistanlı Niqora Tursunkulova və iordaniyalı Julyana əl-Sadiq qazandılar.*

*Xatırladaq ki, taekvando yarışlarının ilk günündə – mayın 16-da 57 kiloqram çəki dərəcəsində mübarizə aparan təmsilçilərimiz Yaprak Eriş qızıl, Qaşım Maqomedov (-54 kq) isə gümüş medal qazanıblar.*

## İSLAMİADADA BOKS YARIŞLARININ FİNAL GÖRÜŞÜNƏ BAXIŞ

*«Baku Crystal Hall»*

*18 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və ailə üzvləri mayın 18-də IV İslam Həmrəyliyi oyunlarının «Baku Crystal Hall»da keçirilən boks yarışlarının final görüşlərinə baxmışlar.*

*Azərbaycan boksçuları İslamiadada 3 qızıl, 3 gümüş və 1 bürünc medal qazandılar.*

*Bu yarışlarda Azərbaycan yığmasının aktivinə ilk qızıl medalı 60 kiloqram çəki dərəcəsində mübarizə aparan Cavid Çələbiyev yazdırdı. Həlledici görüşdə iraqlı Ammar Kərbəlayiyə 5:0 hesabı ilə qalib gələn boksçumuz «Bakı–2017»nin çempionu oldu. Bu çəki dərəcəsində bürünc medallara türkmənistanlı Hursad İmankuliyev və Qazaxıstan təmsilçisi Sultan Zaurbəy layiq görüldülər.*

*Qalib idmançılara medalları dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev təqdim etdi.*

*Çempion idmançımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağı qaldırıldı.*

*İslamiadada Azərbaycanın 55-ci qızıl medalını boks yarışlarında 91 kiloqram çəki dərəcəsində çıxış edən Teymur Məmmədov qazandı. O, həlledici görüşdə türkiyəli Burak Akşinə 3:2 hesabı ilə qalib gəldi. Bu çəki dərəcəsində bürünc medallara suriyalı Eldin Alaa Qhoussoun və mərakeşli Abdelcalil Abuhamda layiq görüldülər.*

*Boks üzrə Azərbaycan millisinin aktivinə 3-cü qızıl medalı Məhəmmədrəsul Məcidov yazdırdı. Yarışlarda 91 kiloqramdan*

*yuxarı çəki dərəcəsində mübarizənin finalında idmançımız suriyalı Manaf Asaadı 4:1 hesabı ilə məğlub etdi. Bu çəki dərəcəsində bürünc medallara mərakeşli Məhəmməd Arjaoui və iordaniyalı Hüsseyn İaşaiş sahib oldular.*

*Yarışlarda 69 kiloqram çəki dərəcəsində rinqə çıxan boksçumuz Tamerlan Abdullayev gümüş medalla kifayətlənməli oldu. İdmançımız həlledici qarşılaşmada özbəkistanlı Bobo-Usmon Baturov ilə görüşdən məğlub ayrıldı. Bu çəki dərəcəsində qazaxıstanlı İlya Oçkin və Suriya təmsilçisi Ahmad Qhosson bürünc medallarla kifayətləndilər.*

*Olimpiya mükafatçımız Kamran Şahsuvarlı (75 kq) isə finalda qazaxıstanlı Tursunbay Kulahmet ilə rinqə çıxdı. Gərgin idman mübarizəsi şəraitində keçən döyüşdə Kamran Şahsuvarlı məğlub olaraq, 2-ci yeri tutdu. Bu çəki dərəcəsində bürünc medallara kamerunlu Vilfred Dieudonne Seyi Ntsenue və mərakeşli Youness Qarroumi sahib oldular.*

*Boks komandamızın aktivinə 3-cü gümüş medalı Rauf Rəhimov (81 kq) yazdırdı. Qızıl medal uğrunda görüşdə türkmənistanlı Arslanbek Açilov ilə üz-üzə gələn Rauf Rəhimov məğlub olaraq, fəxri kürsünün 2-ci pilləsində qərarlaşdı. Misirli Abdelrahman Abdelqavvad və Türkiyə boksçusu Cem Karlıdağ bu yarışda bürünc medallara layiq görüldülər.*

*Azərbaycan boksçusu Tayfur Əliyev (56 kq) yarışları bürünc medalla başa çatdırdı.*

*Beləliklə, Azərbaycan boksçuları IV İslam Həmrəyliyi oyunlarında 3 qızıl, 3 gümüş və 1 bürünc medal qazanaraq, İslamiadada komanda hesabında 1-ci yeri tutdular.*

# İSLAMİADANIN YUNAN-ROMA GÜLƏŞİ YARIŞLARININ FİNAL MƏRHƏLƏSİNƏ BAXIŞ

*18 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və ailə üzvləri mayın 18-də IV İslam Həmrəyliyi oyunlarında Yunan-Roma güləşi üzrə yarışların final görüşlərinə baxmışlar.*

*Azərbaycan pəhləvanları oyunları 4 qızıl, 1 gümüş və 3 bürünc medalla başa çatdırdılar.*

*Heydər Əliyev adına İdman Sarayında keçirilən Yunan-Roma güləşi yarışlarının 2-ci günündə 4 çəki dərəcəsində qaliblər müəyyənləşdi.*

*Güləşçimiz Kamran Məmmədov (66 kq) finalda Qırğızıstan idmançısı Janat Kilibayev ilə qarşılaşdı. Görüş vaxtından əvvəl 9:0 hesabı ilə Azərbaycan pəhləvanının xeyrinə başa çatdı. Bu çəki dərəcəsində bürünc medallara türkiyəli Abdulsamət Günal və iranlı Mehdi Zeidvand sahib oldular.*

*Qalib idmançılara medalları dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev təqdim etdi.*

*Çempion idmançımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağı qaldırıldı.*

*Yarışlarda 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Elvin Mürsəliyev finalda Türkiyə təmsilçisi Furkan Bayrak üzərində 1:0 hesabı ilə qələbə qazanaraq, millimizin aktivinə 54-cü qızıl medalı yazdırdı. Bu çəki dərəcəsində türkmənistanlı Şermet Permanov və Qırğızıstan idmançısı Kayratbek Tuqolbayev bürünc medallara sahib oldular.*

*Digər güləşçimiz İslam Abbasov (85 kq) isə finalda Türkiyə təmsilçisi Ali Cengizi məğlub edərək, «Bakı–2017»nin qızıl me-*

*dalını qazandı. Bu çəki dərəcəsində bürünc medallara qırğızıstanlı Azat Bişebekov və iranlı Mahdi Fallah Hamidabadi layiq görüldülər.*

*Yunan-Roma güləşi yarışlarında 130 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Sabah Şəriəti bürünc medal uğrunda görüşdə suriyalı Raja Alkrada qalib gələrək, 3-cü yeri tutdu.*

*Beləliklə, İslamiadada Yunan-Roma güləşi üzrə yarışlarda 4 qızıl, 1 gümüş və 3 bürünc medal qazanan Azərbaycan millisi komanda hesabında 1-ci yerdə qərarlaşdı.*

# HEYDƏR ƏLİYEV ADINA YARIMDALMA QAZMA QURĞUSUNUN AÇILIŞI MƏRASİMİ

*18 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Qaradağ rayonunda SOCAR-ın «Caspian Drilling» şirkətinin dəniz təchizat və logistika bazasında Heydər Əliyev adına Yarımdalma qazma qurğusunun açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və «Caspian Drilling» şirkətinin baş direktoru Fərid Axundov dövlətimizin başçısına qurumun 1996–2016-cı illər ərzində fəaliyyəti, əməliyyatlar üzrə səmərəli vaxt cədvəlinin dünyanın digər qazma şirkətləri ilə müqayisəsi, həmçinin Heydər Əliyev adına Yarımdalma qazma qurğusu barədə məlumat verdilər.*

*Qurğunun Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıması xüsusi əhəmiyyətə malikdir. Ötən əsrin 70-ci illərindən başlayaraq, ulu öndər Heydər Əliyev Xəzər dənizində qazma işlərinin sürətləndirilməsi məqsədilə müasir qurğulardan istifadə olunmasını daim diqqət mərkəzində saxlamışdı. Ümummilli liderin gərgin səyləri nəticəsində keçən əsrin 70–80-ci illərində ölkəyə «Şelf» tipli qazma qurğuları gətirilib, müstəqillik illərində onlar yenidən qurularaq, «Dədə Qorqud» və «İstiqlal» kimi, üzən qazma qurğuları yaradılıbdır. Sonralar dənizin dərin hissələrində kəşfiyyat-qazma işlərinin həyata keçirilməsi məqsədilə «Dədə Qorqud» və «İstiqlal» yarımdalma qazma qurğularında təmir işləri aparılıb, dənizdə suyun dərinliyinin 700 metr olan hissəsində qazma işlərinin aparılması üçün imkan yaradılıbdır. 2000-ci ildə inşa edilmiş «Lider» qazma*

*qurğusu isə dənizdə suyun dərinliyinin 1000 metr olan hissələrində kəşfiyyat quyuları qazmağa imkan yaradıbdır.*

*Prezident İlham Əliyev SOCAR-ın və «Caspian Drilling» şirkətinin rəhbərliyi, layihədə çalışanlar, həmçinin ölkədə pay bölgüsü sazişlərində iştirak edən xarici şirkətlərin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz yeni yarımdalma qazma qurğusunun istifadəyə verilməsini qeyd edirik. Bu hadisə münasibətilə sizi, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, Azərbaycan neft sənayesində çox tarixi bir hadisədir. Çünki bu günə qədər Azərbaycanda bu böyüklükdə qazma qurğusu tikilməmişdir. Bu qazma qurğusunun inşaatında iştirak etmiş bütün işçiləri, əməkdaşları təbrik edirəm, onlara minnətdarlığımı bildirirəm. Şadam ki, belə bir nəhəng qurğu Azərbaycanda inşa edilibdir. Bu qurğunun inşasında iştirak edənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Burada biz xarici tərəfdaşlarla növbəti əməkdaşlıq layihəsinin uğurla icra edilməsini görürük. Əlbəttə, bu reallıqdır. Uzun illərdir Azərbaycan xarici tərəfdaşlarla uğurla əməkdaşlıq edir. Xarici şirkətlər Azərbaycana investisiyalar yatırır. Bu qurğuya isə investisiyalar Azərbaycan dövləti tərəfindən qoyulubdur.

Biz neftdən əldə edilmiş gəlirləri, o cümlədən belə nəhəng layihələrə yönəldirik. Bu layihənin icrası üçün həm Dövlət Neft Fondundan, həm Dövlət Neft Şirkətindən qoyulan vəsait təqribən 1 milyard dollara yaxındır. Bu həm bizim gücümüzü, həm imkanlarımızı, həm də Azərbaycanda neft sənayesinin uğurlu inkişafını göstərir. Xarici şirkətlər tərəfindən Azərbaycana sərmayə qoyulanda, bizim əsas şərtlərimizdən biri də o idi ki, Azərbaycanda bu sərmayələr eyni zamanda, neft sənayesinin inkişafına xidmət göstərsin. Azərbaycanda iş yerləri

yaradılsın, bizim işçilər yaxşı maaş alsınlar, onların peşəkarlığı artsın, onlar üçün təlim kursları keçirilsin və bu gün biz bunu görürük. Bu gün Azərbaycan vətəndaşları bütün əsas neft layihələrində uğurla işləyirlər və həm özlərinə, həm də ölkəyə böyük fayda verirlər.

Bu qazma qurğusunun yaradılması tarixi hadisədir. Təsadüfi deyil ki, bu qazma qurğusuna ulu öndər Heydər Əliyevin adı verilibdir. Heydər Əliyev Azərbaycanın müasir neft sənayesinin banisidir. Heydər Əliyevin neft strategiyası bu gün uğurla icra edilir. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycanın neft sənayesində yeni dövr başlanmışdır. Bununla bərabər, hələ ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın neft sənayesi üçün çox önəmli addımlar atılmışdır. O cümlədən Dərin Özüllər zavodunun tikintisi ulu öndərin təşəbbüsü ilə ötən əsrin 70-ci illərində başlanmışdı. Yəqin siz də eşitmisiniz ki, başqa variantlar da var idi – Xəzərin digər sahillərində belə bir zavodun tikintisi nəzərdə tutulurdu. Heydər Əliyevin müdaxiləsi və səyləri nəticəsində Dərin Özüllər zavodunun tikintisi üçün yer Bakı seçildi. O zavodun bu gün neft sənayemizin, ümumiyyətlə, ölkəmizin inkişafı üçün əvəzolunmaz rolu vardır. XX əsrin 70-ci illərində neftayırma zavodlarının modernləşdirilməsi, digər layihələrin icrası Azərbaycanda neft sənayesinin inkişafına xidmət edirdi. O ki qaldı müstəqillik dövrünə, əgər 1994-cü ildə biz xarici tərəfdaşları Azərbaycana investisiya qoymağa cəlb etməsəydik, bu gün Azərbaycanın, ümumiyyətlə, iqtisadi vəziyyəti tam fərqli ola bilərdi. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması tarixi hadisə idi və mən o günləri yaxşı xatırlayıram. Bu mərasimdə iştirak edən hörmətli Xoşbəxt müəllimlə birlikdə biz danışıqlarda iştirak etmişik. Biz 1994-cü ilin may ayında İstanbulda və iyul–avqust aylarında Amerikanın Hyuston şəhərində danışıqlar aparırdıq ki, Azərbaycan üçün ən məqbul şərtləri təmin edək. Elə edək ki, xarici investorlar da qaçmasın və onlar üçün yaxşı şərait də yaradılsın. Hesab edirəm ki, biz hər iki tərəf üçün məqbul variantı əldə etdik. Gərgin danışıqlar nəticəsində 1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi»

imzalandı və bu gün uğurla icra edilir. «Əsrin müqaviləsi» imzalanmasaydı, indi Azərbaycan bu qədər inkişafa nail ola bilməzdi. Bunu hamı bilməlidir.

Bizim uğurlu inkişafımızın əsas mənbəyi «Əsrin müqaviləsi»dir və o layihədən əldə olunan gəlirlərdir. Biz gəlirləri uğurla digər sahələrə yönəltdik. Əlbəttə, neft-qaz əməliyyatlarının davam etdirilməsi prosesi getmişdir, «Şahdəniz» layihəsi 1996-cı ildən başlayaraq, uğurla icra olunur. Hazırda biz digər layihələr üzərində işləyirik. Heydər Əliyev adına Yarımdalma qazma qurğusu çox perspektivli «Abşeron» qaz-kondensat yatağında işləyəcək. Əminəm ki, biz tezliklə – bir neçə ilə «Abşeron» yatağından da yaxşı nəticələr görəcəyik. Digər perspektivli layihələrimiz də gündəlikdədir. «Ümid» layihəsində artıq işlər gedir. «Babək», «Qarabağ» layihələrinə xarici şirkətlər yenə də maraq göstərirlər. Vaxtilə kontrakt imzalanmışdı, sonra ona xitam verildi. Ancaq indi biz bilirik və xarici tərəfdaşlar da görürlər ki, «Qarabağ» yatağında da böyük ehtiyatlar vardır. Yəni bu işləri biz ardıcıllıqla edirik ki, ölkəmiz daha da güclənsin və ölkəmizə daha da çox gəlir gəlsin. O ki qaldı icra edilmiş neft layihələrinə, indi onların hamısı uğurla işləyir. Bakı–Tbilisi–Ceyhan neft kəməri 11 ildir ki, fəaliyyət göstərir, «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra olunur. Əminəm ki, biz bu layihənin də icrasına vaxtında nail olacağıq. Biz bu layihənin əsas hissəsi olan TANAP-ın gələn il istifadəyə verilməsini qeyd etməliyik. Əminəm ki, biz buna nail olacağıq.

Mən bu gün eyni zamanda, xarici tərəfdaşlarla əməkdaşlığımızı da qeyd etmək istəyirəm. Bu əməkdaşlıq çox sağlam təməl üzərində qurulubdur. Həm investor, həm də kontraktor şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərirlər. Əlbəttə, onların öz korporativ maraqları vardır. Bizim isə dövlət maraqlarımız var və bu maraqlar üst-üstə düşür. Hesab edirəm ki, Azərbaycanda xarici investorlar üçün çox gözəl şərait yaradılıb. Bütün kontraktlar qanunla təsdiqlənir ki, bu da investorlarda inam yaradır.

Beləliklə, bu gün biz ölkəmizin tarixində yeni gözəl hadisəni birlikdə qeyd edirik. Bu nəhəng qurğu istənilən yerdə qazma işlərini apara bilər. Yəqin ki, neftçilər yaxşı bilirlər, sovet dövründə suyun dərinliyinin 200 metrdən çox olan yerlərinə getmək imkanı yox idi. Bəlkə məhz buna görə biz «Azəri–Çıraq–Günəşli», «Şahdəniz» yataqlarını bu gün müstəqil Azərbaycan üçün qoruya bilmişik. Əgər o vaxt belə imkanlar olsaydı, həmin yataqlar da artıq əlimizdən çıxacaqdı. Necə ki, bizim qurudakı əsas yataqlarımızın böyük əksəriyyətinin neft ehtiyatları çar Rusiyası zamanı və sovet dövründə tükəndi. Amma bu qurğu ilə biz istənilən yerdə qazma işləri apara bilərik. Bu qurğu suyun 1000 metr dərinliyində işləyə bilər. Mənə verilən məlumata görə, qurğunun qazma dərinliyi 12 min metrə bərabərdir, çəkisi isə 26 min tondur. Bax, bu rəqəmlər özlüyündə göstərir ki, biz nə qədər böyük bir layihəyə start verdik. Eyni zamanda, göstərir ki, bizim işçilərimiz, mühəndislər, fəhlələr nə qədər yaxşı iş görüblər. Sizi bu münasibətlə bir daha təbrik edirəm və sizə yeni uğurlar arzulayıram.

* * *

*Dövlətimizin başçısı Heydər Əliyev adına Yarımdalma qazma qurğusunun açılışını bildirən düyməni basdı.*

*Prezident İlham Əliyev tədbir iştirakçıları ilə söhbət etdi və sonra qurğu ilə tanış oldu.*

*Prezident İlham Əliyevə burada quraşdırılacaq sualtı əməliyyat aparatı barədə məlumat verildi. Bu aparat sualtı görüntüləri əldə edəcək və baş verə biləcək qəza zamanı zəruri funksiyaları yerinə yetirəcəkdir.*

*Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən yeni neft-qaz layihələri ilə əlaqədar yaranmış tələbatı nəzərə alaraq, Xəzər dənizində analoqu olmayan 6-cı nəsil qazma qurğusunun yaradılması haqqında göstəriş verib və bu layihənin icrasını daim dəstəkləyibdir. Azərbaycanın iqtisadi və sənaye potensialının daha da möhkəmləndirilməsində mühüm rol oynayacaq bu qurğunun tikintisi respublikamızda həyata keçirilən iri infra-*

*struktur layihələrindən biridir. Qurğunun tikintisi 2013-cü il iyunun 4-də «Caspian Drilling» və Sinqapurun «Keppel FELS» şirkətləri arasında podrat müqaviləsi çərçivəsində aparılıb. Layihənin iqtisadi əhəmiyyəti nəzərə alınaraq, maliyyələşmənin 90 faizi Dövlət Neft Fondu, 10 faizi isə SOCAR tərəfindən icra edilibdir. Qurğunun inşaat işlərinin idarə edilməsi, dizayn-mühəndislik işlərinə nəzarət, müvafiq təchizatlar və alqı-satqıların təşkil edilməsi isə SOCAR-a məxsus «Caspian Drilling» şirkəti tərəfindən həyata keçirilibdir. 2013-cü il sentyabrın 20-də – Neftçilər Günündə prezident İlham Əliyevin iştirakı ilə Bakı Gəmiqayırma zavodunda qurğunun aşağı üzən gövdəsinin – pantonlarının inşasına başlanması ilə bağlı mərasim olub. Həmin ilin dekabrında isə Bibiheybət ərazisindəki tərsanədə qurğunun yuxarı gövdəsinin inşasına başlanılıb. Qurğunun tikintisi 2017-ci ilin mayında tam yekunlaşıb. İstismara verilən yeni qurğunun imkanları əvvəlkilərlə müqayisədə daha genişdir. Dünyada öz texnoloji keyfiyyətləri və qazma xüsusiyyətlərinə görə unikallığı ilə fərqlənən bu qurğu qazma əməliyyatları üçün ən müasir avadanlıqla, o cümlədən böyük həcmdə avtomatik idarəetmə sistemi ilə təchiz edilib. Ümumi uzunluğu 106,5, eni 69,5, hündürlüyü isə 130 metr olan qurğunun ümumi çəkisi 26 min tondur. Dənizdə suyun 1000 metr dərinliyə qədər hissələrində qazma əməliyyatlarını həyata keçirə bilən qurğu ilə qazılacaq quyunun maksimal dərinliyi 12,2 min metrdir. Bu göstərici ən dərin quyuları belə, qazmağa imkan verir. Bundan əlavə, qurğunun müasir avadanlığı qazma işinin indikindən 4 dəfə daha sürətlə aparılmasını təmin edir.*

*Dövlətimizin başçısı yarımdalma qazma qurğusunun yaşayış blokunda da oldu. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə həyata keçirdikləri neft strategiyasından bəhs edən fotostend vardır. Yaşayış blokunda ofis, yataq, istirahət və kompüter otaqları yaradılıb. Blok yeməkxana, camaşırxana, idman otaqları, kinoteatr, kitabxana və konfrans zalı ilə təchiz olunubdur.*

*Heydər Əliyev adına Yarımdalma qazma qurğusu dünyada 1400 atmosfer sistemi texnologiyasına sahib olan ilk və yeganə qurğudur. Onun yükgötürmə qabiliyyəti 5600, su tutumu isə 47500 tondur. Qurğuda 160 nəfər işçi heyəti çalışa bilər. 6-cı nəsil yarımdalma qazma qurğusunun tikintisində 2400-ə yaxın insan çalışıb, onların da təxminən 80 faizi Azərbaycan Respublikasının vətəndaşlarıdır.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Ruhani!

İran İslam Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Qazandığınız qələbə xalqın Sizə olan inam və etimadının göstəricisi, dost və qardaş ölkənizin inkişafı və rifahı naminə gördüyünüz işlərə verilən yüksək qiymətdir.

Mən Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı münasibətlərə böyük əhəmiyyət verirəm. Strateji əməkdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərimizin mövcud vəziyyəti məmnunluq doğurur. Ölkələrimiz arasındakı siyasi dialoqu, müxtəlif sahələr üzrə qarşılıqlı maraq doğuran əməkdaşlığı, mədəni əlaqələrimizi, İranın Azərbaycan Respublikasının ərazi bütövlüyünə dəstəyini yüksək qiymətləndirirəm. İkitərəfli əlaqələrimiz son illərdə yüksələn xətlə yeni məzmun kəsb etmişdir. Sizinlə keçirdiyimiz görüşlər, apardığımız danışıqlar, imzaladığımız sənədlər və həyata keçirdiyimiz layihələr münasibətlərimizin inkişafında mühüm rol oynayır. İnanıram ki, ortaq mənəvi dəyərləri bölüşən qardaş xalqlarımızın mənafelərinə uyğun olaraq, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında əlaqələrin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost və qardaş İran xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 may 2017-ci il*

## İSLAMİADADA SƏRBƏST GÜLƏŞ ÜZRƏ YARIŞLARIN İKİNCİ GÜNÜNDƏ QALİB PƏHLƏVANLARIMIZA MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*Heydər Əliyev adına İdman Sarayı*

*20 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mayın 20-də «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarının sərbəst güləş yarışlarının final qarşılaşmalarına baxmışlar.*

*Heydər Əliyev adına İdman Sarayında keçirilən yarışların sonuncu – 2-ci günündə sərbəst güləşçilərimiz 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazandılar.*

*Gün ərzində sərbəst güləşçilər 4 çəki dərəcəsində medallar uğrunda mübarizə apardılar.*

*Xalça üzərinə 61 kiloqram çəki dərəcəsində çıxan ikiqat dünya çempionu, Rio Olimpiadasının bürünc mükafatçısı Hacı Əliyev həlledici görüşdə qırğız idmançısı Alibek Osmonov üzərində təmiz qələbə qazanaraq, IV İslam Həmrəyliyi oyunlarının çempionu oldu. Bu çəki dərəcəsində bürünc medallara İran idmançısı Məsud İsmayılpurcuybari və pakistanlı Abdul Vahab layiq görüldülər.*

*Qalib idmançılara medalları dövlətimizin başçısı, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev təqdim etdi.*

*Çempion pəhləvanımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağı qaldırıldı.*

*Sərbəst güləş yarışlarının 2-ci günündə milli komandamızın aktivinə 2-ci qızıl medalı Cəmaləddin Maqomedov yazdırdı. Ya-*

*rışda 125 kiloqram çəki dərəcəsində mübarizə aparan dünya kubokunun qalibi Cəmaləddin Maqomedov həlledici görüşdə Qazaxıstan pəhləvanı Daulet Şabanbay ilə qarşılaşdı. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə qalib gələn pəhləvanımız fəxri kürsünün ən yüksək pilləsində yer aldı. Bu çəki dərəcəsində bürünc medallara Türkiyə təmsilçisi Salim Ərcan və iranlı Caber Sadeqzadeh sahib oldular.*

*Qalib idmançılara medalları Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyeva təqdim etdi.*

*Çempion idmançımızın şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi, Dövlət bayrağı qaldırıldı.*

*Azərbaycan pəhləvanı Murtuzəli Müslümov (70 kq) İran təmsilçisi Mostafa Hosseynxani ilə qarşılaşdığı final görüşündə gümüş medalla kifayətlənməli oldu. Bu çəki dərəcəsində fəxri kürsünün 3-cü pilləsində Bəhreyn təmsilçisi Adam Batırov və Türkiyə idmançısı Zafər Dama qərarlaşdılar.*

*Sərbəst güləş üzrə milli komandamızın aktivinə bürünc medalı isə Olimpiya çempionu Şərif Şərifov (86 kq) yazdırdı. İdmançımız bürünc medal uğrunda görüşdə Tacikistan güləşçisi Baxodur Kodirov üzərində təmiz qələbə qazandı. Bu çəki dərəcəsində qızıl medal İran idmançısı Həssən Yazdaniçəratiyə, gümüş medal isə türkiyəli Səlim Yaşara nəsib oldu. Digər bürünc medalı Qazaxıstan təmsilçisi Adilet Davlumbayev aktivinə yazdırdı.*

*Beləliklə, sərbəst güləşçilərimiz IV İslam Həmrəyliyi oyunlarında 4 qızıl, 2 gümüş və 1 bürünc medal qazanaraq, komanda hesabında 1-ci yeri tutdular.*

## SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏR

*20 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Ərəb–İslam–Amerika Sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanı Krallığına səfərə gəlmişdir.*

*Ər-Riyad şəhərinin «King Salman Air Base» Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Səudiyyə Ərəbistanının yüksək səviyyəli rəsmi şəxsləri qarşıladılar.*

## ƏRƏB–İSLAM–AMERİKA SAMMİTİNDƏ İŞTİRAK

*Ər-Riyad*

*21 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Ərəb–İslam–Amerika Sammitində iştirak etmişdir.*

*İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud sammitin keçirildiyi Kral Əbdüləziz Beynəlxalq Konfrans Mərkəzində Azərbaycan prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.*

*Sonra Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun adından sammit iştirakçılarının şərəfinə nahar verildi.*

*Daha sonra dövlət və hökumət başçıları birgə foto çəkdirdilər. Ərəb–İslam–Amerika Sammiti Qurani-Kərimdən ayənin oxunması ilə başlandı.*

*Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud sammitdə iştirak edən dövlət və hökumət başçılarını salamlayaraq, islam ölkələri arasında əlaqələrin inkişafında mühüm rol oynayacaq bu Zirvə görüşünün əhəmiyyətinə toxundu. Sammitin dünyada terrorizm və ekstremizm hallarının qarşısının alınmasına, dayanıqlı sülhün təmin edilməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə edən Səudiyyə Ərəbistanının Kralı bu görüşü Amerika və islam dünyası əlaqələrində də mühüm mərhələ kimi xarakterizə etdi. «İslam sülh və tolerantlıq dinidir» – deyən Səudiyyə Ərəbistanının Kralı islamın hər zaman terrorizm və ekstremizm hallarına qarşı çıxdığını və ölkəsinin belə təhlükəli amillərlə mübarizədə həmişə əməkdaşlığa hazır olduğunu bildirdi.*

*Sammitdə iştirak edən ABŞ prezidenti Donald Tramp ilk növbədə, ekstremizmlə mübarizənin vacibliyini vurğuladı. O bu sahədə mübarizənin müxtəlif dinlər arasında deyil, xeyirlə şər arasında getdiyini, şərə qalib gəlmək üçün səylərin birləşdirilməsinin vacibliyini qeyd etdi. Terrorizm yolunu seçənlərin həyatının boş və qısa olacağını deyən ABŞ Prezidenti bildirdi ki, hər dəfə bir terrorçu günahsız insanı qətlə yetirərkən Allahın adını çəkəndə inanclı insanları təhqir etmiş olur. Donald Tramp ABŞ-ın müharibənin deyil, sülhün tərəfdarı olduğunu bildirərək, ekstremizmin və terrorizmin bütün təzahürləri ilə mübarizədə hələ çox iş görülməli olduğunu, İŞİD terror qruplaşmasının maliyyələşməsinə son qoymağın vacibliyini diqqətə çatdırdı. Donald Tramp vurğuladı ki, günahsız müsəlmanların qətlə yetirilməsinin, qadınların sıxışdırılmasının, yəhudilərin təqibinin və xristianların öldürülməsinin qarşısını almaq üçün səylər birləşdirilməlidir. ABŞ Prezidenti dedi ki, terrorizmə qarşı heç bir tədbir görülməsə, qətllər, əzab və ümidsizlik daha da artacaq. Milyardlarla insanın dünya liderlərindən tədbir görmələrini gözlədiyini vurğulayan Donald Tramp bildirdi ki, terrorizmin kökünü yalnız birgə səylərlə və qətiyyətli addımlarla kəsmək mümkündür.*

*Sammitdə çıxış edən islam ölkələrinin liderləri artıq qlobal xarakter alan terror hücumlarına qarşı birgə mübarizənin vacibliyini vurğulayaraq, bu sahədə bütün ölkələrin əməkdaşlığının strateji əhəmiyyət daşıdığını bildirdilər. İslam aləmindəki münaqişə ocaqlarının dünyada təhlükəsizliyi təhdid etdiyini deyən dövlət başçıları sülhün bərqərar olması istiqamətində tədbirlərin görülməsinin vacibliyinə diqqət çəkdilər. Onlar dinlərarası münaqişəyə son qoyulmasının da önəmini vurğuladılar. Bu sahədə bütün müttəfiqlərlə səmərəli əməkdaşlığın tərəfdarı olduqlarını bildirərək, cəmiyyətdə maariflənmə işlərinin aparılmasının əhəmiyyətinə toxundular. Vəziyyətdən çıxış yolu kimi, ölkələr və xalqlar arasında əlaqələrin möhkəmlənməsinin tərəfdarı olduqlarını bəyan etdilər.*

*Qeyd edək ki, sammit «Birlikdə güclüyük» devizi altında keçirilib. İlk dəfə təşkil edilən bu tədbirdə iştirakçı ölkələrin qlobal təhlükəsizliyin, sabitliyin təmin edilməsində, zorakılıq, terrorizm və ekstremizm ilə mübarizədə rolu və bu sahədə mövcud əməkdaşlığın daha da dərinləşdirilməsi barədə müzakirələr aparılıb. Sammit iştirakçı ölkələr arasında işgüzar, mədəni və siyasi əlaqələrin tolerantlıq və əməkdaşlığa müştərək inam vasitəsilə daha da gücləndirilməsinə xidmət edir. Tədbirin məqsədlərindən biri də ölkələr arasındakı münasibətlərdə yeni başlanğıcın və hamı üçün daha parlaq gələcəyin təməlinin qoyulmasıdır.*

* * *

*Bununla da mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına səfəri başa çatdı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Sizə səmimi salamlarımı çatdırır və qardaş Türkiyənin aparıcı siyasi qüvvəsi olan Ədalət və İnkişaf Partiyasının yenidən sədri seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Başçılıq etdiyiniz və qurucusu olduğunuz partiyanın hakimiyyətə gəlişindən ötən 15 ildə qardaş Türkiyə Respublikasında böyük işlər görülübdür. Həyata keçirilmiş siyasi, iqtisadi, sosial və digər layihələr Türkiyənin daha da güclənməsinə, beynəlxalq arenada əhəmiyyətli yer tutmasına səbəb olubdur.

Bütün bu nailiyyətlərdə şəxsən Sizin misilsiz rolunuz olmuş və adınız əbədi olaraq Türkiyə dövlətçiliyinin tarixinə həkk olunmuşdur. Qurucusu olduğunuz partiyanın yenidən sədri seçilməyiniz isə partiya üzvlərinin Sizə olan sonsuz inam və etimadının aşkar təzahürü, Türkiyənin inkişafı və rifahı naminə göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir. Beynəlxalq aləmdə güc mərkəzinə çevrilmiş qüdrətli və sabit Türkiyə Respublikasının bütün uğurları bizləri olduqca sevindirir. Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Bu əlaqələr tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır.

Çoxşaxəli ikitərəfli əlaqələrimiz, qarşılıqlı maraq doğuran sıx əməkdaşlığımız, irimiqyaslı birgə layihələrimiz strateji müttəfiqliyimizi səciyyələndirən cəhətlərdir. Azərbaycan–Türkiyə tərəfdaşlığı nəinki yerləşdiyimiz regionda əmin-amanlığın və sabitliyin bərqərar olmasına xidmət edir, həm də daha geniş coğrafiyada əməkdaşlığa töhfə verir. Əminəm ki, Türkiyə–

Azərbaycan həmrəyliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq, daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına isə daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 may 2017-ci il*

# ƏBU-DABİNİN VƏLİƏHDİ, BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ KOMANDANININ MÜAVİNİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHƏYYAN İLƏ GÖRÜŞ

*21 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Əbu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini şeyx Məhəmməd Bin Zaid əl-Nəhəyyan ilə görüşmüşdür.*

*Görüşdə ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğu və dinamik şəkildə inkişaf etdiyi bildirildi. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin və ölkələrimiz arasında hava uçuşlarının sayının artması məmnunluqla qeyd edildi, ticarət əlaqələrinin genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.*

*Söhbət zamanı sərmayə qoyuluşu, enerji sahəsi, Azərbaycanda yaradılan azad ticarət zonasında Birləşmiş Ərəb Əmirliklərinin iştirakı, neft-kimya, nəqliyyat, turizm, kənd təsərrüfatı, səhiyyə sahələrində əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu bildirildi və bu məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA PARLAMENTİNİN DEPUTATI DEVİD MAKALLİSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin yeni sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAllisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Devid MakAllisterin böyük nümayəndə heyəti ilə ölkəmizə səfəri zamanı əməkdaşlıq və tərəfdaşlıq əlaqələri ilə bağlı səmərəli fikir mübadiləsi aparılacağına və səfərin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi. Nümayəndə heyətinin Azərbaycandakı geniş səfər proqramına toxunan prezident İlham Əliyev bu səfərin ölkəmiz ilə Avropa Parlamenti və ümumilikdə Avropa təsisatları ilə əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.*

*Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin yeni sədri, Avropa Xalq Partiyasının Almaniyadan olan deputatı Devid MakAllister Azərbaycana və o cümlədən regiona səfər proqramları barədə prezident İlham Əliyevə məlumat verdi. O, Avropa Parlamentində təmsil olunan müxtəlif siyasi qrupların üzvlərinin nümayəndə heyətinin tərkibinə daxil olduğunu qeyd etdi. Devid MakAllister bildirdi ki, səfərin məqsədi Azərbaycandakı vəziyyətlə yaxından tanış olmaqdır.*

*Görüşdə Azərbaycanda son illərdə gedən proseslər, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və onun perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı hazırkı vəziyyət, insan haqları, fikir azadlığı məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ ŞEYX ABDULLAH BİN ZAİD ƏL-NƏHƏYYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri şeyx Abdullah bin Zaid əl-Nəhəyyanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Şeyx Abdullah bin Zaid əl-Nəhəyyanla keçirdiyi son görüşü məmnunluqla xatırladan prezident İlham Əliyev bildirdi ki, ötən müddət ərzində ölkələrimiz dostluq, qardaşlıq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi istiqamətində böyük inkişafa nail olub. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələrin yüksək səviyyədə və dinamik inkişafda olduğunu bildirən dövlətimizin başçısı siyasi, iqtisadi, ticari və digər sahələrdə əməkdaşlığın çox yaxşı istiqamətdə inkişaf etdiyini vurğuladı. Əbu-Dabinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini şeyx Məhəmməd Bin Zaid əl-Nəhəyyanla dünənki görüşünə toxunan prezident İlham Əliyev bu görüşü ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə olan böyük qarşılıqlı marağın göstəricisi kimi dəyərləndirdi və Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri şeyx Abdullah bin Zaid əl-Nəhəyyanın ölkəmizə səfərinin də bu baxımdan əhəmiyyətli addım olduğunu diqqətə çatdırdı.*

*Şeyx Abdullah bin Zaid əl-Nəhəyyan Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinin salamlarını prezident İlham Əliyevə və Azərbaycan xalqına çatdırdı. İkitərəfli əlaqələrimizin inkişafın-*

*dan qürur duyduğunu deyən qonaq bu əlaqələrin genişləndirilməsində prezident İlham Əliyevin liderliyinin əhəmiyyətli rolunu qeyd etdi.*

*Görüşdə son vaxtlar Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının xeyli artdığı vurğulandı, bunun ölkəmizdə olan əmin-amanlıq və qonaqpərvərliyin göstəricisi olduğu bildirildi.*

*Söhbət zamanı ölkələrimiz arasında nəqliyyat, ixrac-idxal, ticarət, turizm, müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsi və digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinə çatdırmağı xahiş etdi.*

## IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ TƏNTƏNƏLİ BAĞLANIŞI MƏRASİMİ

*Bakı Olimpiya stadionu*

*22 may 2017-ci il*

*Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə – «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarına yüksək səviyyədə ev sahibliyi edərək, tarix yazdı. 10 gün ərzində islam dünyasının idman nəbzi Bakıda döyündü. İslamiadanın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. «Bakı–2017»də iştirak edən ölkələr arasında Azərbaycan 75 qızıl medalla 1-ci oldu. İdman arenalarında Azərbaycanın Dövlət himni 75 dəfə səsləndirildi, Dövlət bayrağı 162 dəfə qaldırıldı.*

*Mayın 22-də Bakı Olimpiya stadionunda idman həvəskarlarına bir çox unudulmaz, sevinc dolu anlar bəxş edən oyunların təntənəli bağlanışı mərasimi keçirildi.*

*Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, «Bakı–2017» Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz əl-Nasseri hərarətlə salamladılar.*

*Bu gün «Bakı–2017»nin uğurunu şərtləndirən 2 amili xatırlatmaq yerinə düşər. Yarışların gedişi bir daha təsdiqlədi ki, Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə oyunlara yüksək səviyyədə hazırlıq görülüb, ən incə detallar belə, nəzərə alınıbdır. Bakının 16 idman arenası ötən 10 gün ərzində tam qüsursuz fəaliyyət göstərdi və yaradılan şərait həm idmançıların, həm də tamaşaçıların ürəyincə oldu. Əminliklə demək olar ki, Bakıda*

*keçirilən oyunlar İslamiadanın tarixinə möhtəşəm idman bayramı kimi yazıldı.*

*İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti şahzadə Abdullah bin Mosaad bin Əbdüləziz oyunların təşkilini yüksək qiymətləndirərək dedi*:

– Azərbaycan paytaxtında möhtəşəm idman və dostluq bayramı başa çatır. Bakı islam ölkələrinin atletlərinə bacarıqlarını nümayiş etdirmək, 4 qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələri qeyd etmək məqsədilə gözəl şəraiti təmin etdi. Bu əlamətdar İslam Həmrəyliyi oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Birinci vitse-prezident və «Bakı–2017»nin Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu. İslam Həmrəyliyi İdman Federasiyası adından Bakı sakinlərinə və Azərbaycan xalqına göstərdikləri fədakarlığa və çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Biz sizi 2021-ci ildə İstanbulda keçiriləcək oyunlarda yenidən görməyi səmimiyyətlə arzulayırıq.

*Azərbaycanın Gənclər və İdman naziri, İslam Həmrəyliyi oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru Azad Rəhimovun sözlərinə görə, oyunlar islam ölkələrinin dostluğunu təcəssüm etdirdi:*

– IV İslam Həmrəyliyi oyunlarının həyəcan dolu 10 günü idman, bayram və dostluğun təntənəsindən xəbər verir. «Bakı–2017» Əməliyyat Komitəsinin işinin başa çatmasına baxmayaraq, paytaxt şəhərimizin dünyada beynəlxalq idman və mədəniyyət mərkəzi kimi fəaliyyəti davam edir. Biz Bakıda bu yay keçiriləcək «Formula-1» Azərbaycan Qran-pri turnirində, 2017-ci ildə qadınlar arasında Avropa voleybol çempionatında və 2020-ci ildə UEFA-nın Avropa çempionatının dörddəbir final oyunlarında və 3 qrup qarşılaşmasında bütün dünyanı yenidən salamlamağı səmimiyyətlə arzulayırıq.

*Oyunların uğurunu təmin edən digər mühüm amil son illər Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. Azərbaycan ilk Avropa oyunları, 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə dünya kuboku, «Formula-1» kimi mötəbər yarışlara uğurla ev sahibliyi edib, özünü dünyada idman ölkəsi olaraq tanıda bilib. IV İslam Həmrəyliyi oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu.*

*Statistikaya diqqət yetirək: Bakıya rekord sayda – 54 ölkəni təmsil edən 3000-dən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlib. İndiyədək İslam Həmrəyliyi oyunlarına bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmayıb.*

*«Bakı–2017»ni 50-dən artıq ölkədə 1 milyarddan çox tamaşaçı izləyib. Yarışları 1000-dən çox media nümayəndəsi, o cümlədən oyunların rəsmi media tərəfdaşı olan AZƏRTac-ın 70-dək əməkdaşı işıqlandırıb.*

*İdmanın 24 növü üzrə keçirilən yarışlarda atletlər 269 dəst medal uğrunda mübarizə aparıblar. Azərbaycan idmançıları xalqımızı parlaq qələbələri ilə sevindirərək, yarışları 1-ci pillədə başa vurublar. Hamıdan çox qızıl medal qazanan atletlərimiz 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) 1-ci olublar. Millimizin aktivinə ən çox medal cüdoçularımız tərəfindən yazılıb. Onlar ümumilikdə 26 medal – 11 qızıl, 12 gümüş və 3 bürünc əldə ediblər. Qazanılan uğurda güləşçilərimizin (23 medal) və gimnastlarımızın (20 medal) da böyük payı vardır.*

*Türkiyə 2-ci (195 medal), İran 3-cü (98 medal), Özbəkistan 4-cü (63 medal), Bəhreyn 5-ci (21 medal) yerdə qərarlaşıb. Ümumilikdə yarışlarda 40 ölkənin idmançıları 1600 medal qazanıblar.*

*Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın bir sıra yarışları arenalarda izləmələri və qaliblərə medalları şəxsən təqdim etmələri oyunlara marağı daha da artıraraq, onu yeni məzmunla zənginləşdiribdir.*

*Tamaşaçılar gözəl və mükəmməl idman qurğusu olan Bakı Olimpiya stadionunun tribunalarında öz yerlərini tutdular: 68 min yerlik stadion tamaşaçılarla doldu. Meydança müasir səs sistemi ilə təchiz olunmuş 360 dönmə dərəcəli nəhəng səhnəyə çevrildi.*

*Səhnə tərtibatı islam incəsənətinin bənzərsiz həndəsi naxışlarına və ənənəvi Azərbaycan xalçalarının elementlərinə əsaslanır. Səhnənin mərkəzində döymə üsulu ilə hazırlanmış və hamarlanmış diametri 8 metr olan böyük su sinisi və hündürlüyü 25 metrə çatan «Həyat ağacı» yerləşdirilib.*

*Mayın 20-də atletika yarışları başa çatdıqdan sonra səhnə cəmi 36 saat ərzində qurulubdur. «Bakı–2017»nin açılışı və bağlanışı mərasimlərinin hazırlanmasına 31 ölkədən 5000-dən çox səhnə mütəxəssisi, texniki heyət və aktyorlar qrupu cəlb olunubdur. Bağlanış mərasimi 1500 könüllü tərəfindən canlandırıldı. Mərasimin möhtəşəmliyini bu faktlardan aydın görmək olar: oyunların açılışı şousunda istifadə olunmuş 270 dönmə dərəcəli işıq dirəyini 360 dönmə dərəcəsinə çevirmək üçün 12 nəfər 36 saat çalışıb. Mərasim üçün 75 kilometr elektrik kabelləri və 7 meqavatlıq generator gətirilib. Stadionda 300-dən çox səsgücləndirici qoyulub və 12 kilometr uzunluğunda kabel çəkilib. 1000-dən çox işıq avadanlığı 60 kilometrlik kabellərlə birləşdirilib. «Bakı–2017»nin açılışı və bağlanışı mərasimlərinin kostyumları üçün 15 min metr parçadan istifadə olunubdur.*

*Stadiondakı nəhəng monitorda İçərişəhər canlandı. Gənc qadın burada havaya qızılı toz üfürdü. Gilavar qonaqpərvərliyi və xeyirxahlığı ilə məşhur olan ölkəmizdə hər qapını açaraq, onu bütün Azərbaycana yaydı.*

*Xəzərdən əsən, özü ilə hərarət gətirən külək – gilavar qışı yumşaldır, havanı mülayimləşdirir və nəhayət, baharın müjdəsini çatdırır, insanları Dənizkənarı bulvara əylənib şənlənməyə səsləyir. Hamını qoynuna alan gilavar küləklər şəhəri Bakıya qonaq gələn hər kəsi salamlayır. Məhz onun müsbət, güclü enerjisi bağlanış mərasiminin əsas qayəsini təşkil edirdi.*

*Böyük monitorda Azərbaycanın bir çox təbii və memarlıq abidələrini – Şəki Xan sarayı, Qobustan Milli Qoruğu, Şirvanşahlar sarayı, Qız qalası və Heydər Əliyev Mərkəzini seyr edən tamaşaçının diqqəti yenidən Bakı Olimpiya stadionuna yönəldi. Sonra 10-dan 1-ə geriyə sayım başladı və bununla da IV İslam Həmrəyliyi oyunlarının bağlanışı mərasiminə start verildi.*

*Stadionda Yaşar Baxışın «Əbədi birlik» əsəri səsləndirildi.*

*Azərbaycan bayrağı Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri tərəfindən stadiona gətirilərək, Dövlət himninin sədaları altında dirəyə qaldırıldı. Stadion üzərində Azərbaycan bayrağının rənglərini təcəssüm etdirən atəşfəşanlıq oldu.*

*İdmançıların paradı başlandı. İslam Həmrəyliyi oyunlarında iştirak edən atletlər öz ölkələrinin milli bayraqları ilə stadiona daxil oldular. Paradı ev sahibi olan Azərbaycan atletləri tamamladı. Bu mərasim «Amarok» qrupunun ifasında «Naxçıvan halayı» ilə müşayiət olundu.*

*Xatırladaq ki, yarışlarda Əfqanıstan, Albaniya, Əlcəzair, Bəhreyn, Banqladeş, Benin, Bruney, Burkina-Faso, Kamerun, Çad, Komor Adaları, Kot d'İvuar, Cibuti, Misir, Qabon, Qambiya, Qvineya, Qvineya-Bisau, Qayana, İndoneziya, İran, İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Livan, Malayziya, Maldiv, Mali, Mavritaniya, Mərakeş, Mozambik, Niger, Nigeriya, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Syerra-Leone, Somali, Surinam, Suriya, Tacikistan, Toqo, Tunis, Türkiyə, Türkmənistan, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən və Azərbaycan idmançıları iştirak edirdilər.*

*İdmançıların paradı zamanı Tünzalə Ağayeva, Samirə Allahverdi, Samirə Əfəndi, Hafex & Sahil Umud, Nigar Camal, Aygün Kazımova, Rilaya, Diana Miro populyar Azərbaycan mahnılarını səsləndirdilər.*

*Səhnədə quraşdırılmış «Həyat ağacı»na su verildi və o, rişə atmağa başladı. Ağacın ümumi uzunluğu 80 metr olan kökləri səhnənin kənarından çıxdı.*

*Aktyorlar qrupu 3 rəngdə – yaşıl, qəhvəyi və göy rəngdə 60 ipək zolaqla səhnəyə çıxdılar. Süni quşlar onların başları üzərində uçur və bu zaman ipək zolaqlar birləşərək, gözəl mənzərə yaradır. Yaşıl rəng – meşələri, qəhvəyi – dağları, göy isə çayları təcəssüm etdirir.*

*İpək zolaqlar sonda Azərbaycan bayrağının formasını aldı.*

*1000-dən çox ağ hava şarı buludlara çevrildi və aktyorlar onları ip vasitəsilə hərəkətə gətirdilər. İpək zolaqlar Azərbaycanın yerdən çıxan əbədi odlarını əks etdirir.*

*Səhnə üzərində qanadlarının uzunluğu 3,4 metr olan 50 süni quş uçdu.*

*«Şərəfli ölkə» adlanan bu səhnənin nümayişi zamanı Azərbaycan musiqi qrupu «Amarok» «İncilər» mahnısını səsləndirdi.*

*Stadiondakı ekranlarda 10 günün idman yarışlarından epizodlar nümayiş etdirildi. Tamaşaçılar inanılmaz bacarıq, mübarizlik və sevinc anlarını bir daha seyr etdilər. Yarışların sevincli və kədərli anları da oldu. Bununla belə, son nəticədə dostluq qalib gəldi.*

*Yarış epizodlarının nümayişi zamanı Azərbaycanın «Eurovision–2015» Beynəlxalq mahnı müsabiqəsinə təqdim etdiyi «Hour of the Wolf» mahnısı səsləndirildi.*

*Günəş qalxdı və səhnə üzərində hərəkət etdi. Onun fırlanan 60 paneli qızılı şüanı göstərmək üçün hava hərəkəti ustaları tərəfindən idarə olunurdu. Diametri 6 metr olan Günəşin şüası səhnədə növbəti kompozisiyaya start verdi. «Xəzərin üzərində nur» adlanan bu səhnəciyi 454 aktyor canlandırdı. Stadionda «Qarabağ şikəstəsi»nin əzəmətli sədaları səsləndirildi.*

*Kitab formasında bir-biri ilə birləşdirilmiş 1000-dən çox əlvan üçbucaq 2 böyük altıbucaq formalaşdırdı. Kitabın səhifələri «şəbəkə» sənətindən ilhamlanaraq, maraqlı naxışları yaratmaq üçün 110 səhnə iştirakçısı tərəfindən vərəqlənirdi. Günəş öz yerini tutduğu zaman həmin kitablar açılaraq, göy işıq saçdı və havaya qaldırılaraq, Xəzərin gözəl 3D görüntüsünü yaratdı.*

*Stadionda «Gilavar» kompozisiyasının nümayişi başlandı. Bakı bulvarının gündəlik əyləncəli həyatından səhnələr nümayiş etdirildi. Kimi çərpələng və hava şarları ilə oynayır, kimi şahmat taxtası arxasında əyləşib, kimi də küləyin əllərdən qopardığı qəzetlərin arxasınca qaçırdı. Bütün rekvizit və kostyumlar gilavarı əks etdirən dalğavari naxışlarla bəzədilmişdi. Səhnə iştirakçıları «Yallı» getdiyi zaman buludlar qalxdı. 1000-dən artıq hava şarı və gilavar «Həyat ağacı»nın yarpaqlarını gecə səmasına qaldırdı.*

*Stadionda Gülarə Əliyevanın «Şur fantaziyası» səsləndirildi. Səmada işıq saçan aypara göründü və səhnə üzərində hərəkət etdi. Aktyorlar qlobus saxlayan əlləri və sülh rəmzi olan göyərçini formalaşdırdılar.*

*«Həmrəylik ruhu» adlı bu kompozisiyada aktyorlar Azərbaycanın dekorativ incəsənətində və memarlığında işlədilən və alov mənasını daşıyan buta fiqurlarını yaratdılar.*

*Aypara səhnənin mərkəzinə doğru hərəkət etdi. Səhnə iştirakçıları aypara formalaşdırmaq üçün 750-dən artıq alov yandırdılar. Onlar fəvvarəyə çevrilən su sinisini dövrəyə aldılar. 50-dən çox islam ölkəsinin qovuşan suları gözəl fəvvarəyə çevrildi və ayparaya doğru yüksəldi.*

*Su yüksəldikcə Aydan parıltılı konfetti səpələndi.*

*Beləliklə, Bakı İslamiadanın birlik və həmrəylik ruhunu dünya ilə bölüşdü.*

*«Natiq» ritm qrupunun ifasında «Qarabağ» mahnısının sədaları stadiona yayıldı.*

*Diqqət yenidən monitorlara yönəldi. Ekranlarda təxminən 8000 könüllünün oyunların uğurla keçirilməsinə verdiyi böyük töhfəni təsvir edən videoçarx nümayiş olundu.*

*Stadionda Azad Vəliyevin «Yeni gün» mahnısı səsləndirildi.*

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, «Bakı–2017» Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva çıxış üçün səhnəyə dəvət olundu.*

## Azərbaycanın Birinci vitse-prezidenti, «Bakı–2017» İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev!

İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi zati-aliləri Faisal Abdulaziz əl-Nasser!

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri, zati-aliləri, islam aləminin idmançıları, xanımlar və cənablar!

Hörmətli qonaqlar!

«Bakı–2017» İslam Həmrəyliyi oyunlarının bağlanışı mərasiminə xoş gəlmisiniz!

Əziz həmvətənlər!

Azərbaycan növbəti tarixi qələbəyə imza atdı. IV İslam Həmrəyliyi oyunlarının ölkəmizdə keçirilməsi bütün islam dünyasının Azərbaycana və Azərbaycan xalqına olan hörmət və dəstəyinin təzahürüdür. Əminəm ki, 50-dən çox ölkəni təmsil edən idmançılar və paytaxtımızın qonaqları Azərbaycanla bağlı xoş xatirələri öz qəlblərində qoruyub saxlayacaqlar.

Bu günlər ərzində Azərbaycan xalqı qonaqpərvərliyini və mehribanlığını bir daha nümayiş etdirdi. Azərbaycan göstərdi ki, o, böyük idman ölkəsidir. Milli komandamız ümumi hesabda 1-ci yeri qazandı. Bu tarixi qələbə ilə fəxr edir və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bundan da böyük qələbə bu günlər ərzində nail olduğumuz islam aləminin həmrəyliyi və birliyinin təntənəsidir. Gəlin hamımız bu birliyi qoruyaq, islam həmrəyliyini gücləndirək. Qoy Allah bütün müsəlmanları qorusun!

Əziz dostlar, son 10 gün ərzində islam aləminin idmançıları idman, dostluq və birliyin möhtəşəm təntənəsi çərçivəsində bir araya gəldilər. Onların mübarizliyi və fədakarlığı həqiqətən, valehedici oldu. Onların çıxışlarını seyr etmək böyük hisslər yaratdı.

İdmançılar, mən sizi nailiyyətləriniz münasibətilə təbrik edirəm və islam aləminin tamaşaçılarına verdiyiniz sevincə görə sizə təşəkkürümü bildirirəm. Bu sizin oyunlar idi və sizin idman yarışlarında çıxışınız onları möhtəşəm etdi. Ümidvaram ki, Bakıdan ayrıldıqda ən xoş xatirələrinizi bütün həyatınız boyu əziz tutacaqsınız.

Azərbaycanın milli komandası 162 medal, o cümlədən 75 qızıl medalla medallar cədvəlində 1-ci yer tutaraq, bizi bir daha fərəhləndirdi. Azərbaycan idmançıları, sizin fədakarlığınız və ustalığınız həmvətənlərimizi ilhamlandırmaqda davam edir və gələcək nəslə ən parlaq nümunə kimi xidmət edəcək. Son 10 gün ərzində burada, Bakıda bizim üçün və hamı üçün bu oyunlarda gördüyümüz islam aləminin həmrəyliyi növbəti böyük qələbə oldu. Olduqca fərəhləndiricidir ki, Azərbaycan xalqlar arasında dostluq ruhuna dəstək verdi. Biz hamımız gələcəkdə bu ülvi missiyanın davam etdirilməsi üçün yorulmadan çalışmalıyıq.

Mən xalqlar arasında həmrəylik əlaqələrini gücləndirən islam aləminin idmançılarını Bakıda salamlamaq üçün yaratdığı fürsətə görə İslam Həmrəyliyi İdman Federasiyasına təşəkkürümü bildirmək istəyirəm.

Bu oyunlar və bir çox digər mühüm beynəlxalq idman, humanitar və siyasi tədbirlər Bakının açıqlıq və tolerantlıq mərkəzi kimi, nüfuzunu daha da möhkəmləndirdi. Paytaxtımız islam idman ictimaiyyətini açıq qəlblə qəbul etdi və bu oyunların uğurlu olması bütün Azərbaycanın fədakarlığına və qəhrəmanlığına işarədir.

Bütün dünyadan gəlmiş qonaqlarımız özünün qədim irsinə və ənənələrinə sadiq olan, gələcəyinə qətiyyətlə baxan ölkənin – Azərbaycanın zəngin mədəniyyəti və məşhur qonaqpərvərliyi ilə tanış oldular. Dünyanın ən gözəl şəhərlərindən birində, Bakıda sizi görməkdən məmnun olduq. Biz açıq qəlblə sizi yenidən Azərbaycanda görməyimizi səmimiyyətlə arzulayırıq.

Əziz könüllülər, çox sağ olun – qonaqlarımız özlərini evlərindəki kimi hiss etdilər. Siz bu oyunların uğurlu olmasında böyük rol oynadınız. Əgər atletlər «Bakı–2017»nin döyünən

ürəyidirsə, siz bu oyunların geniş qəlbi idiniz. Siz dünyaya səmimiyyətinizi və iradənizi göstərdiniz. Mən gördüyünüz işlərə görə hər birinizə olduqca minnətdaram.

Biz dünyanı Bakıda salamlamaqda davam edəcəyik: bu yay «Formula-1» Azərbaycan Qran-pri turniri, sentyabrda qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçiriləcək və 2020-ci ildə burada, Bakı Olimpiya stadionunda futbol üzrə Avropa çempionatının oyunları baş tutacaqdır.

«Bakı–2017» oyunlarının başa çatdığı bir anda, mən bu möhtəşəm tədbirdə iştirak etmiş hər bir şəxsə, idmançılara və tamaşaçılara, təşkilatçılara və könüllülərə təşəkkürümü bildirmək istəyirəm.

Mən məmnuniyyətlə elan edirəm ki, növbəti İslam Həmrəyliyi oyunları 2021-ci ildə İstanbulda keçiriləcək. Biz türk qardaş və bacılarımıza böyük müvəffəqiyyətlər arzulayırıq.

Beləliklə, mən qürur hissi ilə IV Bakı İslam Həmrəyliyi oyunlarını bağlı elan edirəm.

Sağ ol, Bakı!

Sağ ol, Azərbaycan!

## Faisal Abdulaziz əl-Nasserin çıxışı

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyev!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, «Bakı–2017» İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva!

İslam Həmrəyliyi İdman Federasiyasının hörmətli üzvləri, zati-aliləri, islam aləminin idmançıları, xanımlar və cənablar!

Bu axşam keçirilən bağlanış mərasimi burada, Azərbaycanın paytaxtında möhtəşəm idman və dostluq bayramının başa çatmasından xəbər verir. Bakı dövlətlərimizin atletlərinə bacarıqlarını nümayiş etdirmək, 4 qitədən gəlmiş insanlara birlik və anlaşma ruhunda qarşılıqlı əlaqələrimizi qeyd etmək üçün gözəl şərait yaratdı.

Bu əlamətdar İslam Həmrəyliyi oyunları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, «Bakı–2017» Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyevanın və onun Azərbaycan İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsində çalışan heyətinin fəaliyyəti sayəsində qonaqpərvər ev sahibinin səyləri ilə mümkün oldu.

Mən İslam Həmrəyliyi İdman Federasiyası adından idmançılara oyunlarda iştirak etdiklərinə, könüllülərə «Bakı–2017»yə verdikləri töhfəyə və Azərbaycan xalqına göstərdiyi fədakarlığa, çox böyük qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm.

Dörd ildən sonra «İstanbul–2021» oyunlarını qeyd etmək üçün bir daha bizə qoşulmağınızı səmimiyyətlə arzulayıram.

Sağ ol, Bakı!

Sağ ol, Azərbaycan!

* * *

*Monitorlarda 2021-ci ildə V İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edəcək İstanbul şəhərindən görüntülərin, idman qurğularının əks olunduğu videoçarx nümayiş etdirildi.*

*Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbçiləri İslam Həmrəyliyi İdman Federasiyasının bayrağını endirdilər.*

*İslam Həmrəyliyi İdman Federasiyasının baş katibi Faisal Abdulaziz əl-Nasser bayrağı Türkiyə Respublikasının Gənclər və İdman nazirinin müavini, «İstanbul–2021» İslam Həmrəyliyi oyunlarının nümayəndəsi Kamuran Özdənə təqdim etdi.*

*Bu səhnələr Benjamin Brittenin «The Young Person's Guide to the Orchestra» musiqisi, Rövşən Əsgərzadənin «Qəhrəmanlıq uvertürası» ilə müşayiət olundu.*

*Türkiyənin Dövlət himni – «İstiqlal marşı» səsləndirildi və Azərbaycan bayrağının yanında qardaş ölkənin bayrağı qaldırıldı.*

*Bağlanış mərasimi «Birlik» adlı konsertlə davam etdi.*

*Səmra Rəhimli, Nigar Camal, Miri Yusif, Səbinə Babayeva və Eldar Qasımov maraqlı ifaları ilə tamaşaçılarda xoş ovqat yaratdılar. Rəngli döşəmədəki proyeksiyalar səhnəyə canlılıq gətirdi.*

*Tünzalə Ağayevanın ifasında «Sürət – 2017. Azərbaycan Qran-prisi» mahnısı səsləndi. İfa zamanı 30 səhnə iştirakçısı Bakı şəhər halqasını təsvir edən əsas səhnədə işıqsaçan çubuqlarla rəqs etdi. Müğənni «Birlik» konsertini «Bakı–2017»nin könüllülərinə həsr olunmuş «Salam, Bakı» himni və «Mən azərbaycanlıyam» mahnısı ilə yekunlaşdırdı.*

*Yaddaşlarda dərin iz qoyan, artıq tarixə çevrilən IV İslam Həmrəyliyi oyunlarının bağlanışı mərasimi Bakı Olimpiya stadionunun üzərində möhtəşəm atəşfəşanlıqla başa çatdı.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ XANIM TEREZA MEYƏ**

Hörmətli xanım Baş nazir!

Mançester şəhərində törədilmiş partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Biz bu amansız terror aktından son dərəcə hiddətlənir, terrorizmə qarşı hamılıqla və qətiyyətlə mübarizə aparılmasını zəruri və vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, Birləşmiş Krallığın bütün xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2017-ci il*

## IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ QALİB İDMANÇILARI, ONLARIN MƏŞQÇİLƏRİ VƏ İDMAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*23 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, «Bakı–2017» IV İslam Həmrəyliyi oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri mayın 23-də «Bakı–2017» IV İslam Həmrəyliyi oyunlarında qalib gəlmiş idmançılarımız, onların məşqçiləri və Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri ilə görüşmüşlər.*

*Dövlətimizin başçısı görüşdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

«Bakı–2017» İslam Həmrəyliyi oyunları başa çatdı. Azərbaycan bu oyunlarda növbəti qələbə qazandı. Bu parlaq qələbə münasibətilə bütün idmançıları, məşqçiləri, idman mütəxəssislərini ürəkdən təbrik edirəm və sizə yeni qələbələr, yeni uğurlar arzulayıram.

Bizim idmançılar bu oyunlarda 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq, komanda hesabında 1-ci oldular. Bu, böyük tarixi qələbədir. Nəzərə alsaq ki, bu oyunlarda 50-dən çox ölkə iştirak edirdi və ölkələr ən peşəkar idmançılarını bu oyunlara göndərmişdilər, əlbəttə, bu qələbənin əhəmiyyəti artır. Biz hamımız yaxşı bilirik ki, bu təsadüfi qələbə deyil. Çünki idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında artıq öz güclərini göstərmişlər və Azərbaycan dünya miqyasında güclü idman ölkəsi kimi tanınır.

Bizim son nailiyyətlərimiz də deməyə əsas verir ki, bu qələbə təsadüfi deyil. Azərbaycan idmançıları 2015-ci ildə Avropa oyunlarında 56 medal qazanıblar və komanda hesabında 2-ci yerə çıxa biliblər. Keçən il Yay Olimpiya oyunlarında medalların sayı 18-ə çatdı. Bu bizim Olimpiya oyunlarında iştirakımızın tarixində ən böyük rəqəmdir və medalların sayına görə Azərbaycan 14-cü, Avropa ölkələri arasında 7-ci, müsəlman ölkələri arasında isə 1-ci yerdə idi. Yəni bugünkü qələbənin çox möhkəm təməli var və bu onu göstərir ki, Azərbaycan idmanı inkişaf edir, Azərbaycan dövləti inkişaf edir. Ancaq inkişaf etmiş ölkələrdə idman həm dövlətə, həm xalqa böyük qələbə gətirir. Biz idmançılarımızla fəxr edirik. Mən bütün idmançılarımızı bu böyük qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm, onlara yeni uğurlar arzulayıram.

Bu oyunlar eyni zamanda, onu göstərir ki, Azərbaycanda aparılan düşünülmüş siyasət, o cümlədən idman sahəsində öz bəhrəsini verməkdədir. İdmanın inkişafı Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son illər ərzində bu istiqamətdə atılmış addımlar, apardığımız siyasət bu gözəl nəticəni bizə verdi.

Bu gün Azərbaycanda idman ictimai proseslərin inkişafında xüsusi yer tutur. İdmançılara cəmiyyətdə çox xoş münasibət vardır. İdmançılara olan hörmət göz qabağındadır və hər bir vətənpərvər Azərbaycan vətəndaşı idmançılarımızın uğurlarını alqışlayır, bu uğurlarla fəxr edir. Hər dəfə bizim bayrağımız qaldırılanda, Dövlət himnimiz səsləndiriləndə hər bir vətənpərvər insan qürur hissi keçirir. Bu 10 gün ərzində idmançılarımız xalqımıza qələbə sevinci bəxş etdilər. Bu 10 gün ərzində Azərbaycan cəmiyyəti bir daha birlik, həmrəylik, vətənpərvərlik göstərdi, tribunalarda yarışları izləyən tamaşaçılar böyük coşqu, böyük sevgi ilə sizin qələbələrinizi alqışladılar, sizinlə bərabər sevindilər, bu qələbə sevincini sizinlə bölüşdülər.

İdman hər bir ölkənin ictimai həyatında xüsusi yer tutur və bu gün idmanın inkişafı, bax, bu gözəl nəticələrə gətirib çıxarıb. Biz haqlı olaraq, öz qələbələrimizlə fəxr edirik, eyni zamanda,

sizin nümunəniz, bu oyunlarda idmançılarımızın qələbələri əminəm ki, yaxın gələcəkdə idman bölmələrinə uşaqların axınını daha da sürətləndirəcək. Çünki biz hər dəfə növbəti böyük idman qələbəsindən sonra görürük ki, idmanla məşğul olmaq istəyənlərin sayı artır, uşaqlar, yeniyetmələr idman bölmələrinə üz tuturlar, sizin kimi olmaq istəyirlər, sizə oxşamaq istəyirlər. Gənc nəsil, uşaqlar görəndə ki, dövlət idmançıları qiymətləndirir, onları mükafatlandırır, onlara bütün şəraiti yaradır, əlbəttə, idmana daha da böyük maraq olacaq. Bu da nəticə etibarilə Azərbaycan gəncliyinin, xalqının sağlamlığına xidmət edəcək. Biz idmançılarımızın uğurları ilə fəxr edirik və bu bizim ölkəmizin şöhrətini artırır. Eyni zamanda, bundan az əhəmiyyət daşımayan məsələ idmanın kütləviliyidir. İdman sağlam həyat tərzidir və biz hamımız çox istəyirik ki, Azərbaycanda sağlam həyat tərzi yanaşması üstünlük təşkil etsin. Bu gün belədir, dövlət siyasəti də məhz bu istiqamətdə aparılır və sizin qələbələriniz bizim siyasətimizi dəstəkləyir.

Bu oyunların keçirilməsi ölkəmiz üçün tarixi hadisə idi. Şadam ki, bu qələbəni şərtləndirən, qələbəyə aparan bütün qurumlar çox yaxşı işlədilər. Həm əvvəlki illərdə, həm oyunlar ərəfəsində Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar, məşqçi korpusu, idman mütəxəssisləri, əlbəttə, idmançılar bir komanda, bir ailə kimi bir amala xidmət edərək, bu qələbəni mümkün etdilər. Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycanda bütün idman qurumları çox sıx əlaqədə işləyir və hesab edirəm ki, uğurlarımızın təməlində bu amil dayanır. İdmançılar üçün isə biz bütün şəraiti yaratmışıq. Bölgələrdə 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi, Bakı şəhərində isə istənilən beynəlxalq yarışı keçirmək üçün ən müasir və gözəl idman obyektləri fəaliyyət göstərir.

Oyunların keçirilməsində Təşkilat Komitəsinin rolunu xüsusi qeyd etmək istəyirəm. Təşkilat Komitəsi Mehriban Əliyevanın rəhbərliyi ilə çox böyük iş görüb, bütün hazırlıq prosesi diqqət mərkəzində idi. Təşkilat Komitəsi ən xırda məsələyə qədər bütün

lazımi tədbirləri görüb ki, həm idmançılar, həm də qonaqlar üçün yaxşı şərait yaradılsın. Ölkəmizə minlərlə xarici qonaq gəlmişdi. Mən Təşkilat Komitəsinin işini çox yüksək qiymətləndirirəm və bu, artıq təbii bir haldır. Çünki Mehriban xanımın rəhbərliyi ilə 3-cü mötəbər beynəlxalq yarışma keçirilir – 2012-ci ildə «Eurovision» mahnı yarışması, 2015-ci ildə Avropa oyunları – o, birinci oyunlar idi, oyunların standartları yox idi və hazırlıq üçün bizim cəmi 2 ilimiz var idi – və bu dəfə İslam Həmrəyliyi oyunları ən yüksək səviyyədə keçirilmişdir. Bu onu göstərir ki, Təşkilat Komitəsi öz vəzifə borcunu ləyaqətlə, şərəflə icra edib. Mən Təşkilat Komitəsinin bütün üzvlərinə minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, Əməliyyat Komitəsi çox fəal işləyib. Bu Əməliyyat Komitəsi Avropa oyunlarının da təşkilini təmin edib-dir və xarici mütəxəssislər də bizə kömək göstəriblər. Oyunların açılışı və bağlanışı mərasimləri də çox möhtəşəm idi. Mən yaxşı bilirəm ki, Təşkilat Komitəsi bu iki möhtəşəm təqdimatla çox ciddi məşğul olub. Həm açılış, həm bağlanış mərasimi ölkəmizin imkanlarını, xalqımızın istedadını göstərir. Həm də onu göstərir ki, Azərbaycan və Azərbaycan xalqı öz milli, dini dəyərlərinə sadiqdir, onları qoruyur.

Biz açılış mərasimində islam dininin mütərəqqiliyini göstərdik. Göstərdik ki, islam dini elm dinidir, mədəniyyət dinidir, sülh dinidir, mərhəmət dinidir. Biz Azərbaycan xalqının istedadlı nümayəndələrini açılış mərasimində göstərdik. Azərbaycanın zəngin, qədim tarixini, mədəniyyətini bütün islam aləminə, bütün dünyaya nümayiş etdirdik. Bağlanış mərasimi də Azərbaycanı mütərəqqi, müasir ölkə kimi təqdim etdi. Yəni bu nadir vəhdət bu gün Azərbaycanı dünya miqyasında əvəzolunmaz ölkəyə çevirir. Biz öz milli, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq və qoruyacağıq. Biz dünyaya açığıq, biz müasirik, biz inkişaf edirik və bu önəmli amillər bu gün əslində müasir Azərbaycan dövlətini təcəssüm etdirir. Biz dərin milli-mənəvi köklər üzərində müasir dövlət qururuq, o dövləti ki, indi hər bir vətənpərvər insan öz ölkəsi ilə fəxr edir.

Bizim uğurlarımızın təməlində Vətən sevgisidir və idmançılarımızı da qələbələrə aparan əsas amil budur. Biz görürdük ki, idmançılar necə sevinirlər, xalqımız necə sevinir. Bu 10 gün ərzində biz bir daha gördük ki, xalqımız, cəmiyyətimiz birdir. Bizi birləşdirən bizim əqidəmizdir, tariximizdir və gələcəyə baxışlarımızdır. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə layiq olan bir ölkədir. Azərbaycan müsəlman aləmində çox böyük rəğbətə layiq olan bir ölkədir. Bakıda keçirilmiş oyunlar sayca 3-cü İslam Həmrəyliyi oyunlarıdır. 1-ci oyunlar Səudiyyə Ərəbistanında, 2-ci İndoneziyada, 3-cü isə Azərbaycanda keçirilib. Səudiyyə Ərəbistanı müsəlman aləminin mərkəzidir, İndoneziya müsəlman aləmində əhali baxımından ən böyük ölkədir. Müsəlman aləminin bu 2 aparıcı ölkəsindən sonra 3-cü oyunların – halbuki bu oyunların adı 4-cüdür, amma biz bilirik ki, cəmi üçüncü dəfədir keçirilir – Azərbaycanda keçirilməsi, bizə olan böyük hörmətin və inamın təzahürüdür.

Bu günlər ərzində xarici qonaqlarla təmaslar əsnasında çox sevinirdim ki, elə bil hamı mənə bir fikri çatdırmaq istəyirdi – hamı böyük minnətdarlıq hissi ilə təşkilati məsələlərin yüksək səviyyədə və peşəkarlıqla həll olunduğunu deyirdi. Bu bizi çox sevindirir. Oyunların bu səviyyədə keçirilməsi ölkəmizin gücünü, qüdrətini göstərir. Göstərir ki, biz istənilən beynəlxalq tədbiri ən yüksək səviyyədə təşkil edə və eyni zamanda, öz standartlarımızı da tətbiq edə bilərik və bunu edirik. Avropa oyunları bundan sonra ancaq Azərbaycan standartları əsasında keçiriləcəkdir. Bilirəm ki, bu standartlara çatmaq çətin olacaqdır.

Biz İslam Həmrəyliyi oyunlarında da yeni yanaşmanı ortaya qoyduq, yeni standartlar tətbiq etdik. Əlbəttə ki, bu bizim qonaqlara olan hörmətimizin əlamətidir, məsuliyyətin təzahürüdür. Bu bizim siyasətimizi göstərir. Biz istəyirik ki, Azərbaycanda hər bir tədbir ən yüksək səviyyədə keçirilsin. Ona görə də ölkəmiz inkişaf edir, ona görə də Bakıya gələn bütün xarici qonaqlar şəhərimizə heyran qalırlar.

Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Azərbaycana gələn turistlərin sayı milyonlarla ölçülür. Bu oyunlardan sonra ölkəmizə daha çox turist axını olacaqdır. Azərbaycanı bu gün nəinki islam aləmində, dünyada inkişafda olan müasir, mütərəqqi, güclü dövlət kimi tanıyırlar və idmançılarımızın qələbələri bizim gücümüzü daha da artırır. Yəni bu daha əyani şəkildə göstərir ki, Azərbaycan güclü dövlətlər sırasındadır.

İdman yarışları, Olimpiya oyunları, İslam oyunları, Avropa oyunları elə bir tədbirdir ki, bu tədbirlərdə həm idmançılar, həm də ölkələr rəqabət aparırlar. İqtisadi, siyasi sahələrdə, beynəlxalq münasibətlər sahəsində bəzən birinciliyi müəyyən etmək üçün bəzi qurumlar, təşkilatlar çətinlik çəkir. Çünki müəyyən meyarlar olmalıdır. İdmanda isə hər şey açıq-aydındır. Azərbaycan 1-ci yerdədir, Azərbaycan qalibdir!

Əlbəttə, bu oyunlar eyni zamanda, islam həmrəyliyini gücləndirəcək. Mən oyunlar ərəfəsində demişdim, bizim əsas məqsədimiz ondan ibarətdir ki, müsəlman ölkələrini təmsil edən idmançılar, qonaqlar Bakıda bir yerdə olsunlar, bir-biri ilə tanış olsunlar, bir-birinin əlini sıxsınlar və dostluq, əməkdaşlıq güclənsin. Belə də oldu. Biz bunu yarışlarda gördük ki, bəzi hallarda siyasi cəhətdən bir-biri ilə o qədər də yaxın münasibətləri olmayan ölkələrin nümayəndələri bir-birini təbrik edir, bir-birinin uğuruna sevinir, bir-birinin əlini sıxırlar. Bu oyunların tarixi əhəmiyyəti məhz bundadır. Azərbaycan apardığı siyasətə idman vasitəsilə əlavə töhfə verdi. Çünki bizim müsəlman aləmində siyasətimiz ondan ibarətdir ki, birlik, həmrəylik güclənsin, müsəlman ölkələri arasındakı bəzi ixtilaflara, müharibələrə son qoyulsun. Müsəlman aləmi birlik nümayiş etdirməlidir. Bu təqdirdə xalqlarımız gələcəkdə rahat və firavan yaşaya bilərlər. Ona görə bizim apardığımız siyasət və bu oyunlarda verdiyimiz töhfə əminəm ki, müsəlman aləminin birləşməsinə gətirib çıxaracaqdır.

Eyni zamanda, Azərbaycan müsəlman aləmini Qərb aləmi ilə birləşdirən ölkədir. Təsəvvür edin, 2 il ərzində bir ölkədə, bir şəhərdə Avropa və İslam oyunları keçirilir. Bu oyunlarda 100-dən

çox ölkə iştirak edir. Heç bir başqa ölkə bu nailiyyətlə öyünə bilməz. Haqlı olaraq fəxr edirik ki, biz bunu edə bilmişik. Ölkəmiz həm Qərb dünyasında, həm müsəlman aləmində etibarlı tərəfdaş, dost və qüdrətli dövlət kimi tanınır.

Bir məsələni də qeyd etmək istəyirəm. Bizim uğurlarımızı əldə edən idmançılar müstəqillik dövründə yetişiblər. Bir çoxları müstəqillik dövründə doğulublar, müstəqillik illərində bu nailiyyətlərə gəlib çıxıblar. Bu bir daha onu göstərir ki, müstəqillik bizim ən böyük sərvətimizdir. Bizim xalqımızın çox böyük tarixi var. Ancaq müstəqillik tariximiz müasir dövrdə o qədər də böyük deyil. Biz cəmi 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq və idman sahəsində, iqtisadi, sosial və digər sahələrdə görün nə qədər böyük uğurlar əldə etmişik. İdman isə ölkələrin, xalqların gücünü, siyasətini göstərir. Sovet dövründə heç vaxt bizim ağlımıza gələ bilməzdi ki, Azərbaycan idmançıları bu qədər medal qazanacaqlar, Olimpiya oyunlarında bu qədər qələbələr qazanacaqlar, müsəlman aləmində 1-ci, Avropa ölkələri arasında 2-ci olacaqlar. Bütün bunlar ancaq müstəqillik dövründə mümkün olub. Bu qələbə bir daha onu deyir və göstərir ki, ancaq müstəqillik dövründə xalqımız uğurla inkişaf edə bilər. Ancaq taleyimiz öz əlimizdə olduğu təqdirdə Azərbaycan xalqı sürətlə inkişaf edə bilər.

Biz müstəqillik gününün ərəfəsindəyik. Bir neçə gündən sonra Respublika Gününü qeyd edəcəyik. Bu qələbə, əlbəttə ki, müstəqilliyimizə, müstəqilliyimizin möhkəmlənməsinə verilən növbəti töhfədir.

Eyni zamanda, biz mübarək Ramazan ayının başlanması ərəfəsindəyik. İslam Həmrəyliyi oyunlarının Ramazan bayramının başlanması ərəfəsində başa çatması, Azərbaycan üçün böyük qələbə ilə sonuclanması hesab edirəm ki, təbiidir. Bu, təsadüfi deyil, bu təbiidir.

Bir daha qayıdıram çıxışımın əvvəlinə. Bütün bu qələbələri bizə idmançılar bəxş ediblər. Ona görə mən onları bir daha təbrik edirəm, onları qucaqlayıram, bağrıma basıram və onlara yeni qələbələr, uğurlar arzulayıram.

* * *

*Sonra IV İslam Həmrəyliyi oyunlarında ən yaddaqalan məqamları, o cümlədən Azərbaycan idmançılarının çıxışlarını əks etdirən videoçarx nümayiş olundu.*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı tarixən təşəkkül tapmış möhkəm dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. Dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi bu xoş ənənələrə sadiq qalan xalqlarımızın iradəsindən qaynaqlanır.

İnanıram ki, strateji tərəfdaş olan ölkələrimizin birgə reallaşdırdığı irimiqyaslı layihələr, daim genişlənən əməkdaşlığımız bundan sonra da Azərbaycan–Gürcüstan əlaqələrinin inkişafına, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 may 2017-ci il*

## NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ XANIM BİDHYA DEVİ BHANDARİYƏ

Hörmətli xanım Prezident!

Nepal Federativ Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Nepal xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 may 2017-ci il*

**EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MULATU TEŞOMEYƏ**

Hörmətli cənab Prezident!

Efiopiya Federativ Demokratik Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Efiopiya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 may 2017-ci il*

## «BAKI ÜRƏK GÜNLƏRİ» V BEYNƏLXALQ KONQRESİNİN İŞTİRAKÇILARINA

Hörmətli konqres iştirakçıları!

Sizi – Azərbaycan kardioloqlarını və müxtəlif ölkələrdən Bakıya gəlmiş alimləri səmimi-qəlbdən salamlayır, hər birinizə insanların sağlamlığı naminə nəcib fəaliyyətinizdə nailiyyətlər arzulayıram.

«Bakı Ürək Günləri» Beynəlxalq Konqresinin təşkilinin artıq ənənəvi şəkil alması onun kardiologiya və ürək-damar cərrahiyyəsinin inkişafı sahəsində nüfuz qazandığını göstərir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunan konqresinizin işində dünyanın müxtəlif mötəbər tibb mərkəzlərini, o cümlədən ABŞ-ın Klivlend Klinikasını, Almaniyanın Berlin Ürək Mərkəzini, Türkiyə, Rusiya, İsveçrə, Avstriya və digər ölkələrin tibb müəssisələrini təmsil edən 400-ə yaxın kardioloq-alim və cərrahın iştirakı təqdirəlayiqdir.

Yaxşı məlumdur ki, kardioloji xəstəliklər müasir dövrdə insanların ən çox məruz qaldığı xəstəliklərdəndir. Dünyanın nüfuzlu kardioloji mərkəzlərində aparılan ən çətin əməliyyatların hazırda ölkəmizdə yeni nəsil kardioloqların fəaliyyəti sayəsində uğurla həyata keçirilməsi fərəh doğurur. Beynəlxalq təcrübədən qarşılıqlı surətdə lazımınca faydalanmaqla, kardiologiyanın aktual problemlərinin həllinə yönəlmiş birgə səylərinizin gözəl bəhrə verəcəyinə inanıram. Sevindirici haldır ki, Azərbaycan səhiyyəsinin bugünkü vəziyyəti təbabətin sürətlə inkişaf edən sahələrindən biri kimi, kardiologiya elminin ən son nailiyyətlərinin tətbiqinə, ürək xəstəliklərinin müasir terapevtik və cərrahi üsullarla müalicəsinin təmin olunmasına əlverişli şərait yaradır.

Ölkəmizdə gerçəkləşdirilən bir çox tədbirlər, xüsusilə əhalinin müntəzəm dispanserizasiyası, sağlam həyat tərzinin təbliği, idmanın və bədən tərbiyəsinin geniş vüsət alması kardioloji xəstəliklərin profilaktikasına xidmət edir. Builki konqresinizin böyük müvəffəqiyyətlə başa çatmış IV İslam Həmrəyliyi oyunlarının ardınca keçirilməsi idman və təbabət arasında bağlılıq baxımından rəmzi məna daşıyır. Son illər Azərbaycanda mütəmadi təşkil olunan beynəlxalq səviyyəli mötəbər tədbirlər müxtəlif ölkələrdən gələn qonaqlara dünyanın ən gözəl şəhərlərindən birinə çevrilmiş Bakı ilə, xalqımızın mədəniyyət, elm və iqtisadiyyatda nail olduğu parlaq nəticələrlə tanışlıq imkanı yaratmışdır. Əminəm ki, siz də doğma vətəninizə xalqımız və şəhərimiz haqqında aldığınız xoş təəssüratlarla dönəcəksiniz.

Ümidvaram ki, yüksək elmi və elmi-təcrübi əhəmiyyətə malik olan bu konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əməkdaşlıq əlaqələrini daha da genişləndirəcək və tibb elminin inkişafına layiqli töhfəsini verəcəkdir.

*Ən səmimi arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 may 2017-ci il*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*26 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın tarixinə şanlı hadisə kimi daxil olubdur. Müstəqil, azad, demokratik respublika qurmağı qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdiribdir.*

*99 il əvvəl mayın 28-də qəbul edilmiş «İstiqlal Bəyannaməsi»ndən – «Əqdnamə»dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndiribdir.*

*XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıbdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etmişdir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoyubdur.*

*Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlan-*

*ğıcını qoyub. Xalqımız Cümhuriyyətin yarandığı bu şərəfli tarixi 28 May Respublika Günü kimi qeyd edir.*

*Gələn il xalqımız Şərqdə ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyini qeyd edəcək. Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında mayın 16-da sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikamızda dövlət səviyyəsində geniş qeyd ediləcəkdir.*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*«Buta» sarayı*

*26 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 26-da «Buta» sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbulda iştirak etmişlər.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlətimizin başçısı rəsmi qəbulda nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına yeni uğurlar, qələbələr arzulayıram.

99 il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq, demokratik respublika yaradılmışdır. Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bu respublikanı bizim xalqımız yaratmışdır. Bu, tarixi hadisədir, xalqımız üçün və dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Dünya miqyasında birinci müsəlman demokratik respublikası Azərbaycanda yaradılmışdır. Bu özlüyündə xalqımızın nə qədər mütərəqqi və istedadlı olduğunu bir daha göstərirdi.

Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə, onun qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə

abidə ucaldılıbdır. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etmək üçün bu yaxınlarda mənim tərəfimdən sərəncam imzalanıbdır.

Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. 2 ildən sonra müstəqilliyimiz əlimizdən alındı. Əgər Azərbaycan dövlət müstəqilliyini qoruya bilsəydi, əminəm ki, bu gün Azərbaycan dünya miqyasında ən inkişaf etmiş, ən zəngin ölkələrdən biri olacaqdı. Ancaq xarici müdaxilə nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi.

Ondan sonra 70 il Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşadı. Baxmayaraq ki, müstəqil deyildik, Azərbaycan xalqı inkişaf edirdi. Xüsusilə ötən əsrin 70–80-ci illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir, həm iqtisadi, həm sosial sahədə böyük uğurlar qazanmışdır.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşdu. Ancaq tarix sanki təkrarlanırdı və 2 ildən sonra yenə də müstəqilliyimiz üçün böyük təhlükələr yarandı. Əslində müstəqilliyimizin ilk 2 ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan öz müstəqil siyasətini tam miqyasda apara bilmirdi. Bundan əlavə, ölkəmizdə yaşanan siyasi, iqtisadi, hərbi böhran, torpaqlarımızın işğal altına düşməsi, ovaxtkı hakimiyyət tərəfindən vətəndaş müharibəsinin başlanması, əlbəttə, gənc dövlətimizi uçurum kənarına qoymuşdu. 1993-cü ildə Azərbaycan yenə də böyük təhlükə ilə üz-üzə qalmışdı. Azərbaycan xalqının müdrikliyi ölkəmizi, dövlətimizi bu bəladan xilas etdi.

Azərbaycan xalqı müdriklik göstərərək, böyük lideri – Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 1993-cü ildən sonra Azərbaycanda inkişaf dövrü başlandı və bu gün də bu dövr davam edir. Bütün xoşagəlməz hallara, vətəndaş müharibəsinə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr tərk-silah edildi. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi, ölkəyə böyük həcmdə xarici sərmayə gəlməyə başladı. Azərbaycan beynəlxalq təcriddən, informasiya blokadasından çıxa bildi. Bir sözlə, 1993-cü ildən başlayaraq bu

günə qədər Azərbaycan inkişaf yolu ilə gedir. Bugünkü Azərbaycan bir daha mənim sözlərimi təsdiqləyir ki, əgər 1920-ci ildə müstəqillik əlimizdən alınmasaydı, indi Azərbaycan ən öndə gedən ölkələrdən biri ola bilərdi.

Bunu deməyə əsas verən bizim müstəqillik tariximizdir. Cəmi 23 il ərzində – 1993-cü ildən başlayaraq, görün Azərbaycan nə qədər inkişaf edib, nə qədər güclənib, görün Azərbaycan dünyada hansı möhkəm mövqelərə sahib olub. İqtisadi sahədə, sosial sahədə, bütün başqa sahələrdə Azərbaycan böyük uğurlara imza atıb və bu gün bütün dünya bunu bilir və qəbul edir. Bu gün Azərbaycan bir çox ölkələr üçün nümunədir.

Bu gün qarşıda duran vəzifələr haqqında danışmaq istərdim. Biz gələcək illərdə də müsbət dinamikanı saxlamalıyıq və əminəm ki, saxlayacağıq. Daxili siyasətə gəldikdə, ilk növbədə Azərbaycanda bundan sonra da təhlükəsizlik təmin edilməlidir. Deyə bilərəm ki, Azərbaycanda daxili risk mənbələri mövcud deyil. Mümkün olan risklər xaricdə formalaşır. Belə olan halda, biz ölkəmizi bundan sonra da xarici risklərdən qorumalıyıq, həm fiziki nöqteyi-nəzərdən, eyni zamanda, düzgün siyasət aparmaqla. Biz sərhəd mühafizəsini kifayət qədər gücləndirmişik və bu istiqamətdə əlavə addımlar atılacaqdır. Azərbaycan bizə sərf etməyən, şübhə doğuran heç bir beynəlxalq hərəkətlərə, avantüralara qoşulmur. Baxmayaraq ki, müxtəlif tərəflər bizi müntəzəm olaraq bu hərəkətlərə cəlb etməyə çalışırdılar. Bu gün də belə səylər var. Ancaq Azərbaycan bizə sərf etməyən heç bir hərəkətə, təşəbbüsə qoşulmur və qoşulmayacaq.

Biz ilk növbədə, öz maraqlarımız, öz təhlükəsizliyimiz, inkişafımız, rifahımız haqqında düşünürük. Əgər hansısa beynəlxalq təklif və təşəbbüs bizim maraqlarımızla üst-üstə düşürsə, əlbəttə ki, biz buna müsbət yanaşa bilərik. Ancaq ilk növbədə, milli maraqlar, Azərbaycanın maraqları, xalqımızın rahatlığı, firavanlığı və ölkəmizin təhlükəsizliyi məsələləri ön plandadır, xüsusilə indiki şəraitdə. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bəzən buna görə də müxtəlif yerlərdən Azərbaycana təzyiqlər göstərilir və bizə qarşı kampaniyalar aparılır. Ancaq indiki

şərait, bugünkü beynəlxalq vəziyyət bir daha göstərir ki, bu, yeganə düzgün siyasətdir. Çünki bu gün bölgədə, dünyada risklər, təhlükələr artır, təhlükə mənbələri genişlənir, əfsuslar olsun ki, bizim coğrafiyamızda sabitlik təmin edilmir, əksinə, ildən-ilə vəziyyət daha da gərginləşir. Ona görə təhlükəsizlik məsələləri ön planda olmalıdır.

Bununla bərabər, Azərbaycanda bütün azadlıqlar bundan sonra da təmin ediləcək və bu iki yanaşma arasında heç bir ziddiyyət olmamalıdır. Azərbaycan azad dövlətdir, demokratik dövlətdir, demokratik inkişaf istiqamətində bir çox nailiyyətlərimiz var və bu proses davam etdirilməlidir. Bütün fundamental azadlıqlar Azərbaycanda bundan sonra da təmin ediləcək və xalqımız azadlıq şəraitində yaşayacaqdır. Azərbaycanda bundan sonra da millətlərarası, dinlərarası münasibətlər ən yüksək səviyyədə öz həllini tapacaqdır. Biz indi bir çox ölkələr üçün nümunəyik. Bunu artıq heç kim gizlətmir. Nəinki ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər, eyni zamanda, Azərbaycanda mövcud olan vəziyyət bir çox ölkələr üçün nümunədir. Həmkarlarım və təmasda olduğum xarici qonaqlar bunun sirrini öyrənmək üçün mənə dəfələrlə suallar verirdilər. Bunun sirri çox sadədir. Sadəcə olaraq, düzgün siyasət aparılmalıdır, inkişaf olmalıdır, savadlılıq artmalıdır, milli və dini siyasət düzgün aparılmalıdır. Azərbaycanda yaşayan bütün xalqların, bütün dinlərin nümayəndələri özlərini rahat hiss etməlidirlər. Bu gün bu vəziyyət reallıqdır. Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi, mehribanlıq, sülh, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu da bizim böyük sərvətimizdir, gücümüzdür və biz bunu qoruyuruq və qorumalıyıq. Şadam ki, bizim siyasət, bu istiqamətdə atılan addımlar xalq tərəfindən tam dəstəklənir. Ona görə bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzi sayılır.

Bununla bərabər, biz öz milli-mənəvi dəyərlərimizə sadiqik. Təsadüfi deyil ki, keçən il Azərbaycanda «Multikulturalizm ili», bu il «İslam həmrəyliyi ili» elan edilmişdir. Bu bir daha göstərir ki, öz köklərinə bağlı olan xalq və dövlət həmişə düzgün siyasət aparacaq. Milli dəyərləri möhkəm olan xalq həmişə uğur qazanacaq, inkişaf edəcəkdir. Hesab edirəm ki, Azərbaycan

modeli, o cümlədən bu istiqamətdə əldə etdiyimiz uğurlar bir çox ölkələr üçün çox cəlbedicidir. Həm ənənələrimiz, həm tariximiz, həm də mədəniyyətimiz, dinimiz bizim üçün müqəddəsdir, eyni zamanda, biz dünyaya açığıq, müasirik, bütün ölkələrlə yaxşı münasibətlər qurmağa çalışırıq.

Əlbəttə, bu amilləri nəzərə alaraq, bundan sonra da Azərbaycanda sabitlik davam etdiriləcəkdir. Bu gün artıq reallıqdır ki, sabitlik olmadan heç bir inkişafdan söhbət gedə bilməz, sabit olmayan ölkələrə heç kim sərmayə qoymaz, heç kim turist kimi gəlməz, belə ölkələrlə heç kim gözəl münasibətlər qurmağa çalışmaz. Ona görə sabitlik hər bir ölkənin əsas amilidir, inkişafın əsas amilidir. Ancaq sabitliyi inzibati yollarla əldə etmək mümkün deyil. Bu, müvəqqəti olacaq. İndi bir neçə ölkədə xüsusi təhlükəsizlik tədbirləri görülür, xüsusi rejim tətbiq olunur. Bu, inzibati yollardır. Amma sabitliyin əsl mahiyyəti ondadır ki, xalq dövlət siyasətini dəstəkləsin, xalq vəziyyətlə razı olsun, xalq inkişafla qürur duysun. Biz, bax, bu sabitliyi yaratmışıq və Azərbaycanda hökm sürən sabitliyin təməlində bu amillər dayanır – xalq–iqtidar birliyi, bizim siyasətimiz və əldə edilmiş uğurlar. Ən yaxşı təbliğat vasitəsi real həyatdır. Bu gün Azərbaycan çoxşaxəli şəkildə inkişaf edir və bütün istiqamətlərdə böyük uğurlar qazanıb.

Daxili siyasət məsələlərinə gəldikdə, əlbəttə ki, biz sosial sahəyə bundan sonra da xüsusi diqqət ayıracağıq. Bu sahə bizim üçün prioritetdir. Mən dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz bütün işləri ona görə görürük ki, xalqımız daha da yaxşı yaşasın. Azərbaycanda bir çox sosial təşəbbüslər irəli sürülüb, sosial infrastruktur layihələri geniş vüsət alıbdır. Azərbaycan elə təşəbbüslər irəli sürür ki, bu, dünya üçün bir yenilikdir. Mən bunların arasında kütləvi müayinədən keçmə proqramını xüsusi qeyd etmək istərdim. Bir neçə ildir ki, bu proqram icra edilir. Bu proqramı icra etmək üçün, ilk növbədə, səhiyyə sahəsində islahatlar aparılmalı və müasir infrastruktur yaradılmalı idi. Artıq 600-dən çox xəstəxananın tikintisi, təmiri bizə belə imkanları yaradır.

Kütləvi müayinədən keçmə proqramını əhatə edən bütün qurumlar bu nəticəni əldə edib – bu il 5 milyondan çox Azərbaycan vətəndaşı pulsuz müayinədən keçibdir. Bax, bizim siyasətimiz bundan ibarətdir. Bizim siyasətimiz 3000-dən artıq məktəbin tikilməsində, maaşların, pensiyaların artırılmasında özünü göstərir. Azərbaycan büdcəsində sosial xərclər, əlbəttə ki, prioritet olaraq qalacaq və bundan sonra da bu istiqamətdə əlavə addımlar atılmalıdır.

Azərbaycan xarici siyasət sahəsində böyük uğurlar əldə edib. Bunu artıq Azərbaycan ictimaiyyəti bilir. Biz beynəlxalq arenada öz milli maraqlarımızı bundan sonra da müdafiə edəcəyik. Biz bu gün dünyada çox böyük hörmətə malik olan ölkə kimi tanınırıq. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Ermənistandan başqa heç bir ölkə ilə ikitərəfli formatda bizim problemimiz yoxdur. Biz bir çox üçtərəfli əməkdaşlıq formatları irəli sürmüşük.

Bu gün bizim beynəlxalq təşkilatlarla da çox yaxşı münasibətlərimiz var və biz bu təşkilatlarda fəal rol oynayırıq. Mən onların içərisində ilk növbədə, İslam Əməkdaşlıq Təşkilatını qeyd etmək istərdim. Azərbaycan bu təşkilatın fəal üzvüdür. Bu təşkilat erməni təcavüzü ilə bağlı keçən il Kontakt qrupu yaradıbdır. Erməni təcavüzü, ötən ilin aprel ayında onların törətdikləri təxribat hadisələri İslam Əməkdaşlıq Təşkilatı tərəfindən pislənildi. Azərbaycan dövlətinə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyinə daim dəstək göstərilir. Azərbaycan bu təşkilat çərçivəsində ikitərəfli əlaqələri də genişləndirir. Mən bu yaxınlarda Səudiyyə Ərəbistanında keçirilən Ərəb–İslam–Amerika Zirvə görüşünü xüsusi qeyd etmək istəyirəm. Azərbaycan bu görüşdə yüksək səviyyədə iştirak etdi. Hesab edirəm ki, bu zirvə görüşünün çox böyük mənası vardır. İlk növbədə, müsəlman aləmi həmrəylik nümayiş etdirdi və təqdirəlayiq haldır ki, Amerika prezidenti cənab Tramp öz ilk xarici rəsmi səfərini müsəlman ölkəsinə etdi. Biz bunu Azərbaycanda yüksək qiymətləndiririk. Hesab edirəm ki, bu, bütün müsəlman aləminə Amerika Prezidenti tərəfindən göstərilən

böyük hörmətin əlamətidir. Yəni bu səfərin və zirvə görüşünün təşkilinin özü artıq böyük hadisədir və orada Amerika Prezidenti tərəfindən səsləndirilən fikirlər, əlbəttə ki, çox yüksək qiymətləndirilməlidir. Xüsusilə o demişdir ki, Amerika Birləşmiş Ştatları bundan sonra müsəlman ölkələrinin daxili işlərinə qarışmayacaq, onlara öyüd-nəsihət verməyəcək, onlara mühazirə oxumayacaq. Bu çox ciddi bəyanatdır və deyə bilərəm ki, zirvə görüşünün, demək olar, bütün iştirakçıları bu bəyanatları yüksək qiymətləndiriblər, o cümlədən də Azərbaycan. Çünki biz hamımız yaxşı bilirik ki, Azərbaycan xarici müdaxilə nəticəsində ən çox «atəş altında» olan ölkələrdən biridir.

Ümid edirəm ki, bu ciddi siqnal bütün aidiyyəti qurumlara, o cümlədən Avropa təsisatlarına da çatacaq və bizim işimizə qarışma cəhdləri aradan götürüləcək. Onsuz da bu ildən başlayaraq, ABŞ rəhbərliyində dəyişikliklər oldu və görürük ki, artıq bu müdaxilələrin təzahürləri yavaş-yavaş aradan götürülür. Biz bunu alqışlayırıq və ümid edirik ki, bu, davam etdiriləcək. Çünki yeganə düzgün siyasət də məhz budur. Mən əvvəllər də demişəm, bu gün də demək istəyirəm ki, əgər ölkələr bir-birinin işinə qarışmasalar, onda nə müharibə, nə də münaqişə olacaq, ancaq sülh və əməkdaşlıq olacaqdır. Azərbaycan heç vaxt heç bir ölkənin işinə qarışmayıb və heç vaxt qoymayıb və qoymayacaq ki, kimsə də gəlib bizim işimizə qarışsın, bizə dərs desin və bizə yuxarıdan aşağı baxsın. Azərbaycan ləyaqətli dövlətdir. Öz qürurumuzu qorumuşuq və qoruyacağıq.

Xarici siyasətimizin əsas istiqaməti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Bu istiqamətdə bizim prinsipial mövqemizdə heç bir dəyişiklik yoxdur. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır – bu gün də belədir, sabah da belə olacaqdır. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ölkələrin ərazi bütövlüyü çərçivəsində, Helsinki Yekun Aktının qərarlarına uyğun şəkildə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Elə mövcud olan erməni dövləti də bizim torpağımızda yaradılıbdır.

Biz yaxşı bilirik ki, 1918-ci ildə İrəvan Ermənistana hədiyyə kimi verilmişdir. Bir daha torpağımızda ikinci qondarma erməni dövlətinin yaradılması mümkün deyil. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır.

Beynəlxalq təşkilatların qərar və qətnamələri bizi qane edir. Bu, münaqişənin həlli üçün hüquqi əsasdır. Eyni zamanda, son müddət ərzində səsləndirilən bəyanatlar və atılan addımlar da yüksək qiymətləndirilməlidir. Xüsusilə həm Minsk qrupuna həmsədrlik edən ölkələr, həm Avropa İttifaqı, həm də digər qurumlar artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Düzdür, hələ ki, bu bəyanatlardan sonra heç bir addım atılmayıb. Gözləyirik ki, bu addım da atılacaq və işğalçıya təzyiq göstəriləcək. Onlara qarşı sanksiya tətbiq olunacaq və mütləq olunmalıdır. Əgər Ermənistana bu işğalçı siyasətinə görə sanksiyalar tətbiq edilməsə, bu, ikili standartların növbəti əlaməti olacaqdır. Buna baxmayaraq, belə bəyanatların özü də, hesab edirəm ki, müsbət addımdır.

Eyni zamanda, Dağlıq Qarabağda keçirilmiş qondarma «referendum»a çox sərt reaksiya verildi, həm qonşu ölkələr tərəfindən, həm Minsk qrupundan, həm Avropa İttifaqından və digər ölkələrdən. Heç kim bu «qondarma yığıncağı», bu biabırçılığı qəbul etmədi, əksinə, bunu pislədi. Bir daha sübut etdilər və göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz torpağıdır, ölkəmizin ayrılmaz hissəsidir. Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqemiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik.

Məcburi köçkünlərlə bağlı bizim siyasətimiz göz qabağındadır. Son illər ərzində 100-ə yaxın qəsəbə salınıb. Hazırda yeni qəsəbələr salınır. Bakı, Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlər üçün də yeni binaların tikintisinə başlayırıq. Bu da çox geniş bir proqram olacaq. Bir neçə min ailə, məcburi köçkün yaxın gələcəkdə yeni, gözəl evlərə, mənzillərə köçürüləcəkdir.

Ordu quruculuğu istiqamətində də siyasətimiz özünü tam doğruldub. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Beynəlxalq reytinqlər də bunu göstərir. Ordumuzun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, həmçinin orduda vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bu gün biz ən qabaqcıl texnologiyalara malik olan texnika alırıq, silahlar alırıq və alacağıq. Ordumuz üçün nə qədər vəsait ayırmaq lazımdırsa, biz o qədər də ayıracağıq. Dilənçi Ermənistandan fərqli olaraq, biz ordumuzu öz hesabımıza təmin edirik, müstəqil ölkə kimi yaşayırıq. Onlar isə başqa yolu seçiblər, bu, müstəmləkə yoludur, bu onların seçimidir.

Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Keçən ilin aprel döyüşləri bunu göstərdi. Aprel döyüşləri xalqımızın, ordumuzun gücünü göstərdi. Bir daha göstərdi ki, Azərbaycan Ermənistanın silahlı təxribatlarına heç vaxt dözməyəcək və göstərdi ki, Azərbaycan indiki vəziyyətlə heç vaxt barışmayacaqdır.

Əlbəttə, bütün planlarımızı həyata keçirmək üçün biz güclü iqtisadiyyata malik olmalıyıq. Bu istiqamətdə də çox böyük addımlar atılır. Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə dünyada 37-ci yerdədir. Baxmayaraq ki, beynəlxalq maliyyə böhranı bizə də təsir etdi. Baxmayaraq ki, neftin qiymətinin aşağı düşməsi, təbii ki, gəlirlərimizə mənfi təsir etdi. Artıq Azərbaycan iqtisadiyyatı mövcud vəziyyətə adaptasiya olundu, milli valyutamız sabitləşdi, qeyri-neft ixracımız artır. Dörd ayın iqtisadi göstəriciləri çox müsbətdir. Bizim valyuta ehtiyatlarımız, ticarət dövriyyəsi artıb. Ticarət dövriyyəsində müsbət saldo 1,2 milyard dollara çatıb. Ticarət dövriyyəsi 11 faiz, ixrac 41 faiz, qeyri-neft ixracı 22 faiz, kənd təsərrüfatının ixracı isə 44 faiz artıbdır.

Azərbaycanda bugünkü maliyyə və iqtisadi vəziyyət sabitdir, dayanıqlıdır. Bütün büdcə proqnozları yerinə yetirilir. Mən nə bu il, nə gələn il ölkə iqtisadiyyatı üçün heç bir problem görmürəm. Xüsusilə nəzərə alsaq ki, bizim valyuta ehtiyatlarımız artır, bu il də artıbdır. Valyuta ehtiyatlarımız xarici

borcdan 4-5 dəfə çoxdur. Ona görə istənilən ölkə, bax, bu vəziyyəti özü üçün arzulaya bilər.

Əlbəttə, bu gün qarşımızda duran vacib məsələlərdən biri «Cənub Qaz Dəhlizi»nin başa çatdırılmasıdır. Azərbaycan bu istiqamətdə də öz tərəfdaşları ilə uğurlara imza atıbdır. «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Mən sözlərimi əsaslandırmaq üçün bəzi rəqəmləri də səsləndirə bilərəm. Bildiyiniz kimi, «Cənub Qaz Dəhlizi» 4 layihədən ibarətdir. «Şahdəniz-2» layihəsinin icrası 93 faizə çatıbdır. İkinci layihə «Cənubi Qafqaz» kəməridir. Orada icra səviyyəsi 85 faizdir. Üçüncü layihə Trans–Anadolu qaz kəməri – TANAP-dır. Burada işlərin 72 faizinin görülməsi təmin edilibdir. Dördüncü layihə Trans–Adriatik kəməri – TAP-dır. Orada isə icra səviyyəsi 42 faizdir. Onu da qeyd etmək istəyirəm ki, plana görə TAP-ın icra səviyyəsi bu günə 45 faiz olmalı idi. Yəni ki, o səviyyəyə yaxındır. Mən bunu xüsusilə vurğulamaq istəyirəm. Çünki Azərbaycan ictimaiyyəti bilir ki, TAP layihəsini əngəlləmək üçün indi böyük səylər göstərilir, qruplar təşkil olunur, ekoloji məsələlər bəhanə kimi ortalığa atılır. Bizdə olan məlumata görə, bunun arxasında böyük pullar dayanır. Yəni o qruplar süni şəkildə, heç bir əsası olmadan təşkil edilir. Amma aydındır nə məqsədlə – bu layihəni dayandırmaq, yaxud da ki, ləngitmək üçün. Bütün bunlara baxmayaraq, TAP layihəsinin icrası plandan cəmi 3 faiz geridədir. Ona görə əminəm ki, bu layihənin icrasında da heç bir problem olmayacaq.

Bilirsiniz ki, bu gün biz böyük nəqliyyat layihələri üzərində işləyirik. Bakı–Tbilisi–Qars və Şimal–Cənub layihələri ilə bağlı Azərbaycanın üzərinə düşən vəzifələr tam icra edilibdir. İndi, əlbəttə, tərəfdaş ölkələrdə bu işlərin sürətləndirilməsi prosesi gedir. Biz də gələcəkdə bu işlərdə iştirak edə bilərik. Belə olan halda, indi əsas böyük nəqliyyat layihələri arasında prioritet Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisinin başa çatdırılmasıdır və bunun üçün lazımi vəsait ayrılıb. Əminəm ki, bundan sonra 1 il ərzində, gələn ilin yayına qədər Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə veriləcəkdir. Bu,

Xəzər dənizində ən böyük liman olacaq və bizim nəqliyyat imkanlarımızı xeyli artıracaqdır.

Əlbəttə, qarşıda duran vəzifələr qeyd etdiyim vəzifələrdən daha da çoxşaxəli və çoxdur. Sadəcə olaraq, mən əsas istiqamətlər üzrə gələcək fəaliyyətimizi xalqa təqdim etdim. Əminəm ki, biz bütün istiqamətlər üzrə bundan sonra da sürətlə inkişaf edəcəyik. Bizim uğurlarımızın təməlində, əlbəttə, düşünülmüş siyasət və bu gün Azərbaycan xalqının müstəqillik şəraitində yaşaması amili dayanır. Müstəqilliyin dəyərləri, o cümlədən real həyatda özünü göstərir. Müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir. Biz müstəqilliyi qoruyuruq və qoruyacağıq.

Sağ olun.

## XANIM EMİLİYA BENEŞƏ

Hörmətli xanım Beneş!

Həyat yoldaşınız – görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Zbiqnev Bjezinskinin vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Zbiqnev Bjezinski uzun illərdən bəri davamlı və səmərəli fəaliyyəti, zəngin təcrübəsi və yüksək peşəkarlığı ilə beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. O, dərin strateji araşdırmaları, hərtərəfli siyasi təhlilləri ilə dünyada sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar olması, münaqişələrin və gərginlik ocaqlarının aradan qaldırılması, qlobal təhdidlərin qarşısının alınması işinə mühüm töhfələr vermişdir.

Zbiqnev Bjezinski Azərbaycanın dostu idi. Ona Azərbaycanda hər zaman böyük rəğbət bəslənilib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası ilə Birləşmiş Ştatlar arasındakı münasibətlərin inkişafında, dostluq əlaqələrimizin möhkəmlənməsində Zbiqnev Bjezinskinin əvəzsiz xidmətləri olmuşdur.

Atam prezident Heydər Əliyevlə aralarında mövcud olmuş səmimi dostluq münasibətlərini ailəmizdə həmişə yüksək tuturuq, ən xoş təəssüratlarla xatırlayırıq.

Bu ağır anlarda dərdinizi bölüşür, Mehriban xanım ilə birlikdə Sizə və ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı veririk.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 may 2017-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Əl-Minya vilayətində avtobusun avtomat silahlardan atəşə tutulması nəticəsində əksəriyyəti uşaqlardan ibarət olan sərnişinlərin həlak olması və yaralanması xəbəri bizi son dərəcə sarsıtdı.

Biz dinc insanlara qarşı yönəlmiş bu dəhşətli terror əməlindən hədsiz dərəcədə hiddətlənir, gündən-günə azğınlaşan terrorizmin bütün təzahürlərinə qarşı hamılıqla və qətiyyətlə mübarizə aparılmasını zəruri və vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Misir xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 may 2017-ci il*

## XXIV BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2017» SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi XXIV Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgi və konfransının açılışı münasibətilə səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

«Xəzər neft və qaz» sərgisinin bünövrəsinin qoyulması və xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan yeni neft strategiyasının elan olunması eyni vaxta – 1994-cü ilə təsadüf edir. Məhz həmin il bağlanan «Əsrin müqaviləsi» sayəsində Xəzər dənizinin nəhəng enerji potensialının xarici şirkətlərlə birlikdə mənimsənilməsinə başlanılmış və keçən müddətdə Azərbaycan özünün neft sənayesində ardıcıl, məqsədyönlü siyasətinin nəticəsi olaraq, regionda enerji təhlükəsizliyinin təminatçısına çevrilmişdir.

Bu gün ölkəmiz beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Biz üzərimizə götürdüyümüz bütün öhdəlikləri yerinə yetirməklə yanaşı, xarici sərmayədarlar üçün də əlverişli şərait yaratmışıq.

Azərbaycanın dünyanın ən iri şirkətləri ilə imzaladığı sazişlərlə başlanan dinamik yüksəliş yolu onun Avrasiyanın enerji təhlükəsizliyi üzrə layiqli tərəfdaş olduğunu sübuta yetirmişdir. Ötən dövr ərzində ölkəmiz neft siyasətində davamlı artan xətt üzrə inkişaf tempi nümayiş etdirərək, həm qlobal transmilli layihələrin təşəbbüskarı, həm də onların əsas icraçısı olmuşdur. «Şahdəniz» layihəsinin işlənilməsinin ikinci mərhələsi, «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi, həmçinin TANAP və TAP layihələri respublikamızın mövqeyini və qlobal tərəfdaşlığı daha da möhkəmləndirən uğurlu addımlardır.

«Xəzər neft və qaz–2017» sərgi və konfransı Azərbaycanın iştirakı ilə həyata keçirilən layihələrin beynəlxalq işgüzar dairələrə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Ənənəvi olaraq, Bakı şəhərində təşkil edilən bu mötəbər tədbir ölkəmizin neft sənayesinə və ümumən enerji sahəsinə böyük marağın göstəricisidir.

Əminəm ki, tədbiriniz çərçivəsində geniş müzakirələr və dolğun təhlillər aparılacaq, faydalı əməkdaşlığımızın bundan sonrakı illərdə də inkişafının təmin olunması üçün yeni layihələr hazırlanacaq və səmərəli təkliflər irəli sürüləcəkdir.

Hamınıza gələcək fəaliyyətinizdə nailiyyətlər, ölkələrinizə sülh və əmin-amanlıq arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2017-ci il*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SERCİO MATTARELLAYA**

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə İtaliya arasındakı əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. Daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımız ikitərəfli münasibətlərimizin dinamik və hərtərəfli inkişafının bariz nümunəsidir.

Əminəm ki, dostluq münasibətlərimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 may 2017-ci il*

# STATOYL ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ LARS KRİSTİAN BAXERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Statoyl şirkətinin beynəlxalq inkişaf və istehsal üzrə icraçı vitse-prezidenti Lars Kristian Baxerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycanın uzun illərdir Statoyl şirkəti ilə uğurla əməkdaşlıq etdiyini vurğulayan dövlətimizin başçısı şirkətin baş icraçı direktoru Eldar Saetre ilə Davosda keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Bakıda keçiriləcək XXIV Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgisinin əhəmiyyətinə toxunan prezident İlham Əliyev Statoyl şirkətinin ənənəvi olaraq bu sərgidə iştirak etdiyini vurğuladı.*

*Statoyl şirkətinin beynəlxalq inkişaf və istehsal üzrə icraçı vitse-prezidenti Lars Kristian Baxer Respublika Günü münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Bakıda keçirilən Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgisinin önəmini qeyd edən Lars Kristian Baxer şirkətin nümayəndə heyətinin bu tədbiri səbirsizliklə gözlədiyini bildirdi. Statoyl şirkətinin SOCAR ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayan Lars Kristian Baxer şirkətin «Azəri–Çıraq–Günəşli» layihəsində iştirakından böyük məmnunluq hissi keçirdiklərini vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Statoyl şirkəti arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BAKININ YASAMAL RAYONUNDA YENİ TİKİLƏN YOLLARIN AÇILIŞI MƏRASİMİ

*30 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 30-da paytaxtın Yasamal rayonunda keçmiş «Sovetski» adlanan ərazidə Mirzəağa Əliyev və Füzuli küçələrinin davamı olaraq, yeni tikilən yolların açılışında iştirak etmiş, digər küçələrdə aparılan işlərin gedişi ilə tanış olmuşlar.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına «Bakı şəhəri, keçmiş «Sovetski» ərazisində yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin aparılması» layihəsinin birinci mərhələsi üzrə görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, layihənin 1-ci mərhələsinə ümumi uzunluğu 7 kilometrdən artıq 5 küçədə aparılan təmir işləri, ikinci mərhələsinə isə ərazidə yaşıllıqların, parkların, istirahət zonalarının salınması, sosial infrastrukturun yaradılması daxildir. Layihənin icrasına 2016-cı il avqustun 5-də start verilib. Aparılan işlər yüksək keyfiyyətlə, texnoloji ardıcıllığa uyğun, həm də maksimum qısa müddətdə icra edilibdir.*

*Füzuli meydanı və Təzəpir məscidi kompleksinin ətrafındakı yol infrastrukturunun yenidən qurulması istiqamətində prezident İlham Əliyevin ötən ilin avqustunda imzaladığı müvafiq sərəncamlara uyğun olaraq, «Azəravtoyol» ASC tərəfindən aparılan işlər çərçivəsində Füzuli meydanında yerləşən dairə ləğv edilib. Avtonəqliyyat vasitələrinin hərəkəti layihə üzrə yeni istiqamətlərə yönəldilib. Belə ki, avtonəqliyyat vasitələrinin hərəkəti Şıxəli Qurbanov küçəsindən dairəyə çatmamış sağa, Fü-*

*zuli küçəsinin davamı olaraq, yeni salınmış yola, oradan da yeni yaradılmış geridönmə hissə ilə Mirzəağa Əliyev küçəsinə yönəldilib. Azərbaycan prospektindən gələn avtonəqliyyat vasitələri də layihə üzrə nəzərdə tutulmuş yeni sxem əsasında hərəkət edəcəkdir.*

*Füzuli meydanı və Təzəpir məscidi kompleksinin ətrafındakı yol infrastrukturunun yenidən qurulması layihəsi çərçivəsində dairənin ləğvi ilə yeni hərəkət istiqamətləri üzrə – Akademik Milli Dram Teatrının hər iki tərəfində yerləşən Mirzəağa Əliyev və Füzuli küçələrinin davamı əsaslı şəkildə yenidən tikilib.*

*Mirzəağa Əliyev və Füzuli küçələrinin davamı olaraq salınan yolların uzunluğu müvafiq surətdə 750 və 800 metr, eni isə 15 metr təşkil edir. Bu yolların istifadəyə verilməsi ilə ərazidə nəqliyyatın hərəkətinin normal tənzimlənməsi, tıxacların qarşısının alınması və piyadaların təhlükəsizliyi üçün hərtərəfli şərait yaradılıb. Bundan başqa, bu layihənin icrası paytaxtımızda son dövrlərdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində uğurla aparılan işləri aydın nümayiş etdirir.*

*Dövlətimizin başçısı yeni yolların rəmzi açılışını bildirən lenti kəsdi.*

*Layihə çərçivəsində yenidən qurulan 440 metr uzunluğunda Balababa Məcidov küçəsinin eni genişləndirildikdən sonra 15 metrə çatdırılıb. Burada da tam müasir yol infrastrukturu yaradılıb.*

*Uzunluğu 1825 metr, genişləndirildikdən sonra eni 15 metrə çatan Abdulla Şaiq küçəsində və 2165 metr uzunluğu olan Nərimanov prospektində isə hazırda son tamamlanma işləri aparılır. Yaxın günlərdə bu yolların da istifadəyə verilməsi nəzərdə tutulur.*

*Hazırda Füzuli meydanı və Təzəpir məscidi kompleksinin ətrafındakı yol infrastrukturunun yenidən qurulması layihəsinin həyata keçirildiyi ərazi boyu son tamamlama işləri sürətlə davam edir.*

*Yenidən qurulan yollarda müasir işıqlandırma sistemləri, avtobus dayanacaqları quraşdırılacaq, yeraltı və yerüstü parkinq yerləri, həmçinin piyada keçidləri inşa ediləcəkdir.*

*Onu da qeyd edək ki, «Sovetski»nin köçürülməsi hələ Sovet İttifaqı dövründə belə, paytaxt üçün vacib sayılan layihə idi. Bu irimiqyaslı və tarixi layihə yalnız müstəqil ölkəmizin iqtisadi inkişafı dövründə dövlət başçımızın təşəbbüsü ilə həllini tapdı.*

*Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.*

# SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT NAZİRİ TAMİR BİN SÜBHAN ƏS-SÜBHAN İLƏ GÖRÜŞ

*30 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyinin Dövlət naziri Tamir bin Sübhan əs-Sübhanı qəbul etmişdir.*

*Tamir bin Sübhan əs-Sübhan İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və onun varisinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Tamir bin Sübhan əs-Sübhan onların adından qrafikinin gərgin olmasına və ölkəmizdə IV İslam Həmrəyliyi oyunlarının keçirilməsinə baxmayaraq, Ər-Riyad şəhərində keçirilən Ərəb–İslam–Amerika Sammitində iştirakına görə prezident İlham Əliyevə minnətdarlıq ifadə etdi, son dövrdə bir neçə dəfə Bakıda olmasından məmnunluğunu bildirdi.*

*Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyinin Dövlət naziri ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini və hər iki ölkə rəhbərliyinin bu münasibətlərin genişləndirilməsinə böyük əhəmiyyət verdiyini söylədi. «Biz istəyirik ki, əlaqələrimiz inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə qalxsın» – deyən Tamir bin Sübhan əs-Sübhan yüksək səviyyəli qarşılıqlı səfərlərin, həmçinin xalqlarımız arasında səfərlərin artmasını arzuladıqlarını vurğuladı.*

*Dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyinin Dövlət naziri Tamir bin Sübhan əs-Sübhanla yenidən görüşməkdən məmnun olduğunu bildirdi. Ərəb–İslam–Amerika Sammitinin uğurla keçirilməsi münasibətilə təbrik-*

*lərini çatdıran prezident İlham Əliyev qeyd etdi ki, sammitdən Bakıya qayıtdıqdan sonra bildirib ki, ABŞ prezidenti Donald Trampın ilk rəsmi səfərini müsəlman ölkəsinə – Səudiyyə Ərəbistanı Krallığına həyata keçirməsi bütün müsəlman aləminə olan hörmətin təzahürüdür. Dövlətimizin başçısı sammitin çox yaxşı keçdiyini və Azərbaycanın bu tədbirdə yüksək səviyyədə təmsil olunduğunu vurğuladı. Bakıda keçirilən IV İslam Həmrəyliyi oyunlarına toxunan prezident İlham Əliyev bu oyunları müsəlman ölkələri arasında həmrəyliyin və birliyin gücləndirilməsi üçün önəmli hadisə kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əlaqələrin uğurla inkişaf etdiyini və gələcəkdə daha da sürətlə inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və onun varisinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və onun varisinə çatdırmağı xahiş etdi.*

## XXIV BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2017» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*Bakı Ekspo Mərkəzi*

*31 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 31-də Bakı Ekspo Mərkəzində XXIV Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgi və konfransının, həmçinin VII Xəzər Beynəlxalq «Energetika və alternativ enerji» sərgisinin açılışında iştirak etmişlər.*

*Xəzəryanı regionda energetika sektorunun ən əhəmiyyətli tədbiri olan XXIV Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgisi Azərbaycanın Energetika Nazirliyinin və Dövlət Neft Şirkətinin – SOCAR-ın dəstəyi, «ITECA Caspian» və «ITE Group Plc» şirkətlərinin təşkilatçılığı ilə keçirilir. Bu il sərgidə dünyanın 30 ölkəsini təmsil edən 300-dək şirkət iştirak edir. Onların arasında Azərbaycan, ABŞ, Belarus, Belçika, İspaniya, İtaliya, Qazaxıstan, Çin, Niderland Krallığı, Polşa, Yaponiya və digər ölkələr vardır. İtaliya sərgidə öz milli pavilyonu ilə iştirak edir. İştirakçıların ümumi sayının 15 faizini təşkil edən debütantlar arasında ABŞ, Böyük Britaniya, Rumıniya və digər ölkələri təmsil edən şirkətlər yer alıb.*

*Şirkətlər sərgidə neft hasilatı, enerji daşıyıcılarının nəqli, neft-qaz saxlama sistemlərinin təmin edilməsi, habelə platformalar və üzən qazma qurğuları, eləcə də boruların çəkilməsi və boru xətlərinin təhlükəsizlik sistemlərinin təmin edilməsi ilə yanaşı, texniki qulluq xidmətləri üzrə avadanlıqlar, xidmətlər və innovativ texnologiyaların geniş çeşidini təqdim edir. Bir sıra ekspozisiyalar yanacağın təmizlənməsi və xammaldan istifadə üçün hazır məhsul-*

*ların istehsalı üzrə texnologiyalara həsr olunub. Sərgidə böyük sahəni kimya sənayesi üçün xammal təklif edən şirkətlər tutur.*

*XXIV «Xəzər neft və qaz–2017» Beynəlxalq konfrans neft-qaz sahəsinin aktual mövzularının müzakirəsi üçün ənənəvi platformadır. Aparıcı şirkətlərin rəhbər menecerlərini, habelə sahə nazirliklərinin nümayəndələrini və nüfuzlu ixtisas ekspertlərini vahid müzakirə platformasında bir araya gətirən neft-qaz forumu bu sənaye sahəsinin inkişafı üzrə aktual məsələlər haqqında fikir mübadiləsi üçün imkan yaradır. Konfransda dünyanın 30 ölkəsini təmsil edən 400-dək nümayəndə iştirak edəcəkdir. Dünyanın müxtəlif ölkələrindən 40-dan çox məruzəçi, aparıcı ekspertlər, dövlət strukturlarının nümayəndələri, iri neft-qaz şirkətlərinin rəhbərləri aşağı neft qiymətləri şəraitində enerji daşıyıcılarının hasilatı, idarə olunması və nəqli üzrə əsas məsələlərlə bağlı çıxış edəcəklər.*

* * *

**E n d r y u  V u d** *(«ITE Group Plc» şirkətinin xüsusi məsləhətçisi):* Möhtərəm cənab Prezident!

Hörmətli xanım Mehriban Əliyeva!

Hörmətli xanımlar və cənablar!

Mən məmnuniyyət və iftixar hissi ilə sizləri burada – Azərbaycanın paytaxtı Bakıda sayca XXIV Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgi və konfransında salamlayıram. Həqiqətən də məhz birinci sərginin keçirildiyi gündən bəri nəinki Azərbaycanın neft və qaz sənayesi, eləcə də ölkə iqtisadiyyatı geniş miqyasda inkişaf edib və dəyişibdir. Bu inkişaf məhz ölkə rəhbərliyinin təşəbbüsləri və əməyi, eləcə də burada təmsil olunan şirkətlərin birgə səyləri, həmçinin təkcə neft və qaz sənayesinin deyil, ümumilikdə ölkə iqtisadiyyatının daha geniş kontekstdə inkişafı sayəsində mümkün olubdur. Bu inkişaf karbohidrogen sektorunda getdikcə mürəkkəbləşən proseslərin fonunda daha mühüm əhəmiyyət kəsb etməkdədir.

Biz bu uğurlara görə, cənab Prezident, Sizə xüsusi minnətdarlığımızı bildiririk. Bizim burada iştirakımızın, təmsil olunmağımızın əsas təşəbbüskarı Sizsiniz, Sizin fədakarlığınızdır. Biz bu uğurlara görə, həmçinin SOCAR-a, Energetika Nazirliyinə və bu sərgi-konfransın keçirilməsində əməyi olan qurumlara minnətdarlığımızı bildiririk.

Builki sərgidə keçən ildəkindən daha çox – 300-dən artıq şirkət öz stendi ilə təmsil olunub. Səhv etmirəmsə, builki sərgiyə 37 yeni şirkət qatılıb. Əminəm ki, bu il də bizim tədbirimiz böyük uğur və müvəffəqiyyətlə müşayiət olunacaq və belə demək olarsa, çox mürəkkəb karbohidrogen sektoruna, ölkə iqtisadiyyatına mühüm töhfə verəcəkdir.

Beləliklə, Sizə sərgi və konfransın təşkilatçıları adından uğurlar diləyirəm. Həmçinin bu təşəbbüsdə əməyi olanların hamısına müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən xahiş edirəm ki, tribunaya buyursun.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, «Xəzər neft və qaz–2017» sərgisinin açılışı münasibətilə sizi təbrik edirəm. Bu sərginin Azərbaycanda keçirilməsi çox əlamətdar bir hadisədir. Ölkəmizdə XXIV sərgi keçirilir, bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, Azərbaycan dünyada neft-qaz hasil edən, bazarlara ixrac edən etibarlı tərəfdaş kimi tanınır. Sərgiyə maraq azalmır, əksinə, artır. İndi qeyd olundu ki, bu sərgidə 300-ə yaxın şirkət iştirak edir. Qəti əminəm ki, builki sərgi də uğurlu olacaqdır.

Əlbəttə ki, birinci sərginin keçirilməsi ölkəmizi dünyada tanıtmaq üçün xüsusi rol oynamışdır. Çünki o vaxt Azərbaycanı tanımırdılar, Azərbaycan gənc müstəqil dövlət idi. Ölkəmizdə kifayət qədər çox problemlər var idi və Azərbaycanın neft-qaz

potensialını dünyaya təqdim etmək üçün sərginin əvəzolunmaz rolu olmuşdur. Mən sərginin təşkilatçılarına minnətdarlığımı bildirmək istəyirəm. Onlar Azərbaycan ilə 24 ildir ki, əməkdaşlıq edirlər, ölkəmizin inkişafına böyük töhfələr verirlər.

Birinci sərgi isə Azərbaycanı dünyaya böyük potensialı olan ölkə kimi təqdim etmək üçün xüsusi məna daşıyırdı. O vaxtdan bu günə qədər Azərbaycan neft-qaz sahəsində xarici investorlarla çox uğurlu əməkdaşlıq qura bilibdir. Bu əməkdaşlıq qarşılıqlı maraqlar əsasında qurulub, həm dövlət, həm də sərmayədarlar öz mənfəətini götürür və beləliklə, Azərbaycanda xarici investorlarla çox gözəl əməkdaşlıq formatı yaradılıbdır. Bu format bu gün digər sahələrdə də özünü büruzə verir. Bildiyiniz kimi, hazırda bizim əsas prioritetimiz qeyri-neft sektorunun inkişafıdır. Biz neft sektorunda əldə etdiyimiz təcrübəni, xüsusilə xarici sərmayədarlarla əməkdaşlıq təcrübəmizi indi qeyri-neft sektoruna da tətbiq etməyə çalışırıq və bu sahədə də uğurlara nail ola bilmişik.

Azərbaycan neftin vətənidir. Sənaye üsulu ilə neft ilk dəfə 1846-cı ildə Azərbaycanda çıxarılmışdır. Bu il yeni tarixi sənədlər aşkarlandı. Mən bir müddət bundan əvvəl göstəriş vermişdim ki, dünyanın müxtəlif kitabxanalarında, muzeylərində mövcud olan sənədlər bir daha nəzərdən keçirilsin və daha dəqiq məlumat əldə edilsin. Bu məlumat əsasında yeni tarixi sənədlər üzə çıxıb. Bu sənədlər göstərir ki, 1846-cı ildə Azərbaycanda, Bakının Bibiheybət ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyudan neft çıxarılmışdır. Bu il biz o əlamətdar hadisəni qeyd etmək üçün həmin ərazidə o köhnə neft quyusunun abidəsini ucaltdıq və əminəm ki, Bakıya gələn turistlər üçün bu sahə çox böyük maraq doğuracaqdır.

Keçən əsrin ortalarında dünya miqyasında ilk dəfə dənizdə neft Azərbaycanda – Xəzər dənizində çıxarılmışdır. Bu sahədə də – dənizdə neft hasilatının vətəni də, demək olar ki, Azərbaycandır, Xəzər dənizidir.

Neft sənayesi Azərbaycanda sovet dövründə də inkişaf edibdir. İkinci dünya müharibəsində faşizm üzərində Qələbədə Azərbaycan neftçilərinin töhfəsi əvəzolunmazdır. Yanacağın 70–80 faizi Azərbaycan neftçiləri tərəfindən təmin edilirdi və

əgər belə olmasaydı, müharibənin nəticələri də başqa cür ola bilərdi.

Ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda neft sənayesinin inkişafı daha geniş vüsət almışdır. Bir çox önəmli layihələr icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Ancaq əfsuslar olsun ki, müstəqillik ərəfəsində və müstəqilliyimizin ilk illərində neft sənayesi Azərbaycanda tənəzzülə uğradı. Neft və qaz hasilatı kəskin şəkildə aşağı düşmüşdü. Azərbaycan dinamik inkişaf templərini, demək olar ki, itirmişdi. Vaxtilə heç bir ekoloji standartlara uyğun olmayan hasilat nəticəsində Bakının və Abşeron yarımadasının böyük əraziləri neftlə çirklənmişdi. Hazırda biz o çirklənmiş yerləri təmizləyirik, orada çox böyük ekoloji layihələr icra edilir və o cümlədən məşhur Bibiheybət ərazisi bu gün ekoloji baxımdan təmiz, yaşıl məkana çevrilibdir.

Belə bir vəziyyətdə müstəqilliyə yaxınlaşan Azərbaycan, əlbəttə ki, dünya üçün öz cəlbediciliyini itirmişdi. Əgər biz müstəqilliyin ilk illərində yaşanan böhranı da əlavə etsək – hərcmərclik, xaos, anarxiya, qanunsuz silahlı birləşmələr, vətəndaş müharibəsi təhlükəsi, erməni işğalı – bütün bu amillər, əlbəttə ki, Azərbaycanı xarici investorlar üçün çox riskli, təhlükəli bir ölkəyə çevirmişdi. Belə olan halda, bizim yeganə inkişaf yolumuz xarici investisiyaları cəlb etməkdən ibarət idi. Xoşbəxtlikdən Azərbaycan xalqı 1993-cü ildə bir daha öz müdrikliyini göstərərək, ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdi, prezident vəzifəsinə seçdi və ondan sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu.

1993-cü ildən başlayaraq, Azərbaycanda sabitlik istiqamətində çox önəmli addımlar atılmışdır və bir neçə il ərzində sabitlik tam bərpa olunmuşdur, Azərbaycan dünyada öz layiqli yerini tutmağa başlamışdır. Ancaq o vaxt iqtisadiyyat, demək olar ki, dağılmışdı. İnflyasiya 1000 faizdən çox idi. Sənaye istehsalı dağılmışdı və iqtisadi cəhətdən inkişaf üçün böyük perspektivlər yox idi. Aydındır ki, iqtisadiyyatı olmayan ölkə heç vaxt real müstəqilliyə nail ola bilməz. Bax, bu gün bizim

müstəqilliyimiz təkcə dövlət atributları ilə ölçülmür. Bizim müstəqil xarici siyasətimiz var, müstəqil daxili siyasətimiz var. Bizim güclü iqtisadiyyatımız var, maliyyə resurslarımız var. Biz öz hesabımıza yaşayırıq və buna görə də müstəqil ölkə kimi, səsimizi bütün tribunalardan ucalda bilirik, mövqemizi müdafiə edə bilirik. O vaxt isə Azərbaycan müəyyən dərəcədə asılı vəziyyətdə idi, pulumuz yox idi, xəzinə boş idi, iqtisadiyyat iflic vəziyyətinə düşmüşdü. Odur ki, Heydər Əliyevin neft strategiyasının nə dərəcədə əhəmiyyətli olması bir daha gözümüzün önündə canlanır. Çünki o vaxt «Əsrin müqaviləsi»nin imzalanması ilə vəziyyət tamamilə dəyişildi və Azərbaycan böyük həcmdə xarici sərmayəni cəlb edə bildi.

1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» tarixi layihədir. Əgər o vaxt «Əsrin müqaviləsi» imzalanmasaydı, Azərbaycanda neft-qaz sahəsinə investisiyalar, «Şahdəniz» yatağına heç bir sərmayə qoyulmazdı. Əgər neft-qaz kəmərləri tikilməsəydi, bu gün «Cənub Qaz Dəhlizi» icra edilə bilməzdi. Əgər nəqliyyat layihələri icra olunmasaydı – bu gün Bakı–Tbilisi–Qars nəqliyyat dəhlizi reallaşır – heç kim heç vaxt bu layihəyə vəsait qoymazdı. Azərbaycan bu layihəyə 1 milyarda yaxın vəsait qoyub. Bizim pulumuz olmasaydı, heç kim bu layihəyə vəsait qoymazdı. Ona görə «Əsrin müqaviləsi»nin Azərbaycan dövlətinin inkişafında müstəsna yeri var. Bu müqavilənin uğurla icra edilməsi imkan verdi ki, biz neftdən əldə edilən vəsaiti insan kapitalına, qeyri-neft sektoruna, infrastruktur layihələrinə yönəldək və ölkəmizi inkişaf etdirək. Bugünkü Azərbaycan, bölgələrimiz, çiçəklənən şəhərlərimiz və dünyanın ən gözəl şəhərlərindən biri olan Bakı, bax, gördüyümüz işlərin bariz nümunəsidir. Görülən işlər göz qabağındadır. Bütün bu işləri biz düşünülmüş siyasət nəticəsində görmüşük və əlbəttə ki, iqtisadi potensialımızı gücləndirərək, ölkəmizi xeyli qabağa apara bilmişik.

«Əsrin müqaviləsi»nin icrası da uğurlu istiqamətdə aparılır. Bu gün biz «Azəri–Çıraq–Günəşli» nəhəng neft yataqları blokunun gələcək fəaliyyəti haqqında düşünürük və ümid edirəm ki, yaxın gələcəkdə bu layihənin uzadılması haqqında xarici investorlarla

razılığa gələcəyik. Çünki «Azəri–Çıraq–Günəşli» yatağının çox böyük potensialı var, hələ hasil edilməmiş neft kifayət qədər çoxdur. Ona görə uzunmüddətli dayanıqlı hasilat səviyyəsini saxlamaq üçün biz indi xarici tərəfdaşlarla danışıqların son mərhələsindəyik.

Azərbaycana yatırılan sərmayə şəffaf şəkildə saxlanılır və qorunur. Dövlət Neft Fondunun xətti ilə ölkəmiz üçün ən önəmli layihələrin icrası nəzərdə tutulur. Onlardan birincisi məcburi köçkünlərin problemlərinin həllidir. Son illər ərzində məhz Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlər üçün 100-ə yaxın qəsəbə salınıbdır. Bu vəsait, əlbəttə, neft əməliyyatlarının gəlirlərindən formalaşır və bu gün biz özümüzü dünyada müasir, dinamik inkişaf edən ölkə kimi təqdim edə bilmişik.

Sərginin əhəmiyyətindən danışarkən biz «Şahdəniz» layihəsini mütləq qeyd etməliyik. Çünki bəlkə çoxları unudub ki, «Şahdəniz» layihəsi üzrə müqavilə 1996-cı ildə məhz neft-qaz sərgisi zamanı imzalanmışdır. O vaxt Azərbaycan ancaq neft ölkəsi kimi tanınırdı. «Şahdəniz» layihəsinin icrası Azərbaycanı həm neft, həm qaz hasil və ixrac edən ölkəyə çevirdi. Bu gün «Şahdəniz» layihəsi olmadan biz regional əməkdaşlığı təsəvvür edə bilmərik. Çünki «Şahdəniz» layihəsi məhz enerji təhlükəsizliyi məsələlərini həll edən layihədir. Bu gün enerji təhlükəsizliyi məsələləri ölkələrin milli təhlükəsizliyi məsələləridir. Hər şey enerjidən asılıdır. Təbii qaz – əlbəttə, əgər biz bərpaolunan enerjiləri nəzərə almasaq – ən ucuz və ekoloji cəhətdən ən təmiz enerji mənbəyidir. İnkişaf etmiş ölkələrin iqtisadi yüksəlişi də enerji mənbələri ilə bilavasitə əlaqəlidir. Xoşbəxtlikdən Azərbaycanın həm neft, həm qaz ehtiyatları kifayət qədər böyükdür. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Beləliklə, Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin edərək, dost, tərəfdaş ölkələrin enerji təhlükəsizliyi məsələlərinin həllində də öz rolunu oynayır.

«Şahdəniz» yatağının işlənilməsi artıq neçə ildir ki, davam etdirilir. Biz bu illər ərzində çoxşaxəli neft-qaz nəqliyyatı şəbəkəsini yarada bilmişik. Onların içində, əlbəttə ki, Bakı–

Tbilisi–Ceyhan, Bakı–Supsa neft kəmərləri xüsusi yer tutur. Bakı–Tbilisi–Ərzurum qaz kəməri artıq 10 ildir ki, istismardadır. Bütün bunlar tarixi layihələrdir. Əgər bunlar olmasaydı, o layihələrə sərmayə qoyulmasaydı, biz öz enerji resurslarımızı heç bir yerə ixrac edə bilməzdik. Çünki biz qapalı bir ərazidə yaşayırıq, okeanlara, açıq dənizlərə çıxışımız yoxdur. Belə olan halda, neft-qaz kəmərləri bizim enerji resurslarımızı xarici bazarlara çıxarır. Burada təkcə iqtisadi tərəfdaşlıq kifayət etməz, burada mütləq regional əməkdaşlıq olmalıdır. Biz tərəfdaşlarla birlikdə bu əməkdaşlığı yaratmışıq və möhkəmləndiririk. Azərbaycanın neft-qaz layihələri regionda təhlükəsizliyin, sabitliyin, inkişafın təminatçısıdır. Çünki bu layihələrdə on minlərlə insan işləyibdir. Bu gün bizimlə bərabər bu layihələri icra edən ölkələrdə bu sahədə inkişaf sürətlənir. Əlbəttə, bunun ölkələr arasındakı münasibətlərə də çox müsbət təsiri vardır. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Supsa neft-qaz kəmərləri böyük sərvətimizdir.

«Şahdəniz» layihəsinin 2-ci fazasının işlənilməsi də uğurla davam etdirilir. Bildiyiniz kimi, bu gün biz «Cənub Qaz Dəhlizi»nin icrası ilə məşğuluq və bu, dünya miqyasında nadir bir layihədir, Avropa məkanında infrastruktur layihələri arasında birincidir. Bu layihəyə 40 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur. Onun böyük hissəsi artıq qoyulubdur. «Cənub Qaz Dəhlizi»nin 4 seqmentində işlər uğurla gedir. Mən bu yaxınlarda bu rəqəmləri səsləndirdim. Bir daha o rəqəmləri səsləndirmək istəyirəm ki, sərgi iştirakçıları bunu bilsinlər. «Şahdəniz-2» layihəsinin icrası 93 faiz səviyyəsindədir. Biz bu yaxınlarda «Şahdəniz» platformasının üst hissəsini də dənizə yola salacağıq. «Cənubi Qafqaz» kəmərinin icrası 85 faiz səviyyəsindədir. Bu kəmər Azərbaycanı Gürcüstan ilə birləşdirir. TANAP layihəsi – hansı ki, artıq 2012-ci ildə müqavilə bağlanmışdır – uğurla icra edilir. TANAP layihəsinin icrası 72 faiz səviyyəsindədir. Biz gözləyirik ki, gələn il TANAP layihəsinin istifadəyə verilməsini qeyd edək. 4-cü layihə TAP layihəsidir. Orada da icra səviyyəsi 42 faizdir. Yəni bu rəqəmlər özlüyündə bir göstəricidir. Bu rəqəmlər göstərir ki, bütün işlər plan

üzrə gedir və biz «Cənub Qaz Dəhlizi» layihəsinin icrasının tamamlanmasına yaxınlaşırıq.

Bu il Bakıda «Cənub Qaz Dəhlizi»nin 3-cü Məşvərət Şurası keçirildi. Qəbul edilmiş qətnamə bir daha göstərir ki, Azərbaycan bu layihənin lideridir. Məşvərət Şurasında bu layihənin tərəfdaşı olan 7 ölkənin yüksəkvəzifəli nümayəndələri iştirak edirdilər. Həmçinin Balkan ölkələrindən bizim potensial tərəfdaşların təmsilçiləri, Amerika Birləşmiş Ştatlarından, Böyük Britaniyadan yüksəkvəzifəli nümayəndələr, Avropa Komissiyasının vitse-prezidenti iştirak edirdi. Böyük toplantı idi. Bu toplantının nəticəsində qəbul edilmiş qətnamə Azərbaycanın bu sahədə liderlik rolunu bir daha qeyd etdi.

Onu da deməliyəm ki, «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının toplantıları Azərbaycanın təşəbbüsü ilə artıq üçüncü dəfədir keçirilir və bu toplantıların çox böyük əhəmiyyəti vardır. Çünki bu görüşlərdə bütün görülmüş işlər təhlil edilir və ən önəmlisi ondan ibarətdir ki, gələcək fəaliyyət üçün biz birgə proqram tuturuq və onu icra edirik. Əminəm ki, gələn ilin əvvəlində keçiriləcək 4-cü Şuranın iclasında biz artıq yeni uğurlar haqqında danışacağıq. Enerji təhlükəsizliyi məsələləri qeyd etdiyim kimi, ölkələrin milli təhlükəsizlik məsələləridir və Azərbaycan bu sahədə həm bölgədə, həm Avropada önəmli rol oynayır. Enerji şaxələndirilməsi istiqamətində atılan addımlarımız öz bəhrəsini verir. Çünki bu da çox önəmlidir. Azərbaycanın icra etdiyi layihələr, onların üstünlüyü ondan ibarətdir ki, bizdə həm marşrutlar, həm mənbələr çoxşaxəlidir. Çünki bu gün bizim üçün əsas bazar Avropa bazarıdır. Avropa üçün də yeni mənbələr böyük əhəmiyyət daşıyır. Əlbəttə, marşrutlar da önəmlidir. Ancaq əsas enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi deyəndə ilk növbədə, yeni mənbələr nəzərdə tutulur. Avropa ölkələri üçün yeganə yeni mənbə Azərbaycandır. Çünki qalan bütün mənbələr artıq uzun illərdir ki, Avropanı təbii qazla qidalandırır. Yeganə yeni mənbə Azərbaycandır. Həm böyük mənbədir, həm də yaxında yerləşir.

Ən önəmlisi isə odur ki, «Cənub Qaz Dəhlizi»ni tərəfdaşlarla birlikdə icra etmək üçün Azərbaycan dövlətinin güclü siyasi iradəsi, maliyyə resursları vardır. Onu da qeyd etməliyəm ki, əgər Azərbaycan dövləti bu 4 layihənin icrasına sərmayə qoymasaydı, əminəm, heç bir investor sərmayə qoymazdı. Çünki Azərbaycan qazını Avropaya çıxarmaq üçün müxtəlif layihələr azı 10 il müzakirə mövzusu oldu. Bu müzakirələrin ona görə heç bir nəticəsi olmadı ki, vəsait qoymaq üçün heç kim ilk addımı atmırdı. Hamı gözləyirdi ki, kimsə bu addımı atacaq. Biz görəndə ki, artıq ildən-ilə bu müzakirə heç bir nəticəyə gətirib çıxarmır, o vaxt – 2012-ci ildə Türkiyə tərəfi ilə TANAP layihəsinə imza atdıq. Ondan sonra «Şahdəniz-2» layihəsinə start verildi. Ondan sonra TAP layihəsi seçildi və biz artıq işə başlamışıq. Ona görə Azərbaycan burada həm siyasi iradə göstərir, eyni zamanda, iqtisadi töhfə, maliyyə töhfəsi verir ki, «Cənub Qaz Dəhlizi» layihəsi icra edilsin. Bu layihə bizim üçün tarixi əhəmiyyət daşıyır. Çünki «Cənub Qaz Dəhlizi» bizim uzunmüddətli inkişafımızı gücləndirəcək, bizə əlavə böyük mənfəət gətirəcəkdir.

«Cənub Qaz Dəhlizi» layihəsinin icrası artıq yeni layihələrə də start verib. Hazırda növbədə «Böyük Abşeron» layihəsinin işə başlanılmasıdır. Əslində işlər başlanılıb. Biz «Abşeron» layihəsindən – orada təqribən 350 milyard kubmetr qaz ehtiyatı vardır – 2-3 ildən sonra ilk qazı gözləyirik. Eyni zamanda, paralel olaraq «Ümid–Babək» və «Dayaz sulu» layihələri də icra edilir. Bu layihələrin də yaxın illərdə fəaliyyətə başlaması, yəni hasilatın başlanması gözlənilir. Yəni biz öz neft-qaz potensialımızı gücləndiririk. Biz daha da böyük həcmdə təbii qaz, neft ixrac etməyi planlaşdırırıq. Bununla paralel olaraq, biz bu gün tranzit ölkə kimi, önəmli tərəfdaşa çevrilmişik. Azərbaycan ərazisindən neft, neft məhsulları Xəzərin şərq hissəsindən dünya bazarlarına çıxarılır. Bizim rolumuz artır. Nəqliyyat infrastrukturumuz genişlənir. Hər şey – həm Xəzər Gəmiçiliyi, həm Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yolları, terminallar hazırdır. Biz hər şeyi etmişik. Əminəm ki, bundan sonra neft-qaz sahəsində layihələr Azərbaycana

daha da böyük xeyir gətirəcəkdir. Həm bizim iqtisadi mənfəətimiz, eyni zamanda, bölgədəki, dünyadakı rolumuz artacaqdır.

Bütün bu işləri ona görə edirik ki, ölkəmiz daha da güclü, mövqelərimiz daha da möhkəm olsun, dünyada daha da böyük nüfuza malik olaq və ən önəmlisi, Azərbaycan xalqı daha da yaxşı yaşasın. Ona görə də biz neftdən əldə edilmiş gəlirləri digər sektorlara sərmayə kimi yatırırıq və bunun gözəl nəticələrini görürük. Bu ilin 4 ayında Azərbaycan ixracı 41 faiz artıbdır. O cümlədən qeyri-neft ixracımız 22 faiz, kənd təsərrüfatı ixracımız isə 44 faiz artıbdır. Bizim zəngin neft-qaz yataqlarımız bundan sonra da uzun illər ölkəmizin çoxşaxəli inkişafını təmin edəcəkdir.

Mən bütün qonaqları bir daha salamlayıram, sərgi və konfransa uğurlar arzulayıram. Sağ olun.

* * *

**R o b i n D a n n i q a n** *(ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini)*: Sabahınız xeyir!

Cənab Prezident!

Nazirlər, səfirlər, şirkət nümayəndələri!

Xanımlar və cənablar!

Bakıya yenidən gəlməkdən böyük şərəf hissi duyuram. Gözəl Bakıda «Xəzər neft və qaz» sərgisində iştirak edirəm. Görürəm ki, nə qədər çox iştirakçı var.

Birləşmiş Ştatlar son 20 il ərzində hər il bu tədbirdə böyük məmnuniyyətlə iştirak edib. Son 20 il ərzində biz Azərbaycanda çox böyük dəyişikliklər görmüşük. Bu dəyişikliklər həm siyasi, həm iqtisadi sahələrdə baş veribdir. Birləşmiş Ştatlar əslində bu prosesləri Azərbaycan hökuməti ilə birgə izləyib. Lap ilk vaxtlardan – Bakı–Tbilisi–Ceyhan neft boru kəməri işə salınandan «Cənub Qaz Dəhlizi»nin qurulmasına qədər biz Azərbaycana dəstək olmuşuq. Birləşmiş Ştatlar bu dəstəyini bundan sonra da davam etdirmək fikrindədir və istəyir ki, öz tərəfdaşlığını və əməkdaşlığını Azərbaycan hökuməti və xalqı ilə daha da genişləndirsin.

İndi isə böyük şərəf hissi ilə Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Donald Trampın Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə məktubunu diqqətinizə çatdırıram.

*Xanım Robin Danniqan prezident Donald Trampın məktubunu oxudu.*

«Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə!

Hörmətli cənab Prezident!

Bakıda XXIV illik Beynəlxalq «Xəzər neft və qaz» sərgi və konfransının keçirilməsi münasibətilə Sizə və Azərbaycan xalqına ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm. Mən son 25 il ərzində Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın birgə qurduğu tərəfdaşlığı yüksək qiymətləndirirəm və bu tərəfdaşlığın davamlı inkişafını arzulayıram.

Amerika Birləşmiş Ştatları «Cənub Qaz Dəhlizi»ni qətiyyətlə dəstəkləyir, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının bu dəhlizin tamamlanmasına yönəlmiş səylərini alqışlayır. Mən qlobal enerji təhlükəsizliyinin möhkəmlənməsində, o cümlədən Xəzər regionunda enerji resurslarının işlənilməsi və ixracında Azərbaycanın oynadığı mühüm rolu dəyərləndirirəm.

Mən iqtisadiyyatın şaxələndirilməsi və islahatların aparılması sahəsində Azərbaycanın səylərini dəstəkləyirəm və alqışlayıram, xalqlarımızın rifahına xidmət edən digər əməkdaşlıq sahələrinin də araşdırılmasını arzulayıram. İqtisadiyyat, idarəçilik və məhkəmə sahələrində islahatları davam etdirdiyiniz bir zamanda Amerika Birləşmiş Ştatları Sizinlə işləməyə hazırdır. Amerika Birləşmiş Ştatları, həmçinin regional təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcək Minsk qrupu prosesi vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə sadiqdir.

Amerikalılar Azərbaycanda daha möhkəm sabitliyə və çiçəklənməyə ümid edirlər və inanırlar ki, Konfrans və «Cənub Qaz Dəhlizi» bu məqsədlərə nail olmaqda mühüm əhəmiyyət daşıyır.

*Səmimiyyətlə,*

**Amerika Birləşmiş Ştatlarının Prezidenti**
**DONALD TRAMP»**

* * *

*Sonra Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviçin videomüraciəti təqdim olundu. Videomüraciət səsləndirildi:*

– Zati-aliləri cənab Prezident!

Nazirlər, xanımlar və cənablar!

Əfsuslar olsun ki, mən XXIV «Xəzər neft və qaz» sərgi və konfransında iştirak edə bilmədiyimdən məhz bu videomüraciətlə sizə səmimi-qəlbdən salamlarımı çatdırıram.

Artıq 24-cü dəfədir ki, bu tədbir keçirilir. Ona görə bu səbəbdən mən təşkilatçıları belə yüksək səviyyəli mühüm tədbirin, enerji proqramı ilə bağlı vacib məsələlərin müzakirəsinə həsr olunan tədbirin keçirilməsi münasibətilə təbrik edirəm. Avropa Komissiyasının məsul şəxsi kimi, mən ümumi enerji məkanının təhlükəsiz, rəqabətədavamlı, əlverişli və dayanıqlı bir şəkildə təmin olunmasının tərəfdarıyam. Avropa İttifaqı 2 mühüm daxili təməl sütun üzərində dayanıb. Avropa İttifaqının üzvləri daxildən və xaricdən bizim enerji tərəfdaşlarımızla əməkdaşlıq etməkdədirlər. Azərbaycan da Avropanın ən mühüm tərəfdaşlarından biridir. Azərbaycan «Cənub Qaz Dəhlizi»ni reallaşdırmaqla, Avropa İttifaqının öz enerji mənbələrini strateji cəhətdən şaxələndirməsi üçün əlverişli mühit yaratmaqla, öz hədəflərinə nail olmağa çalışır, Avropada geosiyasi balansın və sabitliyin qorunmasına mühüm töhfə verir.

Azərbaycan qazının Avropaya 2020-ci ilədək çatdırılacağına bu gün qəti əminik. Bu da bizim qeyd etdiyim ümumi hədəflərimizə nail olmağa kömək etməklə yanaşı, bütün iştirakçı ölkələrə, həmçinin Avropa İttifaqından kənardakı ölkələrə yardım edəcəkdir. Bu qaz mühüm gəlir mənbəyi, eləcə də sabitliyin, təhlükəsizliyin qarantı olaraq, Azərbaycan ilə etibarlı tərəfdaşlıqdan qaynaqlanır. Bu, kifayət qədər genişmiqyaslı bir layihədir. Bu səbəbdən də gündəliyimizdə nəzərəçarpan bir vaxt

çərçivəsində mühüm yer tutubdur. Əslində «Cənub Qaz Dəhlizi» ilə bağlı ümumi Bəyannamə məhz cənab prezident İlham Əliyev ilə 6 il əvvəl – 2011-ci ildə imzalanıb. Vaxtı və bu layihəyə qoyulan sərmayəni üst-üstə gəlsək, siyasi səviyyədə görülən və təşviq olunan işlərin həqiqətən, tarixi əhəmiyyət daşıdığını aydın şəkildə görə bilərik.

Mən son 3 ildə «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının hər bir iclasında, cənab prezident İlham Əliyevin, eləcə də Azərbaycan Respublikası Hökumətinin təşkilatçılığı ilə Bakıda keçirilən tədbirlərdə şəxsən iştirak etmişəm. Artıq son illər ərzində istər suyun, torpağın üstündə və altında, sözün həqiqi mənasında, konkret nəzərəçarpan dəyişikliklər olubdur. Artıq «Şahdəniz» layihəsinin 2-ci fazası, «Cənubi Qafqaz», Trans–Anadolu və Trans–Adriatik kəmərlərinin tikintisi üzrə mühüm işlər görülübdür. Son illər ərzində qazanılan bu uğurlar müvafiq iştirakçı şirkətlərin, aidiyyəti qurumların, bu sərgi-konfransda iştirak edənlərin, hökumət və agentliklərin nümayəndələrinin çox əlverişli bir mühitdə birgə əməkdaşlığı sayəsində mümkün olubdur. Bütün bu kəmər layihələri artıq Avropa İttifaqının ümumi maraqlarını özünə cəlb edib, eləcə də mühüm layihələr siyahısına düşübdür.

Trans–Adriatik qaz kəməri bildiyiniz kimi, Avropanı birləşdirən layihə çərçivəsində mümkün olubdur. Çox sevindirici haldır ki, Avropa, eləcə də maliyyə təsisatları mühüm prosedurlarla qənaətbəxş nəticənin əldə olunmasına rəvac verəcəklər. Beləliklə, mən artıq yeni Avropa İttifaqı–Azərbaycan müfəssəl çərçivə Sazişi ilə bağlı nailiyyətləri qeyd etmək istərdim. Bu təşəbbüs cənab prezident İlham Əliyevin bu ilin fevralında səfəri zamanı irəli sürülüb. Sevindirici haldır ki, Sazişin istər Avropa İttifaqında, istərsə də Azərbaycan Respublikasında qarşılıqlı əməkdaşlığa, tərəfdaşlığa mühüm töhfə verəcəyinə inanırıq.

İcazə verin, çıxışımın sonunda Azərbaycan ilə bizim əməkdaşlığımızın sadaladığım bütün prinsiplərinin – enerji birliyinin təhlükəsizlik, rəqabətədavamlılıq və dayanıqlılıq hədəflərinə xidmət

etdiyini vurğulayım. Amma bizim görəcəyimiz işlər hələ çoxdur. Xüsusilə də ekologiya və iqlim məsələləri ilə bağlı bir çox işlər görülə bilər. Keçən il Avropa Komissiyası bizim bu məsələlərlə nə dərəcədə ciddi məşğul olduğumuzu gördü.

*Alternativ enerji mənbələrinin istifadəyə verilməsi istiqamətində görülən işlərdən, qarşıda duran vəzifələrdən danışan Maroş Şefçoviç bildirdi ki, enerjinin bu təmiz növü ölkələrin sərmayə ehtiyatlarının artmasına, iqtisadiyyatının yüksəlməsinə, yeni iş yerlərinin açılmasına imkan yaradacaqdır. Avropa İttifaqı bu sahədəki təcrübəsini başqa ölkələrlə bölüşməyə və Azərbaycanın da bu sahədəki təşəbbüslərinə töhfə verməyə hazırdır.*

*Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç videomüraciətinin sonunda ev sahibinə «Xəzər neft və qaz» sərgi və konfransını yüksək səviyyədə təşkil etdiyinə görə minnətdarlığını və təbriklərini çatdıraraq, konfrans iştirakçılarına maraqlı və məhsuldar müzakirələr arzuladı.*

*Çıxışlardan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgilərlə tanış oldular.*

*SOCAR-ın stendi ilə tanışlıq zamanı dövlətimizin başçısına şirkətin layihələri barədə məlumat verildi. Bildirildi ki, SOCAR bir sıra uğurlu sosial və ekoloji proqramlar həyata keçirir. Burada Bibiheybət mədəni ərazisində yerləşən, dünyada sənaye üsulu ilə qazılmış ilk neft quyusu barədə geniş məlumat vardır. Stenddə, həmçinin SOCAR-ın axtarış-kəşfiyyat və ehtiyatlar sahəsində gördüyü işlər də əks olunubdur.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya SOCAR-ın təlim və təhsil proqramları, Bakı Ali Neft Məktəbinin fəaliyyəti, onun Bibiheybətdəki yeni şəhərciyi, elmi-tədqiqat işləri və şirkətin fəaliyyətində əsas götürdüyü nanotexnologiyalar barədə məlumat verildi. SOCAR-ın stendində Azərbaycanın neft emalı və neft kimyası müəssisələri, neft və qaz ixracı marşrutları, həmçinin sərmayələr barədə geniş məlumatlar yer alıbdır. Bildirildi ki, Azərbaycanda bu günə qədər 1 milyard 971 milyon 500 min ton neft çıxarılıb ki, bunun da 971,5 milyon tonu quruda, təqribən 1 mil-*

*yard tonu isə dənizdə hasil edilibdir. 2017-ci ilin sonuna qədər respublika üzrə hasilatın 2 milyard tona çatdırılması nəzərdə tutulur.*

*bp şirkəti də uzun illərdir ki, Azərbaycanda neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Ötən dövrdə Azərbaycan hökuməti ilə tərəfdaşlıq çərçivəsində bp-nin əməliyyatçısı olduğu dünya səviyyəli layihələr – «Azəri–Çıraq–Günəşli», «Şahdəniz», «Bakı–Tbilisi–Ceyhan» və «Cənubi Qafqaz» boru kəməri layihələri Xəzər dənizini müasir karbohidrogen bölgəsinə çevirməklə, bu sahənin inkişafına töhfə veribdir. Bu günə qədər bp–Azərbaycan tərəfindən 3 milyard barrel neft və kondensat, həmçinin 80 milyard kubmetr qaz hasil edilibdir. Bütün bu uğurlar şirkətin Azərbaycanda qurduğu mükəmməl əməkdaşlıqdan və ölkə qarşısında etibarlı tərəfdaş kimi, götürdüyü uzunmüddətli öhdəlikdən irəli gəlir.*

*Sonra dövlətimizin başçısı bp–Azərbaycan əməkdaşları ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** İndi baxdığımız qısa videoda nümayiş etdirilənlər təqdirəlayiq idi. Bizim əməkdaşlığımızın 23 il tarixi var. İnanmıram ki, dünyanın hansısa yerində belə bir uğurlu əməkdaşlıq olsun. *bp* bizim strateji tərəfdaşımızdır və indi əməkdaşların 80 faizi yerli vətəndaşlardır. Mən xatırlayıram ki, biz Hyustonda müqavilə bağlayanda şərtlərdən biri də o idi ki, tədricən yerli işçilərin sayı çoxalsın, indi bu reallıqdır.

*Dövlətimizin başçısı və xanımı Belarusun Neft və Kimya üzrə Dövlət Konserninin – «Belneftekhim»in stendi ilə də tanış oldular. Bildirildi ki, bu konsern 500-dən artıq adda xam neft və kimyəvi məhsul istehsal edir. Konsernə daxil olan müəssisələr xam neftin kəşfiyyatı, hasilatı, daşınması və emalı, eləcə də neft məhsullarının satışı ilə əlaqədar kompleks işləri yerinə yetirir.*

*Almaniyanın «Liebherr» şirkəti də sərgiyə maraq göstərir. Şirkət eyni adla yükqaldırma gücü 42 tondan 308 tona qədər olan müxtəlif növ mobil liman kranları seriyasını təqdim edir.*

*Fransanın dünyada böyük nüfuz sahibi olan Total şirkəti Azərbaycanın ənənəvi tərəfdaşlarından biridir. Total Azərbaycanda kəşfiyyat və hasilat işlərinə 1996-cı ildə başlayıb. 2009-cu ilin*

*fevralında şirkət SOCAR-la Xəzər dənizinin dərin sularında yerləşən «Abşeron» bloku üzrə hasilat və pay bölgüsü Sazişi imzalayıb. 2011-ci ildə şirkət tərəfindən qazma işləri aparılıb və kifayət qədər karbohidrogen ehtiyatları aşkarlanıb. Bu kəşf Totalın Azərbaycandakı fəaliyyətinin yeni mərhələsinin başlanmasına imkan verib. Total regionda neft hasilatının ixracat imkanlarını təmin edən Bakı–Tbilisi–Ceyhan şirkətinin də payçısıdır.*

*ABB şirkəti xidmət sektorunda, sənaye, nəqliyyat və infrastruktur sahəsində elektrikləşdirmə, sənaye avtomatlaşdırma və qabaqcıl robot texnologiyaları üzrə dünya lideridir. Bütün müştəri seqmentləri arasında quraşdırılmış avadanlıq bazası vasitəsilə sayı 70 mindən çox olan nəzarət sistemlərinə birləşən 70 milyondan artıq cihazı ilə ABB sənaye rəqəmsallaşması işində mühüm rol oynayır.*

*Norveçin 30-dan çox ölkədə fəaliyyət göstərən Statoyl şirkəti 1992-ci ildə Azərbaycan bazarına daxil olub. Həmin vaxtdan ölkəmiz bu şirkətin beynəlxalq inkişafında mühüm rol oynayıb. Belə ki, şirkətin Xəzərdə nəhəng layihələrdə aparılan planlaşdırma, işlənmə və əməliyyat proseslərində rolu hər iki tərəf üçün mənfəətli olub. Azərbaycan üçün yeni neft-qaz hasilatı dövrü başlanıb, Statoyl isə geniş beynəlxalq enerji arenasında etibarlı tərəfdaş kimi tanınıb.*

*«Hallibörton» şirkəti enerji sektorunda fəaliyyət göstərən ən böyük məhsul və xidmət təchizatçılarından biridir. Şirkət karbohidrogenlərin axtarılması və geoloji məlumatların idarə edilməsi ilə yanaşı, qazma işləri və layihələrin qiymətləndirilməsi, quyuların tikilməsi, tamamlanması və digər xidmətlərin göstərildiyi müddət ərzində istehsalın optimallaşdırılmasına maksimum dərəcədə töhfə verməklə, dünyanın neft və qaz sektorunda önəmli rol oynayır.*

*SOCAR–Türkiyə stendinə baxan prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, SOCAR Türkiyənin ən böyük xarici investorlarından biridir. Builki sərgidə ilk dəfə olaraq, AMEA-nın Yüksək Texnologiyalar Parkı da iştirak edib. Park 2016-cı ildə prezident İlham Əliyevin sərəncamı ilə yaradılıb.*

*Sərgilərlə tanış olduqdan sonra prezident İlham Əliyev sərgi və konfransın Xatirə kitabını imzaladı.*

*XXIV Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgi və konfransı iyunun 3-də başa çatacaqdır.*

## ABŞ DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ ROBİN DANNİQAN İLƏ GÖRÜŞ

*31 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqanı qəbul etmişdir.*

*Prezident İlham Əliyev Robin Danniqana XXIV Beynəlxalq «Xəzər neft və qaz–2017» sərgi və konfransında iştirak etdiyinə görə minnətdarlığını bildirdi. Eyni zamanda, ABŞ prezidenti Donald Trampa sərgiyə ünvanladığı məktubda xoş sözlərə görə təşəkkürünü çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı qeyd etdi ki, ABŞ Hökumətinin Azərbaycanın həyata keçirdiyi qlobal layihələri dəstəkləməkdə davam etməsi böyük əhəmiyyət daşıyır. Bu sahədə əməkdaşlığımızın yaxşı tarixə malik olduğunu bildirən prezident İlham Əliyev vurğuladı ki, «Bakı–Tbilisi–Ceyhan» layihəsini və ondan sonra icra olunan layihələri, o cümlədən «Cənub Qaz Dəhlizi» layihəsini ABŞ Hökuməti həmişə güclü şəkildə dəstəkləmiş və bugünkü sərgiyə ABŞ Prezidentinin ünvanladığı məktubda ifadə olunan fikirlər bir daha göstərir ki, Birləşmiş Ştatların yeni administrasiyası da bu layihəyə sadiqdir. Biz bunu yüksək qiymətləndiririk. Hesab edirəm ki, bu məktubda səslənən fikirlər Azərbaycana verilən dəstəyin və dostluq münasibətlərimizin daha bir göstəricisidir. Dövlətimizin başçısı bildirdi ki, «Cənub Qaz Dəhlizi» kimi tarixi layihənin, eləcə də Azərbaycanda bütün enerji layihələrinin həyata keçirildiyi bir dövrdə bu çox önəmlidir və Robin Danniqanın Azərbaycana səfəri ikitərəfli münasibətlərimizin perspektivləri, eləcə də «Cənub Qaz Dəhlizi», enerji sahəsində və digər sahələrdə əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaqdır. Azərbaycan neft və qaz sənayesinin inkişafında yeni səhifə açır, bütün lazımi*

*infrastruktur, boru kəmərləri, peşəkar heyətlər hazırdır. Beləliklə, qarşımızda heç bir maneə yoxdur və çox yaxşı haldır ki, biz ABŞ-ın yeni administrasiyası ilə həm enerji sahəsində, həm də prezident Trampın məktubda qeyd etdiyi kimi, bir çox digər sahələrdə də yaxşı əməkdaşlığı davam etdiririk.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini Robin Danniqan dedi:*

– Həm bizim enerji sahəsində əməkdaşlığa, həm də Azərbaycanın regionda enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə verdiyiniz şəxsi dəstəyə görə minnətdarıq. Siz qeyd etdiniz ki, ABŞ prezidenti Donald Trampın ünvanladığı məktub ABŞ Prezidentinin rəhbərliyi ilə yeni administrasiyanın dəstəyinin davam etdirilməsinin göstəricisidir. Tamamilə haqlısınız. Həm bu məktubda, həm də Dövlət katibi Reks Tillersonun «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü toplantısına ünvanladığı məktubda səsləndirilən fikirlər, eləcə də mənim bu sərgidə iştirakım bizim təkcə enerji sahəsində deyil, digər sahələrdə də əməkdaşlığımızın davam etdirilməsinə, «Cənub Qaz Dəhlizi»nin reallaşması istiqamətində birgə işimizə sadiqliyimizin çox aydın göstəricisidir.

*Görüş zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## STATİSTİKLƏRİN SUBREGİONAL SEMİNARINDA VƏ MDB STATİSTİKA XİDMƏTLƏRİ RƏHBƏRLƏRİ ŞURASININ İCLASINDA İŞTİRAK EDƏN YÜKSƏK SƏVİYYƏLİ RƏSMİ QONAQLARLA GÖRÜŞ

*31 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Bakıda keçirilən yüksək səviyyəli rəsmi statistiklər üçün Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumat və statistikaya dair subregional seminarın və Azərbaycanın sədrliyi ilə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 57-ci iclasında iştirak edən yüksək səviyyəli rəsmi qonaqları qəbul etmişdir.*

*Prezident İlham Əliyev həm Asiya–Sakit okean regionunu, həm də MDB məkanını əhatə edən belə böyük beynəlxalq tədbirin ölkəmizdə keçirilməsindən məmnunluğunu ifadə etdi. Statistika xidmətlərinin çox mühüm məsələlərlə məşğul olduğunu bildirən dövlətimizin başçısı qeyd etdi ki, düzgün statistik məlumatlar, vəziyyətin dolğun analizi olmadan, müxtəlif sahələrdə, o cümlədən sosial-iqtisadi, demoqrafik və istənilən digər sahədə inkişafın və perspektivlərin dəqiq planlaşdırılmasına nail olmaq mümkün deyil. Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizdə statistik xidmətin inkişafına və bu xidmətin dünyanın ən inkişaf etmiş ölkələrinin xidmətləri səviyyəsinə qaldırılmasına böyük diqqət yetirilir. Eyni zamanda, siyasi və sosial-iqtisadi keçid dövrünü yaşayan ölkələrin də təcrübəsi bizim üçün maraqlıdır. Tədbirin işinə uğurlar arzulayan dövlətimizin başçısı iclas zamanı aparılan müzakirələr və fikir mübadilələrinin səmərəli olacağına, əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*BMT Asiya və Sakit okean ölkələri üzrə Statistika İnstitutunun direktoru Aşiş Kumar iclasın Bakıda yüksək səviyyədə təşkilinə, həmçinin Azərbaycanda statistika işinə verdiyi daimi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. İclas çərçivəsində ilkin olaraq, Dayanıqlı İnkişaf Məqsədləri və göstəricilərin müzakirəyə çıxarıldığını deyən Aşiş Kumar ölkələrin əldə etdiyi uğurlar ətrafında da fikir mübadiləsi aparıldığını qeyd etdi. BMT Asiya və Sakit okean ölkələri üzrə Statistika İnstitutunun geniş məkanı əhatə etdiyini və buraya daxil olan ölkələrin zəngin beynəlxalq təcrübəyə malik olduğunu vurğulayan Aşiş Kumar rəhbərlik etdiyi təşkilatın ölkələrə bu sahədə lazımi kömək göstərməyə hər zaman hazır olduğunu bildirdi.*

## «QUBADLI» VƏ «CƏBRAYIL» GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*31 may 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Donanmasının «Qubadlı» və «Cəbrayıl» adlı yeni təchizat gəmilərinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev və SOCAR-ın prezidenti Rövnəq Abdullayev «Qubadlı» və «Cəbrayıl» təchizat gəmilərinin texniki göstəriciləri, təyinatı barədə dövlətimizin başçısına məlumat verdilər.*

*Bildirildi ki, «Qubadlı» və «Cəbrayıl» təchizat gəmiləri bu tip gəmilərin tikintisi üzrə dünyanın qabaqcıl müəssisələrindən sayılan Norveçin «STX Norway Offshore» Gəmiqayırma zavodunda inşa edilib. Gəmilər müxtəlif növ yüklərin dəniz platformalarına çatdırılması üçün nəzərdə tutulub. Prezident İlham Əliyevin tapşırığına əsasən gəmilərə işğal altında olan rayonlarımızın adları verilib. Hər iki gəmi SOCAR-ın dəniz obyektlərinə xidmət edən köhnə gəmiləri əvəzləyəcək. Gəmilərdən biri SOCAR-a məxsus «28 May», digəri isə «Ümid» yatağındakı platformalara yük daşıyacaq.*

*Qeyd olundu ki, gəmilərin hər birinin uzunluğu 73,6, eni 16 metrdir. Dedveyti 3270 ton olan gəmilər 1600 ton yükgötürmə qabiliyyətinə malikdir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Donanmasında olan digər təchizat gəmiləri ilə müqayisədə bu gəmilərin bir sıra üstünlükləri vardır. Belə ki, yeni təchizat gəmiləri yanacaq, sürtkü yağı, qələvi məhlul, özül yağı, quru yük, içməli su, qazma məhlulu, konteyner, boru və bu kimi digər müxtəlif yükləri qəbul etmək üçün daha geniş göyərtəyə və*

*böyük həcmli yük tanklarına malikdir. Müasir avadanlıqlarla, o cümlədən «DP-2» dayanıqlılıq sistemi ilə təchiz olunan «Qubadlı» və «Cəbrayıl» gəmilərinin texniki xüsusiyyətləri sərt hava şəraitində dənizdəki platformalara yan almadan yükləmə-boşaltma əməliyyatını təhlükəsiz şəraitdə yerinə yetirməyə imkan verir. Gəmilərdə quraşdırılan yanğınsöndürmə avadanlığı isə dəniz obyektlərində yanğın baş verərkən hadisəyə ilkin müdaxilə etməyə şərait yaradır. Xilasetmə əməliyyatlarının yerinə yetirilməsi üçün hər bir gəmi xüsusi xilasedici qayıqla təchiz olunub. Qayıqların konstruksiyası kəskin hava şəraitində dənizdə axtarış və xilasetmə işlərinin yerinə yetirilməsini mümkün edir.*

*Dövlətimizin başçısı gəmilərin rəmzi olaraq istismara verilməsini bildirən düyməni basdı.*

*Qeyd edək ki, davam edən qlobal iqtisadi böhran, dünya birjalarında neftin qiymətinin xeyli aşağı düşməsi fonunda ümumi beynəlxalq ticarət dövriyyəsinin kəskin azalmasına və bunun gəmiçilik sahəsində müəyyən problemlər yaratmasına baxmayaraq, prezident İlham Əliyev Azərbaycanda gəmiçiliyin inkişafını diqqət mərkəzində saxlayır. Bu da Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Donanmasının müasir tələblərə cavab verən gəmilərlə yenilənməsinə geniş imkan yaradır. «Qubadlı» və «Cəbrayıl» təchizat gəmilərinin Xəzərdə istismara verilməsi də məhz bu istiqamətdə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi ilə onun alyans partnyoru olan «Caspian Marine Services LTD»nin həyata keçirdiyi birgə layihədir. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Donanmasının daim yenilənməsi və müasir tələblərə cavab verən gəmilərin tikilməsi prioritet məsələlərdəndir. Məhz dövlətimizin başçısının gəmiçilik sahəsinə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, təkcə son 3 ildə 16 yeni gəmi donanmaya əlavə edilib. Bundan başqa, 4 gəmi–vaqon-TIR və sərnişin daşınması üçün nəzərdə tutulan yeni nəsil 2 «Ro-Pax/Bərə» və 2 tankerin tikintisi üzrə yeni sifariş Bakı Gəmiqayırma zavoduna verilibdir.*

*Donanmanın yenilənməsi istiqamətində aparılan işlər Gəmiçiliyin təsdiq olunmuş strateji inkişaf proqramına, həmçinin «2016–2020-ci illərdə Azərbaycanda gəmiçiliyin inkişafına dair Dövlət*

*Proqramı»na uyğun olaraq həyata keçirilir. Dövlət Proqramı ilə Xəzər hövzəsində və Xəzərdən kənarda beynəlxalq standartlara uyğun daşıma xidmətlərinin göstərilməsi, donanmanın yükdaşıma bazarlarındakı tələbata uyğun yenilənməsinin davam etdirilməsi, gəmi təmiri bazasının gücləndirilməsi, institusional islahatların davamı, gəmiçilik sahəsində yüksəkixtisaslı yerli kadrların hazırlanması təmin edilir. Bu sahədə görülən işlər Azərbaycanın regionda nəqliyyat-logistika qovşağına çevrilməsi strategiyasına, ölkənin tranzit potensialının gücləndirilməsinə və iqtisadiyyatın şaxələndirilməsi ilə qeyri-neft sektorunun inkişafına və milli gəmiçiliyin yükdaşımalar bazarında mövqeyinin möhkəmləndirilməsinə xidmət edir. Gəmiçiliyin fəaliyyət sahələrinin şaxələndirilməsi və bir bazardan asılılığının azaldılması ilə əlaqədar qarşıya qoyulan tapşırıqlara uyğun olaraq, 2014-cü ildə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi beynəlxalq sularda fəaliyyətini bərpa edib. Hazırda Xəzərdən kənar digər su hövzələrində Azərbaycan bayrağı altında 10 gəmi üzür.*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Kabil şəhərində törədilmiş güclü partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli terror aktından son dərəcə hiddətlənir, terrorizmə qarşı ən sərt şəkildə, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını zəruri və vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2017-ci il*

## «ŞAHDƏNİZ MƏRHƏLƏ-2» ÜÇÜN İNŞA OLUNAN İKİ PLATFORMADAN BİRİNİN ÜST TİKİLİLƏRİNİN DƏNİZƏ YOLASALMA MƏRASİMİ

*1 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də «Şahdəniz Mərhələ-2» üçün inşa olunan 2 platformadan birinin – yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin Bibiheybətdəki «Azfen» tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki «Şahdəniz» müqavilə sahəsinə yolasalma mərasimində iştirak etmişdir.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev və bp-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qari Couns əvvəlcə dövlətimizin başçısına «Şahdəniz Mərhələ-2» və «Cənub Qaz Dəhlizi» layihələri ilə bağlı görülən işlər barədə məlumat verdilər.*

*«Şahdəniz-2», «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi, «TANAP və TAP layihələrinin daxil olduğu «Cənub Qaz Dəhlizi» dünyanın ən böyük enerji layihələrindən biridir. Bu dəhliz ilk dəfə olaraq Xəzərdəki ehtiyatları birbaşa Avropanın qaz bazarları ilə bağlayacaqdır. Bu nəhəng layihənin bp-nin operatorluğu ilə həyata keçirilən hissələri – «Şahdəniz Mərhələ-2» və «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi» layihələri tamamlanmaq üzrədir və ilk qazın gələn ilə planlaşdırılan nəqli üçün qrafikə uyğun davam edir. Hazırda təchizat-tədarük, mühəndis-layihələndirmə və tikinti işləri də daxil olmaqla, ümumilikdə bu layihələrin 92 faizdən çox hissəsi tamamlanıb, ümumi dəyəri 13 milyard dollar həcmində olan iri müqavilələr imzalanıbdır. «Şahdəniz Mərhələ-2» və «Cənub Qaz Dəhlizi» layihələri üzrə indiyədək iştirakçı ölkələrdə 40 min yeni iş yeri açılıbdır. «Şahdə-*

*niz» yatağı üzrə hesablanmış bütün ilkin geoloji qaz ehtiyatı təxminən 1 trilyon kubmetrdən çoxdur. «Şahdəniz Mərhələ-1» çərçivəsində illik hasilat 10 milyard kubmetr qaz və təxminən gündə 50 min barrel kondensat təşkil edir. «Şahdəniz Mərhələ-1» üzrə hasil olunan qaz Azərbaycana, Gürcüstana və Türkiyəyə nəql edilir. «Mərhələ-2» çərçivəsində əsas diqqət ildə 16 milyard kubmetr qaz və gündə 120 min barrelədək kondensat əlavə etməklə, hazırda istismar olunan lay intervallarında qalan ehtiyatlara yönəlib. Bu layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə, 10 milyard kubmetr qaz isə Avropa alıcılarına çatdırılacaqdır.*

*«Şahdəniz Mərhələ-2» layihəsi çərçivəsində Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliyadakı milyonlarla istehlakçıya ildə 16 milyard kubmetr qazın nəql edilməsi nəzərdə tutulur. İlk qazın nəqli Gürcüstan və Türkiyəyə gələn il, Avropaya isə 2020-ci ildə gözlənilir. «Şahdəniz» üzrə «Hasilatın pay bölgüsü haqqında Saziş»in 2036-cı ildən 2048-ci ilədək uzadılması «Şahdəniz» yatağının dərin qatlarındakı ehtiyatların gələcəkdə mümkün işlənilməsi üçün yol açır. Azərbaycan və Gürcüstan ərazilərində boru kəməri marşrutu boyunca «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi» layihəsinin tikinti işləri qrafikə uyğun davam edir. Ümumilikdə, tikinti işlərinin və istismara vermə sınaqlarının 89 faizi artıq tamamlanıb. Boru kəmərinin hidro sınaq işləri həm Azərbaycanda, həm də Gürcüstanda davam etdirilir.*

*Onu da deyək ki, ilk dəfə olaraq, «Şahdəniz-2» platformalarının tikintisi 100 faiz ölkə daxilində həyata keçirilir. Bu tikililərin ümumi çəkisi 29200 ton təşkil edir və onlar 16500 boru qovşağından, 881 kilometr kabel xəttindən ibarətdir. Üst tikililərin quraşdırma işləri 3 il ərzində tamamlanıb və son dərəcə yüksək texniki təhlükəsizlik göstəriciləri ilə həyata keçirilibdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, dənizə yola salınacaq yaşayış blokları və texnoloji təchizat (YBTT) platformasının üst modullarının tikintisi nəzərdə tutulan qrafikdən tez yekunlaşıb. Üst tikililərin quraşdırılması tamamlandıqdan sonra STB-1 barjına yüklənərək, dənizə yola salınmağa hazırlıq məqsədi-*

*lə bu il mayın 8-də tikinti-quraşdırma sahəsinin yanalma körpüsündəki yükləmə çərçivəsinə qaldırılıb. Yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin vahid bir konstruksiya kimi daşınması, sürüşdürmə üsulu ilə dayaq blokunun üzərinə yerləşdirilməsi və quraşdırılması işləri diqqətlə planlaşdırılıb və bu işlərin 5 gün ərzində yekunlaşması nəzərdə tutulur. Üst tikililər artıq öz yerində – suyun 94 metr dərinliyində olan dayaq blokunun üzərinə quraşdırılacaq. Üst tikililərinin çəkisi təxminən 12400 ton təşkil edir. Obyektin uzunluğu 100, eni isə 60 metrdir. Bu konstruksiya 100 nəfərlik yaşayış blokundan, ümumi gücü 60 MVt olan 4 əsas elektrik generatorundan ibarətdir. Platformanın yaşayış blokunda işçilərin istirahəti üçün otaqlar, ofis otaqları, idman zalı yaradılıb. Burada neftçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün hərtərəfli şərait vardır.*

*AMEK–Tekfen–Azfen konsorsiumu tərəfindən inşa edilən yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililəri «Azfen» tikinti-quraşdırma sahəsində yerli infrastrukturdan və obyektlərdən istifadə edilməklə, bütövlüklə ölkə daxilində tikilib. Bu konstruksiyanın tikinti işlərinə 5000 nəfərdən çox işçi cəlb edilib. İşçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub. Birinci platformanın üst tikililərinin dənizə yola salınması nəhəng «Şahdəniz-2» layihəsinin uğurla, təhlükəsiz, büdcədən xeyli az vəsait xərcləməklə və qrafikə uyğun başa çatdırılması istiqamətində mühüm bir hadisədir. Xəzərdə ən böyük və ən müasir konstruksiyalardan biri olan bu üst tikililər çox yüksək texniki təhlükəsizlik göstəriciləri ilə inşa edilibdir.*

*Prezident İlham Əliyev platforma ilə tanış oldu.*

*Bu gün dünyada bir çox ölkələrdə dərin iqtisadi böhran yaşanır. Ölkələrin gəlirləri azalır, iqtisadi vəziyyətləri çətinləşir. Belə bir vaxtda Azərbaycan qlobal əhəmiyyətli mühüm layihələrə imza atır. Bu, dövlət başçımızın rəhbərliyi ilə yürüdülən siyasətin məntiqi nəticəsidir. Azərbaycanın müasir dövrdə belə qlobal və tarixi layihələri icra etməsi ölkəmizin gəlirlərinin artmasına, xalqın sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəldilib. Bu layihənin həyata keçirilməsi bir daha sübut edir*

*ki, ölkəmizdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi, nəticədə iqtisadi potensialımızın daha da gücləndirilməsi, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, «qara qızıl»dan əldə olunan gəlirlərin insan kapitalına çevrilməsi prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsasını təşkil edir.*

*Sonra prezident İlham Əliyev layihənin işçi heyəti ilə görüşdü. Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bu gün tarixdə qalacaq. Çünki biz bu gün «Şahdəniz» platformasının üst hissələrini rəsmi qaydada açıq elan edirik. Bir neçə gündən sonra bu nəhəng qurğular dənizə göndəriləcək və «Şahdəniz» yatağında quraşdırılacaqdır. Bu, böyük tarixi hadisədir. Çox sevindirici haldır ki, bu nəhəng qurğular 100 faiz Azərbaycanda inşa edilibdir. Bir neçə il bundan əvvəl, xüsusilə «Şahdəniz» yatağı üzrə kontrakt imzalananda bunu təsəvvür etmək belə, mümkün deyildi.

Onu da qeyd etmək istəyirəm ki, «Şahdəniz» üzrə kontrakt 21 il bundan əvvəl iyun ayında «Xəzər neft və qaz–2017» sərgisi zamanı imzalanmışdır. Artıq 21 ildən sonra biz bu tarixi günü qeyd edirik. Bu qurğular Azərbaycanda inşa edilib. Mənə verilən məlumata görə, bu qurğuların inşasında çalışanların əksəriyyəti – 90 faizi Azərbaycan vətəndaşları olub. Yəni bu illər ərzində gözəl kadr potensialı yetişib və bu, əlbəttə, ölkəmizin enerji potensialını, iqtisadi potensialını gücləndirəcəkdir. Çünki təkcə «Şahdəniz-2» layihəsi çərçivəsində əlavə 16 milyard kubmetr qaz, eyni zamanda, kifayət qədər kondensat hasil ediləcəkdir. Hasil ediləcək bütün bu təbii resurslarla bağlı kontraktlar imzalanıb, onların müştəriləri var və inşa edilən «Cənub Qaz Dəhlizi» vasitəsilə dünya bazarlarına çıxarılacaqdır.

İcra olunan layihələrin hər biri ayrılıqda tarixi hadisədir – TANAP, TAP, «Cənub Qaz Dəhlizi», «Şahdəniz-2» layihəsi, bu

platformaların tikintisi, bu yaxınlarda Heydər Əliyev adına Yarımdalma qazma qurğusunun açılışı. Bir daha qeyd edirəm ki, bunların hər biri ayrılıqda tarixi layihədir. Amma bunlara birlikdə baxanda görürük ki, Azərbaycanda nə qədər böyük potensial yaranıbdır.

*Sonra Azərbaycan Prezidenti çıxışını ingilis dilində davam etdirdi:*

– Bu həqiqətən də tarixi gündür. «Şahdəniz» müqaviləsinin imzalanmasından 21 il sonra biz tarixi əhəmiyyət kəsb edən günü qeyd edirik. Bu gün mən ilk növbədə, strateji tərəfdaşımız, uzun illərdir Azərbaycanın yaxşı dostu olan *bp*-yə təşəkkürümü bildirmək istərdim. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması bizim əməkdaşlığımızın başlanğıcı oldu. Həmin vaxtdan bizimlə birgə çalışmış və çalışmaqda davam edən bir çox şirkətlər vardır. Sizə xatırlatmaq və məlumat vermək üçün demək istərdim ki, həmin vaxt Azərbaycan xarici neft şirkətlərindən ibarət konsorsiumla «Azəri–Çıraq–Günəşli» müqaviləsini imzaladı və *bp* sadəcə olaraq, onlardan biri idi. O, böyük hissəyə malik idi və böyük tərəfdaşlıq var idi. Bu gün də bu, müəyyən dəyişikliklərlə davam edir.

*bp* ilə xüsusi münasibətlər o vaxtdan həmin şirkətin Azərbaycanın enerji bazarında, qlobal enerji bazarında fəal oyunçu olması faktına əsaslanır. O vaxtdan indiyədək tərəfdaşlığımızı strateji tərəfdaşlığa çevirən bir çox başqa müqavilələr imzalanıb. Onlardan biri «Şahdəniz»dir. Növbədə «Dayaz sular» və başqaları vardır. Bu, tərəfdaşlığın yaxşı göstəricisidir. Biz *bp*-yə etimad göstəririk. Əminəm ki, *bp* də Azərbaycana etimad göstərir. Əks halda, onlar ölkəmizə bu qədər çox vəsait yatırmazdılar. Cənab Counsun dünən və bu gün qeyd etdiyi kimi, *bp*-nin fəaliyyət sferasında Azərbaycan 1 nömrəli investisiya məkanıdır. Bu isə bizim əməkdaşlığımızı daha da gücləndirir. Dünən qeyd etdiyim kimi, hazırda onlar «Azəri–Çıraq–Günəşli» müqaviləsinin genişləndirilməsi üzərində işləyirlər. Ümidvaram ki, bu, tezliklə olacaq. Bundan əlavə, təkcə «Azəri–Çıraq–Günəşli»də bizim tərəfdaşlığımız 2050-ci ilədək davam edəcəkdir. Əminəm ki, «Şahdəniz»dən nəzərdə

tutulandan daha çox qaz istehsal ediləcəkdir. Biz «Azəri–Çıraq»ı «Əsrin müqaviləsi» adlandırmışdıq, indi isə mən əsrlərin müqaviləsindən danışıram.

Mən həmçinin Azərbaycana yatırılan investisiyalara və uğurlu fəaliyyətə görə bütün tərəfdaşlarımıza, «Şahdəniz» tərəfdaşlarına və bu nadir qurğunu tikən şirkətlərə bir daha təşəkkürümü bildirmək istərdim. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq komanda ölkəmizin inkişafına kömək edir. Düşünürəm ki, ev sahibi olan ölkə yerli şirkət SOCAR-la əcnəbi investorlar arasında nadir əməkdaşlıq mühiti yaradır. Bir daha sizi təbrik edirəm. Qarşıdakı illərdə sizə uğurlar arzulayıram.

* * *

*Prezident İlham Əliyev və bp-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qari Couns «Şahdəniz Mərhələ-2» üçün inşa olunan 2 platformadan birinin üst tikililərinin dənizə yola salınmasını bildirən düyməni basdılar.*

*Sonda xatirə şəkli çəkdirildi.*

**DANİMARKA KRALİÇASI**
**ÜLYAHƏZRƏT II MARQRETEYƏ**

Ülyahəzrət!

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edir, Sizə ən xoş arzularımı yetirir, dost Danimarka xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2017-ci il*

**İSVEÇ KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveç Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İsveç xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2017-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ XANIM TEREZA MEYƏ**

Hörmətli xanım Baş nazir!

Londonda törədilmiş terror aktı nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Bu qanlı hadisə terrorizmin dəhşətli bir bəla olduğunu, onun bütün təzahürlərinə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasının zəruriliyini və vacibliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, Birləşmiş Krallığın bütün xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2017-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Tehranda törədilmiş terror aktları nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi və hiddətləndirdi.

Bu qanlı hadisə terrorizmin bütün dünya üçün dəhşətli bir bəlaya çevrildiyini, onun bütün təzahürlərinə qarşı birgə səylərlə və ardıcıl mübarizə aparılmasının vacibliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost və qardaş İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2017-ci il*

**PORTUQALİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB MARSELO REBELO DE SUSAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2017-ci il*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2017-ci il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramınız – Rusiya Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Bu gün Rusiya Federasiyası ictimai-siyasi və sosial-iqtisadi sahələrdə böyük uğurlar qazanıb. Həyata keçirilən dövlətdaxili dəyişikliklər, habelə xarici siyasət sahəsində atılmış addımlar sabitliyə, sıx birləşmiş cəmiyyətin formalaşmasına, beynəlxalq aləmdə Rusiyanın mövqeyinin və nüfuzunun möhkəmlənməsinə kömək edib.

Azərbaycan ilə Rusiyanı çoxəsrlik dostluq və qarşılıqlı hörmət ənənələri bağlayır. Bu xoş ənənələrə əsaslanan Azərbaycan–Rusiya dövlətlərarası münasibətlər hərtərəfli inkişaf edir və yeni məzmunla zənginləşir.

Əmin olduğumu bildirirəm ki, biz xalqlarımızın maraqları, regionda sülhün, mehriban qonşuluğun və sabitliyin təmin edilməsi naminə strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə möhkəmlədəcək və müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirəcəyik.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uğurlar, dost Rusiya xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2017-ci il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RODRİQO DUTERTEYƏ**

Hörmətli cənab Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Filippin arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2017-ci il*

## GÜRCÜSTAN RESPUBLİKASININ İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF NAZİRİ GİORGİ QAXARİA İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Gürcüstan Respublikasının İqtisadiyyat və Davamlı İnkişaf naziri Giorgi Qaxarianı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini və bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini, ölkələrimizin bir-birini dəstəklədiyini vurğuladı. İqtisadi sahədə əlaqələrə toxunan prezident İlham Əliyev bu istiqamətdə yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi. Azərbaycanın Gürcüstana investisiyalar yatırmasına və Azərbaycan şirkətlərinin Gürcüstanda fəaliyyətinə toxunan dövlətimizin başçısı ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması yollarının müəyyənləşdirilməsinin vacibliyini vurğuladı. Prezident İlham Əliyev qeyri-enerji, ticarət və digər sahələrdə də əlaqələrin genişləndirilməsi imkanlarının araşdırılmasının zəruriliyini qeyd etdi. Ölkələrimizin nəqliyyat, energetika sahələrində qlobal layihələri uğurla həyata keçirdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstanın digər tərəfdaşlarla birlikdə bu layihələrin reallaşmasında çox səmərəli yanaşma nümayiş etdirdiklərini bildirdi.*

*Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri Giorgi Qaxaria prezident İlham Əliyevlə görüşündən böyük şərəf hissi keçirdiyini dedi. O, Azərbaycanın Energetika naziri Natiq Əliyevin vəfatı ilə bağlı prezident İlham Əliyevə başsağlığı verdi.*

*İqtisadi sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini deyən gürcüstanlı nazir bu ilin 4 ayında ölkələrimiz arasında ticarət dövriyyəsinin 49 faiz artmasını bunun çox yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Görüşdə ölkələrimiz arasında ticarət, investisiya, nəqliyyat, turizm, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## MƏRHUM ENERGETİKA NAZİRİ NATİQ ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*13 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də mərhum Energetika naziri, «Şöhrət» ordenli Əməkdar mühəndis Natiq Əliyevin məzarını ziyarət etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Fəxri xiyabanda Natiq Əliyevin məzarının önünə gül dəstələri qoydu, xatirəsinə dərin ehtiramını bildirdi.*

*Prezident İlham Əliyev Natiq Əliyevin oğlu Fərhad Əliyevə bir daha başsağlığı verdi.*

*Fərhad Əliyev atasının xatirəsinə göstərilən ehtirama görə dövlətimizin başçısına minnətdarlıq etdi.*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ PROKURORU SOTİR TSATSAROVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Bolqarıstan Respublikasının Baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Sotir Tsatsarov Bolqarıstan prezidenti Rumen Radevin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizdə prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı tərəfindən həyata keçirilən işlərə öz rəğbətini ifadə edən Bolqarıstanın Baş prokuroru respublikamızda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını bildirdi. Qonaq hər iki ölkənin prokurorluq orqanları arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini, bu əməkdaşlığın yüksək peşəkar səviyyədə və dostluq şəraitində aparıldığını vurğuladı və Bakıya səfərini mövcud əlaqələrin davamı kimi dəyərləndirdi.*

*Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən prezident İlham Əliyev əlaqələrimizin siyasi, iqtisadi, enerji, mədəniyyət və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Özünün Bolqarıstana, Bolqarıstanın Baş nazirinin Azərbaycana səfərini xatırladan dövlətimizin başçısı bu səfərlərin ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Azərbaycan ilə Bolqarıstanın bütün sahələrdə əlaqələrinin hər iki ölkənin rəhbərlikləri arasında mövcud olan əməkdaşlıq və qarşılıqlı dəstək səviyyəsinə qaldırılmasının əhəmiyyətini vurğulayan prezident İlham Əliyev prokurorluq orqanlarının yaxşı*

*əməkdaşlığının ikitərəfli əlaqələrimizin genişləndirilməsi işinə xidmət etdiyini qeyd etdi və bu səfərin münasibətlərimizin perspektivləri ilə bağlı məsələlərin müzakirə edilməsi üçün yaxşı fürsət yaratdığını bildirdi.*

*Dövlətimizin başçısı Bolqarıstan prezidenti Rumen Radevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Bolqarıstan Prezidentinə çatdırmağı xahiş etdi.*

# MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli səfirlər, mübarək Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır.

İlk növbədə, xahiş edirəm ki, mənim salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri vardır. Biz ikitərəfli formatda fəal əməkdaşlıq edirik və beynəlxalq arenada da bir-birimizi daim dəstəkləyirik. Xüsusilə BMT-də və digər beynəlxalq təşkilatlarda təmsil etdiyiniz ölkələrlə əməkdaşlığımız çox uğurludur.

Bildiyiniz kimi, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Təşkilatın xətti ilə Azərbaycanda bir çox mötəbər tədbirlər keçirilibdir. Ötən il İslam Əməkdaşlıq Təşkilatının Türkiyədə keçirilmiş zirvə görüşündə də təşkilat və onun üzvləri Azərbaycana bir daha öz dəstəklərini bildirdilər. Azərbaycan da öz növbəsində, bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrini dəstəkləyir. Keçənilki zirvə görüşündə Ermənistan–Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox önəmli addımlar atıldı, qərar qəbul edildi. İslam Əməkdaşlıq Təşkilatı münaqişə ilə bağlı bir çox sənədlər, qətnamələr qəbul edib ki, o sənədlərdə Azərbaycanın haqlı mövqeyi dəstəklənir. Keçən il isə Ermənistanın təcavüzü ilə bağlı Kontakt qrupu yaradıldı və biz bunu da çox yüksək qiymətləndiririk. Müsəlman ölkələri tərəfindən göstərilən dəstək və həmrəylik bizim üçün çox önəmlidir. Bu dəstəyə görə mən təşkilatın üzvlərinə minnətdaram.

Ermənistan Azərbaycan torpaqlarının bir hissəsini uzun illərdir ki, işğal altında saxlayır, beynəlxalq normaları kobudcasına pozur, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə biganə qalır, işğal edilmiş torpaqlarda bizim bütün tarixi, dini abidələrimizi məhv edib və bunu təsdiqləyən bir çox sənədlər, videomateriallar vardır. Erməni işğalı nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşübdür. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Biz bütün beynəlxalq təşkilatlarda münaqişə ilə bağlı həqiqətləri ortaya qoyuruq, dünya ictimaiyyətinə çatdırırıq. Əlbəttə, bunu müsəlman ölkələrinin ictimaiyyətinə də çatdırırıq ki, bu ölkələrdə yaşayan bizim qardaşlarımız ermənilər tərəfindən işğal edilmiş torpaqlarda hansı vəhşiliklərin törədildiyini görsünlər. Bu vəhşilik təkcə Azərbaycana qarşı deyil, bütün müsəlman aləminə qarşı törədilibdir. Bu yaxınlarda işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində ucaldılmış məscid Şuşa məscidinin memarlığını təkrarlayır. Şuşa məscidləri, Ağdam məscidləri, işğal altında olan digər şəhərlərimizin məscidləri ermənilər tərəfindən dağıdılıb. Bu cinayət bütün müsəlman aləminə qarşı törədilmiş cinayətdir. Biz istəyirik ki, bütün dünya müsəlmanları bunu bilsin.

Azərbaycan islam həmrəyliyinin gücləndirilməsi işinə öz töhfəsini verir. Bildiyiniz kimi, bu il Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilibdir. İl ərzində ölkəmizdə və digər ölkələrdə bir çox tədbirlər keçirilibdir. Bu ili «İslam həmrəyliyi ili» elan etməyimiz bizim siyasətimizi əks etdirir, niyyətimizi göstərir.

Mən tam əminəm ki, biz – müsəlman ölkələri öz aramızda olan problemləri dinc yolla həll etməliyik və həmrəyliyi gücləndirməliyik.

Bu il eyni zamanda, Azərbaycanda IV İslam Həmrəyliyi oyunları keçirildi. Təmsil etdiyiniz ölkələrin idmançıları Azərbaycanda bu oyunlarda iştirak etdilər. Bir çox qonaqlarımız oldu. Əminəm ki, onlar öz ölkələrinə ən xoş təəssüratlarla qayıdıblar. İslam Həmrəyliyi oyunları sadəcə, idman yarışı deyil. Biz istəyirdik ki, bu oyunlar islam aləmini birləşdirsin. İdmançılar, qonaqlar Bakıda olarkən bir ailə kimi yaşayırdılar və əminəm ki, bu günlər ərzində islam həmrəyliyi ən yüksək zirvəyə qalxmışdır. Biz də çalışmalıyıq ki, bu həmrəyliyi bu yüksək zirvədə saxlayaq. Əminəm ki, belə də olacaqdır.

Bir daha sizi ürəkdən salamlayır və sizə uğurlar arzulayıram.

* * *

**Nasir Əbdül Kərim Əbdül Rəhim** *(Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri):* Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev! Əvvəlcə mən bütün müsəlman səfirlər adından Energetika naziri Natiq Əliyevin vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin.

Azərbaycan Respublikasında akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri və nümayəndələri adından Sizi mübarək Ramazan bayramı münasibətilə təbrik etməkdən şərəf hissi duyuram.

Bu fürsətdən istifadə edərək, Sizinlə görüşmək üçün dəyərli vaxtınızın bir hissəsini bizə ayırdığınıza görə bütün müsəlman səfirlər adından zati-alinizə səmimi təşəkkürümüzü bildirirəm. Cənab Prezident, qeyd etmək yerinə düşərdi ki, Sizin sayənizdə belə görüşlər müsəlman ölkələrini bir-birinə bağlayan qardaşlıq tellərini möhkəmləndirmək və inkişaf etdirməkdə qətiyyətinizi əks etdirən xoş bir ənənəyə çevrilibdir.

Bu gün keçirilən görüş xüsusilə əhəmiyyətlidir, çünki o, «İslam həmrəyliyi ili»ndə və ilhamlandırıcı hisslər oyatmış möhtəşəm IV İslam Həmrəyliyi oyunlarından sonra keçirilir. Hamımız bu

oyunlardan fəxr hissi duyduq və eyni zamanda, biz müsəlman dəyərlərinə uyğun olaraq, sülh, idman və harmoniya mesajını qəbul etdik və yaydıq.

Bu mübarək ay ərzində bütün müsəlmanlar islamın ülvi dəyərlərini xatırlayır, öz qəlblərini və düşüncələrini paklandırır, onları birliyə, sülhə, əxlaqi dəyərlərə və mərhəmətə xidmət etməyə yönəldir, qərib və ehtiyacı olan insanlara daxilimizdə xeyriyyəçilik hisslərini oyadır, bir-birimizin günahlarını bağışlayır, qardaşlıq ruhunda ümumi taleyimizi birgə dərk edərək, sülh, həmrəylik və firavanlıq naminə bir yerə toplaşırlar.

Cənab Prezident, Azərbaycanın nisbətən gənc olmasına, müstəqilliyinin başlanğıcında bir çox təhdidlərin olmasına baxmayaraq, onlar ölkə rəhbərliyinin müdrikliyi və uzaqgörənliyi sayəsində həll edilmişdir. Azərbaycan həmin mərhələləri uğurla keçmiş və özünün qədim islam irsini və mədəniyyətini qürur hissi ilə qoruyaraq, gələcəyə doğru qətiyyətlə addımlayan və inkişaf edən dövlətə çevrilmişdir.

Bu qardaş ölkədə müsəlman səfirlər güclü inkişafın şahididirlər. Ölkəniz inanılmaz sürətlə güclü inkişafı, yenilənməni, islahatları və bir çox sahələrdə uğurlu dəyişiklikləri təmin edə bilmişdir.

Müsəlman ümmətinin ayrılmaz və mühüm üzvü olan Azərbaycan işğal olunmuş müsəlman əraziləri – Əl-Qüds Əl-Şərif kimi məsələlərdə haqq işini dəstəkləməklə, islamın əsl ruhunu və mesajını özündə əks etdirir. Bu gün ölkəniz bir çox çağırışlara qarşı göstərilən ümumi səylərin ön cərgəsindədir. Onlardan biri islamofobiya kimi, cəfəng fikirlərlə bağlıdır. Siz bu mübarizəni düşünülmüş şəkildə, danılmaz mədəni, tarixi və dini əsaslarla aparırsınız, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq mövzusunda Bakıda bir çox mühüm beynəlxalq konfranslar keçirirsiniz. Beləliklə, fərqlərin aradan qaldırılması, sivilizasiyaların toqquşması kimi yanlış arqumentin rədd edilməsi, islamın bəşəriyyət irsinin qorunub saxlanılmasında oynadığı tarixi rolunun təqdim edilməsi, insan biliyinin və mədəniyyətinin bütün sahələrdə

onun «qızıl dövrü»ndə verilmiş dəyərli töhfələrin təşviq edilməsi üçün böyük səylər göstərirsiniz.

Şübhəsiz ki, Azərbaycan islamın əsl ruhunu əks etdirən, sülhün, inklüzivliyin, tolerantlığın əsas yer tutduğu ən nümunəvi məkanlardan biridir. Burada müxtəlif dinlərin nümayəndələri sülh şəraitində yan-yana yaşayır. Onlar ölkənizdə bir-biri ilə harmoniyada çalışmaq imkanına malikdirlər. Beləliklə, bütün dünyadan gəlmiş qonaqlar ölkələrinə Azərbaycan və islam haqqında təsəvvür etdikləri imici müsbət qaydada daha yaxşı qavrayaraq qayıtdılar.

Cənab Prezident, müsəlman aləmi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, ölkənizin tərəfindədir və beynəlxalq hüququn, BMT-nin bütün qətnamələrinin ayrı-ayrı deyil, bərabər qaydada həyata keçirilməsi çağırışına qoşulur.

Bu müqəddəs ayda, cənab Prezident, arzu edirik ki, işğal olunmuş bütün müsəlman əraziləri və müqəddəs məkanlar yaxın vaxtlarda öz əsl sahiblərinə qaytarılsın. Arzu edirik ki, dağıntı və terror yayaraq, islamın adını ləkələyən pis əməllərlə və səhv düşüncələrlə yaşayan məkrli qüvvələrə ümmətimiz qalib gəlsin, ölkələrimizin üzərindəki qara buludlar dağılsın, fərqləri bir kənara qoyaraq, qardaş ölkələrimizdə sülhün və harmoniyanın bərqərar olunması naminə innovasiya, irəliləyiş sayəsində insan sivilizasiyasına ən dəyərli töhfə verən tərəf kimi, özünün layiqli yerini bərpa etsin.

Zati-aliləri, müsəlman səfirlər və missiya rəhbərləri adından Sizə və ailənizə möhkəm cansağlığı, səadət və uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, irəliləyiş və firavanlıq arzulayıram.

Allah Azərbaycanı qorusun! Allah islam ümmətimizi qorusun! Sağ olun, cənab Prezident!

## AŞPA MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predanı və Stefan Şennakı qəbul etmişdir.*

*AŞPA Monitorinq Komitəsinin həmməruzəçiləri səfər çərçivəsində Bakıda keçirəcəkləri görüşlər barədə dövlətimizin başçısına məlumat verdilər.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olundu, əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi imkanları ətrafında fikir mübadiləsi aparıldı.*

## MDB ÜZV DÖVLƏTLƏRİNİN BAKIDA SƏFƏRDƏ OLAN GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Bakıda keçiriləcək Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiyanın, Belarusun, Özbəkistanın, Qırğızıstanın, Tacikistanın, Qazaxıstanın gömrük xidmətlərinin rəhbərlərini və MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedevi qəbul etmişdir.*

*Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasında səmərəli müzakirələrin aparılacağına və müvafiq qərarların qəbul ediləcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Gömrük Xidməti Rəhbərləri Şurasının iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə etdi. Gömrük xidmətlərinin ölkələrin inkişafında mühüm rol oynadığını vurğulayan prezident İlham Əliyev büdcə gəlirlərinin təmin olunmasında və ümumi iqtisadi inkişaf dinamikasında bu xidmətlərin rolunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda gömrük sahəsində son zamanlar ciddi islahatların aparıldığını vurğulayaraq bildirdi ki, ticarət dövriyyəsinin bir qədər azalmasına baxmayaraq, bu islahatların səmərəli şəkildə həyata keçirilməsi nəticəsində gömrük rüsumlarının yığımı artıb. Prezident İlham Əliyev qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının önəmini qeyd etdi. Azərbaycan üçün ümumilikdə MDB çərçivəsində əməkdaşlığın bütün sahələrinin mühüm əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı ölkəmizdə MDB çərçivəsində çoxlu sayda müxtəlif tədbirlərin keçirildiyini vurğuladı. Prezident İlham Əliyev Müstəqil*

*Dövlətlər Birliyinə üzv ölkələrin Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasının fəaliyyətinə uğurlar arzuladı.*

*Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin bütün iştirakçılar adından Şuranın növbəti iclasının Bakıda keçirilməsi üçün yaradılan imkana görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Şuranın 65-ci iclasının Bakıda keçirilməsinin əlamətdar hadisə olduğunu deyən Vladimir Bulavin bu tədbirin MDB-yə üzv dövlətlərin gömrük xidmətlərinin rəhbərləri arasında qarşılıqlı anlaşmanın səmərəli informasiya mübadiləsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi və bu gün MDB-yə üzv ölkələr arasında gömrük sahəsində informasiya mübadiləsinin yüksək səviyyədə aparıldığını vurğuladı. O belə tədbirlərin eyni zamanda, gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti ilə bağlı aktual məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını nəzərə çatdırdı.*

*MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedev MDB ölkələri Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasının yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və qeyd etdi ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyi çərçivəsində artıq bir sıra mühüm tədbirləri uğurla həyata keçirir. O, Azərbaycana budəfəki səfəri zamanı Bakının daha da gözəlləşdiyinin şahidi olduğunu və bunun onda dərin təəssürat yaratdığını vurğuladı.*

## COCUQ MƏRCANLI KƏNDİNƏ SƏFƏR

*14 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Cocuq Mərcanlı kəndinə səfərə gəlmişdir.*

*«Böyük qayıdış»ın başlanğıcı olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası artıq başa çatıbdır.*

*Dövlətimizin başçısı yenidən qurulan kənddə görülən işlərlə tanış oldu.*

*Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan, lakin ordumuzun şücaəti sayəsində azad edilən, dövlətimizin başçısının xüsusi diqqəti sayəsində qısa müddətdə yenidən qurulan bu kənd indi öz möhtəşəmliyi ilə diqqət çəkir. 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gələrək, Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən ümummilli lider Heydər Əliyev tezliklə ölkədəki ağır vəziyyəti nəzarətə götürdü, ordu quruculuğu istiqamətində əhəmiyyətli addımlar atdı. Məhz ulu öndərin qətiyyəti və iradəsi sayəsində 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və Azərbaycanın hərb tarixinə «qızıl hərf»lərlə yazılmış uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun bu qəsəbəsi ilə yanaşı, 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Lakin təhlükəsizlik baxımından uzun müddət məskunlaşmanın qeyri-mümkün olduğu bu kənd 2016-cı ildə prezident İlham Əliyevin tarixi xidmətləri sayəsində ikinci həyatını yaşamağa başladı. Buna ötən ilin aprelində qəhrəman Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verməsi və strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində nail olundu. Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. 2016-cı ilin noyabrında prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində ön*

*xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olarkən, işğal altında qalan torpaqlarımıza qayıdacağımıza bir daha əminlik yaratdı. Aprel döyüşlərində qazanılan qələbədən sonra Cocuq Mərcanlı kəndində təhlükəsiz yaşayışın bərpa edilməsinə, məcburi köçkünlərin öz ata-baba yurdlarına qaytarılmasına əlverişli şərait yarandı. Bu məsələdə dövlət başçımızın 2017-ci il yanvarın 24-də imzaladığı «Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında» Sərəncamı xüsusi əhəmiyyətə malikdir. Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin mütəxəssisləri qısa müddətdə 2 milyon 600 min kvadratmetr ərazinin minalardan, partlamamış döyüş sursatlarından təmizlənməsini həyata keçirdi, həmin ərazilər yaşayış üçün əlverişli vəziyyətə gətirildi. Bununla da kənddə böyük quruculuq işlərinə başlanıldı. Dövlət başçımızın xüsusi diqqət və qayğısı sayəsində həyata keçirilən bərpa işlərinin birinci mərhələsi artıq başa çatıb və Cocuq Mərcanlı öz sakinlərini qəbul etməyə hazırdır. «Böyük qayıdış»ın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər bir daha təsdiqləyir ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, düşmən tapdağı altında qalan əzəli torpaqlarımızın azad olunması uğrunda son ana qədər mübarizə aparacaqdır.*

*Azərbaycan prezidenti İlham Əliyev Cocuq Mərcanlı kəndində əvvəlcə yeni salınmış kənd yolunun açılışını etdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yolun ümumi uzunluğu 9 kilometr, eni isə 12 metrdir. İki hərəkət zolaqlı yolun tikintisi prezident İlham Əliyevin bu ilin fevralında imzaladığı «Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında» Sərəncama əsasən həyata keçirilib. Strateji əhəmiyyəti ilə seçilən bu yolun inşası zamanı zəruri olan yerlərdə su keçidləri tikilib, uzunluğu 24 metr olan ikiaşırımlı mövcud körpü bərpa edilibdir. Yol üzərində 76 yol nişanı və məlumatverici lövhələr quraşdırılıb, piyada zolaqları, yol cizgi və yolgöstərici xətləri çəkilibdir.*

*Sonra dövlətimizin başçısı yeni salınmış yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Kənd sakini Oqtay Həziyevin evi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Cocuq Mərcanlı kəndinin bərpası çərçivəsində görülən işlərlə tanışlıq zamanı kənd sakini Oqtay Həziyevin evində olmuşdur.*

*Səkkiz nəfərlik ailə təhlükəli olmasına baxmayaraq, 1994-cü ilin aprelindən kənddə yaşayır və bütün məcburi köçkünlərə nümunə olmaqla yanaşı, əsl vətənpərvərlik və fədakarlıq göstərir. Birinci mərhələdə kənddə 10 hektar ərazidə 50 fərdi evin və müvafiq infrastrukturun tikintisi aparılıb. Tikilmiş evlərə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan və əsasən Bakı şəhərində müvəqqəti məskunlaşan məcburi köçkünlər köçürüləcəkdir. Ümumi sahəsi 3850 kvadratmetr olan mənzillərin 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlıdır.*

*Dövlətimizin başçısı Oqtay Həziyevin ailə üzvləri ilə söhbət etdi.*

**İ l h a m  Ə l i y e v:** Bu gün ölkəmizin həyatında əlamətdar gündür, tarixi bir gündür. Bu gün Cocuq Mərcanlı kəndinin bərpası günüdür. Mən sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə təbrik edirəm.

Cocuq Mərcanlı kəndinin bərpası doğrudan da tarixi hadisədir. Siz – bu kənddə yaşayan insanlar kəndin tarixini yaxşı bilirsiniz. İndi bütün Azərbaycan Cocuq Mərcanlı kəndinin tarixini bilir, bütün dünya Cocuq Mərcanlını tanıyır. Bu kəndin Azərbaycan tarixində xüsusi yeri vardır. Siz yaxşı bilirsiniz ki, Cocuq Mərcanlı kəndi cəmi bir neçə ay erməni işğalı altında olub. Bu bir neçə ay ərzində Ermənistan işğalçı qüvvələri kəndi tamamilə dağıtmışdılar, bütün binaları sökmüşdülər. Yəni Cocuq Mərcanlı kəndi erməni vəhşiliyinin canlı şahididir. 1993-cü ilin dekabrında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilmiş uğurlu Horadiz hərbi əməliyyatı nəticəsində 20-dən çox kənd, o cümlədən Cocuq

Mərcanlı kəndi, Horadiz qəsəbəsi – bu gün Horadiz şəhəridir – işğaldan azad olundu. Ancaq burada yaşamaq təhlükəli idi. Buna baxmayaraq, Həziyevlər ailəsi burada yaşayıb.

Keçən ilin aprelində erməni hərbi təxribatının qarşısını alarkən, Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirmiş və minlərlə hektar Azərbaycan torpağını işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı azad edildi və bu gün on minlərlə hektar torpağa Azərbaycan Ordusu nəzarət edir. Lələtəpə yüksəkliyinin qaytarılması nəticəsində Cocuq Mərcanlıda təhlükəsiz şəraitdə yaşamaq mümkün oldu. Mən keçən ilin sonlarında bu bölgədə, Lələtəpədə, işğaldan azad edilmiş torpaqlarda olarkən, hərbçilərlə görüşərkən maraqlandım ki, Cocuq Mərcanlıda təhlükəsiz şəraitdə yaşamaq mümkündürmü, yoxsa yox. Mənə dedilər ki, mümkündür.

Bu ilin yanvar ayında müvafiq sərəncam imzalandı, Prezidentin ehtiyat fondundan vəsait ayrıldı. Martın 22-dən başlanan tikinti işləri mayın 20-də başa çatdırıldı – cəmi 2 aya. Yəni bütün bu tikinti işləri sizin gözünüzün qabağında olub və bu doğrudan da tarixi hadisədir. Cəmi 2 ay ərzində kəndin bir hissəsi bərpa edildi, birinci mərhələdə 50 ev, məktəb, tarixi Şuşa məscidinin bənzəri olan məscid tikildi, Horadizdən Cocuq Mərcanlıya yol çəkildi. Növbəti mərhələdə təqribən 100 əlavə ev – bəlkə ondan da çox, tibb məntəqəsi tikiləcək və iş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Bax, Cocuq Mərcanlı kəndinin şanlı tarixi bundan ibarətdir. İşğaldan əziyyət çəkən kənd bərpa olunubdur. Azərbaycan öz torpaqlarının bir hissəsini işğalçılardan azad edibdir. Əminəm ki, Cocuq Mərcanlı kəndinin gələcək həyatı uğurlu olacaq, xoşbəxt olacaq və kənd sakinləri buraya qayıdandan sonra həyat daha da canlanacaqdır.

Sabah Qurtuluş Günüdür. Biz Qurtuluş Gününün ərəfəsində görüşürük. Qurtuluş Günü müasir Azərbaycan tarixində dönüş nöqtəsi idi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda sabitlik bərpa edildi, inkişafa start verildi və bugünkü Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir. Təəssüf ki, ulu öndər Heydər Əliyev müstə-

qilliyimizin ilk günlərindən Azərbaycanda rəhbərlikdə olmamışdır. Əgər olsaydı, bir qarış torpaq belə, işğal altına düşməzdi. Əfsuslar olsun ki, müstəqilliyin ilk illərində ölkəmizə rəhbərlik etmiş şəxslər zəiflik, qorxaqlıq göstərmişlər. O ki qaldı AXC–Müsavat cütlüyünün hakimiyyətinə, o, biabırçı dövr idi, yarıtmaz hakimiyyət torpaqlarımızı qoruya bilmədi.

Qurtuluş Günü bugünkü reallıqları şərtləndirən gündür. Təsəvvür edin, əgər ulu öndər Heydər Əliyev müstəqilliyimizin ilk illərindən Azərbaycanda hakimiyyətdə olsaydı, biz özümüzü böyük bəlalardan qoruya bilərdik.

Ancaq işğala baxmayaraq, bu gün Azərbaycan inkişaf edir, güclənir, güclü iqtisadiyyat qurub, beynəlxalq arenada öz mövqelərini möhkəmləndirir. Biz hərbi sahədə böyük uğurlara nail olmuşuq, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır və aprel döyüşləri bunu bir daha göstərdi. Biz bunu bilirdik, Azərbaycan ictimaiyyəti də bilirdi. Ancaq aprel döyüşləri bunu əyani şəkildə bütün dünyaya və düşmənə göstərdi ki, bu gün Azərbaycan dövləti öz ərazi bütövlüyünü bərpa etməyə hazırdır, buna qadirdir.

Cocuq Mərcanlı kəndi artıq sizin adınızla bağlıdır. Kəndi sizdən ayırmaq mümkün deyil, sizi də kənddən. Siz bunu sübut etmisiniz. Mən maraqlanmışam, bilirəm ki, siz başqa yerdə yaşaya bilməmisiniz və müəyyən müddətdən sonra kəndə qayıtmısınız. Yenidən burada həyat qurmusunuz, kəndə nəfəs vermisiniz, böyük təsərrüfat yaratmısınız və öz doğma torpağınızda həyatınızı riskə qoyaraq, təhlükə altında yaşamışınız. Bütün bu çətinliklərə, risklərə baxmayaraq, burada güllə altında, mərmi altında yaşamısınız, qurmusunuz və vətənpərvərlik nümunəsi göstərmisiniz. Göstərmisiniz ki, Azərbaycan xalqı öz torpağına canı, qanı ilə bağlıdır. Göstərmisiniz ki, Azərbaycan vətəndaşı istənilən şəraitdə, hətta təhlükə altında belə, öz torpağında yaşayır, qurur, yaradır. Yəni bir gün yox, bir həftə yox, hər gün gecə-gündüz təhlükə altında 20 ildən çox yaşamısınız. Buna görə sizinlə bütün Azərbaycan xalqı fəxr edir. Siz ən yüksək qiymətə layiqsiniz. Mən sizinlə fəxr edirəm.

Bilirsiniz ki, bir neçə ay bundan əvvəl mənim göstərişimlə Azərbaycanda dövlət ordenləri sırasına yeni orden də əlavə olundu – «Əmək» ordeni. Bu qərar ona görə qəbul edildi ki, bu gün biz zəhmətkeşləri gərək xüsusi fərqləndirək, mükafatlandıraq. «Əmək» ordeninin 3 dərəcəsi var və bu ordeni təsis edərkən mən fikirləşirdim ki, 1-ci ordeni kimə verim. Amma çox fikirləşmədim və qərara gəldim ki, 1-ci ordeni Həziyev ailəsinin başçısı Oqtay Həziyevə verim. Sən buna layiqsən və hesab edirəm, tam ədalətlidir ki, 1-ci «Əmək» ordeni və 1-ci dərəcəli orden Oqtay Həziyevə verilir.

*Sonra doğma torpaqlara dərin bağlılıq nümayiş etdirməklə, insanların vətənpərvərlik hisslərinin yüksəldilməsində göstərdiyi şəxsi nümunəyə görə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd sakini Oqtay Həziyevin birinci dərəcəli «Əmək» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin imzaladığı Sərəncam oxundu.*

*Dövlətimizin başçısı birinci dərəcəli «Əmək» ordenini və evin orderini Oqtay Həziyevə təqdim etdi.*

**O q t a y  H ə z i y e v:** Çox sağ olun, cənab Prezident! Allah canınızı sağ eləsin. Biz Sizə minnətdarıq.

Cənab Prezident, icazə verin, bizim ailəyə göstərdiyiniz diqqətə və qayğıya, mənə verdiyiniz yüksək dəyərli ordenə görə Sizə öz adımdan, ailə üzvlərimin və yaxınlarımın adından dərin təşəkkürümü bildirim. Çox sağ olun, cənab Prezident! Ulu öndərimizə Allahdan rəhmət diləyirik. Siz çox gözəl qeyd etdiniz, bu müharibənin əzabını yaşayan bir insan kimi, bilirdik ki, əgər ulu öndərimiz əzəldən bu hakimiyyətdə olsaydı, biz bu torpaqlardan heç vaxt getməzdik. Allah Sizin canınızı sağ eləsin. Biz Sizin komandanlığınız altında Lələtəpə yüksəkliyinin işğaldan azad olunmasının canlı şahidiyik. Maşallah, indi bizim çox qüdrətli ordumuz vardır. Təməli ulu öndərimiz tərəfindən qoyulan ordumuzu Ali Baş Komandan kimi, Siz əvəzi olmayan bir orduya çevirmisiniz. Bunu mən birmənalı olaraq öz gözümlə görmüşəm. Bilmirəm ermənilər nəyə arxalanırlar. Məgər onlar

görmürlər ki, Azərbaycan dövlətinin İlham Əliyev kimi Prezidenti və onun komandanlığı altında güclü ordusu vardır!

Çox sağ olun, cənab Prezident! Qısa müddətdə bizə belə gözəl həyat bəxş etmisiniz. Bizim kənddə heç zaman məscid, qaz, internet olmayıb. Bizə bunların hamısını Siz bəxş etmisiniz. Biz Sizə Allahdan cansağlığı, uzun ömür diləyirik.

Biz bu fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanımı bir daha təbrik edirik. Mehriban xanım bu vəzifəyə layiq insandır. İnanırıq ki, cənab Prezident, Siz Mehriban xanımla bərabər işğal altında olan ərazilərimizi azad edəcəksiniz, Azərbaycanın hər bir guşəsində belə gözəlliklər yaradacaqsınız.

**İ l h a m  Ə l i y e v:** Burada bütün şərait yaradılıb. Qohumlarınız, qonşularınız da qayıdacaqlar.

Bu gün Lələtəpədə və işğaldan azad edilmiş digər torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək ki, bizim bayrağımız Şuşada da qaldırılacaqdır.

İşğal böyük ədalətsizlikdir, beynəlxalq qanunların pozulması deməkdir. Ancaq əfsuslar olsun ki, dünyada ikili standartlar mövcuddur. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, erməni silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxsın. Ermənistan buna əməl etmir. Bu qətnamələri qəbul edənlər də Ermənistanı məcbur etmir ki, o buna əməl etsin. Problem bundan ibarətdir.

Ancaq biz ölkəmizi böyük dərəcədə gücləndirmişik. Bir daha deyirəm, əgər müstəqilliyimizin ilk illərində ulu öndər ölkəmizdə hakimiyyətdə olsaydı, heç bir problem yaşanmazdı. Ermənilər Naxçıvanı da işğal etməyə çalışırdılar. Ancaq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə orada bütün müdafiə tədbirləri görüldü və düşmən yerinə oturduldu. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi ölkə miqyasında müdafiə məsələlərini düzgün təşkil edə bilmədi və torpaqlarımız işğal altına düşdü. Ancaq biz ölkəmizi, ordumuzu gücləndiririk və ərazi bütövlüyümüzü bərpa edəcəyik. Cocuq Mərcanlı bunu əyani şəkildə sübut edir və təsdiqləyir.

**O q t a y  H ə z i y e v:** Çox sağ olun, cənab Prezident, Sizə minnətdarıq. Allah Sizi qorusun. Bu qardaşımdır, o da həyat yoldaşımdır.

**Ə l i  H ə s ə n o v (***Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri):* Heyvandarlıqla məşğuldurlar, öz təsərrüfatları, 600 baş qoyunu, 70–80 baş inəyi və 20 arı ailəsi vardır.

**İ l h a m  Ə l i y e v:** Dolanışığınız yaxşıdır?

**Ə l i  H ə s ə n o v:** 70 hektarda taxıl, arpa əkir. Demək, yalnız çaya, qəndə, bir də paltara pul verirlər. Qalan şeyə pul vermirlər.

**İ l h a m  Ə l i y e v:** Eşitmişəm ki, orduya da kömək göstərirsiniz.

**Ə l i  H ə s ə n o v:** Bəli, elədir. Çox gözəl ailədir, hamısı da sağlam, göz dəyməsin, ana 83 yaşındadır.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı. İndi məktəb də olacaq, uşaqlar burada oxuyacaqlar. Tezliklə tibb məntəqəsi də tikilməlidir. İş yerləri də açılır. Mən xüsusi göstəriş vermişəm ki, dövlət qurumları burada iş yerləri açsın. Çünki buraya qayıdacaq vətəndaşlar gərək işləsinlər.

**Ə l i  H ə s ə n o v:** «Azərişıq» 35/10 kilovatlıq böyük yarımstansiya tikibdir. «Azəravtoyol» Cəbrayıl rayonunun ləğv olunmuş avtomobil yolları idarəsini bərpa edib, böyük gözəl bir bina tikib, artıq hazırdır. Daxili İşlər Nazirliyi polis idarəsi üçün bina tikibdir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bütün rabitə-kommunikasiya xidməti üçün yer götürüb, bina tikir. Bütün nazirliklər məşğuldur.

**İ l h a m  Ə l i y e v:** Biz tezliklə növbəti tikinti işlərinə də start verməliyik.

**Ə l i  H ə s ə n o v:** Artıq 100 ailəlik layihə işləri gedir və tezliklə o da tamamlanacaqdır.

**İ l h a m  Ə l i y e v:** Bir daha sizi təbrik edirəm.

**O q t a y  H ə z i y e v:** Çox sağ olun, cənab Prezident!

## Cocuq Mərcanlıda yeni inşa olunmuş 96 şagird yerlik məktəblə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Cocuq Mərcanlıda yeni inşa olunmuş 96 şagird yerlik məktəblə tanış olmuşdur.*

*Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əvvəlcə Müdafiə naziri Zakir Həsənov, Baş Qərargah rəisi Nəcməddin Sadıkov və 2-ci korpusun komandiri Mayis Barxudarovla görüşdü.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən görülən işlər nəticəsində kənddə küçələrdə işıqlandırma sistemi qurulub, su, qaz, telefon xətləri çəkilib, subartezian quyusu qazılıb, 100 kubmetrlik su anbarı inşa edilib. Yollara və səkilərə asfalt örtüyü salınıb, yaşıllaşdırma işləri aparılıb. Kənddə müasir standartlara cavab verən yeni yarımstansiya inşa edilib. Yeni komplekt transformator məntəqəsi, həmçinin subartezian quyusuna xidmət edəcək transformator quraşdırılıbdır.*

*Bununla da Cocuq Mərcanlı qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş sayca 96-cı, məcburi köçkünlərin öz yurdlarına qaytarıldığı ilk yaşayış məskəni kimi tarixə düşdü. Qeyd edək ki, Cocuq Mərcanlı kəndində hazırda 400 ev təsərrüfatı, 1428 sakin qeydiyyatdadır. Kənd əhalisinin əksəriyyəti yığcam şəkildə Biləsuvar rayonu ərazisində salınmış məcburi köçkün qəsəbələrində məskunlaşıb. Respublikanın 17 şəhər və rayonunda müvəqqəti yaşayan həmin ailələrdən 250-dən çoxu müraciət edərək, öz yurdlarına qayıtmaq arzusunda olduqlarını bildiriblər.*

*Məktəbdə Cəbrayılın işğaldan əvvəlki vəziyyəti, rayonun tanınmış xadimləri, ali məktəblərə yüksək balla qəbul olunan məzunları, bu kənddə ermənilərin törətdikləri vandalizm, vəhşilik, 23 il doğma kəndini tərk etməyən Həziyevlər ailəsi, prezident İlham Əliyevin tapşırığı ilə xarici KİV nümayəndələrinin, diplomatik korpusun və beynəlxalq təşkilatların rəhbərlərinin Cocuq Mərcanlı kəndinə səfərləri əks olunan fotostendlər kənd*

*haqqında dolğun təəssürat yaradır. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin büstü, dahi rəhbərin məcburi köçkünlərə diqqət və qayğısını əks etdirən fotostend qoyulub. Dəhlizdə rəşadətli Azərbaycan Ordusunun uğurlu aprel döyüşləri, Cocuq Mərcanlı kəndinin bərpadan əvvəlki və sonrakı görüntülərinin əks olunduğu stendlər yer alıb. Sinif otaqları, informatika, gənclərin çağırışaqədərki hazırlıq kabinələri, müəllimlər otağından ibarət məktəb binası lazımi inventar və avadanlıqlarla, istilik sistemi və internetlə təchiz edilibdir.*

*Məktəbdə olarkən prezident İlham Əliyev hərbi məktəblərin kursantlarının bir qrupu ilə görüşdü.*

**S ə n a n  Ə s ə d o v** (*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı*): Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Bu gün Sizinlə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində görüşmək bizim üçün şərəfdir. Cocuq Mərcanlı kəndində görülən işlər və yaradılan şərait ölkəmizdə hər bir sahədə gedən dinamik inkişafın bariz nümunəsidir. İnkişaf hərb sahəsində də özünəməxsus şəkildə gedir. Bu inkişafa, bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə bütün hərbi qulluqçular adından dərin minnətdarlığımı bildirirəm.

Cənab Ali Baş Komandan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda verəcəyiniz hər bir əmrə mən və bütün hərbi qulluqçular daim hazırıq.

**R ə ş a d  A l ı y e v** (*Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyasının kursantı*): Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini olaraq, bu gün burada Sizinlə görüşməyimlə fəxr və qürur hissi keçirirəm. Valideynlərim Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakinləri olsalar da, təəssüf hissi ilə bildirirəm ki, məcburi köçkün kimi, Biləsuvar rayonu ərazisində yerləşən çadır şəhərciyində doğulmuşam. Ulu öndər Heydər Əliyevin apardığı siyasət nəticəsində 1994-cü ildə Cocuq Mərcanlı kəndinin və Sizin rəhbərliyiniz altında 2016-cı ildə aprel döyüşlərində bir çox

strateji yüksəkliklərin erməni işğalından azad edilməsi biz kursantları daha da ruhlandırdı. Sizin sərəncamınızla Cocuq Mərcanlıda yeni evlər, məktəb inşa edilibdir. Bunun üçün Sizə Cocuq Mərcanlı kəndinin sakinləri adından minnətdarlığımı bildirirəm. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü və müstəqilliyi uğrunda Sizin rəhbərliyiniz altında Vətən torpaqlarını işğaldan azad etməyə hər an hazırıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Bu gün tarixi bir gündür, Cocuq Mərcanlı kəndinin bərpası günüdür və bu, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində mümkün olubdur. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu ölkəmizdə uğurla gedir. Ordu quruculuğu Azərbaycan rəhbərliyi üçün bir nömrəli prioritet məsələdir və son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilibdir. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir, ordumuza lazım olan bütün ən müasir texnika, silah və sursat alınır, gətirilir. Azərbaycanda bir çox hərbi təyinatlı məhsullar istehsal olunur. Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir və bunun nəticəsidir ki, keçən ilin aprelində erməni silahlı təxribatına Azərbaycan Ordusu layiqli cavab verdi. 3 rayonun ərazilərinin bir hissəsi işğalçılardan azad edildi, o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu uğurlu əks-hücum əməliyyatı nəticəsində bu gün Cocuq Mərcanlı kəndinə yeni nəfəs verilir, həyat qayıdır, köçkünlər qayıdır. Onlar 20 ildən çoxdur ki, bu yurdun həsrəti, öz doğma torpağına qayıtmaq arzusu ilə yaşayırlar. Baxmayaraq ki, başqa yerdə doğulmusan, sən də Cocuq Mərcanlı kəndinin sakinisən. Amma əminəm, sənin kimi yüzlərlə gənc var ki, Cocuq Mərcanlını görməyib, ancaq buraya qayıtmaq arzusu ilə yaşayır. Bu gün gəldi, bu, tarixi bir gündür. Bu gün onu göstərir ki, biz hələ də işğal altında olan bütün torpaqlara qayıdacağıq. Bunu deməyə əsas verən bir çox amillər vardır. Güclü iqtisadiyyat, güclü Azərbaycan, güclü ordumuz və keçən ilin aprel ayında aparılan döyüşlər Azərbaycan xalqının, ordusunun gücünü, cəsarətini göstərdi. Bu gün biz Cocuq Mərcanlıda yeni

gözəl mərhələnin başlanğıcını qeyd edirik. Yeni evlər, məktəb, Şuşa məscidinin bənzəri olan məscid tikilibdir. Növbəti mərhələdə ən azı 100 əlavə ev tikiləcək və Cocuq Mərcanlı kəndinin sakinləri buraya qayıdacaqlar. Siz isə gənc zabitlər kimi, gələcəkdə ölkəmizin müdafiəsinin keşiyində dayanacaqsınız. Bütün gənclər kimi, siz də hər an Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hazır olmalısınız. Bu gün Azərbaycan gənci vətənpərvərdir, Vətənə bağlıdır, peşəkardır, biliklidir və bizim gücümüz bundan ibarətdir. Sizin kimi gənclər gələcəkdə ölkəmizin inkişafında önəmli rol oynayacaqlar.

Sizə uğurlar diləyirəm. Sizi bu tarixi hadisə münasibətilə təbrik edirəm və Azərbaycan Ordusuna yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

*Qeyd edək ki, məktəbin həyatində qazanxana, voleybol və basketbol meydançaları yaradılıb, yaşıllıqlar salınıb. Bu məktəbdə dərs deyəcək müəllimlər və təhsil alacaq uşaqlar indi ikiqat sevinc hissi keçirirlər.*

## Cocuq Mərcanlıda tikilmiş məscidlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu müqəddəs ocağın inşası işğalçı Ermənistana və beynəlxalq aləmə bir mesajdır. Bu bir daha dünyaya bəyan edir ki, Azərbaycan islam dünyasının bir parçasıdır, öz tarixi keçmişinə sadiqdir. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzərinin inşası həm də o deməkdir ki, gün gələcək Şuşadakı məscid də bərpa ediləcək. Məscidin tikilməsi, həmçinin 2017-ci ilin ölkəmizdə «İslam həmrəyliyi ili» elan edilməsinə dəyərli töhfədir.*

*Prezident İlham Əliyev məsciddə yaradılan şəraitlə tanış oldu.*

*Azərbaycan Prezidentinə Qurani-Kərim hədiyyə edildi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, 50 sot ərazidə inşa edilən məscidin minarələrinin hündürlüyü 26 metrdir. Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, prezident İlham Əliyev ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında müstəsna xidmətlər göstərir. Dövlətimizin başçısı islam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq, ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir.*

## Kənddə aparılan bərpa işləri ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məscidlə tanışlıqdan sonra Cocuq Mərcanlı kəndinin ərazisini gəzdi.*

*Dövlətimizin başçısına kəndin ərazisində görülməsi nəzərdə tutulan işlər barədə ətraflı məlumat verildi.*

*Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 23 ildə 6 milyard manatdan çox vəsait sərf olunub. Ümumilikdə indiyədək 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. Bunun da 95 faizi son 13 ildə inşa edilib. Görülən işlər nəticəsində 50 min ailənin və ya 250 min nəfər qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Hazırda 80 min ailə və ya 340 min məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyac vardır. Bu il Tərtər rayonunda 1170 məcburi köçkün ailəsi üçün dördmərtəbəli 34 yaşayış binasının tikintisinin başa çatdırılması nəzərdə tutulur. Artıq Abşeron rayonunun Masazır və Ramana qəsəbələrində yaşayış binalarının tikintisinə başlanılıb, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yeni yaşayış kompleksinin təməli qoyulubdur.*

*Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndində görülən işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## «JOHN DEERE» ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU SAMUEL ALLEN İLƏ GÖRÜŞ

*15 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də «John Deere» şirkətinin sədri və baş icraçı direktoru Samuel Alleni qəbul etmişdir.*

*Azərbaycanın «John Deere» şirkəti ilə artıq 10 ildən çoxdur səmərəli əməkdaşlıq həyata keçirdiyini qeyd edən dövlətimizin başçısı ölkəmizin bu əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı geniş proqramların qəbul edildiyini və bu proqramların artıq yaxşı nəticələr verdiyini nəzərə çatdırdı, bu baxımdan Azərbaycanda kənd təsərrüfatı texnikası, o cümlədən «John Deere» şirkətinin istehsal etdiyi məhsullar üçün böyük bazarın mövcud olduğunu qeyd etdi. Kənd təsərrüfatı ilə bağlı planlarımızın həyata keçirilməsi üçün müasir texnikanın önəmindən danışan dövlətimizin başçısı vurğuladı ki, ölkəmiz bu sahədə məhsuldarlığın və səmərəliliyin artırılması üçün müasir texnologiya və avadanlıqların tətbiqində maraqlıdır. Prezident İlham Əliyev Azərbaycanın kənd təsərrüfatı sahəsində uğurlar qazandığını qeyd edərək, bu sahədə ixracın artıq genişləndiyini vurğuladı, ölkəmizin ümumi daxili məhsulunda kənd təsərrüfatının payının bundan sonra da artacağına əmin olduğunu bildirdi.*

*Azərbaycana ilk dəfədir ki, səfər etdiyini qeyd edən «John Deere» şirkətinin sədri və baş icraçı direktoru Samuel Allen bu səfərlərin davamlı olacağına əminliyini ifadə etdi. Samuel Allen artıq ölkəmizdə mühüm kənd təsərrüfatı texnikası istifadəçiləri ilə görüşdüyünü məmnunluqla qeyd edərək bildirdi ki, Azər-*

*baycanda kənd təsərrüfatı sahəsində həyata keçirilən hazırkı və gələcək layihələrə göstərilən maraq çox yüksək səviyyədədir.*

*Görüşdə Azərbaycanın «John Deere» şirkəti ilə əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## PARLAMENTLƏRARASI İTTİFAQIN BAŞ KATİBİ MARTİN ÇUNQONQ İLƏ GÖRÜŞ

*15 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul etmişdir.*

*Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini, Bakının gözəl şəhər olduğunu bildirdi. Qonaq qeyd etdi ki, ölkəmiz haqqında nə qədər çox məlumat əldə edirsə, Azərbaycana marağı bir o qədər də artır. Martin Çunqonq ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin dinc şəraitdə yaşamasının önəmini qeyd edərək, Parlamentlərarası İttifaqın Azərbaycan ilə əməkdaşlıqda xüsusilə maraqlı olduğunu bildirdi.*

*Azərbaycan haqqında dolğun və obyektiv məlumatların yayılmasında maraqlı olduğumuzu deyən prezident İlham Əliyev müxtəlif ölkələrdən qonaqların, o cümlədən parlament üzvlərinin Azərbaycana səfərə gələrək, inkişafı öz gözləri ilə görməsinin əhəmiyyətini vurğuladı. Parlamentlərarası əlaqələrin önəminə toxunan dövlətimizin başçısı Azərbaycanın MDB, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların parlament assambleyaları ilə əməkdaşlıq etdiyini dedi və bildirdi ki, bu çoxşaxəli əməkdaşlıq uğurlu nəticələr verir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanda təşkil olunan yüksək səviyyəli beynəlxalq tədbirlər, səfərlər xalqlar və millətlər arasında dialoq, tolerantlıq və qarşılıqlı anlaşma mühitinin yaradılmasında xüsusi rol oynayır. Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqun ölkəmizə səfərinin əməkdaşlığımıza dair məsələlər ətrafında fikir mübadiləsi aparılması üçün yaxşı fürsət yaratdığını vurğulayan dövlətimizin başçısı bu səfərin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

## GÖRKƏMLİ ALİM, AKADEMİK RƏFİQƏ ƏLİYEVANIN QIRX MƏRASİMİNDƏ İŞTİRAK

*15 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Heydər məscidində tanınmış kimyaçı alim, akademik, kimya elmləri doktoru, professor, Əməkdar elm xadimi Rəfiqə Əliyevanın qırx mərasimində iştirak etmişdir.*

*Mərasimdə mərhumun ruhuna Quran ayəsi oxundu.*

*Akademik Rəfiqə Əliyeva ölkəmizdə kimya elminin inkişafına mühüm töhfələr verib. Onun rəhbərliyi altında çox önəmli elmi-tədqiqat işləri aparılıb. Bir sıra elmi şuraların və cəmiyyətlərin üzvü olan Rəfiqə Əliyeva 450-dən artıq elmi əsərin, 25 dərslik və dərs vəsaitinin, 20 patentin müəllifidir. Alimin rəhbərliyi altında 20-dən çox fəlsəfə və elmlər doktoru yetişib. Ömrünün çox hissəsini Bakı Dövlət Universiteti ilə bağlayaraq, pedaqoji fəaliyyətlə məşğul olan Rəfiqə Əliyeva ölkəmizdə analitik kimya sahəsində yeganə qadın akademik idi.*

## AVROPA İTTİFAQI KOMİSSARI YOHANNES HANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Avropa İttifaqının genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Yohannes Hanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Brüsselə son səfərini məmnunluqla xatırladaraq, səfər zamanı səmərəli müzakirələrin və danışıqların aparıldığını qeyd etdi, bu danışıqların əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı birgə yanaşmanı bir daha nümayiş etdirdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni saziş üzrə danışıqların səfərin növbəti günü başlanmasının rəmzi xarakter daşıdığını vurğuladı və bu danışıqların uğurla davam etdirildiyini dedi. Ölkəmizin Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu bildirən dövlətimizin başçısı əlaqələrimizin strateji xarakter daşıdığını və uzun illərə hesablandığını qeyd etdi, əməkdaşlığımızın sabitlik və təhlükəsizlik şəraitində davam etdirildiyini diqqətə çatdırdı. Ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının gündəliyində siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji və digər sahələri əhatə edən geniş məsələlərin durduğunu qeyd edən prezident İlham Əliyev Azərbaycan tərəfinin əlaqələrimizin daha da genişləndirilməsi üçün səylər göstərməyə hazır olduğunu bildirdi.*

*Avropa İttifaqının genişlənmə danışıqları və Avropa Qonşuluq Siyasəti üzrə komissarı Yohannes Han Azərbaycan Prezidentini Qurtuluş Günü münasibətilə təbrik etdi. Prezident İlham Əliyevin Brüsselə son səfərinə toxunan qonaq səfərin uğurlu*

*keçdiyini, məhz bu səfərdən sonra Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq sazişi üzrə danışıqların başlandığını qeyd etdi və danışıqların konstruktiv ruhda davam etdirildiyini bildirdi. Avropa İttifaqı ilə Azərbaycanın ikitərəfli münasibətlərə təsir göstərə biləcək məsələlərin həlli yollarını müəyyənləşdirməsinin vacibliyini vurğulayan Yohannes Han əlaqələrimizin gələcəkdə daha da inkişaf etdirilməsi üçün qarşılıqlı marağın olduğunu qeyd etdi. O bildirdi ki, Avropa İttifaqı qonşu ölkələrdə sabitliyin mövcud olmasında maraqlıdır və Azərbaycan regionda və daha geniş məkanda bu baxımdan mühüm rol oynayır.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi, həmçinin enerji və nəqliyyat sahələrində əməkdaşlığın hazırkı vəziyyəti ilə bağlı məsələlər müzakirə olundu, bu sahələrdə yaxşı perspektivlərin olduğu vurğulandı.*

*Görüşdə, həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## KOLUMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MARİYA ANXELA OLQİN İLƏ GÖRÜŞ

*16 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da Kolumbiya Respublikasının Xarici İşlər naziri xanım Mariya Anxela Olqini qəbul etmişdir.*

*Xarici İşlər naziri Mariya Anxela Olqin Azərbaycanda artıq Kolumbiya səfirliyinin açıldığını və burada Sakit Okean Alyansına daxil olan ölkələrdən Peru və Meksika ilə birlikdə fəaliyyət göstərdiklərini məmnunluqla qeyd etdi. Azərbaycanın böyük imkanlara malik ölkə olduğunu vurğulayan Mariya Anxela Olqin əməkdaşlığımızın genişləndirilməsi üçün birgə işləməyə hazır olduqlarını bildirdi. Qonaq Azərbaycan ilə Kolumbiya arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu, digər sahələrdə də əlaqələrimizin inkişaf etdirilməsinə maraq göstərdiklərini vurğuladı. Ölkəsində gedən proseslər barədə dövlətimizin başçısına məlumat verən Mariya Anxela Olqin Kolumbiyada uzun müddətdir davam edən münaqişə nəticəsində sülh sazişinin əldə edilməsindən sonra quruculuq işlərinə başlanıldığını, kənd təsərrüfatının inkişafı ilə bağlı bir sıra layihələrin həyata keçirildiyini qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycanda da regionların və kənd təsərrüfatının inkişafının əsas prioritetlərdən biri olduğunu vurğuladı, bu istiqamətdə aparılan islahatlardan danışdı.*

*Görüşdə Azərbaycan ilə Kolumbiya arasında əməkdaşlığın iqtisadiyyat, kənd təsərrüfatı, ticarət, turizm və digər sahələrdə inkişaf etdirilməsi üçün yaxşı imkanların mövcud olduğu vurğulandı, hər iki ölkənin bu əlaqələrin genişləndirilməsinə maraq göstərdiyi qeyd edildi.*

## GÖRKƏMLİ OPERA MÜĞƏNNİLƏRİ FİDAN VƏ XURAMAN QASIMOVALAR İLƏ GÖRÜŞ

*16 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da görkəmli opera müğənniləri, Xalq artistləri Fidan və Xuraman Qasımovaları qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xüsusi xidmətlərinə görə Fidan Qasımovanı «İstiqlal» ordeni ilə təltif etdi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Fidan xanım!

Sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Siz uzun illər öz sənətinizlə Azərbaycan xalqını sevindirmisiniz. Azərbaycan xalqı sizin fəaliyyətinizə yüksək qiymət verir, sizi sevir. Siz xalqımızı müxtəlif ölkələrin səhnələrində ləyaqətlə təmsil etmisiniz və bu gün də təmsil edirsiniz.

Sizin fəaliyyətiniz həm sovet dövründə, həm də müstəqillik dövründə yüksək qiymətləndirilibdir. Hələ sovet dövründə Azərbaycan Respublikasının Xalq artisti, SSRİ Xalq artisti adlarına layiq görülmüsünüz. Bu sizin istedadınıza verilən yüksək qiymətdir.

Siz yaxşı bilirsiniz ki, ulu öndər Heydər Əliyev sizə və Xuraman xanıma həmişə böyük diqqət və qayğı ilə yanaşırdı, sizi çox sevirdi, sizin fəaliyyətinizlə maraqlanırdı. Mən də öz növbəmdə, çalışıram ki, sizə lazımi qayğı və diqqəti göstərim. Azərbaycan dövləti, müstəqil Azərbaycan sizin fəaliyyətinizi çox yüksək qiymətləndirib. 1997-ci ildə ulu öndərin sərəncamı ilə siz «Şöhrət» ordeni ilə, 2010-cu ildə isə mənim sərəncamımla «Şərəf» ordeni ilə təltif edilmisiniz. Siz bir çox bey-

nəlxalq mükafatlara da layiq görülmüsünüz. Bu gün mənim sərəncamımla siz Azərbaycan dövlətinin ən yüksək ordenlərindən biri olan «İstiqlal» ordeni ilə təltif edilirsiniz. Bu, yüksək mükafatdır, siz buna layiqsiniz. Sizə yeni uğurlar arzulayıram.

*Dövlətimizin başçısı «İstiqlal» ordenini Fidan Qasımovaya təqdim etdi.*

**F i d a n Q a s ı m o v a** (*Xalq artisti*): Çox sağ olun, cənab Prezident, Sizə minnətdaram.

Cənab Prezident, heç vaxt yadımdan çıxmır, birinci ordenlə məni Sizin atanız, ulu öndərimiz, unudulmaz Heydər Əliyev təltif etmişdi. Bu gün isə Siz mənim sənətimi yüksək qiymətləndirirsiniz. Məni belə yüksək mükafata layiq gördüyünüz üçün Sizə böyük minnətdarlığımı bildirmək istəyirəm. Sizin ailənizə təşəkkürümü bildirmək istəyirəm. Bizim Birinci vitse-prezidentimiz Mehriban xanıma minnətdarlığımı bildirirəm. O da bizə qarşı həmişə çox diqqətli olub.

Biz Xuraman xanımla xaricdən – Florensiyadan təzə gəlmişik. Orada italiyalı tələbələrə ustad dərsləri keçirdik. Onlar bizim ölkəmizlə bağlı çox şey eşidiblər və Azərbaycanı yaxşı tanıyırlar. Azərbaycanı Avropada, bütün dünyada tanıyırlar. Bu Sizin sayənizdə olub.

Biz də öz sadə sənətimizlə Azərbaycanı tanıtdırırıq. Amma Siz bu istiqamətdə daha böyük işlər görürsünüz. Buna görə mən Sizə bir daha minnətdaram. Xuraman da mənim sözlərimə qatıla bilər. Çünki o, şahid idi ki, İtaliyada rektor və prorektor Azərbaycan haqqında necə xoş sözlər söyləyirdi. 1-2 ay bundan əvvəl vokal müəllimi Leonardo Belisi Azərbaycana gəlmişdi. O bizim Bakı şəhərini gördü, onun gözəlliyinə valeh oldu. O Sizin haqqınızda burada eşitdiklərini İtaliyada, Florensiyada bizə həvəslə danışırdı. Bu bizi çox sevindirirdi. Bu uğurlara görə Sizə bir daha səmimi-qəlbdən minnətdarlığımı bildirirəm.

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Almaniya Federativ Respublikasının sabiq Federal Kansleri, görkəmli dövlət və ictimai-siyasi xadim Helmut Kolun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxınlarına, bütün Almaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 iyun 2017-ci il*

## LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SALIMSAY KOMMASİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Laos Xalq Demokratik Respublikasının Xarici İşlər naziri Salımsay Kommasitin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Laos Xalq Demokratik Respublikasının Xarici İşlər naziri Salımsay Kommasit Azərbaycana ilk rəsmi səfər etməsindən şəraf hissi duyduğunu dedi və fürsətdən istifadə edərək, dövlətimizin başçısına Laos Xalq Demokratik Respublikasının Prezidenti Bunnyanq Voraçitin salamlarını və xoş arzularını çatdırdı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən prezident İlham Əliyev ölkəmizin Laos Xalq Demokratik Respublikası ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirdi. Dövlətimizin başçısı Laos Xalq Demokratik Respublikasının Xarici İşlər naziri Salımsay Kommasitin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi üçün qarşılıqlı marağın yaxşı göstəricisi olduğunu vurğuladı. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, nazir Salımsay Kommasitin ölkəmizə səfəri zamanı qarşılıqlı maraq doğuran və əməkdaşlığımızın perspektivlərinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər müzakirə ediləcəkdir.*

*Nazir Salımsay Kommasit qeyd etdi ki, Laos ilə Azərbaycan arasında əlaqələrin uzunmüddətli tarixi vardır və bu əlaqələr hələ sovetlər birliyi dövründən başlanıbdır. O vurğuladı ki, Azərbaycan Laos Xalq Demokratik Respublikasının sosial-iqtisadi inkişafına, o cümlədən kadr hazırlığı məsələsinə böyük*

*töhfə veribdir. Regionun lider dövləti olan Azərbaycanda böyük uğurların əldə edildiyini bildirən qonaq ölkələrimiz arasında qarşılıqlı səfərlərin önəmini vurğuladı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Laos Xalq Demokratik Respublikası arasında təhsil, turizm və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Laos Xalq Demokratik Respublikasının Prezidenti Bunnyanq Voraçitin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Laos Xalq Demokratik Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*19 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da ATƏT-in Minsk qrupunun həmsədrləri Stefan Viskontini, İqor Popovu, Riçard Hoqlandı və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Sizin Ermənistana və Azərbaycanın işğal olunmuş ərazilərinə səfərinizdən sonra və Azərbaycana gəlişiniz ərəfəsində Ermənistan təmas xəttində Azərbaycana qarşı növbəti hərbi təxribat törədib və bunun nəticəsində bir Azərbaycan əsgəri həlak olubdur. Azərbaycan Ordusu həmişə olduğu kimi, adekvat cavab verib və bunun nəticəsi sizə məlumdur. Bu mənim üçün təəccüblü deyil, çünki Ermənistan tərəfi həmişə hansısa mühüm tədbir və ya sizin səfəriniz ərəfəsində bu cür təxribatlar törədir və biz bunun bir neçə dəfə – 2014-cü, 2016-cı illərdə və indi də şahidi olmuşuq. Onlar bilirlər ki, mülki əhali və hərbi qulluqçularımıza qarşı istənilən hərbi təxribata biz adekvat cavab verəcəyik. Azərbaycan tərəfini buna ona görə təhrik edirlər ki, sonra bizi atəşkəsi pozmaqda ittiham etsinlər. Hadisələrin xronologiyasına baxmağınız kifayətdir ki, nə vaxt Azərbaycan əsgərinin Ermənistan ordusu tərəfindən öldürüldüyünü və nə zaman buna Azərbaycan tərəfindən adekvat cavab verildiyini görəsiniz. Beləliklə, təmas xəttində son atəşkəs pozuntusuna görə məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür və baş verə biləcək hər hansı hadisəyə görə bütün məsuliyyəti işğalçı Ermənistan ordusu daşıyır.

*Dövlətimizin başçısı onu da qeyd etdi ki, Azərbaycan tərəfi atəşkəs rejiminə sadiqdir. Son vaxtlarda təmas xəttində nisbi sakitliyin hökm sürdüyünü diqqətə çatdıran prezident İlham Əliyev bildirdi ki, bu, danışıqlar prosesini sürətləndirmək üçün mühüm amildir. Lakin baş verənlər aydın şəkildə göstərdi ki, Ermənistan nəyin bahasına olursa olsun, Minsk qrupu həmsədrlərinin fəaliyyətini pozmağa çalışır. Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan diqqəti yalnız təhlükəsizlik məsələlərinə yönəltmək istəyir və bütün bu baş verənləri Azərbaycanı atəşkəsi pozmaqda günahlandırmaq üçün bir bəhanə kimi istifadə edir. Bu tamamilə haqsız və ədalətsiz bir mövqedir.*

*Prezident İlham Əliyevə bəyan etdiyi fikirlərinə görə minnətdarlığını bildirən ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri İqor Popov qeyd etdi ki, həmsədrlərin Azərbaycana səfəri ərəfəsində baş verən bu ciddi atəşkəs pozuntusu dərin təəssüf hissi doğurur. O bildirdi ki, səfərin yekunu olaraq, qəbul edəcəkləri bəyanatda bu vəziyyəti əks etdirəcəklər.*

*Söhbət zamanı Fransadan olan həmsədr Stefan Viskonti, ABŞ-dan olan həmsədr Riçard Hoqland və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşik danışıqlar prosesi ilə bağlı fikirlərini ifadə etdilər.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Lüksemburqun milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Lüksemburq xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyun 2017-ci il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ SABİQ FEDERAL KANSLERİ HELMUT KOLUN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*20 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Almaniya Federativ Respublikasının ölkəmizdəki səfirliyinə gələrək, Almaniyanın sabiq Federal Kansleri Helmut Kolun vəfatı ilə əlaqədar başsağlığı vermişdir.*

*Dövlətimizin başçısı Almaniyanın sabiq Federal Kansleri Helmut Kolun vəfatı ilə əlaqədar başsağlığı verdi, Matəm kitabına ürək sözlərini yazdı.*

*Sonra prezident İlham Əliyev Almaniyanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Mixael Kindsqrabla söhbət etdi.*

*Dövlətimizin başçısı Helmut Kolun vəfatı ilə əlaqədar Almaniya xalqına başsağlığı verdi. Prezident İlham Əliyev vurğuladı ki, görkəmli ictimai-siyasi xadim, böyük və tarixi şəxsiyyət olan Helmut Kol öz xalqı qarşısında mühüm xidmətlər göstəribdir. O, Almaniyanın birləşdirilməsi və Avropa İttifaqının gücləndirilməsi istiqamətində əvəzsiz rol oynayıbdır. Ulu öndər Heydər Əliyev ilə Helmut Kolun Azərbaycan–Almaniya əlaqələrinin əsasını qoyduqlarını vurğulayan prezident İlham Əliyev Heydər Əliyevin prezidentliyi dövründə ilk rəsmi səfərlərindən birini Almaniyaya etdiyini, bu səfərin və mərhum Helmut Kolla keçirilən görüşlərin ikitərəfli münasibətlərin təməlini qoyduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı ulu öndərin Helmut Kolla görüşlərindən xoş təəssüratları onunla bölüşdüyünü bildirdi.*

*Bu gün ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev əməkdaşlığımızın*

*bir çox sahələri əhatə etdiyini bildirdi və əlaqələrimizin yaxşı perspektivə malik olduğunu qeyd etdi.*

*Almaniyanın Azərbaycandakı səfiri Mixael Kindsqrab başsağlığına və xoş sözlərə görə minnətdarlığını bildirdi. O, Almaniya–Azərbaycan əlaqələrinin inkişafından danışdı.*

*Söhbət zamanı almanların Azərbaycana gəlişinin 200 illik yubileyinə hazırlıqla bağlı görüləcək tədbirlər haqqında fikir mübadiləsi aparıldı.*

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*20 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin Ramazan ayı münasibətilə öz iqamətgahında açdığı iftar süfrəsi mərasimində iştirak etmişdir.*

*İftar mərasimi Qurani-Kərimdən ayələrin və Ramazan duasının oxunması ilə başlandı.*

**Allahşükür Paşazadə** (*Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam*): Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salam-dualarımı və dərin minnətdarlığımı bildirirəm. Məclisimizdə iştirak edən dəyərli dövlət və din xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin təmsilçilərinə «Xoş gəlmisiniz!» – deyirəm.

Zati-aliləri, Qurani-Kərimin nazil edildiyi, bütün duaların qəbul olunduğu mübarək Ramazan ayında iftar məclislərini bizimlə birgə keçirməyiniz Azərbaycan dindarlarına və şəxsimə olan yüksək ehtiram və etimaddır. Mən bunu yüksək dəyərləndirirəm. Bu məqam müqəddəs ənənə halını alıbdır. Bu ənənənin bünövrəsini – ali mənəviyyat yolunun başlanğıcını Azərbaycan xalqının ümummilli lideri, böyük dövlət xadimi, xatiri mənim üçün bir qardaş qədər daim əziz olan Heydər Əliyev qoymuşdur. Bu mübarək ayda mən Heydər Əliyevə və ömür-gün yoldaşı Zərifə xanıma Allahdan rəhmət diləyirəm.

Möhtərəm Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan gündən-günə inkişaf edir, yeni zəfərlər qazanır. Mən Sizin simanızda görkəmli dövlət xadimini, siyasi lideri, ölkə başçısını görməklə bərabər, Allah-Taalanın Azərbaycan xalqına lütfünü, inayətini və mərhəmətini görürəm. Uca Allahın lütfündəndir ki, Azərbaycan dindarları öz dövlətinin başçısını – zati-alinizi Məkkədə, mübarək Qurban bayramı ərəfəsində seçmək imkanına malik oldular. İslam tarixində ilk və istisna hal olan bu özəl məqamı dindarlar heç vaxt unutmayacaqlar.

Zati-aliləri, müqəddəs Kəbə evinin daxilində etdiyiniz niyyətin hasili olan Heydər məscidi dualarımızın müstəcab olmasının təsdiqidir. Sizin dövlət–xalq birliyinə əsaslanan müdrik siyasətiniz, qətiyyətli iradəniz sayəsində Azərbaycan yeni zəfərlər qazanır və qlobal təşəbbüslərin mərkəzinə çevrilir. Sizin təşəbbüsünüzlə keçirilən Mədəniyyətlərarası Dialoq, Qlobal, Humanitar forumlar, Dünya Dini Liderlərinin Sammiti, müəllifi olduğunuz «Bakı prosesi» buna bariz nümunədir. Bakı dünyanın humanitar mərkəzinə çevrilməkdədir. Sizin multikultural dəyərləri təşviq edən, islami həmrəyliyə dəvət edən qlobal ideyalarınız zamanın çağırışlarına cavab verir, nəinki ölkəmizin, bölgəmizin, habelə bütün bəşərin mənafeyinə xidmət edir. Siz yüksək xitabət kürsülərindən islam dininin sülhsevər mahiyyətini, mütərəqqi dəyərlərini təşviq edir, islamofobiya hallarına qarşı öz qətiyyətli mövqenizi bildirirsiniz. Sizin səyləriniz sayəsində Azərbaycan ekstremizm, radikalizm, terrorizmə qarşı mübarizənin önündə gedən dövlətlərdən biridir və islam dünyasının inkişafına öz töhfəsini verir.

Zati-aliləri, ötən ili «Multikulturalizm ili», bu ili isə «İslam həmrəyliyi ili» elan etmək kimi müdrik, beynəlxalq əhəmiyyətli qərarlarınız islami və bəşəri dəyərlərə ali xidmətinizdir. Bu, qlobal əhəmiyyətli addımdır. Hər dövlət başçısı bu addımı atmaq imkanında deyil. Bunun davamı olaraq, «İslam həmrəyliyi ili» çərçivəsində mötəbər idman bayramı – İslam Həmrəyliyi oyunlarının Azərbaycanda keçirilməsi, 54 müsəlman ölkəsini, hətta münaqişə vəziyyətində olan dövlətləri belə, bir araya gətirən həmrəylik bayramı, Azərbaycan idmançılarının zəfəri Sizin

misilsiz səylərinizin bəhrəsidir. Bütün bu nailiyyətlərə görə islam dünyası adından Sizə dərin təşəkkürlərimi qəbul edin. Mən Azərbaycan idmançılarını təbrik edirəm. Hər dəfə ucalan bayrağımız, səsləndirilən himnimiz bizə qürur gətirdi. Azərbaycan xalqı bir daha sübut etdi ki, onun lideri həm siyasi, həm mənəvi, həm də fiziki cəhətdən güclüdür. Siz bu qüruru bizə yaşatdınız.

Çox hörmətli cənab Prezident, bugünkü müqəddəs iftar süfrəsində ilin mühüm hadisəsi – möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti təyin olunması ilə bağlı müdrik qərarınıza görə ölkə dindarları adından Sizə dərin minnətdarlığımızı bildirmək istərdim. Mehriban Əliyevanın azərbaycançılıq naminə, milli-mənəvi irsimizin qorunması istiqamətində uzun illər ərzində misilsiz səylərinin, ölkə daxilində və xaricində uğurlu fəaliyyətinin şahidiyik. Mehriban xanıma Allah-Taaladan Azərbaycan naminə gələcək fəaliyyətinə xeyir-dua və uğurlar diləyirəm.

Hörmətli cənab Prezident, Siz din xadimlərinin mənəvi dayağısınız. Dini icmalar, axund və imamlarımızın maddi-mənəvi ehtiyacları hər zaman Sizin diqqət mərkəzinizdədir. «Dini etiqad azadlığı haqqında» Qanuna son əlavələr, islam dini təhsilinin inkişafı ilə bağlı tarixi qərarınız dini maarifləndirmə işinə böyük töhfələrdir və bunlara görə dindarların təşəkkürlərini Sizə çatdırıram. Yasamal rayonundakı Hacı Cavad məscidinin münasib yerə köçürülərək, şəxsi vəsaitiniz hesabına yenidən inşası barədə qərarınız dindarlar tərəfindən rəğbətlə qarşılandı. Buna görə Sizə və ailənizə dualar edirlər. Zati-aliləri, Siz təkcə Azərbaycanın deyil, bütün Qafqaz müsəlmanlarının mənəvi dayağısınız. Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin arzusunu nəzərə alaraq, azərbaycanlı xeyriyyəçi Murtuza Muxtarovun XX əsrin əvvəllərində Vladiqafqazda Azərbaycan milli memarlığı üslubunda inşa etdirdiyi Cümə məscidinin təmiri üçün Sizin ayırdığınız maddi yardım hesabına tarixi dini məkan əsaslı şəkildə bərpa edilib. İslam Həmrəyliyi oyunlarının açılışına şəxsi qonağınız kimi dəvət etdiyiniz Qafqaz müftiləri zati-alilərinizə xas olan bu diqqət

və qayğı nümunəsinə görə təşəkkürlərini Sizə çatdırmağı Qafqaz Xalqları Ali Dini Şurasının sədri olaraq, məndən xahiş ediblər.

Möhtərəm Prezident, Qafqaz Müsəlmanları İdarəsi həm «Multikulturalizm ili», həm də «İslam həmrəyliyi ili» çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, dini konfessiyaların rəhbərləri, ictimai təşkilatlar ilə birgə həm ölkə daxilində, həm də xarici ölkələrdə dövlət qurumları, elmi, dini mərkəzlərdə, nüfuzlu universitetlərdə milli, dini tolerantlığımızı, mənəvi dəyərlərimizi, multikultural həyat tərzimizi böyük qürurla təqdim və təbliğ etmişik. Təşkil etdiyimiz çoxsaylı beynəlxalq konfrans və görüşlərdə ölkəmizdəki dini konfessiya rəhbərləri ilə bərabər, Azərbaycandakı nümunəvi dinlərarası dialoq və məzhəblərarası münasibətlərin yüksək səviyyəsini dünya ictimaiyyətinin diqqətinə çatdırmışıq. Zati-alinizin tövsiyəsi ilə «İslam həmrəyliyi ili» çərçivəsində ölkəmizdə və xaricdə tədbirlərimiz davam edəcəkdir, inşallah!

Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul və təqdir edir. Roma Papası Fransisk Azərbaycana səfəri zamanı ilk dəfə müsəlman ibadət məkanında – Heydər məscidində dünyaya yayımlanan çıxışında Azərbaycanın multikultural həyat nümunəsini yüksək qiymətləndirdi. Həmçinin Qafqaz Müsəlmanları İdarəsi olaraq, bu il ərzində Rusiya patriarxı Kiril həzrətləri, Ümumgürcüstan katolikos-patriarxı II İliya həzrətləri ilə səmərəli görüşlərimiz Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq prosesinə töhfələrimizdir.

Zati-aliləri, Siz dərin məzmunlu çıxışlarınızdan birində buyurdunuz ki, Azərbaycan öz tarixi boyunca heç vaxt indiki qədər güclü olmayıb. Bu həqiqətən, belədir. Dünyanın böyük dövlətlərinin miqrant böhranı qarşısında aciz qaldığı bir dövrdə Azərbaycan öz əzəli torpaqlarından didərgin salınmış 1 milyondan artıq vətəndaşının problemlərini öz daxili imkanları hesabına həll etmək iqtidarı nümayiş etdirir.

Şanlı aprel qələbəmiz, Lələtəpə üzərində dalğalanan bayrağımız, məcburi köçkün soydaşlarımızın erməni işğalından azad

etdiyiniz əzəli Azərbaycan torpaqlarına qayıdışı, Cocuq Mərcanlıda Şuşa memarlığı üslubunda inşa olunmuş nəfis, əzəmətli məscid və onun minarələrindən ucalacaq azan çağırışı bizim «Böyük qayıdış»ımızın başlanğıcı olacaqdır, inşallah! Bütün bunlar Sizin – qüdrətli ordumuzun Ali Baş Komandanı olaraq, düzgün siyasətinizin, yenilməz iradənizin, atdığınız cəsarətli addımların bəhrəsidir.

Mən yenə də ulu öndəri yada salmaq istəyirəm. Ulu öndər Heydər Əliyev Bibiheybətdə çıxışında demişdi ki, Azərbaycanın bütün ərazilərində məbədləri bərpa edəcəyik, yenilərini tikəcəyik. Mənim edə bilmədiyimi mənim davamçılarım yerinə yetirəcəkdir. Bu gün Heydər Əliyev siyasətinin davamçısı kimi, zati-alinizin Cocuq Mərcanlıda tikdirdiyi məscid buna sübutdur ki, həmin dua Allah tərəfindən qəbul olundu. Hazırda işğal altında olan ərazilərimizdə də, inşallah, biz məbədlərimizi bərpa edəcəyik.

Allah-Taala Vətən şəhidlərimizə rəhmət eləsin!

Qoy ulu Yaradan ədalətli haqq mücadiləmizdə şanlı qələbəmizə rəvac versin!

Zati-aliləri, Ramazan ayı duaların qəbul olunduğu aydır. Biz dualar edirik ki, uca Allah Vətənimizin inkişafı, millətimizin xoşbəxtliyi naminə fəaliyyətinizdə Sizi müzəffər, dəyərli ailənizi bəxtiyar etsin, Azərbaycanımızın qoşa qanadları olan zati-alinizə və möhtərəm Mehriban xanıma himayəsini əsirgəməsin! Allah-Taala Sizi, övladlarınızı, nəvələrinizi qorusun! Allah-Taala Azərbaycan xalqını hifz etsin!

Bugünkü iftar məclisində iştirak edən möhtərəm qonaqlarımızı bir daha salamlayır, mübarək Ramazan ayında sizlərə, ailə üzvlərinizə ən xoş arzularımı yetirir, hamınıza Allah-Taaladan xeyir-dualar diləyirəm.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

**A l e k s a n d r   a t a** (*Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri*): Möhtərəm cənab Prezident!

Hörmətli şeyx həzrətləri!

Hörmətli xanımlar və cənablar!

Bizim ənənəvi iftarın sevindirici cəhəti odur ki, bu, müasir Azərbaycanın qədim ənənəsidir. Lakin ölkəmizə xas olan bu milli ənənə bizim cəmiyyətin vəziyyətini əks etdirir. Cənab Prezident, aydındır ki, Siz dövlət quruculuğuna böyük diqqət yetirirsiniz. Dövlət aparatında bəzi dəyişikliklər olunması, vitse-prezident vəzifəsinin təsis edilməsi buna sübutdur. Siz iqtisadiyyata, ölkənin ictimai quruluşuna xeyli vaxt ayırırsınız, gənclər siyasətinə xüsusi diqqət yetirirsiniz. Bu yaxınlarda İslam Həmrəyliyi oyunlarının böyük uğurla keçirilməsi buna sübutdur. Lakin bu gün diqqətdən yayınan daha bir tərkib hissə vardır – bu, insanların etiqad hissidir. Bir qayda olaraq, bu hiss Yer üzündəki insanların əksəriyyətinə xasdır. Lakin nədənsə bu məsələyə, bir qayda olaraq, həm dövlət rəhbərləri, həm də ictimai xadimlərin çoxu lazımınca diqqət yetirmir. Təəssüf ki, çox vaxt vicdansız adamların əksəriyyəti bu diqqətsizlikdən istifadə edir. Nəticədə isə biz ya dini ekstremizm, ya da deyildiyi kimi, dinlərarası münaqişə halları ilə üzləşirik. Buna səbəb insanların dini hisslərinə lazımınca diqqət yetirilməməsidir.

Qeyd etməliyəm ki, cənab Prezident, Siz insanların bu dini hisslərinə xüsusi diqqət yetirirsiniz. Nümunə kimi, çox gözəl abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzini, şəhərimizdəki möhtəşəm katolik məbədini və Gəncədə bərpa edilmiş heyranlıq doğuran İmamzadə kompleksini, Bakıdakı möhtəşəm Heydər məscidini göstərə bilərəm. Deməliyəm ki, mən ölkəmizin digər görməli yerləri ilə yanaşı, qonaqlarımıza hökmən Heydər məscidini də, İmamzadə kompleksini də göstərirəm. Onlar mənim qonaqlarımı heyran edir.

Bununla bərabər, cənab Prezident, deməliyəm ki, Siz IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda ölkənin dini həyatının daha bir aspektinə – dinlərarası dialoqun inkişafına və möhkəmlənməsinə diqqət yetirdiniz. Bunun əsası bizim Bakıda Dini Liderlərin Ümumdünya Sammitində qoyuldu. Sonra Siz bu

hərəkata yeni təkan verdiniz. Bugünkü iftar da bu dinlərarası dialoqa sübutdur. Burada Azərbaycanda mövcud olan müxtəlif konfessiyaların nümayəndələri toplaşıblar. Dini icmalara Sizin tərəfinizdən, ictimai xadimlər tərəfindən göstərilən dəstək də və əlbəttə, dindar insanlar arasında qarşılıqlı münasibətlər də buna sübutdur. Allaha şükür olsun ki, bizim ölkəmizdə dinlərarası münaqişə nümunələri yoxdur. Bu, prezident kimi, Sizin və ölkədə dinlərarası sülhün, həmrəyliyin mövcud olması və bunun vasitəsilə respublikamızda sabitliyin möhkəmlənməsi üçün cavabdeh insanların böyük diqqətinin təsdiqidir. Buna görə Sizə ürəkdən təşəkkür etmək, çox səmərəli və çoxşaxəli fəaliyyətinizdə uğurlar arzulamaq istəyirəm. Sizi əmin etmək istəyirəm, hansı dinə etiqad etməsindən asılı olmayaraq, ölkəmizin bütün dindarları dua edirlər ki, ulu Tanrı Sizə möhkəm cansağlığı, güc və qüvvət versin ki, mərhum Heydər Əliyevin yürütdüyü müdrik siyasəti bundan sonra da uğurla davam etdirəsiniz. Sizə öz fəaliyyətinizdə uğurlar, Azərbaycana, Azərbaycan xalqına, bizim ölkəmizə uğurlar və firavanlıq arzu edirəm. Burada belə mötəbər məclisin keçirilməsindən istifadə edərək, hamını bir həftədən sonra qeyd edəcəyimiz böyük dini bayram – Ramazan münasibətilə qabaqcadan təbrik etmək istəyirəm.

**M i l i x  Y e v d a y e v** (*Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri):* Möhtərəm Prezident!

Şeyx həzrətləri!

İlk növbədə, oruc və orucluq haqqında deyilənlərə mən Allahın bir kəlamını əlavə etmək istərdim. Allah-Taala öz bəndələrinə xitabən deyir: «Ey insanlar, mən hər şeyi sizin üçün yaratdım, sizi isə özüm üçün yaratmışam». Əgər Allah-Taala bizi özü üçün xəlq edibsə, biz də həmin yolun yolçuları olub bu yolda Allah-Taalanın həmişə xidmətində olacağıq.

Möhtərəm Prezident, Siz 2017-ci ili «İslam həmrəyliyi ili» elan etmisiniz. Bununla da Siz islam aləminə və bütün dünyaya bəyan etdiniz ki, dini və mədəni müxtəlifliyin harmoniyası əsasında elə bir cəmiyyət yaratmaq olar ki, o cəmiyyət dinc, sülh və əmin-amanlıq şəraitində yaşaya bilər. Bunun bariz nümunəsi isə bizim

doğma Vətənimiz Azərbaycan, Azərbaycan xalqı və Azərbaycanda yaşayan bütün xalqlardır. Bu, bütün dünyaya bəyan oldu. İnanın ki, Azərbaycan böyük dövlətlər arasında kiçik olmasına baxmayaraq, gördüyü işlər çox böyükdür. Möhtərəm Prezident, bu işlərin təməlini ulu öndər qoyubdur, bunlar Sizin müdrik siyasətiniz sayəsində hər addımınızı uğura çevirə bilən işlərdir. İslam Həmrəyliyi oyunları başlanmamışdan qabaq Siz respublikamızın Birinci vitse-prezidenti Mehriban xanımla birgə həyat mənbəyi olan suya müraciət etdiniz. Su həm də şəffaflıq rəmzidir. Bu ona dəlalət edir ki, möhtərəm Prezident, həm ulu öndərin respublikamız üçün gördüyü bütün xeyirxah işlər, həm də Sizin uğurlu siyasətiniz o müqəddəs su kimi şəffafdır.

Deyirlər ki, dünəninə baş əyməyən sabahını tapa bilməz. Biz iyunun 15-də Qurtuluş Gününü bir daha bayram etdik. Həmin Qurtuluş Günü bizim dünənimizə baş əyməyimiz idi. Ulu öndər dühasına bir daha baş əydik. Onun qurub-yaratdığı müstəqil, azad Azərbaycanın bu gününə bir daha baş əydik. Dahilər ona görə dahi olurlar ki, onlar sağlığında xalqın sevimlisi, dünyasını dəyişəndən sonra isə tarixin yaraşığına çevrilə bilirlər.

Möhtərəm Prezident, məhz ulu öndər sağlığında xalqın sevimlisi olub, dünyasını dəyişəndən sonra isə tarixin yaraşığıdır. Bir də dahilər ona görə dahidir ki, onlar heç kəsin görə bilmədiyi hədəfi görürlər. Bəli, ulu öndər bugünkü günümüzü yaratdı.

Möhtərəm Prezident, biz Qurtuluş Günü ilə bir daha dünənimizə baş əydik, sabahımız isə möhkəm əllərdədir. Siz həmişə çıxışlarınızda qeyd edirsiniz ki, biz hərb istəmirik, amma hərbə hazırıq. İnanın ki, Sizin o humanist qəlbiniz heç düşmən analarının da gözünün yaşlı olmasını istəmir. Çünki müharibədə atılan hər bir güllə bir ananın qəlbinə dəyir. Bizim şanlı ordumuzun nələrə qadir olduğu aprel döyüşlərində göründü. Cocuq Mərcanlıya qayıdış isə «Böyük qayıdış»ın başlanğıcıdır.

Möhtərəm Prezident, biz bugünkü uğurlarımıza görə Sizə minnətdarıq. Yaxın Şərqdə baş verənləri – millətləri, uşaqları, ahılları güllə yağışı altında görəndə, inanın ki, dözmək mümkün deyil.

Amma biz – qədirbilən xalqımız Sizin bu gün yaratdığınız sülh, əmin-amanlıq, dostluq, bərabərlik, qardaşlıq şəraitində yaşayırıq. Allah-Taala bu xoşbəxtliyi əlimizdən almasın! Hamınızın qarşıdan gələn bayramını təbrik edirəm. Tutduğunuz oruclara, etdiyiniz dualara görə Allah-Taala hamınıza xoşbəxtlik və səadət nəsib etsin.

Möhtərəm Prezident, biz – Azərbaycanda yaşayan bütün xalqlar, o cümlədən yəhudilər həmişə ətrafınızda sıx birləşmişik və respublikanın ictimai-siyasi həyatında əlimizdən gələni edirik.

Bazar günü Amerikanın 18 ştatından bizə qonaqlar gəlmişdi. Mən onlarla saat yarım söhbət etdim və axırda biri dedi ki, mən bu görüşə 1 ildir hazırlaşırdım. İndi gördüm ki, doğrudan da Azərbaycan tolerantlıq vadisidir.

Allah hamınızı salamat etsin, Allah amanında!

**Vladimir Fekete** (*Roma Katolik kilsəsinin ordinarisi):* Hörmətli cənab Prezident!

Şeyx həzrətləri! Mənim əziz dostlarım, hörmətli qardaşlarım, dini liderlər, mötəbər məclisin iştirakçıları!

Mən ilk növbədə, sizinlə birlikdə olduğuma, 2-3 kəlmə sözlə minnətdarlığımı bildirmək imkanına, bu iftarda iştirak etdiyimə görə təşəkkür etmək və eyni zamanda, bugünkü axşama, belə nümunəvi Azərbaycana görə ulu Tanrıya şükür etmək istəyirəm.

Möhtərəm şeyx həzrətləri, sizin qeyd etdiyiniz kimi, 8 ay bundan əvvəl ali qonaq – Papa Fransisk Azərbaycana səfər etdi, indiki dövrdə bizim yaşadığımız reallığı öz gözləri ilə gördü və Heydər məscidində dinlərarası görüşdə xüsusi qeyd etdi ki, Azərbaycan nümunəsi – dinlərarası münasibətlərin bu cür yüksək səviyyəsi dünyanın başqa ölkələri üçün də nümunə ola bilər və olmalıdır. Mən sevinirəm ki, bizim katoliklər – həm yerli, həm də əcnəbi katoliklər ibadətlərdə iştirak edə bilirlər, rahat, qorxu bilmədən, hər hansı çətinliklərlə üzləşmədən gündəlik həyata qoşulurlar. Beləliklə, xüsusən əcnəbilər Azərbaycanın sülh vadisi olmasına və onun xarici ölkələr üçün nümunə ola bilməsinə heyrandırlar.

Bu dəvətə görə çox qısaca təşəkkürümü bildirmək, burada iştirak edənlərin hamısını müqəddəs Ramazan ayı münasibətilə ürəkdən təbrik etmək və hamımıza arzu etmək istəyirəm ki, biz 1 ildən sonra da sülh və firavanlıq şəraitində görüşə bilək. Qoy Azərbaycan bütün dünya üçün daha möhkəm və cəlbedici nümunə olsun! Bayramınız mübarək!

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ NİTQ

*20 iyun 2017-ci il*

Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Xanımlar və cənablar!

İlk növbədə, sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqına sülh, firavanlıq, yeni-yeni uğurlar arzulayıram.

Biz mübarək Ramazan ayında ənənəvi olaraq, şeyx həzrətlərinin iftar süfrəsinə toplaşmışıq. Bu ənənə yaşayır və yaşamalıdır. Bu ənənənin əsasını ulu öndər Heydər Əliyev və şeyx həzrətləri qoyublar.

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin qurucusudur, onun banisidir. Onun hakimiyyətə gəlişi Azərbaycanı inkişaf yoluna çıxardı. Biz hamımız təəssüf hissi ilə qeyd edirik ki, ulu öndər müstəqilliyimizin ilk illərindən Azərbaycanda rəhbərlikdə olmamışdır. Əgər olsaydı, O, xalqımızı, dövlətimizi böyük bəlalardan qoruya bilərdi. Heydər Əliyev ölkəmizin bütün istiqamətlər üzrə əsas inkişaf strategiyasını müəyyən etmiş, onu həyata keçirmişdir. O cümlədən dövlət–din münasibətlərinin tənzimlənməsi işində ulu öndərin xüsusi rolu vardır. Onu da qeyd etməliyəm ki, 1993-cü ilə qədər bütün sahələrdə olduğu kimi, dini məsələlər sahəsində də vahid siyasət yox idi. Bu boşluq, əlbəttə, özündə çox böyük risklər saxlayırdı. 1993-cü ildən etibarən bütün istiqamətlər üzrə – xarici siyasət, daxili siyasət, iqtisadi, təhlükəsizlik məsələlərinin həlli, o cümlədən dövlət–din münasibətləri istiqamətlərində ardıcıl siyasət formalaşmağa başladı. Bu siyasətin əsas prinsipləri bu

gün də bizim üçün aktualdır. Bugünkü Azərbaycan bu möhkəm təməl üzərində inkişaf edir və inkişaf edəcəkdir.

Ənənəvi iftar süfrəsinin təşkilində də ulu öndər və şeyx həzrətləri nümunə göstəriblər. Əslində bu ənənəvi iftar məclisləri dövlət–din münasibətlərinin tərkib hissəsidir. Bu gün mən şeyx həzrətlərinin bu işlərdə xüsusi rolunu qeyd etmək istəyirəm. Şeyx həzrətləri həm Azərbaycanda, Qafqazda, postsovet məkanında, həm də dünya miqyasında çox böyük nüfuza malik olan xadimdir. Mən bilirəm ki, şeyx həzrətlərinə dünya dini liderlərinin böyük hörməti vardır. Şeyx həzrətləri öz fəaliyyəti ilə ölkəmizin nüfuzunu beynəlxalq aləmdə gücləndirir, ölkəmizi təbliğ edir, Azərbaycanı müasir, öz dini, milli köklərinə bağlı olan, eyni zamanda, tolerant, dünyaya açıq ölkə kimi təqdim edir. «İslam həmrəyliyi ili» çərçivəsində həm ölkə daxilində, həm xaricdə şeyx həzrətlərinin rəhbərliyi ilə bir çox tədbirlər keçirilibdir və keçiriləcəkdir. Bu bir daha Azərbaycanı dünyaya inkişaf edən, müasir və dinamik ölkə kimi təqdim edəcəkdir.

Bizim şeyx həzrətləri ilə şəxsi dostluq münasibətlərimiz vardır. Bu münasibətlər həm bizim üçün, həm də ölkə üçün önəmlidir. Biz nümunə və yol göstəririk ki, dövlət–din münasibətləri necə qurulmalıdır. Bu sahədə əldə edilmiş nailiyyətlərə görə Azərbaycan bir çox ölkələr üçün nümunə ola bilər. Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin. Dövlət xətti ilə təmir edilmiş və tikilmiş tarixi məscidlərimiz, dini abidələrimiz, eyni zamanda, kilsələr, sinaqoqlar artıq bunun bariz sübutudur. Din də dövlət işinə, siyasi işlərə qarışmır. Hesab edirəm ki, bu da nümunəvi bir yanaşmadır. Bununla bərabər, dövlət və din bir yerdədir. Çünki bizim amalımız birdir. İstəyirik ki, ölkəmiz daha da möhkəmlənsin, daha da güclənsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın və dinamik inkişafımız uzunmüddətli və dayanıqlı olsun. Ona görə dövlət–din münasibətlərinin sağlam zəmində formalaşması bizim böyük sərvətimizdir. Yenə də deyirəm, bizim bu nümunəmiz hesab edirəm ki, bir sıra ölkələr üçün çox cəlbedicidir. Təsadüfi deyil ki, Azərbaycana gələn xarici

qonaqlar, o cümlədən dini liderlər bizim təcrübəmizi öyrənirlər, maraqlanırlar və Azərbaycan reallıqları ilə tanış olarkən, əlbəttə, daim öz hörmətlərini ifadə edirlər. Keçən Ramazan ayından ötən dövr ərzində Azərbaycanda dinamik inkişaf davam etdirilib, bir çox önəmli hadisələr baş veribdir. Onların arasında Roma Papasının Azərbaycana səfərini xüsusi qeyd etmək istərdim. Roma Papasının səfəri Müqəddəs Taxt-Tacın Azərbaycana olan münasibətinin təzahürüdür. Onu da qeyd etməliyəm ki, Azərbaycan ilk müsəlman ölkələrindən biridir ki, Roma Papası bu ölkəyə səfər edib. Səfər zamanı onun bəyanatları Azərbaycanda dinlərarası münasibətlərə verilən yüksək qiymətdir. Əlbəttə, biz – Azərbaycanda yaşayan və bu siyasəti aparan insanlar bilirik ki, bu bizim böyük sərvətimizdir, ancaq eyni zamanda, bunu artıq dünya da bilir və dünyanın nüfuzlu şəxsiyyətləri bunu qeyd edirlər.

Onu da qeyd etməliyəm ki, Roma Papası Heydər məscidində Azərbaycanda bütün ənənəvi dini icmaların rəhbərləri ilə görüşmüşdür. Bu görüşün də çox böyük rəmzi mənası vardır. Çünki Roma Papası ilə həmin görüşdə, bax, bu gün bu masa arxasında əyləşən və digər dini icmaların rəhbərləri də iştirak edirdilər. Bu yenə də dünyaya göndərilən növbəti bir mesaj idi ki, dinlərarası münasibətlər necə həll olunmalıdır. Azərbaycan ictimaiyyəti onu da yaxşı bilir ki, dini bayramlarda, mərasimlərdə bütün dini icmalar fəal iştirak edirlər. Yeni tikilmiş məscidlərdə və əsaslı təmir olunan tarixi məscidlərimizdə bütün konfessiyaların nümayəndələri nəinki iştirak edir, hətta çıxış edirlər. Hesab edirəm ki, bu da dünya miqyasında nadir bir təcrübədir və bu təcrübənin müəllifi Azərbaycandır. Bir çox sahələrdə Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər yenilik, yeni dinamika, yeni yanaşma gətirir. Biz bəzi stereotipləri qıraraq, bir çox sahələr üzrə, o cümlədən dini məsələlərin həlli işində yeni davranış formatını təqdim edirik. Təsadüfi deyil ki, Azərbaycanda bu sahədə görülən işlər, əldə edilmiş nailiyyətlər, demək olar, bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Bizim təşəbbüsümüzlə başlanan və inkişaf edən müxtəlif tədbirlər, forumlar sonrakı mərhələdə beynəlxalq təşkilatlar tərəfindən də

dəstəklənir. Mən buna misal olaraq, bu il keçirilmiş IV Mədəniyyətlərarası Dialoq Forumunu qeyd edə bilərəm. Biz bu Forumu bir təşəbbüs kimi irəli sürdük. Amma bu gün dünyanın aparıcı beynəlxalq təşkilatları – YUNESKO, İSESKO, Avropa Şurası, Ümumdünya Turizm Təşkilatı və digər qurumlar bu Forumun təşkilatçılarıdır. Belə mötəbər tədbirlərin Azərbaycanda keçirilməsi həm bizim siyasətimizi, niyyətimizi göstərir və eyni zamanda, bütün dünyaya göstərir ki, bu gün dünyada multikulturalizmin mərkəzi olan ölkə var, bu ölkənin adı Azərbaycandır.

Bizim təşəbbüsümüzlə 2008-ci ildə «Bakı prosesi» başlanmışdır. Bu gün «Bakı prosesi» ən yüksək kürsülərdən hörmətlə qeyd edilir. Deyə bilərəm ki, «Bakı prosesi» dünya miqyasında aparıcı istiqamətdir. Dinlərarası münasibətlər bu proses çərçivəsində öz həllini tapır. Biz bu işlərə təqribən 10 il bundan əvvəl çox fəal başlamışıq. O vaxt hələ bu gün mövcud olan təhlükələr, risklər yox idi. Bu risklər son 5-6 il ərzində yaranıbdır. Həm müsəlman aləmində, həm digər yerlərdə, Avropada narahatedici məqamlar, əfsuslar olsun ki, kifayət qədər çoxdur. Amma biz bu məsələyə diqqət yetirəndə, bu təşəbbüsləri irəli sürəndə bu təhlükələrin böyük əksəriyyəti mövcud deyildi. Yəni vaxtında atılmış addımlar, hesab edirəm ki, dinlərarası münasibətlərdə, sivilizasiyalararası məsələlərdə öz müsbət rolunu oynayır. Bu gün Azərbaycan bu sahədə də nümunəvi ölkə kimi qeyd edilir və tanınır.

Onu da qeyd etməliyəm ki, Azərbaycan dövləti çox möhkəm milli dəyərlər üzərində qurulub. İslam dəyərləri isə milli dəyərlərimizin ayrılmaz tərkib hissəsidir. Bizim çox möhkəm təməlimiz vardır. Bu bizim milli dəyərlərimizdir və bu dəyərlər bizim üçün hər şeydən üstündür. Biz çalışırıq və buna nail oluruq ki, gənc nəsil də milli ruhda böyüsün, yetişsin. Milli dəyərlər bizim üçün həmişə ən prioritet məsələ olmalıdır.

Bununla bərabər, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq dövlətdir. Azərbaycanda radikalizm, fundamentalizm yoxdur, daxildə hər hansı təhlükə mənbəyi yoxdur. Bunun səbəbi təkcə bizim hansısa inzibati addımlarımız deyil. Bunun səbəbi

cəmiyyətdə mövcud olan ab-havadır. Radikalizm, terrorizm harada canlanır, harada baş qaldırır?! O ölkələrdə ki, savadlılıq yoxdur. O ölkələrdə ki, sosial ədalət pozulur. O ölkələrdə ki, ədalətsizlik mövcuddur və səfalət yaşanır. Ona görə radikalizmə qarşı ən gözəl sığorta sosial ədalətdir, maddi rifahdır, savadlılıqdır, düzgün siyasətdir. Bu amillər olan yerdə radikalizm üçün heç bir əsas yoxdur. Düzdür, kənardan ölkəmizə müdaxilə oluna bilər. Ancaq Azərbaycan bu müdaxiləyə qarşı öz tədbirlərini görən, Azərbaycan xalqının rahat həyatını təmin edən kifayət qədər güclü dövlətdir.

Budur bugünkü Azərbaycan! Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, bizim bütün uğurlarımızın təməlində düşünülmüş siyasət dayanır. Biz bütün istiqamətlər üzrə böyük uğurlara imza atmışıq. Bu gün də qeyd olundu ki, Azərbaycan İslam Həmrəyliyi oyunlarında böyük uğurlar qazanıb, komanda hesabında 1-ci yerə layiq görülübdür. Bu, böyük qələbədir. Ondan 2 il əvvəl keçirilmiş Avropa oyunlarında Azərbaycan komanda hesabında bütün Avropa ölkələri arasında 2-ci yerə layiq görülmüşdür. İqtisadi sahədə bu ilin 5 ayının göstəriciləri də çox ümidverici və müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2 faizdən çox artıb. Qeyri-neft sənayemiz təxminən 4 faiz, kənd təsərrüfatı 2 faiz, ixrac 44 faiz artıb, idxal təxminən 17 faiz azalıbdır. Bütün bunlar iqtisadi islahatlar, düşünülmüş siyasət hesabına mümkün olubdur.

Xarici siyasət məsələlərinin həllinə gəldikdə, bu gün Azərbaycanın dünya miqyasında o qədər böyük nüfuzu var ki, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz bütün ölkələrlə bərabərhüquqlu və qarşılıqlı hörmət əsasında münasibətlər qurmuşuq. Avropa ölkələri ilə, müsəlman ölkələri ilə və digər ölkələrlə biz çox gözəl münasibətlər qura bilmişik. Azərbaycan sivilizasiyalararası dialoqun inkişafında – bu gün mən tam qətiyyətlə bunu deyirəm – əvəzolunmaz rol oynayır və bundan sonra da biz bu rolu oynayacağıq. Bu bir növ bizim məsuliyyətimizdir, bu bizə lazımdır. Biz istəyirik ki, Azərbaycanda dinlərarası münasibətlər həmişə indiki kimi olsun. Azərbaycanda bütün dinlərin, millətlərin nümayəndələri həmişə bir ailə kimi yaşasın, necə ki, bu gün yaşayırlar. Bax, bizim siyasətimiz bundan

ibarətdir. Mən demişəm, bir daha demək istəyirəm ki, öz xalqına, dininə hörmət başqa dinə, xalqa olan hörmətdən başlayır. Budur bizim siyasətimiz və bu siyasət Azərbaycan ictimaiyyəti tərəfindən tam bəyənilir və dəstəklənir. Məhz bunun sayəsində biz bugünkü gözəl nəticələri görürük və bunu qeyd edirik. Bu yaxınlarda xalqımızın, dövlətimizin tarixində çox əlamətdar hadisə baş verdi. İşğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı oldu. Bu 2 ay ərzində tikilmiş 50 ev, məktəb, yol və bütün infrastruktur həm bizim gücümüzü, həm də siyasətimizi göstərir. Onu göstərir ki, biz işğaldan azad ediləcək bütün əraziləri qısa müddət ərzində bərpa edəcəyik. O ərazilərə də həyat qayıdacaq, o ərazilərdə də Azərbaycan bayrağı qaldırılacaqdır. Necə ki, bu gün Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğaldan azad edilmiş torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, quruculuq işləri aparılır.

Cocuq Mərcanlı erməni faşizminin canlı şahididir. Bu kənd cəmi 3-4 ay işğal altında olubdur. Kənddə bir dənə də salamat bina qalmamışdı. Erməni vəhşiləri bütün binaları dağıtmışlar. Ancaq biz bu kəndi 2 ay ərzində bərpa etdik və əlavə 100 evin tikintisi də yaxın zamanlarda öz həllini tapacaqdır. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu da böyük tarixi məna daşıyır. Cocuq Mərcanlı və digər torpaqlar bizim əzəli torpaqlarımızdır. Biz bu torpaqlarda yeni həyat yaradırıq.

Bu onu göstərir ki, Azərbaycan xalqının iradəsini heç kim sındıra bilməz. Biz Bakıda erməni kilsəsini bərpa etdik və onu qoruyuruq. Ermənilər isə işğal edilmiş torpaqlarda bizim məscidlərimizi dağıdıblar. Bənzəri Cocuq Mərcanlıda tikilən həmin o Gövhərağa məscidi dağılmış vəziyyətdədir. O binanı dağıtmaq olar, amma düşmən bilməlidir ki, dağılmış məscidlər bizim qəlbimizdə yaşayır. Biz bu məscidləri qəlbimizdə ucaltmışıq və torpaqlar işğaldan azad olunandan dərhal sonra 2 ay ərzində gözəl məscid tikilib istifadəyə verilibdir. Bunun çox böyük tarixi mənası vardır. Mən əminəm ki, biz işğal edilmiş bütün torpaqlara qayıdacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa

edəcək və o torpaqlarda da belə gözəl iftar süfrələri açılacaqdır, inşallah!

Əziz dostlar, mən sizi bir daha salamlayıram və qarşıdan gələn müqəddəs bayram münasibətilə təbrik edirəm.

Sağ olun.

**A l l a h ş ü k ü r  P a ş a z a d ə:** Zati-aliləri, arzu edirəm ki, deyilən bu sözlərin hamısını Allah-Taala bizə nəsib etsin. Allah-Taala hamımıza nəsib etsin ki, o torpaqlarda, o məscidlərdə ibadətlər edək, namaz qılaq və onların evlərində qonaq olaq. İnşallah, Allah-Taala bunu bizə nəsib edəcəkdir.

Çox sağ olun, minnətdaram. Mənim haqqımda, din haqqında dediyiniz çox gözəl sözlər Sizin islam dininə və dindarlara olan münasibətinizdir. Bu gün Siz dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında bir sərəncam da imzalamısınız, bizi sevindirmisiniz və ona görə də Sizə təşəkkürümüzü bildiririk. Burada əyləşən konfessiya nümayəndələrinin adından Sizə təşəkkürümü bildirirəm.

Çox sağ olun.

* * *

*Sonra iftar süfrəsi açıldı.*

## NƏRİMANOV RAYON MƏHKƏMƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*21 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısına Azərbaycan hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi «Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu» layihəsi çərçivəsində istifadəyə verilmiş, tikintisi aparılan və layihələndirilən müasir məhkəmə binaları və kompleksləri barədə məlumat verdi.*

*Son illər paytaxtda və bölgələrdə 12 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilib. Prezident İlham Əliyev Sabunçu, Şəki Məhkəmə komplekslərinin, eləcə də Yasamal və Oğuz Rayon məhkəmələri üçün yeni binaların açılışlarında şəxsən iştirak edibdir. Hazırda 9 məhkəmə, o cümlədən Sumqayıt Məhkəmə Kompleksinin, Bakı şəhərinin Binəqədi, Suraxanı, eləcə də Zaqatala, Qəbələ və Masallı Rayon məhkəmələrinin yeni inzibati binalarının inşası aparılır.*

*Qeyd olundu ki, Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının inşasına 2015-ci ilin mayında başlanılıb. Tikinti işləri müasir standartlara uyğun və yüksək keyfiyyətlə aparılıb. BMT-nin «Əlillərin hüquqları haqqında» Konvensiyasına uyğun olaraq, binada onların sərbəst hərəkəti üçün bütün zəruri şərait yaradılmaqla yanaşı, girişdə əlillərin daxil olması üçün qaldırıcı qurğu quraşdırılıbdır.*

*Prezident İlham Əliyev Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin barelyefi quraşdırılıb. Burada ulu öndərin və prezident İlham Əliyevin ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşələr yaradılıb. Nərimanov Rayon Məhkəməsi təxminən 200 minə yaxın əhaliyə xidmət edəcəkdir. Burada 90 nəfər, o cümlədən 13 hakim, 80-ə yaxın məhkəmə aparatı əməkdaşı və digər hüquqşünaslar işləyəcək. Binada ümumilikdə 8 məhkəmə iclas zalı fəaliyyət göstərir. Azərbaycan Prezidentinin «Elektron məhkəmə» informasiya sisteminin yaradılması haqqında sərəncamına əsasən, burada da bütün zəruri tədbirlər görülüb. Məhkəmə zallarında proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən, audio-video yazılışları aparan «Femida» sistemi, videokonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün qurğular quraşdırılıbdır. Təqsirləndirilən şəxslərin zalda vəkillə birbaşa əlaqə saxlamaları üçün müvafiq qurğular da vardır.*

*Son vaxtlar tikilmiş məhkəmə binalarında olduğu kimi, müasir informasiya-kommunikasiya texnologiyalarının quraşdırıldığı Nərimanov Rayon Məhkəməsinin binası da inzibati və ictimai zonalara bölünür. Hər iki zonanın girişi ayrıdır. İnzibati zona hakimlər və məhkəmə işçiləri, ictimai zona isə vətəndaşlar üçün nəzərdə tutulub. Eyni zamanda, vəkillər, dövlət ittihamçıları və icra məmurları da ictimai zonadan istifadə edəcəklər. Binada hakimlər və vətəndaşlar arasında qeyri-prosessual münasibətlər məhdudlaşdırılır və onlar yalnız məhkəmə iclas zallarında görüşürlər. Bu isə şəffaflığın təmin edilməsində mühüm amildir. Burada gözdən əlil vətəndaşların sərbəst hərəkəti üçün mərtəbələrin döşəməsində xüsusi örtük, otaqların adlarını əks etdirən lövhələrdə və liftlərdə xüsusi yazılar vardır.*

*Nərimanov Rayon Məhkəməsinin binasında vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və məlumatlılığın təmin*

*edilməsi məqsədilə məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları, o cümlədən köşklər, lövhələr quraşdırılıb. Bunlar vətəndaşlara məhkəmə prosesləri və onların tarixi, vaxtı, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradır.*

*Binada yeməkxana və idman zalı da işçilərin ixtiyarına verilib. Burada işçilərin qidalanmaları, istirahəti və idmanla məşğul olmaları üçün hərtərəfli şərait vardır.*

*Prezident İlham Əliyev binanın balkonundan ətraf ərazini seyr etdi.*

*Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdın Fərzəliyev prezident İlham Əliyevə Təbriz və Əhmədbəy Ağaoğlu küçələrinin kəsişdiyi ərazidə aparılan əsaslı tikinti işləri barədə məlumat verdi. Bu ərazidə pilot layihə çərçivəsində 5 müasir yaşayış kompleksi inşa olunacaq. Dövlət başçımızın tapşırığına uyğun olaraq, icra edilən bu layihələr ilk növbədə, vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəlibdir.*

*Binanın konfrans zalında həm beynəlxalq, həm də ölkə səviyyəsində tədbirlər keçirmək mümkündür. Müasir avadanlıqla təchiz edilən zalda, həmçinin hakimlərə və məhkəmə işçilərinə Ədliyyə Nazirliyinin iclaslarına, müşavirə və toplantılarına, eləcə də Ali Məhkəmənin Plenumuna birbaşa qoşulmaq imkanı yaradılıb. Burada informasiya-kommunikasiya texnologiyalarının ən son yeniliklərindən istifadə edilir. Zalda tədris kurslarının keçirilməsi üçün də zəruri infrastruktur yaradılıb. Buradakı kitabxana məhkəmə-hüquq sahəsinə aid ədəbiyyatla, Azərbaycan həqiqətləri, dünya klassiklərinin əsərləri və digər maraqlı kitablarla zəngindir.*

*Prezident İlham Əliyevə «Elektron məhkəmə» informasiya sistemi barədə məlumat verildi.*

*Ədalət mühakiməsinin həyata keçirilməsində şəffaflığın, insan və vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi məqsədilə prezident İlham Əliyevin 2014-cü il 13 fevral tarixli Sərəncamına əsasən ‚«Elektron məhkəmə» informasiya sisteminin yaradılması üzrə işlər görülür, məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müasir informasiya-kommunikasiya tex-*

*nologiyalarının geniş tətbiqi məqsədilə zəruri infrastruktur yaradılır. Dünya Bankı ilə birgə həyata keçirilən «Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu» layihəsi çərçivəsində «Elektron məhkəmə»nin tətbiqi üzrə tədbirlər sürətləndirilib, məhkəmə sisteminin vahid internet portalı yenilənərək zənginləşdirilib, o cümlədən portalda «E-məhkəmə» bölməsi yaradılıb. Yeni inşa olunan müasir məhkəmə binalarında «Elektron məhkəmə» informasiya sisteminin bir çox komponentləri tətbiq edilir. Sistemin tərkib hissəsi olan «Elektron icra»nın yaradılması üzrə tədbirlər görülərək, icra qurumlarında onun bir sıra komponentlərinin tətbiqinə başlanılıb. Bundan başqa, məhkəmələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə yeni yaradılmış «Nəzarət pəncərəsi» modulu vasitəsilə məhkəmə sədri işlərin icra vəziyyətinə elektron qaydada nəzarət edəcək, hakimlər isə sənədin icra statusu barədə sistem tərəfindən məlumatlandırılacaqlar. «Elektron məhkəmə» informasiya sistemi üzrə toplanılan məlumatların saxlanılmasını və təhlükəsizliyini təmin etmək məqsədilə Ədliyyə Nazirliyinin əsas və ehtiyat məlumat mərkəzlərinin yaradılması üzrə də işlər aparılır. Avropa Şurası Ədalət Mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının 22 saylı elmi nəşrində ölkəmizdə tətbiq olunan yeniliklər və nailiyyətlər Avropa Şurası, Dünya Bankı və digər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də təqdir olunur. Avropa Şurasının ekspertləri Azərbaycan hökumətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirərək, belə qənaətə gəliblər ki, ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin mükəmməl infrastrukturunun yaradılması, ən müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqi sahəsində Azərbaycan bir çox Avropa ölkələrinə nümunə ola bilər.*

*Məhkəmə binasında müasir gözləmə yerləri quraşdırılıb, körpə uşaqlı valideynlər üçün xüsusi otaqlar ayrılıb, vətəndaşlara tibbi xidmətdən istifadə etmək üçün əlverişli şərait yaradılıbdır. Bir sözlə, burada yaradılan şərait göstərir ki, son illər ölkədə bütün sahələrə olduğu kimi, ədalət mühakiməsinin səmərəsinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin*

*tapşırıqlarına uyğun olaraq, məhkəmə sisteminin müasirləş-dirilərək, beynəlxalq standartlara tam uyğunlaşdırılması işləri uğurla aparılır.*

*Son illər yeni müasir məhkəmə komplekslərinin istifadəyə verilməsi dövlət başçımızın diqqəti və qayğısı sayəsində məhkəmə-hüquq sistemində aparılan köklü islahatların tərkib hissəsidir. Bütün bu layihələr ədalət mühakiməsinin səmərəliliyinin artırılması, vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi, şəffaflığın və məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunmasında özünü aydın göstərir.*

# FRANSA RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ DOMİNİK DE VİLPEN İLƏ GÖRÜŞ

*21 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Fransa Respublikasının sabiq Baş naziri, «Villepin International» şirkətinin prezidenti Dominik de Vilpeni qəbul etmişdir.*

*Dominik de Vilpen prezident İlham Əliyev ilə son görüşünü xatırladaraq qeyd etdi ki, bu görüşdən 1 ildən artıq vaxt keçməsinə baxmayaraq, Azərbaycanda bütün sahələrdə inkişaf daha da sürətlənib və ölkədə baş verən dəyişikliklər, sabitlik göz qabağındadır. O, Bakıda keçiriləcək «Formula-1» yarışlarının çox böyük maraq doğurduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürdüyünü və ölkənin inkişafı ilə bağlı genişmiqyaslı işlərin həyata keçirildiyini nəzərə çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikasının Prezidenti ilə Fransa Respublikasının sabiq Baş naziri Dominik de Vilpen arasında bundan əvvəl keçirilən görüşlər zamanı səmərəli və məhsuldar müzakirələrin aparıldığı məmnunluqla qeyd edildi, Azərbaycan–Fransa ikitərəfli münasibətlərinin siyasi, iqtisadi, energetika, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı və əməkdaşlığımızın bundan sonra da möhkəmləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Səudiyyə Ərəbistanını xalqlarımızın ortaq mənəvi dəyərlərindən qaynaqlanan dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, belə möhkəm təməl üzərində qurulmuş əlaqələrimiz bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcək və genişlənəcəkdir.

Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini xoş təəssüratlarla xatırlayıram.

Fürsətdən istifadə edərək, müqəddəs Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi yetirir, möhkəm can-sağlığı, xoşbəxtlik, qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2017-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ**

Hörmətli xanım Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Azərbaycan–Xorvatiya əlaqələri dinamik inkişaf etməkdədir. Ümidvaram ki, daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız bundan sonra da ölkələrimizin çiçəklənməsinə, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2017-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BORUT PAHORA**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Sloveniya əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2017-ci il*

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FİLİPE JASİNTO NYUSİYƏ**

Hörmətli cənab Prezident!

Mozambik Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Mozambik münasibətləri daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mozambik xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2017-ci il*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 iyun 2017-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Moldova Respublikasının Prezidenti İqor Dodonun iyunun 22-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Moldova Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Moldova prezidenti İqor Dodonu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Moldova Prezidentinə raport verdi.*

*Moldova Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və prezident İqor Dodon Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Moldova Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident İqor Dodona, Moldova nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan və Moldova prezidentləri rəsmi foto çəkdirdilər.*

# MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*22 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 22-də rəsmi qarşılanma mərasimindən sonra Moldova Respublikasının Prezidenti İqor Dodon ilə təkbətək görüşü olmuşdur.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Əminəm ki, səfər yaxşı keçəcək və ikitərəfli münasibətlərin mühüm məsələlərini müzakirə edəcəyik. Bir çox məsələlər üzrə bütövlükdə fikir mübadiləsi aparacağıq. İkitərəfli münasibətlərə əhəmiyyətli dinamika vermək də vacibdir ki, çox iş görmək mümkün olsun. Sadəcə, həm rəhbərlik, həm də nazirlər, bütün əməkdaşlar fəal işləməlidirlər. Azərbaycana xoş gəlmisiniz!

**İqor Dodon**: Hörmətli cənab Prezident! Mən çox şadam ki, Sizin dəvətinizlə Azərbaycana bu rəsmi səfəri təşkil edə bilmişik. Bizim çox yaxşı ikitərəfli münasibətlərimiz vardır. Biz may ayında ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyini qeyd etmişik. Təəssüf ki, son 5 ildə hökumətlərarası birgə Komissiyanın iclasını keçirməmişik. Buna görə də çox ümid edirəm ki, bizim görüşümüz ikitərəfli münasibətlərimizə yeni impuls verəcək. Çünki potensial çox böyükdür. Hələ ki, bundan tam həcmdə istifadə olunmur.

Moldovada çox böyük Azərbaycan diasporu vardır. Yüz illərdir ki, biz bir yerdə yaşayırıq, onlar özlərini Moldovada yaxşı hiss edirlər. Azərbaycanda bizim diaspor daha azdır. Biz dünən görüşmüşük, təxminən 10-15 nəfər. Lakin həmişə sülh və dostluq şəraitində yaşamışıq. Ümid edirəm və əminəm ki, bizi daha yaxşı və gözəl nailiyyətlər gözləyir.

**İlham Əliyev**: Çox sağ olun.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*22 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti İqor Dodonun iyunun 22-də təkbətək görüşü başa çatdıqdan sonra geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Sizin gəlişinizə çox şadam. Biz artıq ikitərəfli münasibətlərin mühüm məsələlərinə, regional problemlərə dair fikir mübadiləsi aparmışıq. Bu gün biz işimizi artıq geniş tərkibdə davam etdiririk. Əminəm ki, bu səfər əməkdaşlığımızın möhkəmləndirilməsində çox mühüm addım olacaq, biz bunda maraqlıyıq. Bunun üçün çox böyük potensial vardır. Bugünkü fikir mübadiləsi onu göstərir ki, baş verən hadisələrə bizim yanaşma və qiymətləndirmələrimiz arasında ümumi cəhətlər çoxdur.

Əlbəttə, bu gün biz münasibətlərimizin dinamik inkişafı üçün yaxşı təməl qoyuruq. Həm siyasi dialoq sahəsində, həm də ticari-iqtisadi sahədə bizim münasibətlərimizə dinamizm vermək lazımdır. Potensial var, hansı məsələlərə diqqət yetirməyin lazım olduğunu bilirik. Düşünürəm ki, səfərin yekunlarına əsasən, müvafiq dövlət qurumlarına bütün zəruri tapşırıqlar veriləcəkdir ki, hər istiqamət üzrə tədbirlər planı müəyyən edilsin və reallaşdırılsın.

Beləliklə, mən çox şadam. Sizi bir daha salamlayıram və səfərinizin xoş keçməsini arzu edirəm.

**İ q o r D o d o n:** Hörmətli İlham Heydər oğlu, çox sağ olun!

Hörmətli dostlar!

Çox şadam ki, biz – Moldova Prezidenti və Azərbaycan Prezidenti, nəhayət, yüksək səviyyədə görüşdük. İndicə biz xatırladıq ki, son 8-10 ildə görüşməmişik. Buna görə bu görüşümüzü çox vacib hesab edirəm. Bu gün biz ali siyasi səviyyədə ikitərəfli münasibətlərimizə yeni təkan verəcəyik. Hökumətlərarası birgə Komissiyanın işində də çox böyük fasilə olub. Mənim hökumətlərarası Komissiyaya rəhbərlik etmək təcrübəm vardır. Mən bir neçə il ərzində Moldova–Azərbaycan hökumətlərarası birgə Komissiyasının Moldova tərəfindən rəhbəri olmuşam. Bizim çox böyük potensialımız var və mən çox ümid edirəm ki, ali səviyyədə görüşün nəticələrinə əsasən ən yaxın vaxtda hökumətlərarası Komissiyanın işinə də yeni təkan verəcəyik.

Ümidvarıq ki, bu il hər iki tərəfdən nazirlərimizin də görüşü olacaqdır. Hər halda, daha fəal əməkdaşlıq etmək üçün bilavasitə konkret layihələr, konkret addımlar nəzərdən keçiriləcəkdir. Əlbəttə, bizim ticarət sahəsində müsbət dinamika vardır. Keçən il bu sahədə artım 30 faizdən çox olub. Lakin ticarətin həcminin 5 milyon dollara yaxın olması çox kiçik göstəricidir. Ümidvaram, hökumətlərarası Komissiya çərçivəsində bizim biznesmenlərin də buraya, Bakıya səfərini təşkil edə biləcəyik ki, onlar özlərinin potensial tərəfdaşları ilə görüşsünlər.

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*22 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Moldova Respublikasının Prezidenti İqor Dodon iyunun 22-də geniş tərkibdə görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, əziz dostlar!

Moldova nümayəndə heyətini Azərbaycanda bir daha səmimi-qəlbdən salamlamaq istəyirəm. Prezidentin səfəri ölkələrimiz arasında ikitərəfli münasibətlərdə çox mühüm hadisədir. Əminəm ki, bu səfər Moldova–Azərbaycan münasibətlərinin dinamik inkişafına yaxşı təkan verəcəkdir.

Bu gün biz qarşılıqlı maraq doğuran məsələlərin geniş spektrini müzakirə etdik və gələcək birgə fəaliyyətimizin yollarını müəyyənləşdirdik. Biz bundan sonra da siyasi əlaqələri möhkəmləndirəcək və beynəlxalq qurumlarda birgə fəal işləyəcəyik. Prezidentin səfəri bizim bir-birimizə qarşılıqlı hörmətimizin və qarşılıqlı marağımızın göstəricisidir. Onu da qeyd etmək istərdim ki, Moldova prezidenti cənab Dodonun Azərbaycana rəsmi səfəri onun ilk rəsmi səfərlərindən biridir. Biz onun ölkəmizə gəlişini Azərbaycana hörmət əlaməti kimi qiymətləndiririk.

Bu gün biz həmçinin ticari-iqtisadi əməkdaşlıqla bağlı məsələləri də çox geniş müzakirə etdik. Bu sahədə yaxşı potensial vardır. Artıq bizim müvafiq orqanlara təlimatlar verilib ki, əmtəə

dövriyyəsinin artırılması ilə əlaqədar məsələlərin razılaşdırılması prosesi sürətləndirilsin. Əlbəttə, bunun üçün ümid edirik ki, lap yaxın vaxtda hökumətlərarası birgə Komissiya toplaşacaq. Çoxdandır toplaşmayan Komissiyanın bu iclasında qarşılıqlı ticarətin necə artırılması, investisiyalar üzrə hansı imkanların olması, bizim şirkətlərin birgə iştirak edə biləcəkləri hansı infrastruktur layihələrinin mövcud olması kimi mühüm məsələlər müzakirə ediləcəkdir. Yəni bu məsələlər bloku da böyük əhəmiyyət kəsb edir, çünki ticari-iqtisadi münasibətlərin bugünkü səviyyəsi bizi qane edə bilməz. Biz bilirik ki, qat-qat artıq potensial vardır. Energetika və nəqliyyat sahələrində də əməkdaşlığın böyük perspektivləri vardır. Biz Azərbaycanda çoxlu nəqliyyat və enerji layihələri həyata keçiririk. Bu layihələr artıq çoxdan ölkəmizin hüdudlarından kənara çıxıb. Bu istiqamətdə moldovalı tərəfdaşlarımızla əməkdaşlıq etmək maraqlı olardı.

Bu gün biz regionlararası əlaqələr məsələlərini də müzakirə etdik. Bu sahədə ölkələrimizin müxtəlif regionları arasında münasibətlərin strukturlaşdırılması və ya formalaşdırılması üzrə konkret addımlar nəzərdə tutmuşuq. Əlbəttə, humanitar əməkdaşlıqla bağlı məsələlər də müzakirə edilibdir. Moldova Prezidenti mənə dedi ki, dünən o, Azərbaycandakı moldav icmasının nümayəndələri ilə görüşüb. Moldovadakı Azərbaycan diasporu da çox fəal işləyir və Prezidentin onlara göstərdiyi diqqətə görə ona təşəkkür edirəm. Bu da ikitərəfli münasibətlərdə mühüm amildir.

Əminəm ki, bugünkü səfər münasibətlərimizin inkişafında mühüm mərhələ olacaq, bizim münasibətlərə zəruri dinamika verəcək və çox mühüm məsələlərin həllinə kömək edəcəkdir. Bununla da ölkələrimizi və xalqlarımızı yaxınlaşdıracaqdır.

Mən cənab Prezidentə ölkəmizə gəldiyinə görə təşəkkür edirəm. Hörmətli cənab Prezident, Sizə və dost Moldova xalqına yeni uğurlar və firavanlıq arzu edirəm. Sağ olun.

## Moldova prezidenti İqor Dodonun bəyanatı

Çox sağ olun, cənab Prezident!

Əvvəla, Azərbaycana, Bakıya səfər etmək üçün rəsmi dəvətə görə təşəkkürümü bildirmək istəyirəm. Ölkələrimizin prezidentləri çoxdan idi ki, görüşmürdülər və əminəm ki, ali siyasi səviyyədə görüş ikitərəfli münasibətlərimizə yeni təkan verəcəkdir.

Biz çox böyük məsələlər blokunu müzakirə etdik, lakin əgər onları strukturlaşdırsaq, onda əsas 3 istiqamət alınacaq. Bunlar iqtisadiyyat, humanitar-sosial və siyasi istiqamətlərdir. İqtisadiyyata gəldikdə, burada əsas vəzifə ən yaxın vaxtda hökumətlərarası Komissiyanın iclasını keçirməkdir. Təəssüf ki, 2012-ci ildən bəri hökumətlərarası Komissiya rəhbərlərinin nazirlər səviyyəsində iclasları keçirilməyib. Ümid edirik ki, həmin iclas yaxın vaxtlarda, yaxşı olardı bu ilin sonunadək keçirilsin.

Hökumətlərarası birgə Komissiyanın iclasının keçirilməsi ilə paralel olaraq, biz ikitərəfli iqtisadi münasibətlərimizə yeni təkan vermək üçün iki ölkənin iş adamlarının görüşünü təşkil etməyi planlaşdırırıq. Bu sahədə yaxşı dinamikamız var, 2016-cı ildə qarşılıqlı ticarətin həcmi 30 faizdən çox artıbdır. Lakin əgər rəqəmlərə müraciət etsək biz hələ ki, 5 milyon dollar səviyyəsindəyik. Bu da çox aşağı göstəricidir. Mən əminəm ki, bizim potensialımız qat-qat artıqdır.

Sosial və humanitar layihələrə gəldikdə, bizim ölkədə, Moldovada bəzi sosial layihələrin mümkünlüyünü müzakirə etdik. Biz Moldovanın regionlarında, xüsusən Qaqauziyada bəzi layihələri haqqında fikir mübadiləsi apardıq. Mənimlə bərabər Qaqauziyanın rəhbəri – başqanı da nümayəndə heyətinin tərkibindədir. Çox ümid edirəm ki, biz Moldova Respublikasının regionlarında, xüsusən Qaqauziyada və güman edirəm ki, başqa regionlarda da bəzi konkret sosial layihələrin icrasına başlayacağıq.

Çox ümid edirəm ki, ən yaxın vaxtda siyasi sahədə yeni konkret addımlar atacağıq. Ola bilsin ki, lap yaxın vaxtlarda bizim təkcə prezidentlər, hökumətlərarası birgə Komissiya səviyyəsində deyil, həm də siyasi partiyalar səviyyəsində əməkdaş-

lığımız üçün müəyyən partiyalararası razılaşmalar da imzalanacaqdır. Qoy siyasi partiyalar da öz aralarında əməkdaşlıq etsinlər.

Mən prezident İlham Əliyevi Moldova Respublikasına rəsmi səfərə dəvət etdim. Onun Moldovaya sonuncu rəsmi səfəri 2005-ci ildə olub. Çox ümid edirəm ki, Azərbaycan Prezidentinin gələn il Moldova Respublikasına səfər etməyə imkanı olacaq və o vaxta qədər hansı konkret işlərin görüldüyünü həmin səfər çərçivəsində nəzərdən keçirəcəyik. Buna görə də bizim nazirlərə tövsiyə edirəm ki, bugünkü görüşümüzdən sonra gələn il üçün konkret nəticələr əldə olunsun.

**CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSMAİL ÖMƏR QELLEYƏ**

Hörmətli cənab Prezident!

Cibuti Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin möhkəmlənməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın genişlənməsi xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Cibuti xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyun 2017-ci il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda Allah və din qarşısında borclarını yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Xalqımız həmişə milli-mənəvi dəyərlərə sadiqliyi ilə seçilibdir. İslam sivilizasiyasının tarixi mədəni mərkəzlərindən biri olan Azərbaycanda milli dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur. Mübarək Ramazan günlərində xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirir, bütün dua və diləklərinizin Tanrı dərgahında qəbul olunmasını arzu edirəm.

Bu il Ramazan ayı ölkəmizin həyatında bir sıra əlamətdar hadisələrlə eyni vaxta təsadüf edibdir. 2017-ci ilin Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilməsi, IV İslam Həmrəyliyi oyunlarının Bakıda keçirilməsi, eyni zamanda, etnik və dini dözümlülük, dinlərarası həmrəylik və əməkdaşlıq məkanı olan ölkəmizin sivilizasiyalararası dialoq forumları kimi, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi hazırkı narahat dünyamızda Azərbaycan dövlətinin sülh və təhlükəsizlik işinə verdiyi dəyərli

töhfələrdir. Biz bəşəriyyətin gələcəyini hədəf alan hər cür qlobal təhdid və təhlükələrə qarşı ardıcıl mübarizəmizi, dialoq və həmrəylik təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

Əziz bacı və qardaşlarım!

Hər il Azərbaycanda böyük fərəh və könül xoşluğu ilə keçirilən orucluq mərasimləri cəmiyyətimizdə birlik və həmrəyliyin, dostluq və qardaşlıq münasibətlərinin təntənəsinə çevrilir. Bu əziz bayram günlərində bir daha hər birinizi, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram!

Ramazan bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyun 2017-ci il*

## ŞİRVAN ŞƏHƏRİNƏ SƏFƏR

*23 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Şirvan şəhərinə səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Şirvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov abidənin ətrafında görülmüş abadlıq işləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

### Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Şirvan şəhərində yerləşən hərbi hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Şirvan şəhərində yerləşən hərbi hissəsinin açılışında iştirak etmişdir.*

*Daxili İşlər naziri, general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, hərbi hissədəki yeni binaların inşasına 2012-ci ildə başlanılıb və 2017-ci ilin mayında isə inşaat işləri başa çatdırılıb. Ümumi ərazisi 8,5 hektar olan hərbi hissədə qərargah, kazarma binaları, yeməkxana, tibb məntəqəsi və digər binalar inşa edilib. Binalar mərkəzləşdirilmiş mühəndis kommunikasiya, o cümlədən elektrik, su-kanalizasiya, havalandırma sistemləri, mebel və inventarlarla təchiz edilib. Ərazidə avtomobil parkı, atış şəhərciyi, qarovul məntəqəsi, anbarlar, müasir hamam-camaşırxana kompleksi də yaradılıb.*

*Həmçinin hərbi hissədə 8000 kvadratmetr ərazidə sıra meydanı var. Hərbi hissənin tədris bölməsində atəş, rabitə, taktiki hazırlıq, avtomobillərin idarə edilməsi, yol hərəkətinin təşkili və aşpazların hazırlanması sinifləri də hərbçilərin istifadəsinə verilib. Sinif otaqlarının hamısı zəruri inventar, o cümlədən əyani vəsaitlərlə təchiz olunub. Hərbi hissənin həyatində idman qurğuları da quraşdırılıb. Gələcəkdə burada dördmərtəbəli kazarmanın inşası planlaşdırılır.*

*Prezident İlham Əliyev qərargah binasında yaradılan şəraitlə tanış oldu.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğılarını əks etdirən fotostend yaradılıb. Binadakı brifinq və xidməti otaqlar zəruri inventarlarla təchiz olunub. Burada hərbçilərin yüksək səviyyədə xidmət aparmaları üçün hərtərəfli şərait yaradılıbdır.*

*Dövlətimizin başçısı əsgər kazarmasında da oldu. Müasir səviyyədə yaradılan kazarmada əsgərlərin qalmaları və istirahət etmələri üçün bütün şərait vardır. Kazarma isti döşəmə, həmçinin kondisionerlə təchiz olunub. Kazarmada əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün də geniş imkanlar mövcuddur. Burada ideoloji və məişət otaqları, əmlak anbarı və bərbərxana əsgərlərin ixtiyarına verilib. Bir sözlə, buradakı şərait Azərbaycan dövlətinin ordu quruculuğu, o cümlədən Daxili Qoşunların hərbçilərinin xidmət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində atılan addımların ardıcıl xarakter aldığını göstərir. Bu həm də onu göstərir ki, Azərbaycan əsgəri bu gün ən müasir hərbi hissələrdə xidmət keçir. Bu isə şübhəsiz ki, Ali Baş Komandanın diqqəti və qayğısı sayəsində mümkün olubdur.*

*Sonra dövlətimizin başçısı Daxili Qoşunların hərbi silah, sursat və texnikası ilə tanış oldu. Bu gün Daxili Qoşunlar istər döyüş qabiliyyəti, istər maddi-texniki, istərsə də hərbi-texniki avadanlıqlarla təchizatına görə ən müasir hərbi birləşmələrdən biridir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri olan Daxili Qoşunlar cəmiyyətin və dövlətin mənafeyinin, vətəndaşların*

*konstitusion hüquqlarının və azadlıqlarının cinayətkar qəsdlərdən qorunması, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsinin həyata keçirilməsi, ictimai asayişin mühafizəsi və qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri layiqincə yerinə yetirir.*

*Sonra prezident İlham Əliyev hərbi hissənin əsgər yeməkxanasında yaradılan şəraitlə tanış oldu. Burada əsgərlərin yaxşı qidalanmaları üçün bütün zəruri şərait yaradılıb. Yeməkxanada eyni vaxtda 320 əsgər qidalana bilər. Yeməkxananın çörək, balıq, ət, tərəvəz, quru ərzaqlar və sinif otaqları da vardır. Hərbi hissənin tibb məntəqəsi də müasir səviyyədədir. Burada hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərmək üçün zəruri şərait yaradılıb. Məntəqədə palatalar, aptek, yeməkxana, sarğı və digər zəruri otaqlar da vardır. Burada hərbi qulluqçulara fizioterapiya, stomatoloji və başqa tibbi xidmətlər göstəriləcəkdir.*

*Hərbi hissənin ərazisində geniş abadlıq işləri aparılıb, yaşıllıqlar salınıbdır.*

## Tank əleyhinə əl qumbaraatanı üçün 4 növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Sənayesi Nazirliyinin «Şərq» İstehsalat Birliyinin Şirvan şəhərindəki «TƏQ-7V2» (RPQ) tipli Tank əleyhinə əl qumbaraatanı üçün 4 növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışında iştirak etmişdir.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov müəssisə barədə dövlətimizin başçısına məlumat verdi. Zavodun yaradılmasında əsas məqsəd tank və özüyeriyən artilleriya qurğuları, o cümlədən dinamik qoruyucu sistemlər ilə təchiz olunmuş, həmçinin yüngül zirehli və zirehsiz texnika ilə mübarizə aparmaq, bundan başqa açıq ərazilərdə, səngərlərdə yerləşən düşmənin canlı qüvvəsini məhv etmək üçün «TƏQ-7V2» (RPQ) tipli tank əleyhinə əl*

*qumbaraatanı üçün 4 növ – qəlpəli, kumulyativ tandem, termobarik və inert qumbaralı atəş yığımlarının seriyalı istehsalının təşkil edilməsidir. Bu sursatlar 700 metrədək məsafədə düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək qabiliyyətinə malikdir.*

*Dövlətimizin başçısı zavodu işə saldı.*

*Məlumat verildi ki, zavod 10 istehsal sahəsindən, o cümlədən avtomatlaşdırılmış mexaniki emal, termiki emal, kimyəvi cilalama, partlayıcı maddələrin preslənməsi, ekspres laboratoriya, yığma sahələrindən ibarətdir. Hərbi sursatın yaradılması və istehsalı üçün müəssisədə dünyanın bu sahədə qabaqcıl ölkələrindən müvafiq şirkətlərin müasir standartlara cavab verən texnoloji avadanlıqları alınaraq quraşdırılıb. Bu avadanlıqlar arasında proqramla idarə olunan torna və frez dəzgahları, müxtəlif güclü hidravlik və mexaniki preslər, termoplast avtomatlar, termiki və kameralı elektrik sobaları, yoxlama və sınaqların aparılması üçün müxtəlif çeşidli laboratoriya avadanlığı vardır. Eyni zamanda, döyüş sursatlarının qəbul-təhvil sınaqlarında texniki nəzarət işlərini aparmaq üçün 280 adda xüsusi və universal ölçü alətlərinin və tərtibatların alınması təmin edilibdir.*

*Zavodda 170 yeni iş yeri yaradılıb. Bütün işçilərə xarici mütəxəssislər tərəfindən müvafiq təlimlər keçirilib. Eyni zamanda, partlayıcı maddələrlə işləyənlər müvafiq kurs keçərək, xüsusi sertifikat alıblar. Zavodun illik istehsal gücü birnövbəli iş rejimində 20 min atəş yığımı təşkil edir ki, bu da güc strukturlarının tələbatını ödəməyə imkan verəcək. Bu məmulatlara xarici dövlətlərdən sifarişlərin olduğunu nəzərə alaraq, gələcəkdə ixrac imkanları nəzərdən keçiriləcəkdir.*

*Dövlətimizin başçısı müəssisənin kollektivinə uğurlar arzuladı.*

## «MSGL 40» tipli qumbaraatanlar üçün müxtəlif növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Şirvan şəhərində Müdafiə Sənayesi Nazirliyinin «Şərq» İstehsalat Birliyinin 40x46 millimetrlik «MSGL 40» tipli qumbaraatanlar üçün müxtəlif növ qumbaralı atəş yığımlarının istehsalı zavodunun açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, zavodun yaradılmasında əsas məqsəd düşmənin canlı qüvvəsini və atəş vasitələrini məhv etmək, həmçinin yüngül zirehli və zirehsiz texnika ilə mübarizə aparmaq üçün 40x46 millimetrlik «revolver» tipli qumbaraatanlar üçün NATO standartlarına uyğun 4 növ – qəlpəli, kumulyativ-qəlpəli, işıqlandırıcı-paraşütlü və tüstülü- qumbaralı atəş yığımlarının seriyalı istehsalının təşkil edilməsidir.*

*Dövlətimizin başçısı zavodu işə saldı.*

*Bildirildi ki, bu məmulatlar 400 metrədək məsafədə düşmənin zirehli texnikasını və canlı qüvvəsini məhv etmək qabiliyyətinə malikdir. Müəssisədə mexaniki emal, ştamplama, kimyəvi cilalama, partlayıcı maddələrin preslənməsi, yığma, ümumilikdə, 7 istehsal sahəsi vardır. Məmulatın yaradılması və istehsalı üçün müasir standartlara cavab verən universal və xüsusi texnoloji avadanlıqlar – proqramla idarə olunan torna və frez dəzgahları, müxtəlif güclü hidravlik və mexaniki preslər, termoplast avtomatlar, termiki və kameralı elektrik sobaları İsveç, Almaniya, Türkiyə, Bolqarıstan, Serbiya, Sloveniya, Rusiya, İsrail və digər ölkələrin müvafiq qurumlarından alınıbdır.*

*Diqqətə çatdırıldı ki, zavodda məmulatların yaradılması və istehsalının mənimsənilməsi üçün tələb olunan alət və tərtibatlar texnoloji əməliyyatlara uyğun hazırlanaraq, tətbiq edilib. Döyüş sursatlarının qəbul və təhvil sınaqlarında texniki nəzarət işlərini aparmaq üçün 300 adda xüsusi və universal ölçü aləti, həmçinin tərtibatlar alınıb. Layihə üzrə nəzərdə tutulan 40 işçiyə xarici mütəxəssislər tərəfindən müvafiq təlimlər keçirilib. Müəssisənin illik istehsal gücü birnövbəli iş rejimində 15 min atəş yığımı təşkil edir.*

*Bu cür müəssisələrin yaradılması ölkəmizdə müdafiə sənayesinin inkişafı istiqamətində görülən tədbirlərə böyük töhfədir. Belə zavodların işə düşməsi Azərbaycanın müdafiə potensialını gücləndirir, ölkəmizdə istehsal edilən hərbi təyinatlı məhsulların çeşidini artırır. Eyni zamanda, bu sahədə ixrac imkanlarımızı da genişləndirir, xaricdən asılılığımızı aradan qaldırır. Müəssisə ilə tanışlıqdan sonra prezident İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin əməkdaşları və Müdafiə Nazirliyinin bir qrup hərbçisi ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə nitq söylədi.*

## Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi

Hörmətli hərbçilər, əziz dostlar!

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrinə yeni uğurlar, qələbələr arzulayıram.

Bu gözəl bayram ərəfəsində biz Şirvan şəhərində müdafiə sənayesinin yeni zavodlarının açılışına toplaşmışıq. Bu, əlamətdar hadisədir. Bildiyiniz kimi, Müdafiə Sənayesi Nazirliyi mənim sərəncamımla 2005-ci ilin dekabr ayında yaradılıb və bu illər ərzində böyük, uğurlu yol keçibdir. O vaxt bu nazirliyin yaradılması imkan verdi ki, biz özümüzü hərbi texnika ilə, silah və sursatla böyük dərəcədə təmin edə bilək. Çünki o illərdə bizim böyük imkanlarımız yox idi, biz xarici istehsalçılardan asılı vəziyyətdə idik. Bəzən hansısa silahları ala bilirdik, bəzi hallarda ala bilmirdik. Ona görə Müdafiə Sənayesi Nazirliyinin yaradılmasının əsas məqsədi idxaldan asılılığı azaltmaq, yeni iş yerləri yaratmaq və Azərbaycan Silahlı Qüvvələrini müasir texnika və silahlarla təmin etmək idi. Bugünkü nailiyyətlər və reallıq onu göstərir ki, biz məqsədimizə çata bilmişik.

Onu da qeyd etməliyəm ki, o vaxt bizim böyük vəsaitimiz də yox idi. Azərbaycan büdcəsinə əsas gəlirlərin daxil olunması 2006-

cı ildən – Bakı–Tbilisi–Ceyhan neft kəməri istifadəyə verildikdən sonra başlandı. 2005-ci ildə isə bizim maliyyə vəziyyətimiz bir qədər məhdud idi. Buna baxmayaraq, bu məqsədlər, o cümlədən bu nazirliyin formalaşdırılması üçün dövlət büdcəsindən kifayət qədər böyük vəsait ayrıldı və bu gün nəticələr göz qabağındadır. Azərbaycanda 30-a yaxın Hərbi zavod fəaliyyət göstərir və Silahlı Qüvvələrimizin tələbatı böyük dərəcədə ölkəmizdə istehsal edilən hərbi məhsullarla təmin olunur. Bu illər ərzində 1200-dən çox adda hərbi təyinatlı məhsulun istehsalı qaydaya salınıb. Demək olar ki, bu gün Azərbaycan bu istiqamət üzrə də dünya miqyasında öz layiqli yerini tuta bilibdir. Azərbaycanda güclü Hərbi Sənaye Kompleksi yaradılıb və Şirvan şəhərində bir neçə hərbi müəssisə fəaliyyət göstərir. Təkcə Şirvan şəhərindəki müəssisələrdə 1200 nəfər işlə təmin edilibdir.

Hər bir ölkədə Hərbi Sənaye Kompleksini yaratmaq üçün bir neçə vacib amil lazımdır. İlk növbədə, vəsait, ondan sonra yeni texnologiyalar lazımdır. Yeni texnologiyaları əldə etmək üçün beynəlxalq əməkdaşlıq da mütləq yüksək səviyyədə olmalıdır. Kadr hazırlığı xüsusi yer tutur. Son illər ərzində bu istiqamətlər üzrə ardıcıl fəaliyyət aparılıbdır və bu gün Azərbaycan dünya miqyasında artıq Hərbi Sənaye Kompleksinə malik olan aparıcı ölkələr sırasındadır. Bunu təsdiqləyən ölkəmizdə 2 dəfə keçirilmiş Beynəlxalq hərbi sərgilərdir. Azərbaycan da, həmçinin bütün aparıcı Beynəlxalq hərbi sərgilərdə öz məhsulu ilə iştirak edir. Bunun nəticəsində biz artıq nəinki özümüzü böyük dərəcədə təmin edirik, bizdə gözəl ixrac potensialı da yaranıbdır. 2005-ci ildə isə bu barədə ancaq fikirləşmək olardı. Bəlkə də heç təsəvvürümüzə gəlmirdi ki, nə vaxtsa Azərbaycan hərbi məhsullar da ixrac edəcək. Bu, artıq reallıqdır. İş yerləri açılır, idxaldan asılılıq azalır, yeni texnologiyalar gətirilir, sənaye potensialı güclənir və Azərbaycan Silahlı Qüvvələri daxili istehsalla təmin olunur.

Şirvan şəhəri Bakıdan sonra Cənubi Qafqaz regionunda Hərbi Sənaye Kompleksi baxımından 2-ci yerdədir. Bu, Şirvan şəhərinin inkişafına böyük dəstək verir. Son illər ərzində şəhərin inkişafı ilə bağlı çox önəmli addımlar atılıbdır. Sosial-iqtisadi məsələlər,

infrastruktur məsələləri öz həllini tapıbdır. Bir neçə il bundan əvvəl Şirvanda böyük «Cənub» Elektrik Stansiyası fəaliyyətə başlayıbdır. Onun gücü təxminən 800 meqavata yaxındır. Şirvanda böyük xəstəxana, Olimpiya Kompleksi, məktəblər, Mədəniyyət Mərkəzi, digər sosial və sənaye obyektləri fəaliyyət göstərir. Bu gün də bu istiqamətdə işlər davam etdirilir. Şirvanda qazlaşdırma 100 faiz səviyyəsindədir. İçməli su məsələləri də həllini tapır. Beləliklə, Hərbi Sənaye Kompleksinin də Şirvanda yaradılması şəhərə növbəti bir töhfədir.

Biz Silahlı Qüvvələr Günü ərəfəsində tam qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu həm biz deyirik, həm Azərbaycan ictimaiyyəti bunu görür və bilir. Aparıcı reytinq agentlikləri də bunu təsdiqləyir. Azərbaycan Ordusu 50 ən güclü ordu sırasındadır. Ordu quruculuğu daim diqqət mərkəzindədir. Büdcəmizin ən böyük xərcləri hərbi xərclərdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Son illər ərzində ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görülübdür. Həm yerli istehsal, həm də xaricdən gətirilən hərbi texnika hesabına biz bu gün təminat baxımından ən yüksək səviyyədəyik. Ən müasir silahlar, texnika, döyüş aparatları, təyyarələr, vertolyotlar, pilotsuz döyüş aparatları, artilleriya qurğuları, zirehli maşınlar, tanklar, toplar, hava hücumuna qarşı ən müasir qurğular, yəni bütün bunlar bizim hərbi gücümüzü xeyli artırıbdır. Növbəti illərdə də bu istiqamətdə ardıcıl iş aparılacaqdır. Bizim hərbi büdcəmiz kifayət qədər böyükdür. Bu məsələ bizim üçün prioritet məsələdir. Çünki bir daha demək istəyirəm ki, biz müharibə şəraitində yaşayırıq. Əgər müharibə olmasaydı, bəlkə də bu qədər vəsait bu məqsədlər üçün ayrılmazdı. Ancaq müharibə bitməyib, birinci mərhələ başa çatıbdır. Biz daim hazır olmalıyıq ki, işğal edilmiş torpaqları öz hərbi gücümüzlə azad edək.

Bununla bərabər, son illər ərzində hərbçilərin xidmət və məişət problemləri də öz həllini tapıbdır. Son illərdə bir çox hərbi bazalar, şəhərciklər istifadəyə verilibdir, hərbçilərin xidmət şəraiti xeyli yaxşılaşıbdır. Məişət şəraiti də yaxşılaşır. Hazırda qəbul edilmiş qərarlar əsasında, 20 il qüsursuz xidmət göstərmiş hərbçilərə

dövlət tərəfindən pulsuz mənzillər verilir. Hesab edirəm ki, dünya miqyasında belə hallar çox az müşahidə olunur. Bu da Azərbaycan dövlətinin həm sosial siyasətini ifadə edir, həm də dövlətin öz hərbçilərinə olan diqqətini göstərir.

Ordumuzun döyüş qabiliyyəti, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Bunu təmas xəttindəki vəziyyət əyani şəkildə təsdiqləyir. Bu gün biz təmas xəttində tam üstünlüyə malikik. Bu üstünlüyü biz əldə etmişik və bunu artırırıq. Bizim döyüş qabiliyyətimizi əks etdirən bir çox hadisələr olubdur. Onların içərisində keçənilki aprel döyüşləri xüsusi qeyd edilməlidir. Bu döyüşlər nəticəsində Ermənistanın hərbi təcavüzünün qarşısını alarkən, bizim hərbçilərimiz böyük qəhrəmanlıq göstərərək, işğalçılardan 3 rayonun bir hissəsini azad ediblər. O yerlərdə, o torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri nəticəsində bu gün biz köçkünləri öz doğma kəndinə yola salırıq. Cocuq Mərcanlı kəndi cəmi 2 ay ərzində bərpa edilib. Onun bərpasının birinci mərhələsi başa çatıb. Əlavə vəsait ayrılıbdır ki, kəndin bərpasının 2-ci mərhələsi də başa çatsın.

Aprel döyüşləri bizim şanlı qələbəmizdir, böyük uğurdur. Bir daha onu göstərir ki, bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaqdır. Cocuq Mərcanlıya bu kəndin sakinlərinin qayıtması onu göstərir ki, bizim bütün köçkünlər öz doğma şəhərlərinə, kəndlərinə qayıtmaq arzusu ilə yaşayırlar. Bu gün Cocuq Mərcanlı bizim dirçəliş, qələbə rəmzimizdir. Keçən ilin aprelində işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu da hər bir vətənpərvər Azərbaycan vətəndaşını fərəhləndirir. Yəni bizim kifayət qədər gücümüz var və Ermənistanın bütün təxribatlarına layiqli cavab veririk. Bir həftə bundan əvvəl yenə də bizə qarşı silahlı təxribat törədilib. Azərbaycan Ordusu düşmənə layiqli cavab veribdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına gəldikdə, Azərbaycan dövlətinin mövqeyi ictimaiyyətə bəllidir. Biz bu mövqeyi dəfələrlə ifadə etmişik. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn

norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Bunun başqa yolu ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb və bütün toponimlər, bütün tarixi abidələr Azərbaycan tarixini əks etdirir.

Dağlıq Qarabağ dünya ictimaiyyəti tərəfindən də Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Bütün aparıcı beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı qərar, qətnamələr qəbul ediblər ki, Ermənistan silahlı qüvvələri dərhal, qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Lakin Ermənistan buna məhəl qoymur, əməl etmir. Əfsuslar olsun ki, Ermənistana qarşı heç bir ciddi tədbir görülmür. Ermənistana qarşı çoxdan beynəlxalq sanksiyalar tətbiq olunmalı idi. Çünki bu ölkə XXI əsrdə başqa ölkənin ərazisini işğal altında saxlayır, başqa xalqa qarşı soyqırımı törədib, bütün tarixi abidələri dağıdıbdır. Cocuq Mərcanlının dağılmış mənzərəsi bunun əyani sübutudur. Bizim işğal edilmiş bütün torpaqlarda da eyni vəziyyətdir.Beynəlxalq hüquqa gəldikdə isə, beynəlxalq hüquq tarixi ədalət kimi, tamamilə bizim mövqemizi gücləndirir. Dağlıq Qarabağda keçirilmiş son qondarma «referendum» da onların – separatçıların, işğalçıların növbəti iflası, biabırçılığı idi. Çünki bu «referendum»u heç bir beynəlxalq təşkilat, qonşu ölkələr, Avropa İttifaqı, Minsk qrupunun həmsədr ölkələri tanımayıb. Yəni bu qondarma «referendum»u tanımamaqla, bütün bu ölkələr və beynəlxalq təşkilatlar bir daha təsdiq edirlər ki, Dağlıq Qarabağ Azərbaycan torpağıdır. O qondarma, separatçı xunta rejimini dünya birliyi tanımır və tanımayacaqdır. Ona görə tarixi ədalət, beynəlxalq hüquq, əlbəttə ki, bizim siyasi çəkimiz Ermənistanla müqayisəedilməz dərəcədə böyükdür. Bizim iqtisadi gücümüz Ermənistanınkından qat-qat artıqdır. Bütün bu amillər bizim mövqemizi gücləndirir. Əlbəttə, Azərbaycan dövləti öz prinsipial mövqeyini daha da gücləndirməlidir və gücləndirir. Bir daha demək istəyirəm ki, biz müharibə şəraitində yaşayırıq. Xalqımız heç vaxt bu vəziyyətlə barışmayacaq. Biz heç vaxt icazə verməyəcəyik ki, tarixi torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Son hadisələr və ölkəmizin

güclənməsi bu məsələyə nail olmaq üçün bizim imkanlarımızı artırır.

Əlbəttə, öz məqsədimizə çatmaq üçün biz daha da güclü olmalıyıq. Əfsuslar olsun ki, indiki dünyada güc amili aparıcı rol oynayır. Əlbəttə, beynəlxalq hüquq da vacibdir. Çünki bu, münaqişənin həllinin hüquqi bazasını yaradır. Ancaq güc amili əsas rol oynayır. Biz görürük ki, dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq pozulur, tapdalanır, kim onu necə istəyirsə, elə də yozur və güc amilindən istifadə edərək, reallıqda vəziyyəti dəyişmək mümkün olur. Bu bizim seçimimiz deyil, ancaq biz də real həyatda, real dünyada yaşayırıq. Məqsədimizə nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə işlər aparılır.

Azərbaycan bu il gözəl iqtisadi inkişaf templəri nümayiş etdirir, 5 ayın yekunları çox müsbətdir. Qeyri-neft sektoru 2 faizdən çox, qeyri-neft sənayemiz 4 faizə yaxın, ixrac 40 faizdən çox artıbdır. Əminəm ki, gələn il göstəricilər daha da müsbət olacaqdır. Biz öz fəaliyyətimizi düşünülmüş siyasət əsasında qurmuşuq. Daxili və xarici siyasətimiz, iqtisadi və sosial sahələrlə bağlı təşəbbüslərimiz həm beynəlxalq aləmdə, həm də xalq tərəfindən bəyənilir və dəstəklənir. Ölkəmizdə mövcud olan əmin-amanlığın, sabitliyin əsas səbəbi də budur.

Bu gün Silahlı Qüvvələr Günü ərəfəsində biz Silahlı Qüvvələrimizin inkişafı ilə bağlı önəmli hadisəni qeyd edirik. Bu gün açılan 2 sənaye müəssisəsi bizim hərbi gücümüzü daha da artıracaq və Azərbaycan quruculuq, inkişaf yolu ilə uğurla gedəcəkdir.

Bir daha sizi ürəkdən təbrik edir, bütün Silahlı Qüvvələrimizin şəxsi heyətinə yeni uğurlar, qələbələr arzulayıram.

* * *

**Y a v ə r  C a m a l o v** (*Müdafiə Sənayesi naziri*): Möhtərəm cənab Prezident!

Bu gün Sizin iştirakınızla müdafiə sənayesinin əsas mərkəzlərindən biri olan Şirvan şəhərində daha 2 yeni istehsal zavodunun açılışına toplaşmışıq. Bu, təsadüfi deyil. Hələ ötən əsrin 70–80-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə, sovet rejiminin

qadağalarına baxmayaraq, Azərbaycanda, eləcə də Şirvan şəhərində bir sıra hərbi sənaye zavodlarının yaradılması müstəqil ölkəmizin müdafiə sənayesinin inkişafı üçün baza rolunu oynayıbdır.

Lakin keçən əsrin 90-cı illərinin əvvəllərində ölkədə hakimiyyətə gələn qeyri-peşəkar və dağıdıcı qüvvələrin səriştəsizliyi, mütəşəkkil ordunun olmaması, iqtisadiyyatın iflic vəziyyətinə düşməsi, maliyyə çatışmazlığı və s. amillər respublikanı dağılmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir vəziyyətdə xalqın təkidi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı müstəqilliyini itirmək kimi təhlükədən qorudu. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və xalqın birliyinin təmin edilməsi dövlətçilik prinsiplərinin əsası kimi müəyyənləşdirildi. Ulu öndər tərəfindən iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə yanaşı, sovet dönəmində istifadəyə verilmiş hərbi sənaye müəssisələrinin də fəaliyyətlərinin bərpası istiqamətində mühüm addımlar atıldı.

Məlumdur ki, hər bir dövlətin müstəqilliyinin qorunub saxlanılmasında müvafiq atributlar mövcuddur. Onların əsaslarından biri də ordunun təminatını həyata keçirən müdafiə sənayesi sahəsidir. Bu səbəbdən də ilk növbədə, respublikada ordu quruculuğu ilə yanaşı, müdafiə sənayesinin inkişafı məqsədilə 1993-cü ildə Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsi yaradıldı. Ordumuzun hərbi-texniki bazasını gücləndirmək və bu sahədə xaricdən asılılığı azaltmaq məqsədilə 2003–2005-ci illərdə sahənin inkişafına dair Dövlət Proqramı qəbul olundu. Həmin proqramın təsdiq edilməsi ilə respublikanın hərbi sənayesinin inkişafının yeni mərhələsi başlandı.

Cənab Prezident, Siz ölkə başçısı seçildikdən sonra ümummilli lider Heydər Əliyevin ideyalarını rəhbər tutaraq, uzaqgörən siyasətinizlə apardığınız qlobal islahatlar nəticəsində iqtisadiyyatın bütün sahələrində uğurlu nəticələr əldə olundu. Bu islahatlardan biri də ordu quruculuğunun və müdafiə sənayesinin inkişafı ilə bağlı idi. Ölkəmizin müharibə vəziyyətində olmasını nəzərə alaraq, regionda və Yaxın Şərqdə ilk dəfə olaraq, Müdafiə

Sənayesi Nazirliyinin yaradılması haqqında qərar verdiniz. Yeri gəlmişkən, onu da qeyd edim ki, Müdafiə Sənayesi Nazirliyinin yaradılması özünü doğrultmaqla yanaşı, bu gün bir sıra dövlətlərdə nümunə kimi qəbul edilir.

Sizin tapşırığınızla əlaqədar nazirliyin fəaliyyətinin təşkili üçün ilkin olaraq işi tamamilə dayanmaq təhlükəsi ilə üzləşən müəssisələrin bərpasına başlanıldı. Müəssisələrin avadanlıq parkının yenilənməsi, maliyyə sabitliyi üzrə tədbirlərin görülməsi, dövlət sifarişi proqramının və digər istehsal proqnozlarının tərtibi, sosial sahələrin bərpası və sair işlər həyata keçirildi.

Cənab Prezident, ötən müddət ərzində Sizin tapşırığınız və hərtərəfli dəstəyinizlə dünyanın inkişaf etmiş aparıcı şirkətlərindən alınan ən müasir texnologiya və avadanlıqlarla təchiz olunan 58 adda istehsal sahəsi yaradılıb. Yeni yaradılan istehsal müəssisə və sahələrində, ümumilikdə, 283,5 min kvadratmetrlik tikinti və yenidənqurma işləri görülüb, 500 min kvadratmetr sahədə abadlaşdırma işləri aparılıbdır. Yaradılmış istehsal sahələrində bütün tələblərə cavab verən və insan amilini minimuma endirən rəqəmsal proqram təminatlı 25-dən çox mürəkkəb texnoloji xətt və avadanlıq dəstləri, 2200-dən çox müxtəlif təyinatlı dəzgah, minlərlə cihaz, alət və tərtibatlar alınaraq quraşdırılıbdır. Bütün bunların hesabına bu gün nazirliyin tabeliyində olan zavodların sayı artaraq, 18-dən 28-ə çatdırılıbdır.

Nazirliyin fəaliyyəti dövründə, ümumilikdə, 1 milyard 745 milyon manatdan çox məhsul istehsal edilib. Həmin məhsulların 80 faizdən çoxu müdafiə təyinatlı məhsullardır. 2007-ci illə müqayisədə 2016-cı ildə ümumi məhsul istehsalının həcmi 6,7 dəfə, müdafiə təyinatli məhsulların həcmi isə 42 dəfə artıb. Ümumilikdə istehsalı mənimsənilmiş müdafiə təyinatlı məmulatların çeşidi artaraq, 213-dən 1200-ə çatdırılıb. Ötən müddət ərzində istehsalı mənimsənilmiş məmulatlardan «Mübariz», «İstiqlal», «Yalquzaq» və sair snayper tüfənglərini, «AK-74» və NATO standartlarına uyğun avtomatları, müxtəlif növ tapançaları, minaatanları, qumbaraatanları və onların atəş yığımlarını, optik cihazları, minaları, aviasiya bombalarını, «Matador» və

«Marauder» tipli zirehli maşınları, «Gürzə», «Əqrəb» və «Bəbir» kəşfiyyat-patrul maşınlarını, «Orbiter-2M, 2B, 3B» və «Orbiter-4», «Aerostar-BP» və «Zərbə» tipli pilotsuz uçuş aparatlarını və başqalarını göstərmək olar.

Bu gün müəssisələrimiz fəaliyyətə başladığımız ilk dövrlərdən fərqli olaraq, rəqabətədavamlı, yüksək dəqiqliyə malik, elm tutumlu ən müasir silah, sursat, optik vasitələr və sair məhsullar istehsal etməklə, həm Milli Ordunun, həm də digər güc qurumlarının sifarişlərini yerinə yetirmək iqtidarındadır. Onu da qeyd edim ki, müştərək müəssisələrin yaradılması üzrə beynəlxalq əməkdaşlığa da böyük önəm verilir. Bunun əyani sübutu kimi, xarici tərəfdaşlarla birgə yaradılmış pilotsuz uçuş aparatlarının istehsalı müəssisəsini göstərmək olar.

Cənab Prezident, ötən ilin iyul müşavirəsində yeni nəsil silah növlərinin istehsalı ilə bağlı verdiyiniz tapşırıqların icrası istiqamətində məqsədyönlü işlər davam etdirilir. Belə ki, yaradılmış yeni nəsil «Zərbə KM» tipli pilotsuz uçuş aparatları uğurla sınaqdan çıxarılıb və istehsal olunaraq, sifarışçilərə təhvil verilibdir. Eləcə də həmin silahın daha təkmilləşdirilmiş modeli olan «Zərbə KH» – kumulyativ başlıqlı pilotsuz uçuş aparatının yaradılması istiqamətində intensiv işlər davam etdirilir. Azərbaycanın milli məhsulu olan «Tufan» zirehli maşını üzrə işlər də uğurla başa çatdırılıb, mütəxəssislərin iştirakı ilə təqdimatı keçirilib və seriyalı istehsalına hazırlıq işləri aparılır.

Bununla yanaşı, yüksək güclü elektromaqnit impuls şüalanma layihəsi üzrə də işlər uğurla davam etdirilir. Onu da qeyd edim ki, hazırda nazirliyin müəssisələrində peşəkar kadr potensialı formalaşıb. Vaxtilə mütəxəssislərimiz xarici təcrübənin öyrənilməsi və təlim məqsədilə bu sahədə inkişaf edən xarici ölkələrə gedirdilər. Sevindirici haldır ki, bu gün bizim təcrübənin öyrənilməsi istiqamətində bir sıra ölkələrdən ünvanımıza müraciətlər daxil olur.

Müəssisələrdə yeni istehsal sahələrinin yaradılması hesabına, ümumilikdə 2300-dən çox yeni iş yeri açılıb. Eyni zamanda,

işçilərin orta aylıq əməkhaqqı 2006-cı illə müqayisədə 5,5 dəfədən çox artaraq, respublika üzrə orta göstərici səviyyəsinə çatdırılıbdır.

Möhtərəm Prezident, Sizin tapşırığınızla Azərbaycanda istehsal olunan müdafiə təyinatlı məhsulların xarici bazarlara çıxarılması məqsədilə Müdafiə Sənayesi Nazirliyi 35-dən çox beynəlxalq sərgidə iştirak edib. Son dəfə cari ilin mayında Türkiyənin İstanbul şəhərində keçirilən «IDEF–2017» Beynəlxalq müdafiə sərgisində 260 adda müdafiə təyinatlı məmulat nümayiş etdirilib. Bu sərgidə ziyarətçilərə yeni məhsullar da təqdim olunub və böyük maraqla qarşılanıb.

Onu da qeyd edim ki, sərgilər zamanı bizim stendləri ziyarət edən xarici şirkətlərin rəhbərləri və rəsmi nümayəndə heyətləri qısa müddət ərzində bu sahədə əldə olunmuş nailiyyətlərə həsədlə baxaraq, bunun necə əldə olunduğu barədə suallar verirlər. Bizim isə onlara yalnız belə bir cavabımız olur: bizə dünyada elə bir ölkə başçısı göstərin ki, o, Müdafiə Sənayesi Nazirliyinin bütün zavodlarının və hətta istehsal sahələrinin açılışlarında iştirak etmiş olsun. Qısa müddət ərzində əldə edilmiş uğurlar bizim dövlətimizin başçısının bu sahəyə olan xüsusi diqqət və qayğısı nəticəsində mümkün olub. Bunu əks etdirən reklam çarxları göstərildikdən sonra, onlar təəccüblərini gizlətmədən həsəd hissi ilə suallarına cavab tapırdılar.

Sizin tapşırığınızla Müdafiə Sənayesi Nazirliyi xarici ölkələrdə keçirilən sərgilərdə iştirak etməklə yanaşı, 2014-cü və 2016-cı illərdə Bakıda keçirilən Beynəlxalq Müdafiə Sənayesi sərgilərinin təşkilatçısı rolunda çıxış edibdir. Belə bir nüfuzlu tədbirin regionda ilk dəfə Azərbaycanda keçirilməsi ölkəmizin regionda lider olduğunun əyani nümunəsidir. İnanırıq ki, 2018-ci ildə keçiriləcək sərgi də Bakı şəhərini hərbi-texniki əməkdaşlığın qurulması üçün beynəlxalq mərkəz kimi dünyada tanıdacaq.

Beynəlxalq müdafiə sərgilərində iştirakımız ixrac sahəsində uğurlar qazanmağa imkan verib. Sizin tapşırığınızla ixrac potensialının genişləndirilməsi və idxalın yerli istehsalla əvəzlənməsi ilə bağlı nazirlikdə məqsədyönlü işlər həyata keçirilir. Bu gün məhsullarımızdan döyüş sursatlarının, müasir atıcı və

artilleriya silahlarının, pilotsuz uçuş aparatlarının, zirehli texnikaların və sairənin ixracı həyata keçirilir. Hazırda ixrac müqavilələrinin dəyəri 101 milyon ABŞ dolları təşkil edir və bunun da 54 milyon dolları qüvvədə olan müqavilələrdir.

Göründüyü kimi, Müdafiə Sənayesi Nazirliyi Azərbaycan Silahlı Qüvvələrinin və digər güc qurumlarının müdafiə təyinatlı məmulatlara tələbatının önəmli hissəsini yerli müəssisələrin hesabına ödəməyə nail olub. Onu da qeyd edim ki, bu sahədə mövcud imkanlarımız daha da genişdir.

Bu gün Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrilib. Bunu ötən ilin aprel döyüşləri də bir daha sübut etdi. Silahlı Qüvvələrimiz tərəfindən işğalçı ölkənin ordusuna sarsıdıcı zərbələr endirilməsi nəticəsində bir sıra yaşayış məntəqələri və əhəmiyyətli yüksəkliklər azad edildi.

Möhtərəm cənab Prezident, təbii ki, nazirliyin fəaliyyəti dövründə əldə olunmuş bu uğurları dövlət dəstəyi və şəxsən Sizin diqqət və qayğınız olmadan reallaşdırmaq mümkün olmazdı. Müdafiə Sənayesi Nazirliyi Sizin ideyanızın məhsuludur. Nazirliyin kollektivi bu etimadı yüksək qiymətləndirərək, ölkənin hərbi qüdrətinin artırılması naminə daha səylə çalışacaqdır.

Cənab Ali Baş Komandan, icazə verin, Sizi qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə Müdafiə Sənayesi Nazirliyinin kollektivi adından səmimi-qəlbdən təbrik edim və əmin olduğumu bildirim ki, bütün işğal olunmuş ərazilərimiz Sizin komandanlığınız altında qısa müddətdə düşməndən azad ediləcək və viran olunmuş yaşayış məntəqələrimiz Cocuq Mərcanlı kimi, yenidən bərpa edilərək, vətəndaşlarımızın ixtiyarına veriləcəkdir. Sizi əmin edirəm ki, yeni yaradılan milli döyüş silahları işğal olunmuş ərazilərimizin azad edilməsində mühüm rol oynayacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**Zakir Həsənov** (*Müdafiə naziri, general-polkovnik*): Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti,

Silahlı Qüvvələrin Ali Baş Komandanının səyi nəticəsində sürətlə inkişaf edir və möhkəmlənir.

Sizin tapşırığınıza əsasən, Silahlı Qüvvələrin bütün qoşun növlərində həyata keçirilən genişmiqyaslı hərbi islahatlar ordunun döyüş qabiliyyətini, hərbi kadr potensialını artırıb, hərbi qulluqçuların sosial-məişət şəraitini yaxşılaşdırıbdır. İslahatlar döyüş hazırlığı, hərbi təhsil, tərbiyəvi iş, hərbi tibb və digər sahələri əhatə edir. Görülən işlər Silahlı Qüvvələri aparıcı dövlətlərin orduları səviyyəsinə qaldırıb.

Müasir texnologiyaların tətbiqi ilə qoşunlarda yaradılan avtomatlaşdırılmış komanda idarəetmə məntəqələri Silahlı Qüvvələrin bütün qoşun növlərinin dayanıqlı, operativ, gizli və fasiləsiz idarə olunmasına imkan yaradıb. Hərbi hissələrin, əsasən də cəbhə xəttindəki bölmələrin yeni növ silah, döyüş texnikası və digər hərbi vasitələrlə təchiz edilməsi onların əməliyyat imkanlarını, manevr qabiliyyətini artıraraq, düşmən üzərindəki üstünlüyü təmin edibdir.

Raket və artilleriya qoşunlarının arsenalında olan müasir raket kompleksləri və atəşi idarəetmə sistemləri qoşunların döyüş qabiliyyətini xeyli yüksəldərək, düşmənin canlı qüvvəsini, döyüş texnikasını və hərbi infrastrukturunu məhv etmək imkanlarını genişləndiribdir.

Dağıdıcı gücə və uzaq məsafədən yüksək dəqiqliklə zərbə endirmək xüsusiyyətinə malik sistemlər raket və artilleriya qoşunlarının istənilən vaxt effektiv tətbiqini mümkün edir. Hərbi Hava Qüvvələrinin döyüş tətbiqi və uçuş imkanlarının təkmilləşdirilməsi, aviabazaların infrastrukturunun və aerodrom avadanlıqlarının yenilənməsi üzrə layihələr həyata keçirilir. Zenit-raket, radiotexniki birləşmə və hissələrin müasir hava hücumundan müdafiə sistemləri ilə təchizatı hava məkanımızın etibarlı müdafiəsini, düşmənin təhlükəli aerodinamik hədəflərinin vaxtında aşkarlanaraq, məhv edilməsini təmin edir. Düşmən haqqında tam və dəqiq məlumatın əldə edilməsi, onun fəaliyyətinin daim nəzarətdə saxlanılması və izlənilməsi məqsədilə kəşfiyyat bölmələrinin lazımi vasitələrlə təchizatı həyata keçirilir.

Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə həyata keçirilən iqtisadi islahatlar nəticəsində hərbi xərclərin artması ordumuzun zirehli texnikasının, aviasiya vasitələrinin və digər hərbi təyinatlı məhsulların daim yenilənməsinə və təkmilləşdirilməsinə şərait yaradıb. Elmin son nailiyyətləri nəzərə alınmaqla və yeni texnoloji elementlərin tətbiqi ilə dünyanın aparıcı silah istehsalçıları tərəfindən hazırlanan yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik döyüş texnikası, silah, sursat və digər hərbi vasitələrin Silahlı Qüvvələrimizin təchizatına daxil edilməsi profesi davam etdirilir.

Hərbi sənayemizin inkişafı ordumuzun silah arsenalının yerli istehsal olan müasir silahlar və digər hərbi təyinatlı məhsullarla gücləndirilməsinə imkan verir. Ölkəmizdə və digər dövlətlərlə əməkdaşlıq şəraitində hazırlanan yüksək dağıdıcı gücə, dəqiqliyə malik döyüş vasitələri və sursatları qoşunlarımızın düşmən üzərində üstünlüyünü təmin edir. Güclü və müasir tələblərə cavab verən Silahlı Qüvvələrin inkişafında hərbi təhsil sisteminin müstəsna əhəmiyyəti vardır. Bu sahədə aparılan işlər qoşunlarda yüksək döyüş hazırlığının təmin edilməsinə, hərbi qulluqçuların ixtisas hazırlığının, bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib. Yeni təlim mərkəzlərinin, o cümlədən dağ hazırlığı poliqonlarının istifadəyə verilməsi şəxsi heyətin döyüş vəziyyətinə tam uyğunlaşdırılmış şəraitdə peşəkar hazırlığının yüksəldilməsinə hesablanıb. Silahlı Qüvvələrin hazırlıq planına uyğun olaraq, bütün qoşun növlərinin cəlb olunması ilə müxtəlif səviyyələrdə gecə və gündüz genişmiqyaslı döyüş atışlı təlimlər keçirilir. Bu təlimlər birlik və birləşmələrin idarə edilməsini, qarşılıqlı fəaliyyətini, əməliyyat imkanlarını və döyüş qabiliyyətini artırıbdır.

Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində son illər hərbi qulluqçular və onların ailə üzvləri müasir standartlara cavab verən 1000-dən çox xidməti və daimi mənzillə təmin olunublar. Qısa müddətdə xüsusən cəbhəboyu zonada 20-dən çox yeni hərbi şəhərcik, əsgər yataqxanaları, yeməkxanalar, hamam-camaşırxana kompleksləri, digər xidməti və inzibati binalar inşa edilib. Bu iş bu gün də davam etdirilir.

Cənab Ali Baş Komandan, xüsusi qeyd etmək istəyirəm ki, Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar 2016-cı ilin aprel ayında düşmən üzərində Azərbaycan Ordusunun qələbəsini təmin etdi. Ağır döyüşlərdə düşmən çoxlu canlı qüvvə və hərbi texnika itirdi. Ağdərə, Füzuli və Cəbrayıl istiqamətlərində strateji yüksəkliklər azad edildi. Cəbhə xəttində əməliyyat baxımından üstünlük Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Həmin dövrdə Azərbaycan Respublikası Prezidentinin və Birinci vitse-prezidentin cəbhəboyu kəndlərə səfəri, şəhid olmuş hərbi qulluqçuların ailələrinə və yaralılara göstərilən diqqət şəxsi heyət arasında böyük ruh yüksəkliyi yaratdı.

Cənab Ali Baş Komandan, Sizin yüksək diqqət və qayğınız nəticəsində ordumuzun döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı yüksəlib, təminat və təchizatı xeyli təkmilləşibdir. Sizi əmin edirəm ki, Silahlı Qüvvələr dövlətimizin və xalqımızın etimadını doğruldaraq, qarşıda duran ən əsas vəzifəni – torpaqlarımızı düşməndən azad etməyə və ərazi bütövlüyümüzü təmin etməyə qadirdir.

İcazə verin, bayram günü ərəfəsində Silahlı Qüvvələrin bütün şəxsi heyəti adından və şəxsən öz adımdan Sizi, cənab Ali Baş Komandan, təbrik edim, orduya göstərdiyiniz diqqət və qayğıya görə dərin minnətdarlığımı bildirim.

Diqqətinizə görə sağ olun.

**İ l h a m Ə l i y e v:** Silahlı Qüvvələr Günü ərəfəsində bir qrup hərbçiyə ordenlər və ali hərbi rütbələr verilib. Mən bu gün onları mükafatlandıracağam.

* * *

*Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi, hərbçilərin ordenlə təltif edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamları oxundu.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev ali hərbi rütbələrin vəsiqələrini və 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordenlərini təltif edilən hərbi qulluqçulara təqdim etdi.*

## KOSTA-RİKA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MANUEL QONZALES SANTSU İLƏ GÖRÜŞ

*23 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Kosta-Rika Respublikasının Xarici İşlər naziri Manuel Qonzales Santsunu qəbul etmişdir.*

*Xarici İşlər naziri Manuel Qonzales Santsu Kosta-Rika Respublikasının Prezidenti Luis Gilyermo Solisin salamlarını dövlətimizin başçısına çatdırdı. Bakıda keçirilən «Formula-1» yarışının əlamətdar idman tədbiri olduğunu vurğulayan Manuel Qonzales Santsu bu yarışın Azərbaycana çoxlu sayda turistlərin gəlməsi üçün yaxşı şərait yaratdığını bildirdi. Ölkəmizə axırıncı dəfə 1 il bundan əvvəl səfər etdiyini vurğulayan qonaq ötən dövrdə Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu dedi.*

*Dövlətimizin başçısı «Formula-1» yarışının önəmini vurğulayaraq bildirdi ki, müxtəlif ölkələrdən olan xeyli sayda turistlərin bu tədbirdə iştirakı onların Bakıda gedən inkişaf proseslərini öz gözləri ilə görmələrinə imkan verir və ölkəmizdə turizmin daha da inkişaf etdirilməsi işinə xidmət edir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı, iqtisadi, ticarət, sərmayə qoyuluşu, birgə layihələrin həyata keçirilməsi, turizm və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Kosta-Rika Respublikasının Prezidenti Luis Gilyermo Solisin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kosta-Rika Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

# GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ ALEKSANDR JEJELAVA İLƏ GÖRÜŞ

*23 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Gürcüstan Respublikasının Baş nazirinin müavini, Təhsil və Elm naziri Aleksandr Jejelavanı qəbul etmişdir.*

*Aleksandr Jejelava ADA Universitetində olduqlarını və bu təhsil ocağının onlarda böyük təəssürat yaratdığını vurğulayaraq, Bakı Ali Neft Məktəbinin də fəaliyyətinin maraq doğurduğunu bildirdi. Qonaq Azərbaycan ilə Gürcüstan arasında təhsil sahəsində əməkdaşlığın ikitərəfli əlaqələrimizin bütün digər sahələrdə mövcud olan səviyyəsinə çatdırılması üçün birgə səylərin həyata keçirilməsinin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev ADA Universitetində, Bakı Ali Neft Məktəbində və o cümlədən ölkəmizdəki digər təhsil müəssisələrində yüksək səviyyədə təhsil sisteminin yaradılması ilə bağlı işlərin görüldüyünü qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında təhsil sahəsində ikitərəfli birgə layihələrin həyata keçirilməsinin zəruriliyini vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığın perspektivləri, o cümlədən tələbə–təhsil mübadiləsi və digər məsələlər ətrafında müzakirələr aparıldı.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş partlayışlar nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz dinc insanlara qarşı yönəlmiş bu amansız terror əməllərindən hədsiz dərəcədə hiddətlənir, dəhşətli bir bəlaya çevrilmiş terrorizmin bütün təzahürlərinə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasını vacib hesab edirik.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2017-ci il*

## FRANSADA «AZƏRBAYCANIN DOSTLARI» ASSOSİASİYASININ PREZİDENTİ JAN-FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Fransa Respublikası Milli Assambleyasının sabiq üzvü, Fransada «Azərbaycanın Dostları» Assosiasiyasının prezidenti Jan-Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Jan-Fransua Manselin ölkəmizə səfərinin Fransa–Azərbaycan əlaqələri haqqında bir daha danışmaq üçün yaxşı fürsət yaratdığını diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycan həqiqətlərini Fransa ictimaiyyətinə, o cümlədən Fransanın siyasi dairələrinə çatdırdığına və Fransa–Azərbaycan əlaqələrinin inkişafında oynadığı çox böyük rola görə Jan-Fransua Mansela təşəkkür etdi. Dövlətimizin başçısı Fransa parlamentini təmsil edən nümayəndə heyətlərinin ölkəmizə müntəzəm səfərlərinin önəmini qeyd etdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafında özünün Fransaya builki rəsmi səfərinin xüsusi yer tutduğunu vurğulayan prezident İlham Əliyev səfərin yüksək səviyyədə keçdiyini və çox uğurlu olduğunu, Fransa–Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı çox səmimi söhbət aparıldığını qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin gələcəkdə də uğurlu olacağına əminliyini ifadə etdi.*

*Fransa Respublikası Milli Assambleyasının sabiq üzvü, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti*

*Jan-Fransua Mansel ölkəmizə səfər etməsindən və prezident İlham Əliyev ilə yenidən görüşməsindən şərəf duyduğunu bildirdi. Jan-Fransua Mansel Fransa Senatı nümayəndələrinin ölkələrimiz arasında əlaqələrin inkişafına öz töhfələrini vermələri istiqamətində səylərini əsirgəməyəcəklərini qeyd etdi və bu məqsədlə həyata keçirəcəkləri layihələr və fəaliyyət planları barədə dövlətimizin başçısına məlumat verdi.*

## RUSİYA FEDERASİYASININ «ZAVTRA» QƏZETİNİN BAŞ REDAKTORU ALEKSANDR PROXANOV İLƏ GÖRÜŞ

*25 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Rusiya Federasiyasının «Zavtra» qəzetinin baş redaktoru, yazıçı Aleksandr Proxanovu qəbul etmişdir.*

*Ulu öndər Heydər Əliyev ilə görüşlərini dərin ehtiramla xatırladan Aleksandr Proxanov ümummilli liderlə söhbətlərin çox maraqlı keçdiyini bildirdi. Qonaq Azərbaycana gəlişindən məmnunluq hissi keçirdiyini qeyd edərək, regionlarımıza səfər etdiyini və ölkəmizdəki inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı.*

*Prezident İlham Əliyev Rusiyanın «Zavtra» qəzetinin baş redaktoru, yazıçı Aleksandr Proxanovun Azərbaycana səfərinin səmərəli və maraqlı olacağına ümidvar olduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Humanitar sahədə əməkdaşlığımızın genişləndirilməsində Azərbaycan və Rusiya ziyalılarının əlaqələrinin rolu vurğulandı, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## PAYTAXTIN YUSİF SƏFƏROV KÜÇƏSİNƏ PARALEL SALINMIŞ YENİ YOLUN AÇILIŞI MƏRASİMİ

*25 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Bakıda Yusif Səfərov küçəsinə paralel salınmış yeni yolun açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına yeni yolun texniki göstəriciləri barədə məlumat verdi.*

*Bildirildi ki, 3 hərəkət zolaqlı yolun inşası zamanı layihəyə uyğun olaraq, yolboyu maneələr sökülüb, kommunikasiya xətləri köçürülüb. Piyadaların təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yolun hər 2 tərəfində səkilər salınıb, müasir işıqlandırma dirəkləri qoyulub. Layihə çərçivəsində burada avtobus dayanacağı da quraşdırılıb. Bütün işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə, eyni zamanda, qısa vaxtda yerinə yetirilibdir.*

*Xatırladaq ki, prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin I rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında da dövlətimizin başçısı tıxacların aradan qaldırılmasında yeni yolun əhəmiyyətini vurğulayıb. Bu layihənin icrası yeni yolların salınması ilə bağlı prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlərdən biridir. Eyni zamanda, bu cür tədbirlər paytaxtımızın yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, Bakı şəhərində tıxacların aradan qaldırılması baxımından da çox önəmlidir. Belə ki, yeni yol avtonəqliyyat vasitələrinin birbaşa Yusif Səfərov küçəsinə daxil olmadan, Heydər Əliyev prospektindən Kövkəb Səfərəliyeva küçəsinə, oradan da Dilarə Əliyeva küçəsi ilə şəhərin mərkəzinə doğru*

*hərəkət etməsinə əlverişli imkan yaradır. Həmçinin Heydər Əliyev prospektindən gələn sürücülər Yusif Səfərov küçəsinə daxil olmadan, metronun 28 May stansiyası və Heydər Əliyev sarayı istiqamətinə rahat hərəkət edəcəklər. Beləliklə, bu yolun istifadəyə verilməsi Yusif Səfərov küçəsində tıxacların yaranmasının qarşısını alacaqdır.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## «FORMULA-1»İN RƏHBƏR ŞƏXSLƏRİ İLƏ GÖRÜŞ

*25 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də «Formula-1»in sədri və icraçı direktoru Çeyz Kerini, «Formula-1» Motorsportun direktoru Rous Braunu və «Formula-1»in kommersiya və marketinq üzrə direktoru Şon Bratçesi qəbul etmişdir.*

*«Formula-1» yarışlarının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı diqqətə çatdırdı ki, keçənilki yarışlardan sonra ölkəmizdə turizm sahəsində 25 faiz artım olub. Prezident İlham Əliyev Bakıda «Formula-1» yarışlarının şəhər halqası trekində keçirilməsinin paytaxtımızın daha da yaxından tanınmasına imkan yaratdığını bildirdi. Dövlətimizin başçısı yarışların dünyada böyük sayda tamaşaçı auditoriyası tərəfindən izlənildiyini vurğuladı.*

*Bakıda olmaqdan məmnunluğunu ifadə edən və zəngin təəssüratlarının olduğunu deyən «Formula-1»in sədri və icraçı direktoru Çeyz Keri paytaxtımızın çox gözəl və möhtəşəm şəhər olduğunu bildirdi. O, şəhəri gəzməkdən və Bakının gözəl mənzərəsini seyr etməkdən məmnunluğunu ifadə etdi. Çeyz Keri yarışlar üçün Bakıda çox gözəl şəraitin yaradıldığını xüsusi vurğuladı.*

## RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ KOZAK İLƏ GÖRÜŞ

*25 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Kozakı qəbul etmişdir.*

*Görüşdə paytaxtımızda təşkil olunan «Formula-1» yarışlarının beynəlxalq səviyyədə böyük maraq doğurduğu bildirildi və bu yarışların çox yüksək səviyyədə təşkil edildiyi vurğulandı. Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Kozak Bakıda keçirilən «Formula-1» yarışlarında ilk dəfə olduğunu qeyd edərək, şəhərdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı.*

*Söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edildi, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## «VTB BANK»IN PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*25 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də «VTB Bank»ın prezidenti, İdarə Heyətinin sədri Andrey Kostini qəbul etmişdir.*

*Görüşdə Bakıda yüksək səviyyədə təşkil edilən «Formula-1» yarışlarının dünya səviyyəsində əhəmiyyəti qeyd olundu.*

*Söhbət zamanı «VTB Bank»ın uzun illər Azərbaycanda səmərəli fəaliyyət göstərdiyi bildirildi, ölkələrimiz arasında bank əməkdaşlığı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «FORMULA-1» AZƏRBAYCAN QRAN-PRİSİNİN AÇILIŞI MƏRASİMİNƏ VƏ FİNAL YARIŞINA BAXIŞ

*25 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri iyunun 25-də «Formula-1» üzrə dünya çempionatının 8-ci mərhələsinin – Azərbaycan Qran-prisinin açılışı mərasiminə və final yarışına baxmışlar.*

*Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri – «Formula-1» Azərbaycan Qran-prisi iyunun 25-də uğurla başa çatdı. Odlar yurdunun paytaxtı Bakı öz tarixində növbəti dəfə mötəbər beynəlxalq idman yarışına ev sahibliyi etdi. Növbəti dəfə bütün dünyanın idman nəbzi Bakıda – Şərq ilə Qərbin koloritinin cəmləşdiyi bu nadir şəhərdə döyündü.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yarışın paytaxtın Azadlıq meydanındakı idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldular.*

*Bildirildi ki, böyük ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, «Formula-1» rəhbərliyinin ofisləri, eləcə də iştirakçıların hər biri üçün dayanacaqlar tikilib. Burada Paddok klubun üzvləri üçün də yerlər nəzərdə tutulub. Paddok klubun üzvləri burada «pit-stop» əməliyyatlarını rahatlıqla izləyirlər. Məhz bu ərazidə yarışın startı və finişi yerləşir.*

*«Formula-1» Azərbaycan Qran-prisinin paytaxtın Azadlıq meydanında keçirilən möhtəşəm açılışı mərasimi maraqlı anları ilə yadda qaldı. Milli mədəniyyətimizi «Formula-1» dəyərləri ilə birləşdirən açılış mərasimi bir çox milli rəmzlərin vəhdətini yaratmaqla, yüzlərlə könüllü, azərbaycanlı sənətçilər, milli qruplar və beynəlxalq ifaçılardan ibarət heyət tərəfindən təqdim*

*edildi. Dünyada yarım milyard tamaşaçı auditoriyası olan «Formula-1»in Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirdi. I Avropa oyunları və IV İslam Həmrəyliyi oyunlarından sonra «Formula-1» kimi mühüm yarışın Bakıda keçirilməsi Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar Azərbaycanın dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır.*

*Teatrlaşdırılmış səhnələrlə müşayiət olunan açılış mərasimində Azərbaycan mədəniyyətinin incə koloriti, milli rəqslərimiz və ən əsası da xalqımızın əsrlərdən bəri qoruyub saxladığı simvollar dünya tamaşaçılarına canlı yayımda nümayiş etdirildi. Beynəlxalq idman aləmi müstəqillik yolunda uğurla addımlayan Azərbaycanı bir daha tanıdı. Qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmizin güclü potensialı dünyaya bir daha nümayiş etdirildi. Dünya qarşıya qoyulan hər bir məqsədin, hər bir niyyətin sürətli inkişafı ilə örnək olan Azərbaycanda necə uğurla reallaşmasına şahidlik etdi.*

*Sonra Azərbaycan Respublikasının Dövlət himni ifa olundu.*

*Daha sonra «Formula-1» Azərbaycan Qran-prisinin final mərhələsinə start verildi.*

*Hər birində 2 pilot olmaqla, komandaların bir gün əvvəl keçirilən sıralama yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə «Mercedes»in pilotları Luis Hamilton və Valtteri Bottas dayandılar. Onlar müvafiq olaraq, ilk 2 pillədə qərarlaşdılar. İlk üçlüyü «Ferrari»nin pilotu Kimi Raykkonen tamamladı. Beləliklə, pilotlar qalib adı uğrunda mübarizəyə başladılar. Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Pilotlar 20 çətin döngəsi olan trekdə 51 dövrə vurdular. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trek Bakının tarixi məkanlarından, dəniz sahilindən keçməklə, azarkeşlərdə xoş ovqat yaratdı. Yarışları 30 mindən çox tamaşaçının izləməsi üçün tras boyunca hər cür şərait*

*yaradılmışdı. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edirdi. Bakıda «Formula-1» Azərbaycan Qran-prisinə iyunun 23-də start verilib. Yarışın birinci günündə pilotlar Bakı şəhər halqasında 2 sərbəst yürüşdə güclərini sınadılar. İlk sərbəst yürüşdə «Red Bull Racing» komandasının pilotu Maks Ferstappen 1-ci oldu. Pilot 1 dəqiqə 44,410 saniyəlik nəticə ilə bütün rəqiblərini qabaqladı. «Formula-1» Azərbaycan Qran-prisi çərçivəsində Bakıda «Formula-2» yarışları da keçirildi.*

*İyunun 24-də «Formula-1» azarkeşləri Azərbaycan Qran-prisinin 2-ci günündə də maraqlı idman mübarizəsinin şahidi oldular. Bu turdan sonra «Formula-1» Azərbaycan Qran-prisinin start düzülüşü müəyyənləşdi.*

*«Formula-1» Azərbaycan Qran-prisinin qalibi «Red Bull Racing» komandasının üzvü Daniel Rikkiardo oldu. Pilot məsafəni 2 saat 3 dəqiqə 55 saniyəyə qət etdi. 2-ci yerə «Mercedes» komandasının üzvü Valtteri Bottas çıxdı. 3-cü yerdə «Williams» komandasının pilotu kanadalı Lans Strol qərarlaşdı. Konstruktorlar kubokunun sahibi isə «Red Bull Racing» komandası oldu.*

*Qalibin şərəfinə Avstriyanın və Avstraliyanın Dövlət himnləri səsləndirildi.*

*Sonra qaliblərə mükafatlar təqdim olundu.*

*«Formula-1» Azərbaycan Qran-prisinin çempionu Daniel Rikkiardoya kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim etdi. Konstruktorlar kubokunu «Red Bull Racing» komandasının nümayəndəsinə isə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva təqdim etdi.*

*İkinci yerin sahibi «Mercedes»in pilotu Valtteri Bottasa kuboku Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov, 3-cü yeri tutan «Williams»ın sürücüsü Lans Strola isə mükafatı Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim etdilər.*

*Bununla da «Formula-1» üzrə dünya çempionatının 8-ci mərhələsi – Azərbaycan Qran-prisi başa çatdı.*

*Qeyd edək ki, «Formula-1» Azərbaycan Qran-prisi dünyada böyük maraq doğurub. Almaniyalı Herman Tilke tərəfindən layihələndirilən şəhər trası nadirliyi ilə seçilir. Ona görə ki, Monte-Karlo, Melburn, Monako və Sinqapur kimi, Azərbaycan Qran-prisi də şəhər trasına ev sahibliyi edir. Belə ki, Bakıda keçirilən yarış zamanı avtomobillər Dənizkənarı bulvar boyunca və şəhərin ən qədim hissəsi olan, YUNESKO-nun dünya irsi siyahısına daxil edilən İçərişəhər Tarix-Memarlıq Qoruğunun ətrafında dövr edirlər. Beləliklə, yarışı izləyən televiziya tamaşaçıları və qonaqlar Azərbaycan paytaxtının tam simasını görmək imkanı qazanırlar.*

*Beləliklə, bu il keçirilən 8 Qran-prinin üçündə qalib gələn «Ferrari»nin almaniyalı pilotu Sebastian Vettel 153 xalla çempionata liderlik edir. «Mercedes»in britaniyalı pilotu Luis Hamilton 139 xalla 2-ci, onun komanda yoldaşı, finlandiyalı Valtteri Bottas isə 111 xalla 3-cü sırada qərarlaşıblar. Bakı Qran-prisinin qalibi, «Red Bull Racing» komandasının avstraliyalı pilotu Daniel Rikkiardo isə 92 xalla 4-cü sıradadır.*

*«Formula-1» birnəfərlik, açıq təkərli avtomobil yarışları üzrə dünya çempionatıdır. Bu yarışlar 1950-ci ildən etibarən müntəzəm olaraq keçirilir. Qeyri-rəsmi olaraq, «Formula-1»də sürücüləri pilot, avtomobillər isə «bolid» adlandırılır. «Formula-1» yarışları Beynəlxalq Avtomobil Federasiyasının müəyyən etdiyi qaydalara əsasən təşkil olunur. Yarışlar il ərzində müxtəlif ölkələrdə keçirilən mərhələlərdən ibarət olur. Hər mərhələyə Qran-pri adı verilir. İlin sonunda bütün Qran-prilərdən toplanan xalların əsasında pilotlar və komandalar arasında qalib müəyyənləşdirilir və mükafatlandırılır. «Formula-1» yarışları dünyada ən çox tamaşaçı auditoriyasına sahib olan yarışlardan biridir. 1950-ci ildə keçirilən ilk yarışda kuboku «Alfa Romeo» komandası və onun italiyalı pilotu Cüzeppe Farina qazanıb. Ən çox çempion adına «Ferrari» komandasının əfsanəvi alman pilotu Mixael Şumaxer sahib olub. O, «Formula-1» yarışlarında 7 dəfə çempion olub.*

## POLŞA RESPUBLİKASINA RƏSMİ SƏFƏR

*26 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Polşa Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Polşanın Dövlət bayraqlarının dalğalandığı Varşavanın «Okeçie» hərbi aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyevi Polşanın yüksəkvəzifəli dövlət və hökumət rəsmiləri qarşıladılar.*

## «NAMƏLUM ƏSGƏR» ABİDƏSİNİ ZİYARƏT

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Varşavada «Naməlum əsgər» abidəsini ziyarət etmişdir.*

*Abidənin qarşısında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə abidənin yerləşdiyi əraziyə gəldi.*

*Azərbaycanın və Polşanın Dövlət himnləri səsləndirildi.*

*Dövlətimizin başçısı «Əbədi məşəl»in önünə əklil qoydu, Xatirə kitabına ürək sözlərini yazdı.*

*Süvari dəstəsi hərbi marşın sədaları altında dövlətimizin başçısının qarşısından keçdi.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 27-də Varşavada rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Polşa Prezidentinin sarayına gəldi.*

*Azərbaycanın və Polşanın Dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Polşa prezidenti Andjey Duda Azərbaycan prezidenti İlham Əliyevi qarşıladı.*

*Polşanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə prezident Andjey Dudaya təqdim olundu.*

*Azərbaycanın və Polşanın Dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev Polşa əsgərlərini salamladı.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin önündən keçdilər.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev Polşada akkreditə olunan diplomatik korpusun təmsilçiləri və Varşava Şəhər Şurasının üzvləri ilə görüşdü.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ ANDJEY DUDA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın iyunun 27-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra təkbətək görüşü keçirilmişdir.*

*Görüşdə Azərbaycan ilə Polşa arasında əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu. Azərbaycan prezidenti İlham Əliyevin Polşaya rəsmi səfərinin münasibətlərimizin inkişafı baxımından önəmi xüsusi vurğulandı.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.*

*Görüşdə prezident İlham Əliyev və prezident Andjey Duda qarşılıqlı olaraq hədiyyələr təqdim etdilər.*

**GENİŞ TƏRKİBDƏ GÖRÜŞ**

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın iyunun 27-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə Polşa Prezidenti ölkələrimiz arasında siyasi sahədə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, qarşılıqlı ticarət dövriyyəsinin daha da artırılmasının vacibliyini qeyd etdi. İqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirən prezident Andjey Duda imkanların araşdırılması baxımından Azərbaycan–Polşa biznes-forumunun və imzalanan sənədlərin əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafında yeni mərhələnin başlanmasına təkan verəcəyini qeyd edən prezident Andjey Duda bildirdi ki, Polşa Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında həll olunmasını dəstəkləyir.*

*Prezident İlham Əliyev Azərbaycan–Polşa siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu bildirdi, bu səfərin ikitərəfli münasibətlərin perspektivlərinin müzakirəsi və ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların yaratdığını vurğuladı. Bu baxımdan Azərbaycan–Polşa biznes-forumunun əhəmiyyətini qeyd etdi. Söhbət zamanı, həmçinin nəqliyyat, dəmir yolu, energetika, infrastruktur, kənd təsərrüfatı, maşınqayırma, turizm, ərzaq, tikinti, əczaçılıq sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Varşava*

*27 iyun 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın iştirakı ilə iyunun 27-də geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*Prezident İlham Əliyev və prezident Andjey Duda «Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə»ni imzaladılar.*

*«2005-ci il martın 30-da Varşava şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Sazişdə dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında Protokol»u Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Polşanın Müdafiə nazirinin müavini Tomaş Ştatlovski imzaladılar.*

*«Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Polşa Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Polşanın Energetika nazirinin müavini Mixal Kurtika imzaladılar.*

*«Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Polşa Respublikasının İnfrastruktur və Tikinti Nazirliyi və Dəniz İqtisadiyyatı və Daxili Naviqasiya Nazirliyi arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu*

*Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə ilə Polşanın İnfrastruktur və Tikinti naziri Andjey Adamçek və Dəniz İqtisadiyyatı və Daxili Naviqasiya naziri Marek Qrubarçek imzaladılar.*

*«Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Bakı Ali Neft Məktəbi ilə AGH Elm və Texnologiya Universiteti arasında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti Elşad Nəsirov və Polşanın Elm və Texnologiya Universitetinin prorektoru Yeje Lis imzaladılar.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə «Polşa Dövlət Dəmir Yolları» Səhmdar Cəmiyyəti arasında dəmir yolları sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və «Polşa Dövlət Dəmir Yolları» Səhmdar Cəmiyyətinin baş icraçı direktoru Kşiştof Maminski imzaladılar.*

## QEYDLƏR

**1. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 5, 14–17, 29, 282.

**2. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 5, 22–24, 49, 51, 282.

**3. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə

aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 15, 22, 24,29, 33–34, 37, 43, 45, 54, 56, 57–69, 72, 74, 78, 79, 82, 83–85, 104, 105, 105, 138–149, 154 165, 182, 187, 245, 251, 273.

**4. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 6, 8, 10, 24,31–32,40, 52, 254, 282, 289.

**5. Qafqaz Albaniyası kilsəsi** – Şəki rayonunun Kiş kəndi ərazisində yerləşir. Nəinki Qafqaz Albaniyasının, hətta bütün Cənubi Qafqazın bu ilk xristian kilsəsinin tikildiyi yer bir çox tədqiqatçıların fikrincə, məhz indiki Şəki rayonunun Kiş kəndidir və həmin səbəbdən də indi Şəkinin Kiş kəndindəki kilsə

«Müqəddəs Yelisey kilsəsi» adı ilə tanınmaqdadır. Kişdə arxeoloji tədqiqatlardan sonra belə qərara gəlinmişdir ki, bu məbəd həqiqətən də Albaniya maarifçisi Müqəddəs Yelisey tərəfindən tikilmiş, Şərq kilsələrinin anası və metropoliya olmuş, Kişdə hələ xristian-lıqdan öncə Qafqaz Albaniyasında Gis-Kürmük arxiyepiskopluğu, sonra isə Yelisey, Çiketi və Şəki yepiskoplarının mərkəzi yerləşmişdir. – 6.

**6. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 6, 47, 48.

**7.** «**Atəşgah**» – Suraxanı qəsəbəsində atəşpərəstlər məbədi. Beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzlə örtülən dördbucaqlı «od məbədindən» ibarətdir. «Atəşgah»ın əsası şübhəsiz ki, qədim zamanlarda qoyulmuşdur. Lakin indiki binanı XVIII əsrdə Hindistanın Multan vilayətindən gələn atəşpərəst tacir və zəvvarlar tikdirmişlər. Hücrələrin üzərindəki hind dilində yazılmış kitabələrdə 1713-cü ildə tikildiyi göstərilir. – 7.

**8. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 8, 40, 47–52, 64, 85–87, 170, 231.

**9. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 11, 12, 23, 40, 49, 50, 64, 172, 232, 245.

**10. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir. (Böyük Britaniya hökuməti artıq qurumdan çıxmaq üzrədir).

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 12, 50, 172, 198, 199, 256.

**11. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 12, 48, 66, 122, 174, 192, 194, 195, 196, 199, 204–205, 212.

**12. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 13, 66.

**13. İrina Bokova** (d.1952) – Bolqarıstanın siyasi, ictimai xadimi, diplomat. 2009-cu ildən YUNESKO-nun baş direktorudur. – 14–17, 29.

**14. Mali,** M a l i  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1240 min $km^2$, əhalisi 16 milyon nəfərdir. İnzibati ərazisi 8 vilayətə və Bamako rayonuna bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Bamako şəhəridir. – 14, 27–28, 81.

**15. İbrahim Boubakar Keyta** (d.1945) – Malinin siyasi xadimi. 2013-cü ildən Mali Respublikasının Prezidentidir. – 14, 22, 25, 27–28.

**16**. **Antonio Quterreş** (d.1949) – Portuqaliya siyasətçisi. 1992–2002-ci illərdə Portuqaliya Sosialist Partiyasının Baş katibi, 1995–2002-ci illərdə Portuqaliyanın Baş naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının baş katibi, 2005–2015-ci illərdə BMT-nin qaçqınlar üzrə ali komissarı olmuşdur. 2017-ci ildən BMT-nin Baş katibidir. – 18.

**17. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də Ermənistan silahlı qüvvələrinin tapdağı altındadır. – 23, 40, 49, 59, 60, 64, 135, 170, 171, 172, 231, 232, 235.

**18. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 22, 56, 57, 69.

**19. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min $km^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 23, 81, 211.

**20. Türkiyə,** Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 35–36, 50, 82, 106, 132–133, 142, 161, 202, 203, 212, 213.

**21. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 35, 36, 132–133.

**22. Rəfiqə Əliyeva,** R ə f i q ə Ə l i r z a q ı z ı (1932–2017) – kimya elmləri doktoru, professor, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi. Bakı Dövlət Universitetinin «Analitik kimya» kafedrasının professoru, «Ekoloji kimya və ətraf mühitin mühafizəsi» elmi-tədqiqat laboratoriyasının rəhbəri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 37–39, 42.

**23. Akif Əlizadə,** A k i f A ğ a m e h d i o ğ l u (d.1934) – görkəmli geoloq-alim. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının sədri, Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 37.

**24. Dilqəm Tağıyev,** D i l q ə m B ə b i r o ğ l u (d.1950) – kimyaçı-alim. Kimya elmləri doktoru, professor. AMEA-nın vitse-prezidenti, akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktorudur. – 38.

**25. Vaqif Fərzəliyev,** V a q i f M ə c i d o ğ l u (d.1939) – kimyaçı-alim. Kimya elmləri doktoru, professor. AMEA-nın akademiki. Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutunun direktorudur. – 38.

**26. İsa Həbibbəyli,** İ s a Ə k b ə r o ğ l u (d.1949) – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, filologiya elmləri doktoru, AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru, professor, Əməkdar elm xadimi. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Milli Məclisin Elm və Təhsil Məsələləri daimi Komitəsinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 38–39.

**27. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanun-

verici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 40–41, 201, 265, 291.

**28. Emmanuel Makron** (d.1977) – Fransanın dövlət və siyasi xadimi. 2017-ci ildən Fransa Respublikasının Prezidentidir. «İrəli, Respublika» siyasi partiyasının yaradıcısı və birinci lideridir. – 40–41.

**29. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 40, 64, 172, 264–265.

**30. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak

edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 43–45, 190.

**31. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 44, 53–69, 119–124, 163, 191, 192, 239, 242, 243, 245, 259, 269, 273, 279.

**32. Həzi Aslanov,** H ə z i Ə h ə d o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı. İkinci dünya müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən Həzi Aslanov Stalinqrad vuruşmasında feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə Həzi Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. 1945-ci il yanvarın 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 45.

**33. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 45, 54.

**34. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 45, 54.

**35. Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Həkimə xanım və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdir. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 47.

**36. İmamzadə piri,** İ m a m z a d ə t ü r b ə s i, G ö y i m a m – Gəncədə orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bagirin oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-leytenant İsrafil bəy Yadi-

garzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir («Göy imam» adı da bununla əlaqədardır). – 47.

**37. Fələstin Dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min $km^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir – 49, 51, 233.

**38. Qüds –** Dünyanın ən qədim şəhərlərindən biri. Ərazisi 125,1 $km^2$, əhalisi 901 min nəfərdir. Müsəlman, yəhudi və xristianların «müqəddəs şəhəri» adlanır. Qüds haqqında ilk məlumat e.ə. II minilliyin ortalarına aiddir. Qüds müxtəlif vaxtlarda müxtəlif dövlətlərin hakimiyyəti altında olmuşdur. 1920–47-ci illərdə İngiltərənin Fələstin mandatlıq ərazisinin inzibati mərkəzi idi. 1947-ci ildən isə BMT-nin idarəsi altında xüsusi rejimli müstəqil inzibati vahid oldu. 1948–49-cu illər Ərəb–İsrail müharibəsindən sonra Qüds iki hissəyə bölündü: qərb hissəsi İsrailə, şərq hissəsi isə İordaniyaya verildi. 1950-ci ilin yanvarında İsrail qeyri-qanuni olaraq, Qüdsün qərb hissəsini dövlətin paytaxtı elan etdi. 1967-ci ildə İsrail Qüdsün şərq hissəsini də işğal etdi. Qüds qədim müsəlman, yəhudi və xristian abidələri ilə zəngindir. – 51, 234.

**39. Luvr Muzeyi** – Parisdə memarlıq abidəsi. Adı vaxtilə burada Fransa krallarının ovçu qəsrinin yerləşdiyi «Canavar»

meşəsinin adından götürülmüşdür. Əvvəllər kral sarayı olmuş, sonradan dünyanın ən böyük bədii muzeylərindən birinə çevrilmişdir. 1791-ci ildə inqilabi Konventin dekreti ilə Luvr milli bədii muzeyə çevrilmiş və 1793-cü ildə kütləvi baxış üçün açılmışdır. Ekspozisiyasının əsasını keçmiş kral kolleksiyası, həmçinin bir sıra monastır, kilsə və kübar ailələrin milliləşdirilmiş kolleksiyaları təşkil etmişdir. Kolleksiyası Napoleon yürüşlərinin qənimətləri, müxtəlif ölkələrdən satınalınma, eləcə də hədiyyələr hesabına daim artmışdır. Luvrda 20 mindən artıq boyakarlıq və heykəltəraşlıq əsəri var. Muzey 6 şöbədən ibarətdir: Qədim Şərq, Qədim Misir, Qədim Yunanıstan və Qədim Roma, heykəltəraşlıq, boyakarlıq və rəsm, dekorativ-tətbiqi sənət. Qədim Şərq şöbəsində nadir incəsənət nümunələri, o cümlədən Azərbaycanın zərgərlik (Ziviyədən tapılmış qızıl əşyalar, e.ə. VIII əsr) və metal məmulatları (bürünc dolça, 1190, müəllifi Osman ibn Salman Naxçıvani) saxlanılır. Luvrda Fransa incəsənəti daha geniş təmsil olunub. Burada dünya şöhrəti qazanmış bir sıra əsər («Samofrakiyalı Nika», e.ə. II əsrin sonu; «Miloslu Afrodita», e.ə. II əsr; Mikelancelo, Leonardo da Vinçi, Rafael, Rembrandt və b.-nın tabloları) mühafizə edilir. – 51.

**40. Zərifə xanım Əliyeva,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O,

Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 54, 270.

**41. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 54.

**42. Tamerlan Əliyev,** T a m e r l a n  Ə z i z  o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 54.

**43. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu

institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 56.

**44. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 58, 106, 161, 224.

**45. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 65, 242, 284.

**46. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 65, 239–251, 284.

**47. Füzuli rayonu** (1959-cuilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 65, 239, 242, 284.

**48. Bakı–Tbilisi–Ərzurum** –qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 66, 294.

**49. Nəriman Həsənzadə** – N ə r i m a n Ə l i m ə m m ə d o ğ l u (d.1931) – Xalq şairi, filologiya elmləri doktoru. Azərbaycan

Respublikasının Əməkdar incəsənət xadimi. Nəriman Nərimanova həsr edilmiş «Nəriman» poeması, XII əsr Azərbaycan həyatından bəhs edən «Atabəylər» mənzum dramının müəllifidir. «Ədəbiyyat və incəsənət» qəzetinin baş redaktoru olmuşdur. Hazırda Azərbaycan Milli Aviasiya Akademiyasında kafedra müdiridir. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 67–68.

**50. Vasim Məmmədəliyev,** V a s i m M ə m m ə d ə l i o ğ l u (d.1942) – filoloq, ilahiyyatçı. Filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın həqiqi üzvü. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 68–69.

**51. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 70–71, 81, 142.

**52. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır, kvalifikasiyalı dalğıc, paraşütçü və pilotdur. – 71.

**53. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 75, 82, 128–131, 142, 155, 170, 185–186, 192.

**54. Salman bin Əbdüləziz Al Səud** (d.1935) – 2015-ci ildən Səudiyyə Ərəbistanının Kralıdır. – 75, 129, 185, 186.

**55. Azad Rəhimov,** A z a d A r i f o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 78, 139.

**56. Müslüm Maqomayev,** M ü s l ü m M ə h ə m m ə d o ğ- l u (1942–2008) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 82.

**57. Namiq Abdullayev,** N a m i q Y a d u l l a o ğ l u (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya oyunlarında gümüş, 2000-ci il Sidney Olimpiya oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 82.

**58. Elnur Məmmədli,** E l n u r Ç i n g i z o ğ l u (d.1988) – 2006-cı ildə cüdo üzrə Avropa çempionu, 2007-ci ildə dünya çempionatının gümüş mükafatçısı, 2008-ci il Pekin Olimpiya oyunlarında isə 73 kq çəki dərəcəsində olimpiya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 82.

**59. Fərhad Bədəlbəyli,** F ə r h a d Ş ə m s i o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. Beynəlxalq müsabiqələr laureatı. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoq, Azərbaycan Respublikası Musiqi Xa-

dimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 88, 92.

**60. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 102–103, 106, 129–131, 161, 187, 195, 197–198, 204–205, 265.

**61. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 119, 120, 124, 181, 187, 200, 201, 208, 217.

**62. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 119, 208, 212.

**63.** «**Azəri–Çıraq–Günəşli**» – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 123, 181, 192, 201, 216.

**64. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 125, 145, 221.

**65. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 125.

**66. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat. 2017-ci ildən ABŞ-ın 45-ci prezidentidir. – 130, 170, 197, 204, 205.

**67. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 134, 136–137, 142.

**68. Misir,** M i s i r Ə r ə b R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon km$^2$, əhalisi 97 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 142, 177.

**69. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır.

Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 135, 161, 201, 261, 267–268.

**70. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 150, 187, 195, 220, 223.

**71. Tereza Mey** (d.1956) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2016-cı ildən Böyük Britaniyanın Baş naziridir. – 150, 220.

**72. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 158, 212, 213, 218, 226–227.

**73. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013–2018-ci illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. – 158.

**74. Nepal,** Nepal Federativ Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 140,8 min km$^2$, əhalisi 30,5 milyon nəfərdir. İnzibati cəhətdən 14 zonaya bölünür. Paytaxtı Katmandu şəhəridir. – 159.

**75. Bidhya Devi Bhandari** (d.1961) – Nepalın dövlət xadimi. 2015-ci ildən Nepal Respublikasının Prezidentidir. – 159.

**76. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş

müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 162–175.

**77. Bjezinski Zbiqnev** (1928–2017) – Amerikanın siyasi və dövlət xadimi, politoloq. 1977–81-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri, 1981-ci ildən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri, 1987–91-ci illərdə ABŞ prezidentinin Xarici kəşfiyyat üzrə müşavirlər Komitəsinin üzvü, 1989-cu ildən Con Hopkins universitetinin Dərinləşdirilmiş Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri olmuşdur. Amerika–Azərbaycan Ticarət Palatasının fəxri müşaviri idi. – 176.

**78. Əbdülfəttah əs-Sisi** (d.1954) – Misirin siyasi və hərbi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 177.

**79. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 180, 187, 213, 260.

**80. Sercio Mattarella** – (d.1941) – 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. – 180.

**81. Statoyl** – Norveç şirkəti, 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 181, 202.

**82. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 195, 198–200, 289.

**83. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin

1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 206–207, 237–238, 254.

**84. Məhəmməd Qani,** Ə ş r ə f  Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 211.

**85. Danimarka,** D a n i m a r k a  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 43,1 min km$^2$, əhalisi 5,7 milyon nəfərdir. İnzibati ərazisi 14 amta bölünür. Danimarka konstitusiyalı monarxiyadır. Hökumət başçısı kraliça, qanunverici orqanı birpalatalı Folketinqdir. Paytaxtı Kopenhagen şəhəridir. – 218.

**86. II Marqret** (d.1940) – 1972-ci ildən Danimarka Krallığının Kraliçası. Kral IX Frederikin qızıdır. – 218.

**87. İsveç,** İ s v e ç  K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholm şəhəridir. – 219.

**88. XVI Karl Qustav** (d.1946) – 1973-cü ildən İsveç kralı. O həmçinin «Ümumdünya təbiət fondu»nun prezidentidir. – 219.

**89. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 18 mahala və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 222.

**90. Marselo Rebelo de Susa** (d.1948) – Portuqaliya siyasətçisi. Sabiq nazir və parlamentin üzvü, 2016-cı ildən Portuqaliya Respublikasının Prezidentidir. – 222.

**91. II Elizabet** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 223.

**92. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 224.

**93. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə kənd Ermənistan silahlı qüvvələri tərəfindən işğal edimişdir. 1994-cü ilin əvvəlində kənd Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cocuq Mərcanlı cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma kəndlərinə qayıtmışlar. – 232, 239–251, 273, 284.

**94. Sergey Lebedev** (d.1948) – Rusiyanın dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 237–238.

**95. Nəcməddin Sadıkov** (d.1956) – Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, Müdafiə nazirinin birinci müavini, general-polkovnik. Azərbaycan Respublikasının «Rəşadət» ordeni ilə təltif edilmişdir. – 247.

**96. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Horadiz 6 ay sonra Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. – 239, 241, 242.

**97. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 247.

**98. Mayis Barxudarov,** M a y i s Ş ü k ü r o ğ l u (d.1976) – hərbi qulluqçu, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin general-mayoru. Dağlıq Qarabağ müharibəsinin və 2016-cı il aprel döyüşlərinin iştirakçısıdır. – 247.

**99. Fidan Qasımova,** F i d a n Ə k r ə m q ı z ı (d.1947) – Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı, Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 259–260.

**100. Xuraman Qasımova,** X u r a m a n Ə k r ə m q ı z ı (d.1951) – Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976–2006-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Bir sıra kinofilmlərə çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 259–260.

**101. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 261.

**102. Helmut Kol** (1930–2017) –Almaniyanın görkəmli siyasi və dövlət xadimi. 1973–98-ci illərdə Xristian-Demokratlar İttifaqının sədri, 1982–98-ci illərdə isə AFR-in Federal Kansleri olmuşdur. Onun

ən böyük xidməti ikiyə bölünmüş Almaniyanın birləşdirilməsi olmuşdur. – 261, 267–268.

**103. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h -ş ü k ü r H ü m m ə t o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 269–273.

**104. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab edir və insanlarda yol verilmiş xataların oruc tutmaqla, bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs Ramazan ayında nazil olmuşdur. – 270.

**105. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min $km^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 296–299.

**106. İqor Dodon** (d.1975) – Moldovanın dövlət və siyasi xadimi. 2016-cı ildən Moldova Respublikasının Prezidentidir. – 296–299.

**107. Cibuti,** C i b u t i R e s p u b l i k a s ı – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 23,2 min $km^2$, əhalisi 818 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Cibuti şəhəridir. – 142.

**108. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 187, 341–347.

## Şəxsi adlar göstəricisi

**Abbasov İslam** – 117
**Abakarova Patimat** – 113
**II Abdullah** – 71
**Abdullayev Namiq** – 82
**Abdullayev Rövnəq** – 119, 208, 212
**Abdullayev Tamerlan** – 116
**Abıyeva Fəridə** – 94
**Ağayev Rafael** – 82, 94
**Ağayeva Tünzalə** – 142, 149
**Al Səud Məhəmməd** – 292
**Al Səud Salman** – 75, 129, 185, 186
**Aleksandr** *(ata)* – 274–275
**Allister Devid** – 135
**Alıyev Rəşad** – 248–249
**Allen Samuel** – 252–253
**Andropov Yuri** – 58
**Anri** *(Lüksemburq hersoqu)* – 266
**Aslanov Həzi** – 45
**Avcı Nəbi** – 35–36
**Babayeva Səbinə** – 149
**Barxudarov Mayis** – 247
**Baxer Lars** – 181
**Belisi Leonardo** – 260
**Beneş Emiliya** – 176
**Bədəlbəyli Fərhad** – 88, 92
**Bhandari Bidhya** – 159
**Bin Əbdüləziz Abdullah** – 139
**Bokova İrina** – 14–17, 29
**Bjezinski Zbiqnev** – 176
**Bulavin Vladimir** – 238

**Camal Nigar** – 142, 149
**Couns Qari** – 212
**Çunqonq Martin** – 254
**Dodon İqor** – 296–299
**Danniqan Robin** – 197–198, 204–205
**De Vilpen Dominik** – 291
**De Susa Marselo** – 222
**Draqoni Qabriella** – 24–25, 31–32
**Duterte Rodriqo** – 225
**II Elizabet** – 223
**Eynşteyn Albert** – 19
**Əl-Nasser Nassir** – 17–18
**Əbdül Rəhim Nasir** – 233–235
**Əl-Osaymin Yusif** – 21–22, 76, 85–87
**Əl-Nasser Faisal** – 138–149
**Əs-Sübhan Tamir** – 185–186
**Əl-Taravneh Atef** – 70–71
**Əl-Tüveycri Əbdüləziz** – 22–24
**Əl-Nəhəyyan Abdullah** – 136–137
**Əl-Nəhəyyan Məhəmməd** – 134
**Əliyev Heydər** – 44, 53–69, 119–124, 163, 191, 192, 239, 242, 243, 245, 259, 269, 273, 279
**Əliyev Əziz** – 54
**Əliyev Natiq** – 226, 228
**Əliyev Tamerlan** – 54
**Əliyeva Leyla** – 56
**Əliyeva Mehriban** – 5, 15, 22, 24,29, 33–34, 37, 43, 45, 54, 56, 57–69, 72, 74, 78, 79, 82, 83–85, 104, 105, 105, 138–149, 154 165, 182, 187, 245, 251, 273
**Əliyeva Rəfiqə** – 37–39, 42
**Əliyeva Zərifə xanım** – 54, 270
**Əliyeva Nuranə** – 95

**Əlizadə Akif** – 37
**Ərdoğan Rəcəb Tayyib** – 35, 36, 132–133
**Əs-Sisi Əbdülfəttah** – 177
**Əsədov Sənan** – 248
**Əsədov Oqtay** – 45, 54
**Əzizova Nəzakət** – 97
**Fekete Vladimir** – 277–278
**Fərzəliyev Firdovsi** – 94
**Fərzəliyev Vaqif** – 38
**Fransisk** *(Roma Papası)* – 277
**Hüseynov Nazim** – 82
**Han Yohannes** – 256–257
**V Harald** – 99
**Həbibbəyli İsa** – 38–39
**Həsənov Zakir** – 247
**Həsənzadə Nəriman** – 67–68
**Həziyev Oqtay** – 241, 244–245
**Hoqland Riçard** – 265
**Honlayn Malkolm** – 102–103
**Hüseynzadə Çingiz** – 101
**Xələfova Fəxriyyə** – 39
**İotova İliana** – 33–34
**II İliya** – 272
**XVI Karl Qustav** – 219
**Keyta İbrahim** – 14, 22, 25, 27–28
**Kindsqrab Mixael** – 267–268
**Kiril** *(patriarx)* – 272
**Kol Helmut** – 261, 267–268
**Kommasit Salımsay** – 262–263
**Kumar Aşiş** – 207
**Qarayev Qara** – 92
**Qaxaria Giorgi** – 226–227
**Qasımova Fidan** – 258–259
**Qasımova Xuraman** – 258–259
**Qasımov Eldar** – 149

**Qasımova İlahə** – 94
**Qani Məhəmməd** – 211
**Qurbanlı Aişə** – 96
**Qrabar-Kitaroviç Kolinda** – 293
**Quterreş Antonio** – 18
**Lebedev Sergey** – 237–235
**Lubetkin Mario** – 25–26
**Linden Rene** – 111–112
**Makron Emmanuel** – 40
**Maqomayev Müslüm** – 82
**Mansurov Fərid** – 82
**Mansurov Eldar** – 80
**II Marqret** – 218
**Marqvelaşvili Giorgi** – 158
**Mattarella Sercio** – 180
**Meftahətdinova Zemfira** – 82
**Mehdixanlı Nurəddin** – 88
**Mehdiyev Ramiz** – 45, 54
**Merkel Angela** – 261
**Mey Tereza** – 150, 220
**Məcidov Məmmədrəsul** – 115
**Məmmədli Elnur** – 82
**Məmmədov Saleh** – 72, 182
**Məmmədəliyev Vasim** – 68–69
**Məmmədov Fikrət** – 286
**Miri Yusif** – 149
**Mun Ce-in** – 46
**Nyusi Filipe** – 295
**Olqin Mariya** – 258
**Özdən Kamuran** – 148
**Pahor Borut** – 294
**Paşazadə Hacı Allahşükür** – 269–273
**Popov İqor** – 265
**Predan Sezar** – 236
**Putin Vladimir** – 224

**Radev Rumen** – 229, 230
**Rasizadə Artur** – 45, 54
**Rəhimov Azad** – 78, 139
**Rəhimli Səmra** – 149
**Pifai Taleb** – 18–21, 30
**Ruhani Həsən** – 125, 221
**Sadıkov Nəcməddin** – 247
**Saetre Eldar** – 181
**Şennak Stefan** – 236
**Şevçoviç Maroş** – 198–200
**Tağıyev Dilqəm** – 38
**Tağızadə Ayxan** – 113
**Teşome Mulatu** – 160
**Tramp Donald** – 130, 170, 197, 204, 205
**Uqvu Katrin** – 79
**Vəliyev Azad** – 144
**Vəliyev Rauf** – 208
**Viskonti Stefan** – 265
**Voraçit Bunnyanq** – 262, 263
**Vud Endryu** – 188–189
**Yaşar Baxış** – 142
**Yevdayev Milix** – 275

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 191
**Adriatik dənizi** – 66
**Ağdam** – 232
**Ağdərə** – 65, 242, 284
**Afina** – 82
**Afrika** – 51
**Albaniya** – 81, 142, 213
**Almaniya** – 135, 161, 201, 261, 267–268
**Amerika Birləşmiş Ştatları** – 102–103, 106, 129–131, 161, 187, 195, 197–198, 204–205, 265
**Aralıq dənizi** – 66
**Asiya** – 120, 207
**Avropa** – 9, 10, 12, 51, 84, 195, 213
**Avstraliya** – 89
**Avrasiya** – 178
**Avstriya** – 161
**Banqladeş** – 81, 142
**Barselona** – 82
**Belarus** – 44, 104, 187
**Belçika** – 187
**Benin** – 81, 142
**Berlin** – 161
**Bibiheybət** – 190, 212
**Binəqədi** – 286
**Bəhreyn** – 81, 142
**Birləşmiş Ərəb Əmirlikləri** – 134, 136–137, 142
**Bolqarıstan** – 33–34, 213, 229–230
**Brest** – 44

**Bruney** – 81, 142
**Böyük Britaniya** – 150, 187, 195, 220, 223
**Burkina-Faso** – 81,142
**Brüssel** – 256
**Cəbrayıl** – 65, 239–251, 284
**Cənubi Avropa** – 12
**Cibuti** – 81, 142
**Cocuq Mərcanlı** – 232, 239–251, 273, 284
**Çad** – 81, 142
**Çexoslovakiya** – 44
**Çin** – 104, 187
**Dağlıq Qarabağ** – 23, 40, 49, 59, 60, 64, 135, 170, 171, 172, 231, 232, 235
**Danimarka** – 218
**Efiopiya** – 160
**Əfqanıstan** – 23, 81, 211
**Əl-Minya** – 177
**Əlcəzair** – 81
**Ər-Riyad** – 128–131
**Fələstin** – 49, 51, 233
**Filippin** – 89, 225
**Fransa** – 40–41, 201, 265, 291
**Füzuli** – 65, 239, 242, 284
**Florensiya** – 260
**Gürcüstan** – 104, 158, 212, 213, 218, 226–227
**Horadiz** – 239, 241, 242
**Xəzər dənizi** – 66, 84, 119, 123, 176, 178, 190, 201, 212, 214
**Xocalı** – 50
**Xorvatiya** – 293
**İndoneziya** – 155
**İordaniya** – 70–71, 81, 142
**İraq** – 23, 81
**İran** – 125, 142, 221

**İspaniya** – 187
**İtaliya** – 180, 187, 213, 260
**İsveç** – 219
**İsveçrə** – 161
**Kamerun** – 142
**Kəşmir** – 49
**Kiyev** – 44
**Kolumbiya** – 258
**Koreya Respublikası** – 46
**Qabon** – 81, 142
**Qax** – 108
**Qambiya** – 81, 142
**Qara dəniz** – 66
**Qazaxıstan** – 81, 142, 187
**Qəbələ** – 286
**Qətər** – 81, 142
**Qırgızıstan** – 81, 142
**Qüds** – 51, 234
**Qvineya** – 81, 142
**Laos** – 262–263
**Leninqrad** – 44
**Lələtəpə** – 242, 244, 273
**Livan** – 81, 142
**London** – 220
**Lüksemburq** – 266
**Macarıstan** – 104
**Malayziya** – 81
**Maldiv** – 81, 142
**Mançester** – 150
**Masallı** – 286
**Mali** – 14, 27–28, 81
**Masazır** – 251
**Mavritaniya** – 81, 142
**Meksika** – 258
**Məkkə** – 270

**Mərakeş** – 81, 142
**Mərkəzi Avropa** – 12
**Misir** – 24, 142, 177
**Moskva** – 44, 58, 60
**Moldova** – 296–299
**Mozambik** – 82, 142, 295
**Naxçıvan** – 61, 62, 245
**Nepal** – 159
**Niderland** – 104, 111–112, 187
**Niger** – 82, 142
**Nigeriya** – 82, 142
**Norveç** – 99, 202
**Odessa** – 44
**Oman** – 82, 142
**Özbəkistan** – 82, 142
**Pakistan** – 50, 82, 142
**Pekin** – 82
**Peru** – 258
**Pirallahı** – 72–73, 74
**Polşa** – 44, 187
**Portuqaliya** – 222
**Pribaltika** – 44
**Ramana** – 251
**Rumıniya** – 187
**Rusiya** – 58, 106, 161, 224
**Sakit okean** – 207
**Səudiyyə Ərəbistanı** – 50, 75, 82, 142, 155, 170, 185–186, 292
**Sidney** – 82
**Simferopol** – 44
**Sloveniya** – 294
**Somali** – 24, 82, 142
**Suriya** – 24, 82, 142
**Stalinqrad** – 44
**Şri-Lanka** – 104

**Şuşa** – 232, 250
**Tacikistan** – 82, 142
**Tehran** – 221
**Tərtər** – 251

**Türkiyə** – 35–36, 50, 82, 106, 132–133, 142, 161, 202, 203, 212, 213
**Türkmənistan** – 82, 142
**Vatikan** – 51
**Yaxın Şərq** – 49
**Yaponiya** – 187
**Yuqoslaviya** – 44
**Yunanıstan** – 213
**Zaqatala** – 108, 286

# MÜNDƏRİCAT

IV ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNUN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*5 may 2017-ci il*..........................................................................................5

MALİ RESPUBLİKASININ PREZİDENTİ İBRAHİM BOUBAKAR KEYTA İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*........................................................................................27

YUNESKO-nun BAŞ DİREKTORU İRİNA BOKOVA İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*........................................................................................29

DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALEB RİFAİ İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*........................................................................................30

AVROPA ŞURASI BAŞ KATİBİNİN MÜAVİNİ QABRİELLA BATTAİNİ DRAQONİ İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*........................................................................................31

BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ İLİANA İOTOVA İLƏ GÖRÜŞ

*5 may 2017-ci il*........................................................................................33

TÜRKİYƏ RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ NƏBİ AVCININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 may 2017-ci il*........................................................................................35

AKADEMİK RƏFİQƏ ƏLİYEVA İLƏ VİDA MƏRASİMİNDƏ İŞTİRAK

*7 may 2017-ci il*..........................................................................................*37*
FRANSA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMMANUEL MAKRONA

*8 may 2017-ci il*..........................................................................................*40*

GÖRKƏMLİ ALİM, AKADEMİK RƏFİQƏ ƏLİYEVANIN HÜZR MƏRASİMİNDƏ İŞTİRAK

*8 may 2017-ci il*..........................................................................................*41*

9 MAY – QƏLƏBƏ GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDA KEÇİRİLƏN TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*9 may 2017-ci il*..........................................................................................*43*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MUN CE-İNƏ

*10 may 2017-ci il*........................................................................................*46*

«OIC JOURNAL»INDA «İSLAM HƏMRƏYLİYİNİN GÜCLƏNDİRİLMƏSİ ZAMANIN ÇAĞIRIŞIDIR» ADLI MƏQALƏ

*10 may 2017-ci il*........................................................................................*47*

FƏXRİ XİYABANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*10 may 2017-ci il*........................................................................................*53*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ KAMPANİYASINDA İŞTİRAK

*10 may 2017-ci il*........................................................................................*55*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 94-cü İLDÖNÜMÜNƏ VƏ HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİNİN 13 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*10 may 2017-ci il*.........................................................................................*57*
İORDANİYA HAŞİMİLƏR KRALLIĞI PARLAMENTİNİN NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ ATEF YUSİF SALEH ƏL-TARAVNEHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 may 2017-ci il*.........................................................................................*70*

PİRALLAHI RAYONUNDA YENİ KÖRPÜNÜN AÇILIŞI MƏRASİMİ

*11 may 2017-ci il*.........................................................................................*72*

PİRALLAHI QƏSƏBƏSİNDƏ SƏMƏD VURĞUN KÜÇƏSİNİN TƏMİRDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*11 may 2017-ci il*.........................................................................................*74*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ KÖRFƏZ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ TAMER ƏL-SABHAN İLƏ GÖRÜŞ

*11 may 2017-ci il*.........................................................................................*75*

IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*13 may 2017-ci il*.........................................................................................*76*

«BAKI–2017» IV İSLAM HƏMRƏYLİYİ OYUNLARINDA KARATE ÜZRƏ YARIŞLARIN QALİBLƏRİNƏ MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*13 may 2017-ci il*.........................................................................................*94*

IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ CÜDO ÜZRƏ YARIŞLARINDA QALİB İDMANÇILARIMIZA MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*13 may 2017-ci il*.........................................................................................*96*

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*15 may 2017-ci il*.......................................................................................99
IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ CÜDO ÜZRƏ KOMANDA YARIŞLARININ FİNAL MƏRHƏLƏSİNƏ BAXIŞ

*15 may 2017-ci il*.....................................................................................100

ƏSAS AMERİKA YƏHUDİ TƏŞKİLATLARININ PREZİDENTLƏRİ KONFRANSININ İCRAÇI SƏDR MÜAVİNİ MALKOLM HONLAYN İLƏ GÖRÜŞ

*16 may 2017-ci il*.....................................................................................102

XXIII AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ XI AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*17 may 2017-ci il*.....................................................................................104

NİDERLAND KRALLIĞI SENATININ SABİQ SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*17 may 2017-ci il*.....................................................................................111

İSLAMİADADA 50-ci QIZIL MEDALI İDMANÇIMIZA TƏQDİMETMƏ MƏRASİMİ

*17 may 2017-ci il*.....................................................................................113

İSLAMİADADA BOKS YARIŞLARININ FİNAL GÖRÜŞÜNƏ BAXIŞ

*18 may 2017-ci il*.....................................................................................115

İSLAMİADANIN YUNAN-ROMA GÜLƏŞİ YARIŞLARININ FİNAL MƏRHƏLƏSİNƏ BAXIŞ

*18 may 2017-ci il*.....................................................................................117

HEYDƏR ƏLİYEV ADINA YARIMDALMA QAZMA QURĞUSUNUN AÇILIŞI MƏRASİMİ

*18 may 2017-ci il*.....................................................................................119

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*20 may 2017-ci il*.......................................................................................*125*

İSLAMİADADA SƏRBƏST GÜLƏŞ ÜZRƏ YARIŞLARIN
İKİNCİ GÜNÜNDƏ QALİB PƏHLƏVANLARIMIZA
MEDALLARIN TƏQDİMETMƏ MƏRASİMİ

*20 may 2017-ci il*.......................................................................................*126*

SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏR

*20 may 2017-ci il*.......................................................................................*128*

ƏRƏB–İSLAM–AMERİKA SAMMİTİNDƏ İŞTİRAK

*21 may 2017-ci il*.......................................................................................*129*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*21 may 2017-ci il*.......................................................................................*132*

ƏBU-DABİNİN VƏLİƏHDİ, BİRLƏŞMİŞ ƏRƏB
ƏMİRLİKLƏRİ SİLAHLI QÜVVƏLƏRİNİN ALİ BAŞ
KOMANDANININ MÜAVİNİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD
ƏL-NƏHƏYYAN İLƏ GÖRÜŞ

*21 may 2017-ci il*.......................................................................................*134*

AVROPA PARLAMENTİNİN DEPUTATI DEVİD
MAKALLİSTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2017-ci il*.......................................................................................*135*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR VƏ
BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ
ŞEYX ABDULLAH BİN ZAİD ƏL-NƏHƏYYANIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 may 2017-ci il*..........................................................................*136*

IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ TƏNTƏNƏLİ BAĞLANIŞI MƏRASİMİ

*22 may 2017-ci il*..........................................................................*138*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ XANIM TEREZA MEYƏ

*23 may 2017-ci il*..........................................................................*150*

IV İSLAM HƏMRƏYLİYİ OYUNLARININ QALİB İDMANÇILARI, ONLARIN MƏŞQÇİLƏRİ VƏ İDMAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*23 may 2017-ci il*..........................................................................*151*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ

*24 may 2017-ci il*..........................................................................*158*

NEPAL FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ XANIM BİDHYA DEVİ BHANDARİYƏ

*25 may 2017-ci il*..........................................................................*159*

EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MULATU TEŞOMEYƏ

*25 may 2017-ci il*..........................................................................*160*

«BAKI ÜRƏK GÜNLƏRİ» V BEYNƏLXALQ KONQRESİNİN İŞTİRAKÇILARINA

*26 may 2017-ci il*..........................................................................*161*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*26 may 2017-ci il*..........................................................................*163*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*26 may 2017-ci il*..........................................................................*165*

XANIM EMİLİYA BENEŞƏ

*27 may 2017-ci il*..........................................................................*176*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*27 may 2017-ci il*..........................................................................*177*

XXIV BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2017» SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*29 may 2017-ci il*..........................................................................*178*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*30 may 2017-ci il*..........................................................................*180*

STATOYL ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ LARS KRİSTİAN BAXERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 may 2017-ci il*..........................................................................*181*

BAKININ YASAMAL RAYONUNDA YENİ TİKİLƏN YOLLARIN AÇILIŞI MƏRASİMİ

*30 may 2017-ci il*..........................................................................*182*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT NAZİRİ TAMİR BİN SÜBHAN ƏS-SÜBHAN İLƏ GÖRÜŞ

*30 may 2017-ci il* .........................................................................*185*

XXIV BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2017» SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİ

*31 may 2017-ci il..........................................................................................187*

ABŞ DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ ROBİN DANNİQAN İLƏ GÖRÜŞ

*31 may 2017-ci il .........................................................................................204*

STATİSTİKLƏRİN SUBREGİONAL SEMİNARINDA VƏ MDB STATİSTİKA XİDMƏTLƏRİ RƏHBƏRLƏRİ ŞURASININ İCLASINDA İŞTİRAK EDƏN YÜKSƏK SƏVİYYƏLİ RƏSMİ QONAQLARLA GÖRÜŞ

*31 may 2017-ci il..........................................................................................206*

«QUBADLI» VƏ «CƏBRAYIL» GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*31 may 2017-ci il..........................................................................................208*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*1 iyun 2017-ci il...........................................................................................211*

«ŞAHDƏNİZ MƏRHƏLƏ-2» ÜÇÜN İNŞA OLUNAN İKİ PLATFORMADAN BİRİNİN ÜST TİKİLİLƏRİNİN DƏNİZƏ YOLASALMA MƏRASİMİ

*1 iyun 2017-ci il...........................................................................................212*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

*2 iyun 2017-ci il...........................................................................................218*

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*3 iyun 2017-ci il...........................................................................................219*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ XANIM TEREZA MEYƏ

*4 iyun 2017-ci il*.........................................................................................*220*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*7 iyun 2017-ci il*.........................................................................................*221*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MARSELO REBELO DE SUSAYA

*7 iyun 2017-ci il*.........................................................................................*222*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*7 iyun 2017-ci il*.........................................................................................*223*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*9 iyun 2017-ci il*.........................................................................................*224*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RODRİQO DUTERTEYƏ

*9 iyun 2017-ci il*.........................................................................................*225*

GÜRCÜSTAN RESPUBLİKASININ İQTİSADİYYAT VƏ DAVAMLI İNKİŞAF NAZİRİ GİORGİ QAXARİA İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*.......................................................................................*226*

MƏRHUM ENERGETİKA NAZİRİ NATİQ ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*13 iyun 2017-ci il*.......................................................................................*228*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ PROKURORU
SOTİR TSATSAROVUN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*.........................................................................................*229*

MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ
VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ
İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*.........................................................................................*231*

AŞPA MONİTORİNQ KOMİTƏSİNİN HƏMMƏRUZƏÇİLƏRİ
İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il* .........................................................................................*236*

MDB ÜZV DÖVLƏTLƏRİNİN BAKIDA SƏFƏRDƏ OLAN
GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*13 iyun 2017-ci il*.........................................................................................*237*

COCUQ MƏRCANLI KƏNDİNƏ SƏFƏR

*14 iyun  2017-ci il*.......................................................................................*239*

«JOHN DEERE» ŞİRKƏTİNİN SƏDRİ VƏ  BAŞ İCRAÇI
DİREKTORU SAMUEL ALLEN İLƏ GÖRÜŞ

*15 iyun 2017-ci il*.........................................................................................*252*

PARLAMENTLƏRARASI İTTİFAQIN BAŞ KATİBİ MARTİN
ÇUNQONQ İLƏ GÖRÜŞ

*15 iyun 2017-ci il*.........................................................................................*254*

GÖRKƏMLİ ALİM, AKADEMİK RƏFİQƏ ƏLİYEVANIN
QIRX MƏRASİMİNDƏ İŞTİRAK

*15 iyun 2017-ci il*.........................................................................................*255*

AVROPA İTTİFAQI KOMİSSARI YOHANNES HANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 iyun 2017-ci il............................................................................256*

KOLUMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MARİYA ANXELA OLQİN İLƏ GÖRÜŞ

*16 iyun 2017-ci il............................................................................258*

GÖRKƏMLİ OPERA MÜĞƏNNİLƏRİ FİDAN VƏ XURAMAN QASIMOVALAR İLƏ GÖRÜŞ

*16 iyun 2017-ci il............................................................................259*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ

*17 iyun 2017-ci il............................................................................261*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SALIMSAY KOMMASİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 iyun 2017-ci il............................................................................262*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*19 iyun 2017-ci il............................................................................264*

LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ

*20 iyun 2017-ci il............................................................................266*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ SABİQ FEDERAL KANSLERİ HELMUT KOLUN VƏFATI İLƏ ƏLAQƏDAR BAŞSAĞLIĞI

*20 iyun 2017-ci il............................................................................267*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*20 iyun 2017-ci il*...........................................................................*269*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ NİTQ

*20 iyun 2017-ci il*...........................................................................*279*

NƏRİMANOV RAYON MƏHKƏMƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*21 iyun 2017-ci il*...........................................................................*286*

FRANSA RESPUBLİKASININ SABİQ BAŞ NAZİRİ DOMİNİK DE VİLPEN İLƏ GÖRÜŞ

*21 iyun 2017-ci il*...........................................................................*291*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL-SƏUDA

*22 iyun 2017-ci il*...........................................................................*292*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ

*22 iyun 2017-ci il*...........................................................................*293*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA

*22 iyun 2017-ci il*...........................................................................*294*

MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİPE JASİNTO NYUSİYƏ

*22 iyun 2017-ci il*...........................................................................*295*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
İQOR DODONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 iyun 2017-ci il*..........................................................................*296*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
İQOR DODON İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*22 iyun 2017-ci il*..........................................................................*297*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*22 iyun 2017-ci il*..........................................................................*298*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
İQOR DODON İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA
ÇIXIŞLAR

*22 iyun 2017-ci il* ..........................................................................*300*

CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR QELLEYƏ

*23 iyun 2017-ci il*..........................................................................*304*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*23 iyun 2017-ci il*..........................................................................*305*

ŞİRVAN ŞƏHƏRİNƏ SƏFƏR

*23 iyun 2017-ci il*..........................................................................*307*

KOSTA-RİKA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
MANUEL QONZALES SANTSU İLƏ GÖRÜŞ

*23 iyun 2017-ci il*..........................................................................*326*

GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ
ALEKSANDR JEJELAVA İLƏ GÖRÜŞ

*23 iyun 2017-ci il*..........................................................................*327*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*24 iyun 2017-ci il..........................................................................328*

FRANSADA AZƏRBAYCANIN DOSTLARI ASSOSİASİYASININ PREZİDENTİ JAN-FRANSUA MANSELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 iyun 2017-ci il..........................................................................329*

RUSİYA FEDERASİYASININ «ZAVTRA» QƏZETİNİN BAŞ REDAKTORU ALEKSANDR PROXANOV İLƏ GÖRÜŞ

*25 iyun 2017-ci il..........................................................................331*

PAYTAXTIN YUSİF SƏFƏROV KÜÇƏSİNƏ PARALEL SALINMIŞ YENİ YOLUN AÇILIŞI MƏRASİMİ

*25 iyun 2017-ci il..........................................................................332*

«FORMULA-1»İN RƏHBƏR ŞƏXSLƏRİ İLƏ GÖRÜŞ

*25 iyun 2017-ci il..........................................................................334*

RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ KOZAK İLƏ GÖRÜŞ

*25 iyun 2017-ci il..........................................................................335*

«VTB BANK»IN PREZİDENTİ, İDARƏ HEYƏTİNİN SƏDRİ ANDREY KOSTİN İLƏ GÖRÜŞ

*25 iyun 2017-ci il..........................................................................336*

«FORMULA-1» AZƏRBAYCAN QRAN-PRİSİNİN AÇILIŞI MƏRASİMİNƏ VƏ FİNAL YARIŞINA BAXIŞ

*25 iyun 2017-ci il..........................................................................337*

POLŞA RESUBLİKASINA RƏSMİ SƏFƏR

*26 iyun 2017-ci il*...........................................................................*341*

«NAMƏLUM ƏSGƏR» ABİDƏSİNİ ZİYARƏT

*27 iyun 2017-ci il*...........................................................................*342*
RƏSMİ QARŞILANMA MƏRASİMİ

*27 iyun 2017-ci il*...........................................................................*343*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ANDJEY DUDA İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*27 iyun 2017-ci il*...........................................................................*344*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*27 iyun 2017-ci il*...........................................................................*345*

SƏNƏDLƏRİN  İMZALANMASI MƏRASİMİ

*27 iyun 2017-ci il*...........................................................................*346*

QEYDLƏR ..................................................................................*348*

*Şəxsi adlar göstəricisi*.....................................................................*376*

*Coğrafi adlar göstəricisi* ...............................................................*381*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.